# Rəbb günü oxunuşları

## bayramlar



Katolik kilsəsi, Azərbaycan

ver. mar 2024

## Mündəricat

1-ci Rəbb günü Advent dövründə - A ili....7
2-ci Rəbb günü Advent dövründə - A ili....9
3-cü Rəbb günü Advent dövründə - A ili....11
4-cü Rəbb günü Advent dövründə - A ili....13
MİLAD DÖVRÜ
Milad bayramı (Milad gecəsi) (24.12.).... .16
Milad bayramı (Şəfəq Vaxtı Ayini)....18
Milad bayramı - Gündüz (25.12.)....20
Müqəddəs Ailənin Bayramı - A ili....22
Müqəddəs Ailənin Bayramı - B ili.... .24
Müqəddəs Ailənin Bayramı - C ili.... .26
Allah Anası Olan Məryəmin bayramı (01.01.)....28
Milad bayramından sonrakı 2-ci Rübb Günü....30
Epifaniya Bayramı ABC - (Rəbbin zühuru) (2-8.01.)....31
İsa Məsihin vəftiz bayramı....33
ORUC DÖVRÜ
Kül çərşənbəsi – ABC (Küllərin Təqdis Edilməsi).... .36
1-ci Rəbb günü Oruc dövründə - A ili....39
2-ci Rəbb günü Oruc dövründə - A ili.... .41
3-cü Rəbb günü Oruc dövründə - A ili.... .43
4-cü Rəbb günü Oruc dövründə - A ili.... .46
5-ci Rəbb günü Oruc dövründə - A ili.... .49
**İsa Məsihin Yerusəlimə giriş bayramı.** 6-cı Rəbb günü Oruc dövründə ......52
**İsa Məsihin Pasxa yeməyinin xatırlanması.** Müq.Cümə Axşamı (4cü gün) 74
**Rəbbimizin əzabları və ölümünün xatırlanması.** Müqəddəs Cümə Ayini. 76
**Müqəddəs Şənbə günü, Pasxa Ərəfəsi**....82
**Pasxa bayramı (Rəbb günü)**....92
2-ci Rəbb günü Pasxa dövründə - A ili....95
3-cü Rəbb günü Pasxa dövründə - A ili....97
4-cü Rəbb günü Pasxa dövründə - A ili....100
5-ci Rəbb günü Pasxa dövründə - A ili....102
6-cı Rəbb günü Pasxa dövründə - A ili....104
7-ci Rəbb günü Pasxa dövründə - A ili....106
İsa Məsihin göyə qalxması bayramı – A,B,C....108
Pentikost bayramı – ABC.... .111
Müqəddəs Üçlük bayramı - A ili.... .114
İsa Məsihin bədəni və qanı - A ili Evxaristiya bayramı....116

1-ci Rəbb günü Advent dövründə - B ili ........ 119
2-ci Rəbb günü Advent dövründə - B ili ........ 121
3-cü Rəbb günü Advent dövründə - B ili ........ 123
4-cü Rəbb günü Advent dövründə - B ili ........ 125
1-ci Rəbb günü Oruc dövründə - B ili ........ 128
2-ci Rəbb günü Oruc dövründə - B ili ........ 130
3-cü Rəbb günü Oruc dövründə - B ili ........ 132
4-cü Rəbb günü Oruc dövründə - B ili ........ 134
5-ci Rəbb günü Oruc dövründə - B ili ........ 136
2-ci Rəbb günü PASXA dövründə ........ 139
3-cü Rəbb günü PASXA dövründə - B ili ........ 141
4-cü Rəbb günü PASXA dövründə - B ili ........ 143
5-ci Rəbb günü PASXA dövründə - B ili ........ 145
6-cı Rəbb günü PASXA dövründə - B ili ........ 147
7-ci Rəbb günü PASXA dövründə - B ili ........ 149
Müqəddəs Üçlük Bayramı - B ili ........ 151
İsa Məsihin bədəni və qanı - B ili Evxaristiya bayramı ........ 153
1-ci Rəbb günü Advent dövründə - C ili ........ 156
2-ci Rəbb günü Advent dövründə - C ili ........ 158
3-cü Rəbb günü Advent dövründə - C ili ........ 160
4-cü Rəbb günü Advent dövründə - C ili ........ 162
1-ci Rəbb günü Oruc dövründə - C ili ........ 165
2-ci Rəbb günü Oruc dövründə - C ili ........ 167
3-cü Rəbb günü Oruc dövründə - C ili ........ 169
4-cü Rəbb günü Oruc dövründə - C ili ........ 171
5-ci Rəbb günü Oruc dövründə - C ili ........ 173
2-ci Rəbb günü Pasxa dövründə - C ili ........ 176
3-cü Rəbb günü Pasxa dövründə - C ili ........ 178
4-cü Rəbb günü Pasxa dövründə - C ili ........ 181
5-ci Rəbb günü Pasxa dövründə - C ili ........ 183
6-cı Rəbb günü Pasxa dövründə - C ili ........ 185
7-ci Rəbb günü Pasxa dövründə - C ili ........ 187
Müqəddəs Üçlük Bayramı - C ili ........ 189
İsa Məsihin bədəni və qanı - C ili Evxaristiya bayramı ........ 191

Bütün Müqəddəslərin Bayramı - 1. Noyabr (ABC) ........ 194

# Xristian Dini Təqviminin Əsas Nöqtələri

**ADVENT DÖVRÜ** =MİLADA HAZIRLIQ DÖVRÜ: 4 həftə davam edir

**MİLAD DÖVRÜ**: Bayramlar: Milad, Epifaniya, Məsihin Vəftizi

**ORUC DÖVRÜ** = PASXAYA HAZIRLIQ DÖVRÜ:
Kül çərşənbəsi ilə başlayır və Müqəddəs Cümə günü ilə bitir
Müqəddəs Həftə: Müq. Cümə Axşamı, Müq. Cümə və Müq. Şənbə

**PASXA DÖVRÜ:** Bayramlar: Məsih İsanın dirilişi, Məsihin yüksəlməsi, Pentekost (Müqəddəs Ruhun gəlişi)

**ADİ DÖVR**: 34 həftədən ibarətdir və Məsih İsanın Padşahlığı bayramı ilə bitir



# Advent

## A ili

# 1-ci Rəbb günü Advent dövründə - A ili

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 2, 1-5*

Son günlərdə Rəbbin evi olan dağ Dağların zirvəsində möhkəm duracaq, təpələrdən yuxarı ucalacaq. Bütün millətlər ona sarı gələcək. Çox xalqlar gəlib deyəcək: «Gəlin Rəbbin dağına, Yaqubun Allahının evinə qalxaq, qoy Rəbb bizə Öz yolunu öyrətsin, biz Onun yolu ilə gedək». Siondan Rəbbin təlimi, Yerusəlimdən Onun kəlamı yayılacaq. Millətlər arasında Rəbb hakim olacaq, çox xalqlar haqqında qərar çıxaracaq. Onlar qılınclarından kotan, nizələrindən isə dəryaz düzəldəcək. Millət millətə qarşı qılınc qaldırmayacaq, artıq dava etməyi öyrənməyəcək. Ey Yaqub nəsli, gəlin Rəbbin nurunda gəzək.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 122, 1-2. 4-5. 6-7. 8-9**
**N: Sevinclə Allahın evinə gedək!**

Mənə «Rəbbin evinə gedək» deyilərkən sevindim.
Ey Yerusəlim, sənin darvazalarından keçdim, torpağına qədəm qoydum.
İsrail üçün verilən şəhadət naminə qəbilələr, +
Rəbbin qəbilələri Rəbbin isminə şükür etmək üçün buranı ziyarət etməyə gəlirlər.
Hökm üçün burada taxtlar qurulub, bu taxtlarda Davud sülaləsi oturub.
Hamı Yerusəlim üçün sülh diləsin: «Qoy səni sevənlər dinc həyat sürsün!
Qoy qala divarlarının içində sülh olsun! Qoy saraylarındakılar dinc yaşasın!»
Yoldaşlarıma, dostlarıma görə «Səndə sülh olsun!» deyirəm.
Allahımız Rəbbin evinə görə Sənə bəxtiyarlıq diləyirəm.

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rom 13, 11-14a*

Zəmanəni, yuxudan ayılmaq vaxtınızın gəldiyini anlayaraq belə rəftar edin.
Çünki indi xilasımız iman etdiyimiz vaxtda olduğundan daha yaxındır.
Gecə keçdi, gündüz isə yaxınlaşdı, buna görə də qaranlığın əməllərini üzərimizdən ataq və nurun silahlarına bürünək. Gün işığında olduğu kimi ləyaqətlə yaşayaq, eyş-işrətə və sərxoşluğa, əxlaqsızlığa və pozğunluğa, münaqişəyə və qısqanclığa qapılmayaq. Əksinə, Rəbb İsa Məsihi geyinin və cismani təbiətinizin ehtiraslarına uymaq fikrində olmayın.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Zəb 85, 8*
Ey Rəbbim, sevgini göstər bizə və qurtulmanı bağışla bizə.
**Alleluya!**

# † İncil †

*Matta 24, 37-44*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Nuhun günləri necə idisə, Bəşər Oğlunun gəlişi də elə olacaq. Tufandan əvvəlki həmin günlərdə, Nuhun gəmiyə girdiyi günə qədər insanlar yeyib-içir, evlənir, ərə gedirdi. Tufan gəlib hamısını aparana qədər necə bixəbər idilərsə, Bəşər Oğlunun gəlişi də belə olacaq. O zaman tarladakı iki nəfərdən biri götürüləcək, o birisi isə qalacaq. Dəyirmanda dən üyüdən iki qadından biri götürüləcək, o birisi isə qalacaq. Ona görə də oyaq olun. Çünki Rəbbinizin hansı gün gələcəyini bilmirsiniz. Amma bunu bilin ki, əgər evin yiyəsi oğrunun gecə hansı saatda gələcəyini bilsəydi, oyaq qalıb evinin yarılmasına imkan verməzdi. Buna görə siz də hazır olun, çünki Bəşər Oğlu gözləmədiyiniz vaxt gələcək.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 2-ci Rəbb günü Advent dövründə - A ili

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yəş 11, 1-10*

Yesseyin kötüyündən yeni bir fidan çıxacaq, kökündən çıxan bir budaq bar verəcək. Rəbbin Ruhu, hikmət və anlayış ruhu, öyüd-nəsihət və qüdrət ruhu, bilik və Rəbb qorxusu ruhu Onun üzərində olacaq. O, Rəbb qorxusunda sevinc tapacaq. Gözlərinin gördüyü ilə hökm etməyəcək, qulağı ilə eşitdiyinə görə qərar çıxarmayacaq. Lakin O, yoxsullara haqq ilə hökm edəcək, yer üzündəki fəqirlərin işinə ədalətlə qərar çıxaracaq. Dünyanı ağzının dəyənəyi ilə vuracaq. Pis adamları ağzının nəfəsi ilə öldürəcək. O belini salehliklə qurşayacaq, sədaqəti kəmər kimi taxacaq. O gün qurdla quzu bir yerdə yaşayacaq, bəbirlə çəpiş birgə yatacaq, buzov, gənc aslan və bəslənmiş mal-qara yan-yana duracaq, onları balaca uşaq gəzdirəcək. İnəklə ayı bir yerdə otlayacaq, onların balaları bir yerdə yatacaq, şir də buğa tək saman yeyəcək. Südəmər körpə əfi ilanın yuvası üstündə oynayacaq, süddən kəsilmiş uşaq əlini gürzənin yuvasına salacaq. Müqəddəs dağımın heç bir yerində heç kimə zərər dəyməyəcək, heç bir kəs o birisini məhv etməyəcək, həqiqətən, sular dənizi necə doldurursa, dünya da Rəbbin biliyi ilə elə dolacaq. O gün Yesseyin kökü xalqlara bayraq olacaq, millətlər ona tərəf yönələcək məskunlaşdığı yer izzətlə dolacaq.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 72, 1-2. 7-8. 12-13. 17**

**N: Çünki O, imdad deyib çağıran fəqirləri,
məzlumları, köməksizləri qurtarır.**

Ey Allah, padşaha ədalət ver, Şah oğluna salehlik ver.
Qoy Sənin xalqına salehliklə, məzlumlara ədalətlə hakimlik etsin.
Bu padşahın ömrü boyu qoy salehlər çiçək açsın, +
göydə ay durduqca qoy firavanlıq artsın.
Dənizdən-dənizə qədər, Fəratdan yerin ucqarlarına qədər səltənət sürsün.
Çünki O, imdad deyib çağıran fəqirləri, məzlumları, köməksizləri qurtarır.
Yoxsula, fəqirə rəhm edir, fəqirlərin canlarını azad edir.
Qoy padşahın adı əbədi qalsın, günəşin ömrü tək adı var olsun.
Onun vasitəsilə insanlar xeyir-dua alsın, Onu bütün millətlər bəxtiyar adlandırsın!

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rom 15, 4-9*

Bundan əvvəl yazılanların hamısı bizi öyrətmək üçün yazıldı ki, dözümlə və Müqəddəs Yazıların ürək-dirəyi ilə ümidimiz olsun. Dözüm verən və ürəkləndirən Allah Məsih İsanın istəyinə uyğun olaraq sizə həmfikirlilik bəxş etsin ki, hamınız birlikdə və bir səslə Rəbbimiz İsa Məsihin Atası olan Allahı izzətləndirəsiniz. Buna görə də Məsih sizi qəbul etdiyi kimi siz də Allahın izzəti üçün bir-birinizi qəbul edin. Mən də bunu bildirirəm: Məsih Allahın haqlı olduğunu göstərmək üçün

sünnətlilərin xidmətçisi oldu ki, əcdadlara verilən vədləri yerinə yetirsin; beləcə başqa millətlər də Allahın mərhəmətinə görə Onu izzətləndirsinlər. Necə ki yazılıb: «Buna görə millətlər arasında Sənə şükür edəcəyəm, İsminə tərənnüm söyləyəcəyəm».
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Lk 3, 4-6*
Rəbbin yolunu hazırlayın, keçəcəyi cığırları düzəldın.
Bütün insanlar Allahın təmin etdiyi qurtuluşu görəcəkdir.
**Alleluya!**

## † İncil †

*Mt 3, 1-12*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**
O günlərdə vəftizçi Yəhya Yəhudeya çölündə vəz edərək meydana çıxdı. O belə deyirdi: «Tövbə edin! Çünki Səmavi Səltənət yaxınlaşıb». Yeşaya peyğəmbər bu adam barəsində belə demişdi: «Səhrada bir nəfərin nida səsi gəlir: “Rəbbin yolunu hazırlayın, Onun keçəcəyi yerləri hamar edin”». Yəhya dəvə yunundan paltar geymiş, belinə dəri qurşaq bağlamışdı, çəyirtkə və çöl balı yeyirdi. Yerusəlim sakinləri, bütün Yəhudeya diyarından olanlar və İordan ətrafında yaşayanlar Yəhyanın yanına gəlirdi. Onlar günahlarını etiraf edir və İordan çayında vəftiz olunurdu. Fariseylər və sadukeylərdən çoxunun vəftiz olmaq üçün onun yanına gəldiyini görən Yəhya onlara belə dedi: «Ey gürzələr nəsli! Üzərinizə gələn qəzəbdən canınızı qurtarmağı sizin beyninizə kim yeridib? İndi isə tövbəyə layiq bəhrələr verin. Ürəyinizdə “atamız İbrahimdir” deyə düşünməyin. Mən sizə deyirəm ki, Allah bu daşlardan İbrahimə övlad yaratmağa qadirdir. Artıq balta ağacların dibində yatır. Beləliklə, yaxşı məhsul verməyən hər ağac kəsilir və oda atılır. Mən sizi su ilə vəftiz edirəm, amma məndən sonra Gələn məndən daha qüdrətlidir. Mən Onun çarıqlarını daşımağa belə, layiq deyiləm. O sizi Müqəddəs Ruhla və odla vəftiz edəcək. Onun kürəyi əlindədir və xırmanını sovuracaq, Öz taxılını anbara toplayacaq, küləşi isə sönməz odda yandıracaq».
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 3-cü Rəbb günü Advent dövründə - A ili

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yəş 35, 1-6b. 10*

Səhra və quru torpaq sevinəcək, çöl şadlanacaq, nərgiz kimi çiçəklənəcək.
Hər yan gül açacaq, şadlanacaq, sevincdən nəğmə oxuyacaq. Livanın gözəlliyi, şan-şöhrəti, Karmelin və Şaronun cah-cəlalı ona veriləcək. Hamı Rəbbin izzətini, Allahımızın əzəmətini görəcək.
Zəif əllərə qüvvət verin, əsən dizləri möhkəmləndirin.
Ürəklərində qorxanlara deyin: «Cəsarətlənin, qorxmayın! Budur, Allahınız İntiqam almaq, düşmənlərinizdən qisas almaq üçün gəlir. O gəlib sizə qurtuluş verəcək!»
O vaxt korların gözləri, karların qulaqları açılacaq, axsaqlar ceyran kimi hoppanacaq, lalların dili sevinclə nəğmə deyəcək. Rəbbin satın alınmış adamları qayıdacaq, sevinclə nəğmə deyərək Siona gələcək. Üzlərində əbədi sevinc olacaq, onlar fərəh və şadlıq tapacaq, kədər və qəm-qüssə yox olacaq!
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 146, 6c-7. 8-9a. 9b-10**

**N: Gəl, ya Rəbb və bizi xilas et!**

Rəbb əbədi sadiq qalandır. O, miskinlərə haqq qazandırır,
O, acları azuqə ilə doydurur. Rəbb əsirləri azad edir.
Rəbb kor gözləri açır. Rəbb qəddi əyilənləri düzəldir,
Rəbb salehləri sevir. Rəbb qəriblərə dayaq olur.
Rəbb yetimi, dul qadını ayağa qaldırır, pislərinsə yollarını dolaşdırır.
Rəbb əbədi hökmranlıq edir, ey Sion, +
Allahın nəsillər boyu hökm verir! Rəbbə həmd edin!

**Müqəddəs Yaqubun məktubundan sözlər** *Yaq 5, 7-10*

Beləliklə, ey qardaşlar, Rəbbin gəlişinə qədər səbirli olun. Görün əkinçi ilk və son yağış yağanacan səbr edərək torpağın qiymətli məhsulunu gözləyir. Siz də səbirli olun, ürəklərinizi möhkəmlədin, çünki Rəbbin gəlişi yaxındır. Qardaşlar, mühakimə olunmamaq üçün bir-birinizdən gileylənməyin. Budur, Hakim qapı arxasında durur! Qardaşlar, Rəbbin adi ilə danışmış peyğəmbərləri əzablara tab gətirmək və səbir nümunəsi olaraq götürün.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Lk 4,18*

Uca Allanın Ruhu üzərimdədir.

Uca Allah yoxsullara müjdə vermək üçün məni göndərdi.
**Alleluya!**

# † İncil †

*Mt 11, 2-11*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Yəhya isə Məsihin etdiklərini zindanda eşidərək şagirdlərini göndərdi ki, Ondan soruşsunlar: «Gəlməli olan Sənsənmi, yoxsa başqasını gözləyək?» İsa onlara belə cavab verdi: «Gedin, eşidib gördüklərinizi Yəhyaya danışın. Korlar görür, axsaqlar yeriyir, cüzamlılar pak olur, karlar eşidir, ölülər dirilir və yoxsullara Müjdə təbliğ olunur. Mənə görə büdrəməyən nə bəxtiyardır!»
Onlar gedərkən İsa camaata Yəhya haqqında danışmağa başladı: «Çölə nəyə baxmağa getmişdiniz? Küləyin sarsıtdığı qamışamı? Bəs onda nəyə baxmağa getmişdiniz? Nəfis toxunmuş paltar geymiş bir adamamı? Amma nəfis toxunmuş paltar geyənlər padşahların saraylarında qalır. Bəs onda nəyə baxmağa getmişdiniz? Bir peyğəmbərəmi? Bəli, sizə deyirəm, gördüyünüz adam hətta peyğəmbərlərdən də üstündür. Bu o adamdır ki, onun haqqında yazılmışdır: Budur, Sənin önündə Öz elçimi göndərirəm, "O Sənin önündə yolunu hazırlayacaq". Sizə doğrusunu deyirəm: qadından doğulanlar arasında Vəftizçi Yəhyadan daha üstün olanı hələ olmayıb. Amma Səmavi Səltənətdə ən kiçik olan ondan üstündür.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 4-cü Rəbb günü Advent dövründə - A ili

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yəş 7, 10-14*

Rəbb yenə Axaza söylədi: «Allahın Rəbdən bir işarə istə. Qoy ya ölülər diyarı qədər dərin ya da göylər qədər uca olsun». Lakin Axaz cavab verdi:
«Xeyr, Rəbbi sınamaq istəmirəm».
Bunun üstündən Yeşaya belə dedi: «Eşidin, ey Davud nəsli! İnsanları bezdirməyiniz bəs deyilmi ki, mənim Allahımı da bezdirirsiniz? Buna görə də Xudavənd Özü sizə işarə verəcək: budur, bakirə qız hamilə olub oğlan doğacaq, adını İmmanuel qoyacaq.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 24, 1-2. 3-4b. 5-6**

**N: Rəbb gəlir, O, əzəmətli Padşahdır.**

Rəbbindir yer üzü və orada mövcud olanlar, dünya və orada yaşayanlar.
O, yerin təməlini dənizlər üstündə qurdu, dünyanı sular üzərində yaratdı.
Rəbbin dağına kim çıxa bilər? Müqəddəs məskəninə kim girə bilər?
– əlləri pak, qəlbi təmiz, hiyləyə könül verməyən, yalandan and içməyən insan.
O, Rəbdən bərəkət alacaq, Xilaskarı Allahdan salehlik alacaq.
Belə adam Rəbbi soraqlar, Yaqubun Allahının üzünü axtarar.

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rom 1, 1-7*

İsa Məsihin qulu, həvari olmağa çağırılmış, Allahın Müjdəsini yaymaq üçün seçilmiş mən Pauldan salam! Allahın Öz peyğəmbərləri vasitəsilə Müqəddəs Yazılarda əvvəlcədən vəd etdiyi o Müjdə Oğlu Rəbbimiz İsa Məsih haqqındadır. O, cismən Davud nəslindəndir, müqəddəslik Ruhuna görə isə ölülər arasından diriləræk Allahın Oğlu olduğu qüdrətlə elan olundu. Biz Onun vasitəsilə lütfə və həvariliyə nail olduq ki, Onun adı naminə bütün millətlərdən olan insanları imana itaət etməyə çağıraq. Siz də İsa Məsihə məxsus olmaq üçün çağırılmış o insanların arasındasınız. Romada yaşayan, Allahın sevdiyi və müqəddəs olmağa çağırdığı sizin hamınıza Atamız Allahdan və Rəbb İsa Məsihdən lütf və sülh olsun!
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Yeş 7, 14*

Buna görə də Allah Özü sizə işarə verəcək: Budur, Bakirə qız hamilə olub oğlan doğacaq, adını “Tanri bizimlədir” mənasını verən İmmanuel qoyacaq.
**Alleluya!**

# † İncil †

*Mt 1, 18-24*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
İsa Məsihin doğulması belə oldu. Anası Məryəm Yusifə nişanlanmışdı. Amma birlikdə olmalarından əvvəl Məryəmin Müqəddəs Ruhdan hamilə olduğu aşkar oldu. Onun nişanlısı Yusif saleh bir adam idi və Məryəmi camaat arasında rüsvay etməmək üçün gizlicə boşamaq istəyirdi. Amma belə düşündüyü halda Rəbbin bir mələyi röyada ona görünüb dedi: «Davud oğlu Yusif! Məryəmi özünə arvad etməkdən qorxma, çünki onun bətnindəki körpə Müqəddəs Ruhdandır. Məryəm bir Oğul doğacaq və Onun adını İsa qoyacaqsan, çünki O Öz xalqını günahlarından xilas edəcək». Bütün bunlar Rəbbin peyğəmbər vasitəsilə söylədiyi bu söz yerinə yetsin deyə baş verdi: «Budur, bakirə qız hamilə olub oğlan doğacaq, adını İmmanuel qoyacaqlar». İmmanuel isə «Allah bizimlədir» deməkdir. Yusif yuxudan oyandı, Rəbbin mələyinin buyurduğu kimi etdi və arvadını qəbul etdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# MİLAD DÖVRÜ

# Milad bayramı

## (Milad gecəsi - 24.12.)

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 9, 2-4. 6-7*

Zülmətdə yaşayan xalq möhtəşəm bir işıq gördü. Ölüm kölgəsi diyarında məskunlaşanların üzərinə nur doğdu. Ya Rəbb, milləti çoxaldıb sevinclərini artırdın, əkib-biçənlərin fərəhləndiyi, qənimət bölənlərin sevindiyi kimi onlar da Sənin hüzurunda sevindilər. Çünki onlara yük olan boyunduruğunu, çiyinlərini döyən çomağını, onlara zülm edənlərin dəyənəyini çilik-çilik etmisən Midyanlıların başlarına gətirdiyin gün kimi. Çünki bizim üçün körpə doğuldu, bizə oğul verildi, hakimiyyət Onun çiyinləri üzərində olacaq, Onun adı ecazkar, məsləhətçi, qüdrətli Allah, əbədi Ata, əmin-amanlıq Hökmdarı olacaq. Hakimiyyətinin və əmin-amanlığının artmasının sonu olmayacaq, O, Davudun taxtı və səltənəti üzərində hökm sürəcək, O, hakimiyyətini ədalətlə və salehliklə indidən əbədi olaraq quracaq. Ordular Rəbbinin qeyrəti bunu edəcək.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Z 96, 1-2a. 2b-3. 11-12a. 12b-13**

**N: Bu gün Xilaskarımız, İsa Məsih doğuldu.**

Rəbbə yeni bir ilahi oxuyun, ey bütün dünya, Rəbbə ilahi oxuyun,
İsminə alqış edin, Rəbbə ilahi oxuyun.
Xilaskar olduğunu hər gün müjdələyin.
Ehtişamını millətlərə elan edin, Xariqələrini bütün xalqlara bəyan edin!
Göylər sevinsin, yer üzü şad olsun, dənizin və dənizdəki canlıların səsi ucalsın,
çöllər və çöldə yaşayanlar fərəhlənsin!
Meşədəki bütün ağaclar mədh söyləsin Rəbbin hüzurunda!
O gəlir, dünyanın hökmünü vermək üçün gəlir, +
yer üzünün hökmünü ədalətlə, xalqların hökmünü həqiqətlə verəcək!

**Müqəddəs Paulun Titusa məktubundan sözlər** *Tit 2, 11-14*

Çünki Allahın bütün insanlara xilas gətirən lütfü zühur etdi. Bu lütf bizi allahsızlığa və dünyəvi istəkləri rədd edib, indiki zamanda ağılla-kamalla, saleh və Allah yoluna uyğun bir ömür sürməyi öyrədir. Bu ərəfədə bəxtiyarlıq gətirən ümidimizin gerçəkləşməsini, Uca Allah və Xilaskarımız İsa Məsihin izzətli zühurunu gözləyək. O, Özünü bizim üçün fəda etdi ki, bizi hər cür qanunsuzluqdan azad etsin və təmizləyib Özünə məxsus və yaxşı işlərə səy göstərən bir xalq törətsin.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Tit 2, 11-14*

Sizə hamımız üçün böyük sevinc gətirən bir müjdə verirəm:

Bu gün bizim üçün bir Xilaskar doğuldu! Bu Xilaskar Rəbbimiz İsa Məsihdir.
**Alleluya!**

## † İncil †

*Lk 2, 1-14*

K: Rəbb sizinlə olsun.   *   **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
O günlərdə qeysər Avqust bütün Roma dünyası üçün siyahıyaalma keçirmək barəsində fərman verdi. Bu ilk siyahıyaalma Kirini Suriyanı idarə edəndə keçirilmişdi. Hamı qeydiyyatdan keçmək üçün öz soy-kökü olan şəhərə yollandı. Yusif də Davudun əsil-nəslindən olduğuna görə Qalileyanın Nazaret şəhərindən çıxıb Davudun şəhəri olan Bet-Lexemə yollandı. O oraya hamilə olan nişanlısı Məryəmlə birlikdə qeydiyyatdan keçmək üçün getdi. Onlar orada olarkən Məryəmin doğuş vaxtı çatdı. O, ilk oğlunu doğdu və bələdi. Məryəm körpəni axura qoydu, çünki qonaq evində onlara yer tapılmadı.
O ərazidə sürülərinin yanında gecə növbəsini çəkən çobanlar var idi. Onlar çöldə gecələyirdi. Birdən Rəbbin bir mələyi onların qarşısında zühur etdi və Rəbbin ehtişamı onların üzərinə nur saçdı. Çobanları böyük qorxu bürüdü.
Mələk onlara dedi: "Qorxmayın! Mən sizə bütün xalqı çox sevindirəcək bir xəbər gətirmişəm. Bu gün Davudun şəhərində sizin üçün Xilaskar doğuldu. Bu, Rəbb Məsihdir. Sizə əlamət bu olacaq: axurda yatan bələnmiş Körpə tapacaqsınız".
Qəflətən mələyin yanında Allaha həmd-səna oxuyan çoxsaylı səmavi ordular göründü. Onlar belə deyirdi: "Ən ucalarda Allaha izzət, Yer üzündə Onun razı olduğu insanlara sülh olsun!

K: Bu Rəbbin Kəlamıdır.   *   **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad bayramı

## (Şəfəq Vaxtı Ayini - 25.12.)

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 62, 11-12*

Rəbb yer üzünün ən uzaq yerlərinə bəyan etdi:
«Sion qızına deyin:
"Budur, qurtuluşun gəlir, Rəbbin mükafatı onunladır, ənamı önündədir"».
Sion xalqına «Rəbbin satın aldığı, müqəddəs xalq» deyəcəklər.
Sən, ey Yerusəlim, «Allahın axtardığı, tərk olmamış şəhər» adlanacaqsan.

**Bu Allahın Kəlamıdır. * M: Allaha şükürlər olsun.**

**Məzmur (97[96] 1. 6. 11-12)**
**N: Bu gün bizim üçün Xilaskar doğuldu. Onun işığı üzərimizdə parladı.**

Rəbb hökmranlıq edir, qoy yer üzü şadlıq etsin,
Qoy bütün adalar sevinsin.

Göylər salehliyini bəyan edər,
Əzəmətini bütün xalqlar görər.

Salehlərin üstünə nur tökülər,
Ürəyidüz olanların üstünə sevinc səpilər.

Ey salehlər, Rəbbə görə sevinin,
Onun müqəddəs adına şükür edin!

**Müqəddəs Paulun Titusa məktubundan sözlər** *Tit 3, 4-7*

Amma Xilaskarımız Allah xeyirxahlığını və insana olan sevgisini açıq göstərdiyi zaman bizim salehliklə etdiyimiz əməllərlə deyil, Öz mərhəmətinə görə bizi xilas etdi. Bunu bizi yumaqla, yəni Müqəddəs Ruhun bizi yenidən doğuzdurub təzələməsi ilə etdi. Allah Xilaskarımız İsa Məsih vasitəsilə üzərimizə bol-bol Müqəddəs Ruhu tökdü ki, Onun lütfü ilə saleh sayılıb ümidimiz olan əbədi həyatın varisi olaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**
Uca göylərdə Allaha həmd olsun və iyi niyyətli insanlara barış gəlsin!
**Alleluya!**

# † İncil †

*Lk 2, 15-20*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Mələklər çobanları tərk edib göyə qalxandan sonra onlar bir-birinə dedi:
«Gəlin Bet-Lexemə gedək və Rəbbin bizə bildirdiyi bu baş vermiş hadisəni görək».
Onlar tələsik getdilər. Məryəmi, Yusifi və axurda yatan Körpəni tapdılar.
Çobanlar Körpəni görəndə Onun haqqında onlara nəql edilənləri bildirdilər.
Bunu eşidənlərin hamısı çobanların sözlərindən heyrətə gəldi.
Məryəm isə bütün bu şeyləri dərin düşünərək öz ürəyində saxlayırdı.
Çobanlar bütün gördükləri və eşitdiklərinə görə Allahı izzətləndirib həmd edərək geri qayıtdılar. Çünki hər şey onlara söylənən kimi baş vermişdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad bayramı

## (Gündüz ayini - 25.12.)

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yəş 52, 7-10*

Sülh xəbəri gətirən, dağları aşıb-gələn Müjdəçinin ayaqları necə də gözəldir! O, xoş müjdə gətirir, Qurtuluş xəbəri verir, Sion xalqına «Allahınız hökm sürür!» bəyan edir. Qulaq asın! Keşikçilər səslərini ucaldır, birlikdə mədh oxuyur, çünki Rəbbin Siona qayıdışını öz gözləri ilə görür. Ey Yerusəlim xarabalıqları, şənlik edin, birlikdə mədh oxuyun, çünki Rəbb xalqına təsəlli verdi, Yerusəlimi satın aldı. Rəbb bütün millətlərin gözləri önündə müqəddəs qolunu çırmaladı, dünyanın bütün ucqar yerləri Allahımızın gətirdiyi xilası görəcək.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 98, 1. 2-3b. 3c-4. 5-6**

**N: Yer üzünün hər tərəfi Allahımızın zəfərini gördü.**

Rəbbə yeni bir ilahi oxuyun, çünki O, xariqələr yaratdı.
O, sağ əli ilə, öz müqəddəs qolu ilə zəfərlər qazandı.
Rəbb zəfərini bəyan etdi, millətlərin gözündə salehliyini aydın göstərdi.
İsrail nəslinə göstərdiyi məhəbbətini və sədaqətini xatırladı.
Yer üzünün hər tərəfi Allahımızın zəfərini gördü.
Ey bütün dünya, cuşa gəlib Rəbbə nida et, +
birdən nida edin, mədh, tərənnüm səsini ucaldın!
Rəbbi lira ilə, ilahi bir səslə tərənnüm edin! Kərənay, şeypur səsi ilə,
padşah olan Rəbbin hüzurunda cuşa gəlin, Ona nida edin!

**İbranilərə məktubundan sözlər** *İbr 1, 1-6*

Allah qədim zamanlarda dəfələrlə və müxtəlif yollarla əcdadlarımıza peyğəmbərlər vasitəsilə müraciət etmişdi. Amma bu axır zamanda O bizə Oğlu vasitəsilə müraciət etdi. Onu hər şeyin varisi təyin etmişdi və vasitəsilə kainatı yaratmışdı. Oğul Allahın izzətinin əksi və mahiyyətinin tam surətidir. O hər şeyi qüdrətli Kəlamı ilə saxlayır. O günahlardan təmizlənməni təmin edəndən sonra ucalarda möhtəşəm Allahın sağında oturdu. Mələklərdən nə qədər üstün adı irs olaraq aldısa, o qədər onlardan üstün oldu. Axı Allah mələklərin hansına nə vaxtsa «Sən Mənim Oğlumsan, Mən bu gün Sənə Ata oldum», yaxud «Mən Ona Ata, O isə Mənə Oğul olacaq» demişdir? Yenə də Allah İlk Doğulanı dünyaya gətirəndə deyir: «Allahın bütün mələkləri qoy Onun qarşısında səcdə etsin».
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**

Bizə müqəddəs bi gün doğuldu. Millətlər, gəlin Rəbbə səcdə edin!
Bu gün dünyaya böyük bir nur saçdı.

**Alleluya!**

## † İncil †

*Yəh 1, 1-18*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Başlanğıcda Kəlam var idi. Kəlam Allahla birlikdə idi. Kəlam Allah idi. O, başlanğıcda Allahla birlikdə idi. Hər şey Onun vasitəsilə yarandı və yaranan şeylərdən heç biri Onsuz yaranmadı. Həyat Onda idi və bu həyat insanların nuru idi. Nur qaranlıqda parlayır, qaranlıq isə onu anlamadı.
Allahın göndərdiyi bir adam ortaya çıxdı, onun adı Yəhya idi. O, şəhadət üçün gəldi ki, Nur barədə şəhadət etsin və hamı onun vasitəsilə iman etsin. O özü Nur deyildi, amma Nur barədə şəhadət etmək üçün gəldi.
Bu, həqiqi Nur idi və dünyaya gələrək hər bir insanı işıqlandırırdı. O, dünyada idi, dünya Onun vasitəsilə yarandı, amma dünya Onu tanımadı. Öz diyarına gəldi, amma soydaşları Onu qəbul etmədi. Lakin Onu qəbul edənlərin hamısına, adına iman edənlərə Allahın övladları olmaq səlahiyyətini verdi. Onlar nə qandan, nə bəşər arzusundan, nə də kişi istəyindən deyil, yalnız Allahdan doğuldu. Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı; biz də Onun ehtişamını – Atadan gələn vahid Oğulun ehtişamını gördük.
Yəhya Onun barəsində şəhadət etdi və nida edib dedi: «“Məndən sonra Gələn məndən üstündür, çünki məndən əvvəl mövcud idi” deyib haqqında danışdığım Adam budur». Hamımız Onun dolğunluğundan lütf üstünə lütf aldıq. Musa vasitəsilə Qanun verildi, lütf və həqiqət isə İsa Məsih vasitəsilə gəldi. Allahı heç kəs heç vaxt görməyib, amma Atanın qucağındakı Özü Allah olan vahid Oğul Onu tanıtdı.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Müqəddəs Ailənin Bayramı - A ili

30.12. ya Miladdan birinci Rəbb günü

**Siraxın kitabından sözlər** *Sir 3, 2-6, 12-14*

Rəbb övladlar üzərində ataya şərəf vermişdir, oğullar üzərində anaya haqq vermişdir. Atasına ehtiram göstərən kəsin günahları bağışlanır. Anasına hörmət edən kəs sərvət əldə edən adam kimidir. Atasına ehtiram göstərən öz uşaqlarından sevinc tapacaq. Dua etdiyi gün yalvarışı eşidiləcək. Atasına hörmət edənin ömrü uzun olar, anasına rahatlıq verən Rəbbə itaət etmiş olur. Övladım, atan qocalanda ona kömək ol, ömrü boyu onu kədərləndirmə. Əgər valideynin ağlı zəifləyirsə, ona iltifat göstər, özün tam sağlam ikən ona həqarətlə yanaşma. Çünki ataya göstərilən mehribanlıq unudulmaz, günahların nəticəsində dağılan həyatın bərpa olar.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 128, 1-5**

**N: Nə bəxtiyardır Rəbbdən qorxanlar!**

Nə bəxtiyardır Rəbdən qorxan, Onun yolları ilə gedən insan!
Çünki öz əlinin bəhrəsini yeyəcəksən, xoşbəxt olub uğur qazanacaqsan.
Evində arvadın tənək kimi bar gətirəcək,
Övladların zeytun pöhrələri kimi süfrənin ətrafını bürüyəcək.
Rəbdən qorxan insan belə xeyir-dua alacaq:
Rəbb Siondan sənə xeyir-dua versin, +
ömür boyu Yerusəlimin xoşbəxtliyini görəsən.

**Müqəddəs Paulun Kolosselilərə məktubundan sözlər** *Kol 3, 12-21*

Beləliklə, Allahın seçilmişləri, müqəddəsləri və sevimliləri kimi ürək mərhəməti, xeyirxahlıq, təvazökarlıq, həlimlik və səbri əyninizə geyinin. Bir-birinizə dözün və birinizin digərindən şikayəti varsa, bağışlayın. Rəbb sizi bağışladığı kimi siz də bağışlayın. Bütün bunlardan əlavə kamil birliyin bağı olan məhəbbəti geyinin. Məsihin sülhü qoy ürəklərinizdə münsiflik etsin, çünki bir bədənin üzvləri kimi bu sülhə dəvət olundunuz. Həmçinin şükür edənlər olun! Qoy aranızda Məsihin kəlamı bütün zənginliyi ilə yaşasın. Bir-birinizə tam müdrikliklə təlim və nəsihət verin, məzmurlar, ilahilər və ruhani nəğmələr söyləyib ürəklərinizdə Allaha minnətdar ola-ola nəğmə oxuyun. Dediyiniz və etdiyiniz hər şeyi Rəbb İsanın adı ilə edin, Onun vasitəsilə Ata Allaha şükür edin. Ey qadınlar, Rəbdə olanlara layiq olduğu kimi ərlərinizə tabe olun. Ey ərlər, öz arvadlarınızı sevin və onlarla sərt davranmayın. Ey övladlar, hər işdə ata-ananiza itaət edin, çünki bu, Rəbbi razı salır. Ey atalar, övladlarınızı incitməyin, yoxsa cəsarətləri qırılar.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *bax Kol 3, 15-16*

İsa Məsih sakit və hüzurlu ürəklərinizə hakim olsun

və onun sözləri bütün xöşbəxtliyi ilə içimizə yerləşsin.
**Alleluya!**

## † İncil †

*Mt 2, 13-15, 19-23*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Müdrik adamlar yola düşəndən sonra Rəbbin bir mələyi Yusifə röyada görünərək dedi: «Qalx, körpə ilə anasını götür, Misirə qaç. Mən sənə xəbər verənə qədər orada qal. Çünki Hirod körpəni öldürmək üçün axtarmaq istəyir». Beləliklə, Yusif qalxdı, həmin gecə körpə ilə anasını götürüb Misirə qaçdı. Hirod ölənə qədər orada qaldı. Bu, Rəbbin peyğəmbər vasitəsilə söylədiyi söz yerinə yetsin deyə baş verdi: «Oğlumu Misirdən çağırdım». Hirod öləndən sonra Rəbbin bir mələyi Misirdə Yusifə röyada görünüb dedi: «Qalx! Körpə ilə anasını götür, İsrailə qayıt. Çünki Körpəni öldürmək istəyənlər öldü». Yusif qalxdı, Körpə ilə anasını götürüb İsrailə qayıtdı. Amma Arxelanın öz atası Hirodun yerinə Yəhudeya padşahı olduğunu eşidəndə oraya getməyə qorxdu. Röyada xəbərdarlıq alaraq Qalileya bölgəsinə getdi. Gəlib Nazaret deyilən şəhərə yerləşdi. Peyğəmbərlər vasitəsilə söylənən «Ona Nazaretli deyiləcək» sözü yerinə yetsin deyə belə oldu.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Müqəddəs Ailənin Bayramı - B ili

30.12. ya Miladdan birinci Rəbb günü

**Yaradılış kitabından sözlər** *Yar 15, 1-6; 21, 1-3*

Bir müddət sonra İbrama görüntüdə Rəbbin bu sözü nazil oldu: «Ey İbram, qorxma. Sənin qalxanın Mənəm. Mükafatın çox böyük olacaq». İbram dedi: «Ey Xudavənd Rəbb, mənə nə verəcəksən? Mənim övladım yoxdur, evimin sahibi bu Dəməşqli Eliezer olacaq». İbram sözünə davam etdi: «Sən mənə övlad vermədiyin üçün evimin nökəri mənim varisim olacaq». Ona Rəbbin bu sözü nazil oldu: «O sənin varisin olmayacaq, öz belindən gələn övladın sənin varisin olacaq». Rəbb onu bayıra çıxarıb dedi: «Göyə bax, oradakı ulduzları saya bilərsənsə, say». Yenə dedi: «Nəslin o qədər olacaq». İbram Rəbbə iman etdi və Rəbb bunu ona salehlik saydı. Rəbb dediyi kimi Saraya nəzər saldı və ona söylədiyi sözü yerinə yetirdi: Sara hamilə oldu və İbrahimin qocalıq çağında – Allahın ona söylədiyi vaxt bir oğul doğdu. İbrahim Saradan doğulan oğluna İshaq adını qoydu.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 105, 1b-2. 3-4. 5-6. 8-9**

**N : Allahımız Rəbb Odur, and içərək verdiyi vədini unutmaz.**

Rəbbə şükür edin, ismini səsləyin, əməllərini xalqlar arasında elan edin!
Onu ilahilərlə tərənnüm edin, bütün xariqələrini bəyan edin!
Onun müqəddəs adı ilə fəxr edin, ey Rəbbi axtaranlar, ürəkləriniz qoy sevinsin!
Rəbbi, Onun qüvvətini arayın, daim hüzurunu axtarın.
Etdiyi xariqələri, möcüzələri, dilindən çıxan hökmləri xatırlayın,
ey Onun qulu İbrahim nəsli, ey Yaqub övladları, ey Onun seçdikləri!
Allahımız Rəbb Odur, Hökmü bütün yer üzərindədir. +
əbədi olaraq – min nəslə qədər əhdini, əmr etdiyi sözü,
İbrahimlə kəsdiyi əhdini, İshaqa and içərək verdiyi vədini unutmaz.

**İbranilərə məktubundan sözlər** *İbr 11, 8. 11-12. 17-19*

İman vasitəsilə İbrahim çağırılanda itaətkar olub irs alacağı yerə getdi. O hara getdiyini bilməyərək yola çıxdı. İman vasitəsilə Sara özü sonsuz və yaşı ötmüş olduğu halda nəsil yaratmaq üçün güc aldı, çünki vəd Edəni sadiq saydı. Buna görə də bir kişidən, hələ üstəlik ölüdən fərqlənməyən birindən sayca göydəki ulduzlar qədər, dəniz kənarındakı qum kimi saysız-hesabsız nəsil törəndi. İman vasitəsilə İbrahim sınağa çəkildiyi vaxt İshaqı qurban olaraq təqdim etdi. Vədlərə nail olmuş İbrahim bircə oğlunu qurban vermək niyyətində idi. Halbuki ona «İshaqdan törəyənlər sənin nəslin adlanacaq» deyilmişdi. O, Allahı onu ölülər arasından diriltməyə qadir saydı. Buna görə də məcazı mənada İshaqı ölümdən geri aldı.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *İbr 1:1-2*

Allah qədim zamanlarda dəfələrlə və müxtəlif yollarla əcdadlarımıza peyğəmbərlər vasitəsilə müraciət etmişdi.
Amma bu axır zamanda O bizə Oğul vasitəsilə müraciyət etdi.
**Alleluya!**

# † İncil †

*Lk 2, 22-40*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Musanın Qanununa görə paklanma dövrü tamamlanandan sonra Yusiflə Məryəm Körpəni Rəbbə həsr etmək üçün Yerusəlimə gətirdilər, necə ki Rəbbin Qanununda yazılmışdır: "Bətndən ilk doğulan bütün oğlanlar Rəbbə təqdis olmalıdır". Həmçinin onlar qurban təqdim etdi, necə ki Rəbbin Qanununda əmr olunmuşdur: "İki qumru quşu yaxud iki göyərçin balası". O vaxt Yerusəlimdə Şimon adlı bir adam var idi. O, saleh və mömin idi. İsrailə təsəlli veriləcəyini gözləyirdi və Müqəddəs Ruh onun üzərində idi. Müqəddəs Ruh ona əvvəlcədən açıqlamışdı ki, o, Rəbbin Məsihini görməyincə ölməyəcək. Beləliklə, Şimon Ruhdan ilham alıb məbədə gəldi. Körpənin ata-anası Qanunda yazıldığına əməl etmək üçün Körpə İsanı məbədə gətirəndə Şimon Körpəni qucağına götürdü və Allaha həmd edərək belə dedi: "Ey Pərvərdigar, indi Sənin sözünə görə mən - sənin qulun arxayın ölə bilərəm. Çünki bütün xalqların gözləri önündə hazırladığın xilasını, millətlərə aşkar edən nuru, xalqın İsrail üçün izzəti öz gözlərimlə gördüm". Körpənin ata-anası Onun barəsində deyilən sözlərə görə heyrətə gəldi.
Şimon onlara xeyir-dua verib Körpənin anası Məryəmə belə dedi: "Bu Körpə İsraildə bir çox adamın yıxılmasının ya ucalmasının səbəbkarı olacaq. O, Allahdan gələn bir əlamət kimi olacaq və insanlar Onu rədd edəcək. Sənin köksünə isə sanki qılınc saplanacaq. Bütün bunlar bir çoxlarının qəlbindəki fikirlərin aşkara çıxması üçün olacaq".
Orada Aşer qəbiləsindən olan Penuel qızı Anna adlı qadın peyğəmbər də var idi. O, çox yaşlı idi. Gənc yaşında ərə getmiş, əri ilə yeddi il yaşayıb dul qalmışdı. Bu, səksən dörd yaşında dul qadın idi. O, məbədi tərk etmirdi və oruc tutub dua edərək gecə-gündüz Rəbbə ibadət edirdi.
Anna da bu zaman yaxınlaşdı və Allaha şükür edərək Yerusəlimin qurtuluşunu gözləyən bütün adamlara Körpə İsa barədə nəql etməyə başladı.
Onlar Rəbbin Qanununa əsasən hər şeyi icra etdikdən sonra Qalileyaya - öz şəhərləri olan Nazaretə qayıtdı. Uşaq böyüyür, ruhda qüvvətlənir və hikmətdə yetkinləşirdi. Allahın lütfü isə Onun üzərində idi.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Müqəddəs Ailənin Bayramı - C ili

30.12. ya Miladdan birinci Rəbb günü

**1-ci Şamuelin kitabından sözlər** *1 Şam 1:20-22, 24-28*

Vaxt keçdi, Xanna hamilə olub bir oğul doğdu. «Onu Rəbdən dilədim» deyərək adını Şamuel qoydu. Xannanın Şamueli Allaha təqdim etməsi Elqana Rəbbə illik qurbanını və əhdini yerinə yetirmək üçün evdəkilərlə bərabər Şiloya getdi.
Amma Xanna getmədi. Ərinə «körpəni süddən kəsəndən sonra onu Rəbbə xidmət etmək üçün aparacağam və ömrü boyu orada qalacaq» dedi.
Uşağı süddən ayırandan sonra Xanna onu üç buğa, bir efa un və bir tuluq şərabla birlikdə Rəbbin Şilodakı ibadətgahına apardı. Uşaq isə hələ balaca idi.
Buğanı kəsəndən sonra uşağı Eliyə verdilər. Xanna dedi: «Ey ağam, canına and olsun, burada – sənin yanında durub Rəbbə yalvaran qadın mənəm.
Yalvarışım bu uşaq üçün idi, Rəbb muradımı yerinə yetirdi. Mən onu Rəbbə əhd etmişdim və ömrü boyu Rəbbə həsr olunmalıdır».
Sonra uşaq orada Rəbbə səcdə etdi.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 84**

**N: Ya Rəbb, evində yaşayanlar nə bəxtiyardır!**

Ey Ordular Rəbbi, məskənin nə qədər əzizdir,
Qəlbim Rəbbin həyətinin həsrətindədir,
Könlüm, cismim var olan Allaha mədh oxuyur.
Nə bəxtiyardır evində yaşayanlar, daim Sənə həmd oxuyanlar!
Nə bəxtiyardır Səndən qüvvət alanlar,
Qəlbində Sionu ziyarət etməyi arzulayanlar!
Ya Rəbb, ey Ordular Allahı, duamı dinlə, ey Yaqubun Allahı, qulaq as!
Ey Allah, bizə sipər olana bax, məsh etdiyinin üzünə bax!

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1 Yəh 3:1-2, 21-24*

Görün Ata bizə necə məhəbbət göstərib ki, biz Allahın övladları adlanırıq! Doğrudan da, beləyik! Dünya Onu tanımadığına görə bizi də tanımır. Ey sevimlilər, indi biz Allahın övladlarıyıq, amma nə olacağımız hələ üzə çıxmayıb. Lakin bilirik ki, Məsih zühur edəndə biz Ona bənzəyəcəyik, çünki Onu olduğu kimi görəcəyik.
Ey sevimlilər, əgər ürəyimiz bizi məhkum etmirsə, demək, Allahın hüzurunda cəsarətlə danışa bilərik və Ondan nə diləyiriksə, alırıq. Ona görə ki Onun əmrlərinə riayət edirik və önündə Ona məqbul olan işlər görürük. Onun əmri də budur ki, biz Onun Oğlu İsa Məsihin adına iman edək və Onun bizə əmr etdiyi kimi bir-birimizi sevək. Onun əmrlərinə riayət edən şəxs Allahda, Allah da onda qalır. Onun bizdə qaldığını bu yolla, bizə verdiyi Ruh vasitəsilə bilirik.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *bax Həv 16:14b*

Rəbb, Oğlunun sözlərinə qulaq asmaq üçün bizə açıq ürək ver.

**Alleluya!**

# † İncil †

*Lk 2, 41-52*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**

K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *

**M: Şan-şərəf Rəbbindir.**

İsanın valideynləri hər il pasxa bayramında Yerusəlimə gedirdilər.

Və O, on iki yaşına çatdığı zaman, adət üzrə Yerusəlimə bayrama getdilər.

Bayram günlərini bitirib evlərinə qayıdırkən, yeniyetmə İsa Yerusəlimdə qaldı; və Yusiflə İsanın anası bundan bixəbər idilər. Elə düşünürdülər ki, O, yoldaşları ilə gedir. Lakin bir günlük yol getdikdən sonra, Onu qohum və tanışlar arasında axtarmağa başladılar. Və Onu tapmadıqda, Onu axtara-axtara Yerusəlimə qayıtdılar.

Üç gündən sonra Onu məbəddə tapdılar. O, müəllimlərin arasında oturub onları dinləyir, suallar verirdi.

Onu dinləyənlərin hamısı Onun zəkasına və cavablarına təəccüblənirdilər.

Valideynləri Onu gördükləri zaman heyrətə gəldilər və anası Ona dedi: «Oğlum! Nə üçün bizimlə belə davrandın? Budur, Sənin atan və mən böyük kədərlə Səni axtarırdıq.» O, onlara dedi: «Məni nə üçün axtarırdınız? Bilmirdinizmi ki, Mən Atamın evində olmalıyam?» Lakin onlar İsanın dediyi sözləri başa düşmədilər.

İsa onlarla getdi və Nazaretə gəldi; və onlara itaət edirdi. Onun anası da bütün bu sözləri öz ürəyində saxlayırdı. İsa isə hikmətdə və boy-buxunda, Allah və insanlar qarşısında lütfdə tərəqqi edirdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Allah Anası Olan Məryəmin bayramı (01.01.)

**Saylar kitabından sözlər** *Say 6, 22-27*

Rəbb Musaya dedi: «Harun və oğullarına belə de:
İsrail övladlarına belə xeyir-dua verin:
“Qoy Rəbb sizə xeyir-dua verib sizi qorusun;
Rəbb Öz nurlu üzünü sizə göstərərək lütf versin.
Rəbb üzünü sizə tərəf çevirsin, sizə sülh versin”.
Beləcə kahinlər Mənim adımla İsrail övladlarına xeyir-dua verəndə Mən də onlara xeyir-dua verəcəyəm».
Bu Allahın Kəlamıdır. *
**M: Allaha şükürlər olsun.**



**Zəbur 67, 2-3. 5. 6+8**

**N: Lütf edib, ey Allah, bizə xeyir-dua ver.**

Lütf edib, ey Allah, bizə xeyir-dua ver, Üzün üstümüzə nur saçsın.
Qoy yer üzündə Sənin yolun, bütün millətlər arasında qurtuluşun tanınsın.
Qoy ümmətlər sevinclə Səni mədh etsin, çünki xalqlara insafla hökm edirsən, yer üzündəki ümmətlərə yol göstərirsən.
Ey Allah, Sənə xalqlar şükür etsin, Qoy Sənə bütün xalqlar şükür etsin.
Allah bizə xeyir-dua verib. Qoy dünyanın ucqarları Ondan qorxsun!

**Müqəddəs Paulun Qalatiyalılara məktubundan sözlər** *Qal 4, 4-7*

Lakin vaxt tamam olanda Allah qadından doğulmuş, Qanunun tabeçiliyi altında olan Öz Oğlunu göndərdi ki, Qanunun tabeçiliyi altında olanları azad etsin və biz oğulluğa nail olaq. Oğullar olduğunuz üçün Allah Öz Oğlunun «Abba, Ata!» deyərək nida edən Ruhunu ürəklərimizə göndərdi. Buna görə də sən artıq qul deyil, oğulsan. Əgər oğulsansa, həmçinin Allahın təyin etdiyi varissən.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *bax İbr 1, 1-2*

Allah vaxtı ilə peyğəmbərlər vasitəsi ilə atalarımızla danışdı. Bu son günlərdə isə, Oğlu vasitəsi ilə bizə söz istiqamətləndirdi.

**Alleluya!**

## † İncil †

*Lk 2, 16-21*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Onlar tələsik getdi. Məryəmi, Yusifi və axurda yatan Körpəni tapdılar. Çobanlar Körpəni görəndə Onun haqqında onlara nəql edilənləri bildirdilər. Bunu eşidənlərin hamısı çobanların sözlərindən heyrətə gəldi. Məryəm isə bütün bu sözləri dərin düşünərək öz ürəyində saxlayırdı. Çobanlar bütün gördükləri və eşitdiklərinə görə Allahı izzətləndirib həmd edərək geri qayıtdı. Çünki hər şey onlara söylədikləri kimi baş vermişdi.
Səkkizinci gün Körpənin sünnət etmə vaxtı gələndə Onun adını İsa qoydular. Bu ad ona ana bətninə düşməzdən əvvəl mələk tərəfindən verilmişdi.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Milad bayramından sonrakı 2-ci Rübb Günü

**Siraxın kitabından sözlər** *Sir 24, 1-12*

Hikmət özünü şöhrətləndirər, öz ardıcılları arasında təriflənər.
Uca Olanın toplantısında ağız açar, Onun səma qüvvələrinin önündə öyünər:
«Mən Uca Olanın ağzından çıxıb gəldim, Yer üzünü duman kimi örtdüm.
Yüksəklərdə məskən saldım, taxtım bulud dirəyinin üstündə idi. Təkbaşına göy qübbəsini əhatə etdim, dibsiz dərinlikdə dolaşdım. Dənizin dalğaları, bütün yer üzü, bütün xalqlar və millətlər üzərində hökmranlıq etdim. Bunların hamısının arasında istirahət yeri axtardım ki, kimin mülkündə məskən sala bilərəm.
Onda hər şeyin Yaradıcısı mənə göstəriş verdi, məni Yaradan çadırım üçün yer təyin etdi. O dedi: "Çadırını Yaqubda qur, İsraildə sənin mirasın olsun".
Əbədiyyətdən bəri, başlanğıcda O, məni yaratdı, mən əbədiyyətə qədər bitib-tükənməyəcəyəm. Müqəddəs çadırda Onun önündə xidmət etdim, beləcə, Sionda bərqərar oldum. Sevimli şəhərdə mənə həm də dinclik verdi, Yerusəlimdə səlahiyyətə malikəm. İzzətləndirilmiş bir xalqın arasında,
Rəbbin onların mirası olan mülkündə kök saldım.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 147 (146) 12-15, 19-20**

**N: Ey bütün möminlər, Allahı ucaldın!**

Ey Yerusəlim, Rəbbi mədh et! Ey Sion, Allahına həmd et!
Çünki darvazalarının cəftələrini bərkidər, Sənin əhalinə bərəkət verər.
Sərhədinə əmin-amanlıq, Sənə doyunca əla taxıl yetirər.
Kəlamını yer üzünə yollar, Onun sözü tez yayılar.
O, Yaqub nəslinə sözlərini, İsraillilərə qanun və hökmlərini bildirir.
Başqa millətlər üçün belə etməyib, heç birinə hökmlərini bildirməyib.

**Müqəddəs Paulun Efeslilərə məktubundan sözlər** *Ef 1, 3-6, 15-18*

Bizə Məsihdə səmadakı hər cür ruhani nemətlə xeyir-dua verən Allaha – Rəbbimiz İsa Məsihin Atasına alqış olsun!
O, dünya yaranmazdan qabaq bizi Məsihdə seçdi ki, biz məhəbbətdə Onun qarşısında müqəddəs və nöqsansız olaq. Öz iradəsinin xoş məramına görə İsa Məsih vasitəsilə bizi əvvəlcədən təyin etdi ki, Özü üçün övladlığa götürsün.
Belə ki sevimli Oğlunda bizə bəxş etdiyi Öz lütfünün izzətini mədh edək.
Bundan ötrü mən də Rəbb İsaya olan imanınız və bütün müqəddəslərə göstərdiyiniz məhəbbət barədə eşidib sizi dualarımda yada salaraq durmadan sizin üçün şükür edirəm. Dua edirəm ki, Rəbbimiz İsa Məsihin Allahı olan izzətli Ata Özünü sizə tanıtmaq üçün hikmət və vəhy ruhunu versin.

Qoy O, qəlbinizin gözünü nurlandırsın ki, Onun çağırışından yaranan ümidin nə olduğunu, müqəddəslərə verdiyi irsin izzətinin necə zəngin olduğunu, Onun böyük qüvvəsinin fəaliyyətinə görə iman edən bizlərə sərf etdiyi qüdrətinin hədsiz böyüklüyünün nə olduğunu görəsiniz.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *bax 1 Tim 3, 16*
Dünyaya gəlmiş uluslara tanıdılmış və dünyada iman edilmiş olan İsa Məsih sənə əbədiyyən övgülər olsun!
**Alleluya!**

## † İncil †

*Yəh 1, 1-5, 9-14*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Başlanğıcda Kəlam var idi. Kəlam Allahla birlikdə idi. Kəlam Allah idi.
O, başlanğıcda Allahla birlikdə idi. Hər şey Onun vasitəsilə yarandı və yaranan şeylərdən heç biri Onsuz yaranmadı. Həyat Onda idi və bu həyat insanların nuru idi. Nur qaranlıqda parlayır, qaranlıq isə onu bürüyə bilmədi.
Bu, həqiqi Nur idi və dünyaya gələrək hər bir insanı işıqlandırırdı.
O, dünyada idi, dünya Onun vasitəsilə yarandı, amma dünya Onu tanımadı.
Öz diyarına gəldi, amma soydaşları Onu qəbul etmədi.
Lakin Onu qəbul edənlərin hamısına, adına iman edənlərə Allahın övladları olmaq ixtiyarını verdi. Onlar nə qandan, nə bəşər arzusundan, nə də kişi istəyindən deyil, yalnız Allahdan doğuldu. Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq aramızda məskən saldı; biz də Onun ehtişamını – Atadan gələn vahid Oğulun ehtişamını gördük.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Epifaniya Bayramı ABC - (Rəbbin zühuru)

(2-8. yan.)

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 60, 1-6*

Qalx, işıqlan, çünki nurun gəldi, Rəbbin izzəti üzərinə gəldi! Budur, dünyanı qaranlıq, ümmətləri zülmət bürüyəcək. Amma Rəbb üzərinə nur saçacaq, izzəti səni əhatə edəcək. Millətlər Sənin nuruna, padşahlar üzərinə çökən aydınlığa doğru gələcək. Qaldır başını, bax ətrafına, hamı yığılıb yanına gəlir! Oğulların uzaqdan gəlir, qızların qucaqda gətirilir. O vaxt bunu görüb üzün nur saçacaq, ürəyin sevincdən tez-tez çırpınacaq. Çünki uzaq ölkələrin var-dövləti sənə gətiriləcək, millətlərin sərvəti sənə gələcək. Dəvə sürüləri, Midyan və Efa köşəkləri torpaqlarını dolduracaq. Bütün Səba xalqı gəlib qızıl və kündür gətirəcək, Rəbbə həmdlər söyləyəcək.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 72, 1-2. 7-8. 10-13**

**N: Hamınız gəlin və Allaha səcdə edin.**

Ey Allah, padşaha ədalət ver, Şah oğluna salehlik ver.
Qoy Sənin xalqına salehliklə, məzlumlara ədalətlə hakimlik etsin.
Bu padşahın ömrü boyu qoy salehlər çiçək açsın, +
göydə ay durduqca qoy firavanlıq artsın.
Dənizdən-dənizə qədər, Fəratdan yerin ucqarlarına qədər səltənət sürsün.
Tarşişin və adaların padşahları ona xərac gətirsin, +
Səba və Seva padşahları ona bəxşiş versin.
Qarşısında bütün padşahlar təzim etsin, qoy bütün millətlər ona xidmət etsin!
Çünki o, imdad deyib çağıran fəqirləri, məzlumları, köməksizləri qurtarır.
Yoxsula, fəqirə rəhm edir, fəqirlərin canlarını azad edir.

**Müqəddəs Paulun Efeslilərə məktubundan sözlər** *Ef 3, 2-3. 5-6*

Eşitdiyiniz kimi Allah mənə lütf bəxş edib və bunu sizə çatdırmaq vəzifəsini mənə tapşırıb. Yuxarıda qısaca yazdığım kimi Allah sirr olan niyyətini mənə vəhy vasitəsilə bildirdi. Bu sirr əvvəlki nəsillərin dövründə bəşər övladlarına açıq bildirilməmişdi. İndisə Məsihin müqəddəs həvarilərinə və peyğəmbərlərinə Ruh vasitəsilə açılmışdır. Sirr budur ki, başqa millətlər də Müjdə vasitəsilə eyni irsin ortağı, eyni bədənin üzvü və Məsih İsada vədin şərikidirlər.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Mt 2,2*

Səmada onun ulduzunu gördük və hədiyyələr gətirərək,
Rəbbə səcdə etməyə gəldik.
**Alleluya!**

# † İncil †

*Mt 2, 1-12*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
İsa padşah Hirodun dövründə Yəhudeyanın Bet-Lexem şəhərində anadan olan zaman müdrik adamlar şərqdən Yerusəlimə gəlib dedilər: «Yəhudilərin anadan olmuş Padşahı haradadır? Şərqdə Onun ulduzunu gördük və Ona səcdə qılmağa gəldik».
Padşah Hirod bunu eşitdikdə özü və bütün Yerusəlim xalqı təşvişə düşdü.
Hirod bütün başçı kahinləri və xalqın ilahiyyatçılarını toplayaraq onlardan Məsihin harada doğulacağını soruşdu. «Yəhudeyanın Bet-Lexem şəhərində» dedilər. «Çünki peyğəmbər vasitəsilə belə yazılmışdır: “Ey Yəhuda torpağındakı Bet-Lexem, sən Yəhuda başçıları arasında ən kiçik deyilsən, çünki xalqım İsrailə çoban olan Başçı səndən çıxacaq”».
Buna görə Hirod müdrik adamları gizlicə çağırıb onlardan ulduzun göründüyü vaxtı tam olaraq öyrəndi. «Gedin, Körpəni diqqətlə axtarın, tapan kimi mənə xəbər verin ki, mən də gedib Ona səcdə qılım» deyərək onları Bet-Lexemə göndərdi. Onlar padşahı dinlədikdən sonra yola düşdülər. O vaxt şərqdə gördükləri ulduz onlara yol göstərirdi. O, körpənin olduğu yerin üzərinə çatdıqda dayandı. Onlar ulduzu gördükləri vaxt çox sevindilər. Evə girib Körpəni anası Məryəmlə birlikdə görüb, yerə qapanaraq səcdə qıldılar. Xəzinələrini açıb Ona hədiyyələri – qızıl, kündür və mirranı təqdim etdilər. Sonra röyada onlara Hirodun yanına qayıtmamaları bildirildiyinə görə başqa yolla öz ölkələrinə getdilər.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# İsa Məsihin vəftiz bayramı

Epifaniyadan birinci Rəbb günü

**Peyğəmbər Yəşayanın kitabından sözlər** *Yeş 42, 1-4. 6-7*

Budur, Mənim saxladığım, Ürəyim istəyən seçilmiş qulum! Mən Öz Ruhumu onun üzərinə qoymuşam. O, millətlərə ədalət gətirəcək. Çığırmayacaq, səsini qaldırmayacaq, küçələrdə səsi çıxmayacaq. Əzilmiş qamışı qırmayacaq, közərən piltəni söndürməyəcək. O, ədaləti sədaqətlə yayacaq. O, yer üzündə ədaləti quranadək ümidini, cəsarətini itirməyəcək, Uzaq diyarlar onun qanununa etibar edəcək. «Mən Rəbb salehliyimlə səni çağırdım, sənin əlindən tutacağam, səni qoruyacağam, səni xalqım üçün əhd edəcəyəm, millətlərə nur edəcəyəm ki, korların gözlərini açasan, zindandan dustaqları, zülmətdə, həbsxanada oturanları azad edəsən.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 29, 1a+2. 3ac-4. 3b+9c-10**

**N: Rəbb Öz xalqına qüvvət verir,**
**O, xalqına firavanlıq və bərəkət verir.**

Ey ilahi varlıqlar, Rəbbə verin izzəti, qüdrəti Rəbbə verin!
Adına layiq olan izzəti Rəbbə verin, müqəddəslik zinəti ilə Rəbbə səcdə edin!
Rəbbin səsi suların üzərindədir, Rəbb ümman suların üzərindədir.
Rəbbin səsi qüdrətlidir, Rəbbin səsi əzəmətlidir.
Ehtişamlı Allah, gurlar, məbədində hamı deyər: «Ehtişamlısan!»
Rəbb daşan sular üstündəki taxtında oturub, O, əbədi Padşahdır, taxtında oturub.

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 10, 34-38*

Peter sözə başlayıb dedi: «İndi bildim ki, həqiqətən, Allah insanların şəxsiyyətinə baxmır. Milliyətindən asılı olmayaraq kim ki Ondan qorxub haqq iş görür, Ona məqbuldur. O, İsrail övladlarına Öz kəlamını göndərdi və hamının Sahibi olan İsa Məsih vasitəsilə sülh müjdələdi. Bilirsiniz ki, Yəhyanın vəftiz üçün çağırışından sonra Qalileyadan başlayaraq bütün Yəhudeyada nələr baş verdi. Allah Nazaretli İsanı Müqəddəs Ruhla və qüdrətlə məsh etdi. İsa xeyirxahlıq edərək hər yanı gəzib iblisin təzyiqinə məruz qalanların hamısına şəfa verdi. Çünki Allah Ona yar idi.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Mk 1, 11*

Göy açıldı və Atanın səsi eşidildi: ”Mənim sevgili Oğlum budur, onu eşidin”.

**Alleluya!**

**† İncil † - A ili** *Matta 3, 13-17*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**
O vaxt İsa Yəhya tərəfindən vəftiz olmaq üçün Qalileyadan İordan çayına, Yəhyanın yanına gəldi. Yəhya Ona mane olmaq istəyərək dedi: «Sən məni vəftiz etməlisən, Sən niyə mənim yanıma gəlirsən?» İsa ona cavab verdi: «Hələlik buna razı ol. Çünki biz salehlik işini beləcə yerinə yetirməliyik». İsa vəftiz olunan kimi sudan çıxdı. O vaxt göylər Ona açıldı və Allahın Ruhunun göyərçin kimi endiyini və Öz üzərinə qonduğunu gördü. Göylərdən bir səda gəldi: «Bu Mənim sevimli Oğlumdur, Ondan razıyam».
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

**† İncil † - B ili** *Mark 1, 7-11*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**
O bəyan edirdi: "Məndən sonra məndən daha Qüdrətlisi gəlir. Mən əyilib Onun çarıqlarının bağını açmağa belə, layiq deyiləm. Mən sizi su ilə vəftiz etdim, amma O sizi Müqəddəs Ruhla vəftiz edəcək". O günlərdə İsa Qalileyanın Nazaret şəhərindən gəlib Yəhya tərəfindən İordan çayında vəftiz olundu. İsa sudan çıxan kimi göylərin yarıldığını və Ruhun göyərçin kimi Öz üzərinə endiyini gördü. Göylərdən bir səda gəldi: "Sən Mənim sevimli Oğlumsan, Səndən razıyam".
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

**† İncil † - C ili** *Luka 3, 15-16. 21-22*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**
Xalqın gözü yolda ikən, hamı Yəhya haqqında ürəyində düşünürdü: «Görəsən, bu Məsihdirmi?» Yəhya hamısına cavab verib deyirdi: «Mən sizi su ilə vəftiz edirəm, fəqət məndən Qüdrətlisi gəlir. Mən Onun çarıqlarının bağını açmağa layiq deyiləm. O, sizi Müqəddəs Ruh və odla vəftiz edəcəkdir.
Bütün xalq vəftiz edilərkən, İsa da vəftiz olunub dua etdiyi zaman, göy açıldı, və Müqəddəs Ruh cismani şəkildə, göyərçin kimi Onun üzərinə endi və göydən: «Sən Mənim sevimli Oğlumsan, Səndən çox məmnunam», - deyən bir səda gəldi.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC DÖVRÜ

# Kül çərşənbəsi – ABC (Küllərin Təqdis Edilməsi)

**Peyğəmbər Yoelin kitabından sözlər** *Yoel 2, 12-18*

Rəbb belə bəyan edir: «İndi isə orucla, ağlamaqla, yas tutmaqla bütün qəlbinizlə Mənə dönün.
Paltarlarınızı deyil, ürəyinizi yırtın, Allahınız Rəbbə tərəf qayıdın». Çünki O, lütfkar və rəhmlidir, hədsiz səbirlidir, bol məhəbbətlidir, bəla göndərməz, rəhm edər. Kim bilir, bəlkə rəhm edib dönər? Sonra Allahınız Rəbbə Taxıl və maye təqdimlərini verəsiniz deyə sizə bərəkət verər.
Sionda şeypur çalın, oruc üçün vaxt təyin edin, təntənəli toplantı çağırın. Xalqı bir yerə yığın, camaatı təqdis edin, ağsaqqalları yığın, uşaqları və südəmər çağaları toplayın. Bəy öz otağından, gəlin də öz gərdəyindən çıxsın. Rəbbə xidmət edən kahinlər məbədin eyvanı ilə qurbangah arasında ağlayıb desin: «Ya Rəbb, xalqına qıyma, Öz irsini rüsvay olmağa qoyma! Qoyma onlar millətlərin dilinə düşsün. Axı nə üçün xalqlar arasında belə deyilsin: "Bəs hanı onların Allahı?"»
O zaman Rəbb Öz torpağına qıymayacaq, Öz xalqına rəhm edəcək.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 51, 1-2. 3-4. 10-11. 12-13. 14+17**

**N: Allah, bizə lütf et, çünki günah işlətmişik.**

Məhəbbətin naminə, ey Allah, mənə lütf et, bol mərhəmətinə görə asiliklərimi sil.
Mənim bütün təqsirlərimi yu, günahımdan təmizlə.
Çünki asiliklərimi bilirəm, günahım daim gözümün qarşısındadır.
Sənə, yalnız Sənə qarşı günah işlətmişəm, gözündə pis sayılanı etmişəm.
Mənə görə çıxarılan hökmündə ədalətlisən, məni məhkum etməkdə haqlısan.
Mən doğulandan bəri günahkaram, ana bətnindən belə, təqsirkaram.
Ey Allah, məndə təmiz ürək yarat, daxilimə yenidən sədaqət ruhunu ver.
Məni Öz hüzurundan atma, Müqəddəs Ruhunu məndən götürmə.
Xilasının sevincini mənə qaytar, itaətkarlıq ruhu verib mənə dayaq ol.
Ey Xudavənd, Sən dilimi aç, ağzımla Sənə olan həmdlərimi bəyan edim.

**Müqəddəs Paulun Korinflilərə 2-ci məktubundan sözlər** *2 Kor 5, 20 – 6, 2*

Beləliklə, biz Məsihin nümayəndələriyik, sanki Allah bizim vasitəmizlə rica edir. Məsihin adı ilə yalvarırıq ki, Allahla barışın. Günahla əlaqəsi olmayan Məsihi Allah bizim uğrumuzda günah qurbanı verdi ki, Onda biz Allahın salehliyinə nail olaq. Buna görə Allahla birgə işləyən bizlər rica edirik ki,

Onun lütfünü boş yerə qəbul etməyəsiniz. Çünki O deyir:
«Münasib vaxtda səni eşitdim, Xilas günü sənə kömək etdim».
Budur, indi münasib vaxt, budur, indi xilas günü.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**
Rəbbim, sözlərin həqiqətdir və əmrlərin qurtuluşumuza yoldur.
İsa Məsih belə deyir: “Tövbə edin, çünki Allahın hökmdarlığı yaxındır”.
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Mt 6, 1-6. 16-18*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Ehtiyatlı olun, özünüzü insanlara göstərmək üçün yaxşılıq etməyin. Yoxsa göylərdə olan Atanızdan mükafat almazsınız. Ona görə də sədəqə verdiyin zaman öz önündə car çəkmə. Çünki ikiüzlülər insanların onları tərifləməsi üçün sinaqoqlarda və küçələrdə belə edirlər. Doğrusunu sizə deyirəm ki, onlar mükafatlarını aldılar. Amma sən sədəqə verdiyin zaman sol əlin sağ əlinin nə etdiyini bilməsin. Belə ki verdiyin sədəqə gizli qalsın. Gizlidə olanı görən Atan səni mükafatlandıracaq. Dua etdiyiniz zaman ikiüzlülər kimi olmayın. Çünki beləələri insanlar onları görsün deyə sinaqoqlarda və küçə tinlərində durub dua etməyi sevirlər. Doğrusunu sizə deyirəm ki, onlar mükafatlarını aldılar. Amma sən dua etdiyin zaman öz otağına girib qapını ört. Gizlində olan Atana dua et. Gizlində etdiyin duanı görən Atan səni mükafatlandıracaq. Oruc tutduğunuz zaman ikiüzlülər kimi qaşqabaqlı gəzməyin. Onlar oruc tutduqlarını insanlara göstərmək üçün özlərini qəmgin tuturlar. Doğrusunu sizə deyirəm ki, onlar mükafatlarını aldılar. Amma sən oruc tutduğun zaman başına yağ sürt və üzünü yu. Belə ki insanlara deyil, gizlində olan Atana oruclu görünəsən. Gizlində olanı görən Atan səni mükafatlandıracaq.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC DÖVRÜ A

# 1-ci Rəbb günü Oruc dövründə - A ili

**Yaradılış kitabından sözlər** *Yar 2:7-9; 3:1-7*

Rəbb Allah yerin torpağından insanı düzəltdi və onun burnuna həyat nəfəsi üfürdü. Beləcə insan canlı varlıq oldu. Sonra Rəbb Allah şərqdə yerləşən Edendə bir bağ saldı və düzəltdiyi insanı orada yerləşdirdi. Rəbb Allah torpaqda gözəl görünüşlü və yemək üçün şirin meyvəli cürbəcür ağaclar yetirdi. O həmçinin bağın ortasında həyat ağacını və xeyirlə şəri bilmə ağacını bitirdi.

Rəbb Allahın yaratdığı bütün çöl heyvanlarının ən hiyləgəri ilan idi. İlan qadına dedi: «Doğrudanmı, Allah sizə "bağda olan heç bir ağacın bəhrələrindən yeməyin" deyib?» Qadın ilana dedi: «Bağdakı ağacların bəhrələrindən yeyə bilərik. Amma bağın ortasındakı ağacın meyvələri barədə Allah deyib: "Ondan yeməyin və ona toxunmayın, yoxsa öləcəksiniz!"» İlan qadına dedi: «Yox, əsla ölməzsiniz. Əksinə, Allah bilir ki, o meyvələrdən yediyiniz gün gözləriniz açılacaq və xeyirlə şəri bilərək Allah kimi olacaqsınız». Qadın gördü ki, ağacın meyvəsi yemək üçün yaxşıdır, gözə xoş görünür və bu ağac insana dərrakə verməyi vəd edir. Buna görə də o həmin meyvədən dərib yedi. Sonra yanında olan ərinə də verdi, o da yedi.

O vaxt ikisinin də gözləri açıldı və çılpaq olduqlarını bildilər. Buna görə də əncir yarpaqlarını bir-birinə hörüb özlərinə fitə düzəltdilər.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 51, 1-2. 10-11. 12-13**

**N: Ey Allah, məndə təmiz ürək yarat.**

Məhəbbətinə görə, ey Allah, mənə rəhm et, +
bol mərhəmətinə görə qanunsuzluqlarımı sil.
Təqsirimi tamamilə yu, günahımdan məni təmizlə.
Ey Allah, məndə təmiz ürək yarat, daxilimə yenidən sədaqət ruhunu ver.
Məni Öz hüzurundan atma, Müqəddəs Ruhunu məndən götürmə.
Xilasının sevincini mənə qaytar, itaətkarlıq ruhu verib mənə dayaq ol.
Qoy Sənin yollarını qanunsuzlara öyrədim, günahkarlar Sənə sarı dönsünlər.

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rom 5:12-19 ya 5:12, 17-19*

Beləliklə, günah bir insan vasitəsilə, ölüm də günah vasitəsilə bu dünyaya gəldi. Beləcə ölüm bütün insanlara yayıldı, çünki hamı günah etdi. Qanundan əvvəl də dünyada günah var idi. Amma qanun olmayanda günah hesaba alınmır. Lakin Adəmdən Musaya qədər ölüm hamıya, hətta Adəmin əmri pozmasına bənzər bir günah etməyənlərə də hökmranlıq etdi. Adəm o gələcək İnsanın əvvəlcədən göstərilən təsviri idi. Amma Allahın ənamı təqsir kimi deyil. Çünki bir adamın təqsiri üzündən çox adam öldüsə də, Allahın lütfü və bir Adamın, yəni İsa Məsihin lütfü ilə verilən ənam bir çoxları üçün daha böyük təsir göstərdi. Allahın ənamı həmin bir adamın günahının nəticəsi kimi deyil: bir günahdan sonra gələn hökm

məhkumluq gətirdi, amma çoxlu təqsirdən sonra gələn ənam salehlik gətirdi. Əgər bir adamın təqsiri üzündən ölüm həmin adamın vasitəsilə hökmranlıq etdisə, Allahın bol lütfünü və salehlik ənamını qəbul edənlər bir Adam, yəni İsa Məsih vasitəsilə daha qəti olaraq həyatda hökmranlıq edəcək. Deməli, necə ki bir təqsir üzündən bütün adamlar məhkum olundu, eləcə də bir saleh əmələ görə bütün adamlara yaşamaq üçün salehlik verildi. Necə ki bir adamın itaətsizliyi üzündən bir çoxları günahkar sayıldı, eləcə də bir Adamın itaəti sayəsində bir çoxları saleh sayılacaq.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**
Rəbbim, sözlərin həqiqətdir və əmrlərin qurtuluşumuza yoldur.
İnsan yalnız çörəklə deyil, Allahın ağzından çıxan hər kəlmə ilə yaşayar.
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Mt 4:1-11*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Bundan sonra İsa iblis tərəfindən sınağa çəkilmək üçün Ruh tərəfindən səhraya aparıldı. İsa qırx gün-qırx gecə oruc tutandan sonra acdı. O zaman sınağaçəkən yaxınlaşıb Ona dedi: «Əgər Sən Allahın Oğlusansa, bu daşlara əmr et ki, çörəyə dönsün». İsa ona belə cavab verdi: «“İnsan yalnız çörəklə deyil, Allahın ağzından çıxan hər kəlmə ilə yaşayar” deyə yazılmışdır». Sonra iblis Onu müqəddəs şəhərə gətirdi və məbədin qülləsinə qoyub dedi: «Əgər Sən Allahın Oğlusansa, Özünü aşağı at. Axı “Allah Sənə görə mələklərinə əmr edər ki,
Səni əlləri üstündə aparsınlar, ayağın bir daşa dəyməsin”
deyə yazılmışdır». İsa ona dedi: «“Allahın Rəbbi sınama” deyə də yazılmışdır». İblis yenə İsanı çox yüksək bir dağa çıxartdı. Ona dünyanın bütün padşahlıqlarını və şan-şöhrətini göstərib dedi: «Əgər Sən yerə qapanıb mənə səcdə etsən, bütün bu şeyləri Sənə verəcəyəm». İsa dedi: «Rədd ol, Şeytan! “Allahın Rəbbə səcdə et və yalnız Ona ibadət et” deyə yazılmışdır». Bundan sonra iblis İsanı tərk etdi və mələklər gəlib Ona xidmət edirdi.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 2-ci Rəbb günü Oruc dövründə - A ili

**Yaradılış kitabından sözlər** *Yar 12, 1-4a*

Rəbb İbrama dedi: «Öz torpağından, qohumlarının arasından, ata evindən çıx, sənə göstərəcəyim torpağa get. Səndən böyük bir millət törədəcəyəm, sənə xeyir-dua verəcəyəm, adını ucaldacağam və bərəkət qaynağı olacaqsan. Sənə xeyir-dua verənlərə xeyir-dua verəcəyəm, sənə lənət edənləri lənətləyəcəyəm. Yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq». İbram Rəbbin ona söylədiyi kimi oradan çıxdı.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 33, 4-5. 18-19. 20+22**

**N:Ya Rəbb, ümidimizi Sənə bağlamışıq,
məhəbbətin üzərimizdən tükənməsin.**

Rəbbin sözü haqdır, hər işini sədaqətlə aparır.
Rəbb salehliyi və ədaləti sevir, yer üzü Onun məhəbbəti ilə dolur.
Rəbbin gözü Ondan qorxanlara, Onun məhəbbətinə ümid bağlayanlara baxar.
İstəyir ki, onları ölümdən qurtarsın, qıtlıqda belə, onlar sağ qalsın.
Könlümüz Rəbbin yolunu gözlər, Odur köməyimiz və sipərimiz.
Ya Rəbb, ümidimizi Sənə bağlamışıq, məhəbbətin üzərimizdən tükənməsin.

**Müqəddəs Paulun Timoteyə 2-ci məktubundan sözlər** *2 Tim 1, 8b-10*

Allahın gücü ilə Müjdə uğrunda mənimlə birlikdə əziyyətə döz. Allah bizi əməllərimizə görə deyil, öz məqsədinə və lütfünə görə xilas edib, müqəddəs olmağa dəvət etdi. O lütf bizə İsa Məsih vasitəsilə əzəldən bəri verilib indi isə Xilaskarimiz İsa Məsihin zühuru ilə üzə çıxdı. O, ölümü yox etdi, Müjdə vasitəsilə həyatı və ölməzliyi aşkar etdi.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *Mt 17, 5*

Parlaq buluddan Atanın səsi gəldi və belə dedi:
“Bu Mənim sevimli Oğlumdur.  Onu dinləyin”!
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Mt 17, 1-9*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Altı gündən sonra İsa Özü ilə yalnız Peter, Yaqub və qardaşı Yəhyanı götürüb hündür bir dağa çıxdı. Onların qarşısında görünüşü dəyişdi. Üzü günəş kimi parladı və libası işıq kimi ağ oldu. O an Musa və İlyas onlara göründü. Onlar İsa ilə söhbət edirdi. Peter sözə başlayıb İsaya dedi: «Ya Rəbb! Nə yaxşı ki biz buradayıq. Əgər istəyirsənsə, burada üç çardaq qurum – biri Sənin, biri Musa, biri də İlyas üçün». Peter hələ danışan zaman parlaq bir bulud onların üzərinə kölgə saldı. Budur, buluddan bir səs gəldi: «Bu Mənim sevimli Oğlumdur, Ondan çox məmnunam, Ona qulaq asın!» Şagirdlər bunu eşidəndə üzüstə yerə yıxıldılar və onları böyük dəhşət bürüdü. İsa gəlib onlara toxunaraq «Qalxın, qorxmayın!» dedi. Onlar da başını qaldıranda İsadan başqa kimsəni görmədilər. Dağdan enərkən İsa şagirdlərinə tapşırdı: «Bəşər Oğlu ölülərdən dirilənə qədər gördüyünüzü heç kimə söyləməyin».
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 3-cü Rəbb günü Oruc dövründə - A ili

**Çıxış kitabından sözlər** *Çıx 17, 3-7*

Xalq orada olanda susamışdı. Ona görə də Musanın əlindən deyinib dedi: «Axı niyə bizi Misirdən çıxartdın? Bu bizi, oğullarımızı və heyvanlarımızı susuzluqdan öldürmək üçündürmü?»
Musa Rəbbə fəryad edib dedi: «Axı mən bu xalq ilə nə edim? Bir az da keçsə, məni daşqalaq edəcəklər».
Rəbb Musaya dedi: «Xalqın qarşısına çıx. Özünlə bərabər bir neçə İsrail ağsaqqalı götür. Nil çayına vurduğun əsanı əlinə alıb irəli get. Orada – Xorevdəki qayanın üstündə Mən sənin önündə dayanacağam. Zərbə ilə qayaya vur və oradan xalq üçün içməli su çıxacaq». Musa da İsrail ağsaqqallarının gözü qarşısında bunu etdi. Musa o yeri Massa və Meriva adlandırdı, çünki orada İsrail övladları münaqişə etmişdilər və «görəsən Rəbb aramızdadır ya yox» deyə Rəbbi sınamışdılar.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 95, 1-2. 6-7. 8-9**

**N: Ey Rəbb, qoy ürəklərimiz inadkar olmasın,
amma Sənin dediyini eşidək.**

Gəlin Rəbbi mədh edək, bizi qurtaran Qayaya sevincdən cuşa gələrək nida edək.
Şükür edərək hüzuruna gedək, cuşa gəlib ilahilərlə Ona nida edək!
Gəlin Ona səcdə edək, əyilək, bizi yaradan Rəbbin hüzurunda diz çökək.
Çünki O, Allahımızdır, biz Onun otlağının xalqıyıq, əlinin altındakı sürüsüyük.
Kaş ki bu gün dediyini eşidəydiniz: Qoy ürəkləriniz Merivada olduğunuz kimi, səhradakı Massada keçən gündə olduğu kimi inadkar olmasın.
Orada atalarınız Məni sınadılar, əməllərimi görsələr də, Məni yoxladılar.

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rom 5, 1-2. 5-8*

Beləliklə, imana əsasən saleh sayıldığımız üçün Rəbbimiz İsa Məsih vasitəsilə Allahla barışmış oluruq. Elə Məsihin vasitəsilə də daxilində qaldığımız lütfə imanla nail olduq və Allahın izzətinə ümid bağlamağımızla fəxr edirik. Ümidimiz də boşa çıxmır, çünki Allah məhəbbəti bizə verilən Müqəddəs Ruh vasitəsilə ürəklərimizə tökülüb. Biz hələ gücsüz ikən Məsih müəyyən zamanda allahsız adamların uğrunda öldü. Çətin işdir ki, kimsə saleh bir adamın uğrunda ölsün; bəlkə də yaxşı bir adamın uğrunda kimsə ölməyə cəsarət edər. Lakin Allah bizə olan məhəbbətini bununla sübut edir ki, biz hələ günahkar ola-ola Məsih bizim uğrumuzda öldü.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *bax. Yəh 4, 15*

Rəbbim, sən doğrudan dünyanın xilaskarısan.
Mənə həyata qovuşduran su ver ki, artıq susamayım.

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Yəh 4, 5-42*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa Yaqubun öz oğlu Yusifə verdiyi torpağa yaxın olan Samariyanın Suxar adlanan şəhərinə gəldi. Yaqubun quyusu orada idi. Yol İsanı yorduğu üçün quyunun yanında oturdu. Altıncı saat radələri idi. Samariyalı bir qadın quyudan su çəkməyə gəldi. İsa ona «Mənə su ver, içim» dedi. Çünki şagirdləri yemək almaq üçün şəhərə getmişdi.
Samariyalı qadın Ona dedi: «Sən bir Yəhudisən, mənsə Samariyalı bir qadın. Necə Sən məndən su istəyə bilərsən?» Çünki Yəhudilər Samariyalılarla ünsiyyət etmirdi.
İsa ona cavab verdi: «Əgər sən Allahın bəxşişini və "Mənə su ver, içim" deyənin Kim olduğunu bilsəydin, özün Ondan su istəyərdin, O da sənə həyat suyu verərdi».
Qadın Ona dedi: «Ağa, su çəkmək üçün bir qabın yox, quyu da dərin. Bəs o həyat suyunu haradan alacaqsan? Məgər Sən bu quyunu bizə verən, oğulları və mal-qarası ilə buradan su içən atamız Yaqubdan da üstünsən?»
İsa ona cavab verdi: «Bu sudan içən hər kəs yenə susayar, amma Mənim ona verəcəyim sudan kim içsə, heç vaxt susamaz. Lakin ona verəcəyim su onun daxilində əbədi həyat verən bir çeşməyə çevriləcək».
Qadın Ona dedi: «Ağa, bu suyu mənə ver ki, heç vaxt susamayım və su çəkmək üçün buraya gəlməyim».
İsa qadına «get ərini çağır və buraya gəl» dedi. Qadın da Ona «ərim yoxdur» söylədi. İsa ona dedi: «Ərinin olmadığını düz söylədin, çünki beş dəfə ərə getmisən, indi səninlə yaşayan da ərin deyil, sən bunu düz söylədin».
Qadın Ona dedi: «Ağa, görürəm ki, Sən peyğəmbərsən. Bizim atalarımız bu dağda ibadət edirdi, amma siz deyirsiniz ki, ibadət etmək üçün lazımi yer Yerusəlimdədir».
İsa ona dedi: «Ey qadın, Mənə inan, artıq o zaman yetişir ki, Ataya nə bu dağda, nə də Yerusəlimdə ibadət edəcəksiniz. Siz bilmədiyinizə ibadət edirsiniz, bizsə bildiyimizə ibadət edirik, çünki xilas Yəhudilərdən gəlir. Artıq o zaman gəlir və hətta gəldi ki, həqiqi ibadət edənlər Ataya ruhda və həqiqətdə ibadət edəcək. Çünki Ata Özünə belə ibadət edənlər axtarır. Allah ruhdur və Ona ibadət edənlər ruhda və həqiqətdə ibadət etməlidir».
Qadın Ona dedi: «Bilirəm ki, "Məsih" deyilən məsh olunmuş Şəxs gələcək və gələndə bizə hər şeyi bildirəcək».
İsa ona dedi: «Səninlə danışan Odur, O Mənəm».

Bu arada İsanın şagirdləri gəldilər və Onun bir qadınla söhbət etməsinə təəccübləndilər, ancaq heç biri «Nə istəyirsən?» yaxud «Niyə o qadınla danışırsan?» demədi.
Bu zaman qadın səhəngini yerə qoydu və şəhərə gedib adamlara dedi: «Gəlin, etdiyim bütün əməlləri mənə söyləyən Adamı görün. Bəlkə elə Məsih Odur?» Adamlar da şəhərdən çıxıb İsanın yanına gəldi. Bu arada şagirdlər «Rabbi, yemək ye» deyə Ondan xahiş etdilər. Lakin İsa onlara dedi: «Məndə elə yemək var ki, siz ondan xəbərsizsiniz». Onda şagirdlər «Görəsən kimsə Ona yemək gətirdimi?» deyə bir-birlərindən soruşdular.
İsa onlara dedi: «Mənim yeməyim Məni Göndərənin iradəsini yerinə yetirmək, Onun işini tamamlamaqdır. Siz "biçinə dörd ay qalıb" demirsinizmi? Budur, Mən sizə deyirəm: başınızı qaldırıb tarlalara baxın; məhsul bar verib, biçilməyə hazırdır. Əkən də, biçən də birlikdə sevinsin deyə indi biçinçi zəhmət haqqı alır və əbədi həyat üçün məhsul toplayır. Bu işlə bağlı "biri əkər, biri biçər" ifadəsi doğru deyilib. Mən sizi üstündə zəhmət çəkmədiyiniz bir məhsulu biçməyə göndərdim. Başqaları zəhmət çəkdi, sizsə onların zəhmətindən bəhrələndiniz». «Etdiyim bütün əməlləri mənə söylədi» deyə şəhadət edən qadının sözünə görə o şəhərdən olan Samariyalıların bir çoxu İsaya iman etdi. Sonra Samariyalılar İsanın yanına gəlib Ondan xahiş etdilər ki, onların yanında qalsın. İsa da iki gün orada qaldı. Daha çox adam da İsanın sözünə görə iman etdi. Onlar qadına deyirdi: «Biz artıq sənin sözlərinə görə iman etmirik, elə özümüz də eşidib bildik ki, həqiqətən, dünyanın Xilaskarı Budur».
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 4-cü Rəbb günü Oruc dövründə - A ili

## 1-ci Şamuelin kitabından sözlər

*1 Şam 16, 1b. 6-7. 10-13a*

Rəbb Şamuelə dedi:
Yağ buynuzunu yağla doldur və get. Səni Bet-Lexemli Yesseyin yanına göndərirəm. Çünki onun oğulları arasında özüm üçün padşah təyin etmişəm».
Onlar gələrkən Şamuel Eliava baxıb dedi: «Doğrudan da, Rəbbin məsh etdiyi Rəbbin qarşısındadır!»
Lakin Rəbb Şamuelə belə dedi: «Onun görünüşünə və uca boyuna baxma, Mən onu rədd etmişəm. Ona görə ki Rəbb insanın gördüyü kimi görməz, çünki insan zahirə, Rəbb isə ürəyə baxar».
Yessey isə oğlanlarının yeddisini Şamuelin qarşısından keçirdi. Şamuel Yesseyə dedi: «Rəbb bunları seçmədi». Sonra Yesseydən soruşdu: «Oğlanlarının hamısı budur?» Yessey cavab verdi: «Lap kiçiyi də var, odur, qoyun otarır». Şamuel Yesseyə dedi: «Bir nəfər göndər, qoy o da buraya gəlsin. Çünki o buraya gəlməsə, biz süfrəyə oturmayacağıq».
Yessey adam göndərib onu içəri gətirtdi. Oğlan alyanaq, gözləri gözəl, üzü göyçək idi. Rəbb Şamuelə dedi: «Dur, onu məsh et, çünki seçilmiş budur».
Şamuel yağ buynuzunu götürüb qardaşları arasında onu məsh etdi və o gündən başlayaraq Davudun üzərinə Rəbbin Ruhu qüvvə ilə endi.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

## Zəbur 23, 1-3a. 3b-4. 5. 6

**N: Rəbb mənim çobanımdır, möhtac olmaram.**

Rəbb mənim çobanımdır, möhtac olmaram.
O məni yaşıl çəmənlərdə dincəldir, sakit axan sular kənarında gəzdirir.
Məni yenə də canlandırır, ismi şərəfinə salehlik yolu ilə aparır.
Qaranlıq dərədə gəzsəm belə, şərdən qorxmaram, +
çünki Sən mənimləsən, Sənin əsan, Sənin dəyənəyin mənə təsəlli verir.
Düşmənlərimin qarşısında mənim üçün süfrə açırsan,
başıma ətirli yağ çəkirsən, ağzınadək camımı doldurursan.
Bəli, bütün həyatım boyu yaxşılıq, məhəbbət məni izləyir.
Bütün ömrüm boyu Rəbbin evində yaşayacağam!

## Müqəddəs Paulun Efeslilərə məktubundan sözlər

*Ef 5, 8-14*

Siz də bir zamanlar zülmət, indi isə Rəbdə nursunuz. Ona görə də nur övladları kimi həyat sürün. Çünki nurun bəhrəsis hər cür yaxşılıqda, salehlikdə və həqiqətdə görülür. Çalışın, Rəbbi razı salan şeyləri öyrənəsiniz, qaranlığın səmərəsiz əməllərinə şərik olmayın. Əksinə, onları üzə çıxarın. Çünki qaranlıqdakıların gizlincə etdikləri şeyləri söyləmək də ayibdir. Nurun üzə çıxardığı hər şey aşkardır,

bu cür nə aşkara çıxırsa, özü də nur olur. Buna görə belə deyilir: «Ey yatan, oyan və ölülər arasından diril! Məsih sənin üçün nur saçacaq».
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *Yəh 8, 12*
İsa Məsih belə dedi: "Dünyanın Nuru Mənəm.
Mənim ardımca gələn qaranlıqda gəzməyəcək, həyat nuruna malik olacaq".
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Yəh 9, 1-41*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
İsa yolla gedərkən anadangəlmə kor bir adam gördü. Şagirdləri Ondan soruşdu: «Rabbi, kim günah etdi ki, bu adam kor doğuldu: özü, yoxsa ata-anası?» İsa cavab verdi: «Nə özü günah etdi, nə də ata-anası. Amma Allahın işləri onun həyatında görünsün deyə o kor doğuldu. Nə qədər ki gündüzdür, Məni Göndərənin işlərini görməliyik. Tezliklə gecə gəlir, o zaman heç kim işləyə bilməz. Dünyada olduğum müddətdə dünyanın Nuru Mənəm». Bu sözləri deyəndən sonra yerə tüpürdü, tüpürcəklə palçıq düzəltdi və palçığı kor adamın gözlərinə sürtdü. Sonra ona dedi: «Get, Şiloah (tərcüməsi "göndərilmiş" deməkdir) hovuzunda yuyun». O da gedib yuyundu və gözləri açılmış halda qayıtdı. Qonşuları və onu əvvəllər bir dilənçi kimi tanıyanlar deyirdi: «Əvvəllər oturub dilənən adam bu deyilmi?» Bəzisi «odur» dedi, bəzisi «xeyr, amma ona oxşayır» dedi. Özü isə «mənəm» dedi. Ondan «Elə isə gözlərin necə açıldı?» deyə soruşdular. O cavab verdi: «İsa deyilən Adam palçıq düzəldib gözlərimə sürtdü və mənə "Şiloah hovuzuna get, yuyun" dedi, mən də gedib yuyundum və gözlərim açıldı». Ondan «Bəs İsa haradadır?» deyə soruşdular. O isə «bilmirəm» dedi. Əvvəllər kor olan adamı fariseylərin yanına apardılar. İsanın palçıq düzəldib onun gözlərini açdığı gün Şənbə günü idi. Fariseylər o adamdan gözlərinin necə açıldığını soruşdu. O adam da onlara dedi: «O mənim gözlərimə palçıq qoydu, mən də yuyundum və indi görürəm».
Bunu eşidib fariseylərdən bəzisi dedi: «Bu Adam Allahdan gəlməyib, çünki Şənbə gününə riayət etmir». Başqaları isə dedi: «Günahkar adam belə əlamətləri necə göstərə bilər?» Onların arasında fikir ayrılığı düşdü. Onda yenə kor adamdan soruşdular: «Bəs sən bu Adam barədə nə deyirsən? Axı O sənin gözlərini açdı». Kor adam «O, peyğəmbərdir» dedi. Yəhudi başçıları gözləri açılmış adamın ata-anasını çağırmayınca onun kor olub gözləri açıldığına inanmadılar.
Ata-anasından soruşdular: «Kor doğulduğunu söylədiyiniz oğlunuz budurmu? Elə isə necə olur ki, indi görür?» Ata-anası dedi: «Bilirik ki, bu bizim oğlumuzdur və

anadan kor doğulub. Ancaq bilmirik ki, indi necə görür ya gözlərini kim açıb. Ondan soruşun. Həddi-büluğa çatıb, qoy özü barədə özü danışsın». Ata-anası Yəhudi başçılarından qorxduqları üçün bu sözləri söylədilər, çünki Yəhudi başçıları artıq qərara almışdılar ki, İsanın Məsih olduğunu açıq söyləyən hər kəs sinaqoqdan qovulsun. Buna görə də o adamın ata-anası «həddi-büluğa çatıb, ondan soruşun» dedi.
Yəhudi başçıları əvvəllər kor olan adamı ikinci dəfə çağırıb ona dedilər: «Allahın izzəti naminə doğru söylə. Biz bu Adamın günahkar olduğunu bilirik». O da cavab verdi: «O Adamın günahkar olub-olmadığını bilmirəm. Bir şeyi bilirəm ki, əvvəl kor idim, amma indi görürəm». Ondan soruşdular: «O sənə nə etdi? Gözlərini necə açdı?» Onlara cavab verdi: «İndicə sizə söylədim, amma qulaq asmadınız. Bunu niyə yenə eşitmək istəyirsiniz? Yoxsa siz də Onun şagirdi olmaq istəyirsiniz?» Onu söyüb dedilər: «Onun şagirdi sənsən, biz isə Musanın şagirdləriyik. Biz Allahın Musa ilə danışdığını bilirik, bu Adamın isə haradan gəldiyini bilmirik». O adam onlara dedi: «Qəribədir ki, siz Onun haradan gəldiyini bilmirsiniz, amma O mənim gözlərimi açdı. Allahın günahkarlara qulaq asmadığını bilirik, lakin Allaha hörmət edib Onun iradəsinə əməl edən adama O qulaq asır. Əzəldən bəri eşidilməyib ki, kimsə anadangəlmə kor bir adamın gözlərini açsın. Əgər bu Adam Allahdan gəlməsəydi, heç nə edə bilməzdi». Onlar o adama cavab verdi: «Başdan-ayağa günah içində doğuldun. İndi sənmi bizə dərs verirsən?» Onda onu bayıra atdılar.
O adamı bayıra atdıqlarını İsa eşitdi və onu tapıb dedi: «Sən Bəşər Oğluna iman edirsənmi?» O soruşdu: «Ağa, O kimdir ki, Ona iman edim?»
İsa ona dedi: «İndi gördüyün və səninlə danışan Adam Odur». O da «ya Rəbb, iman edirəm» dedi və İsaya səcdə etdi. İsa dedi: «Hökm etmək üçün bu dünyaya gəldim ki, qoy görməyənlər görsün, görənlərsə kor olsun». Onun yanında olan bəzi fariseylər bu sözləri eşidib «Yoxsa biz də koruq?» deyə Ondan soruşdular. İsa onlara dedi: «Əgər kor olsaydınız, günahınız olmazdı. Amma indi "görürük" dediyiniz üçün günahınız üstünüzdə qalır.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 5-ci Rəbb günü Oruc dövründə - A ili

**Peyğəmbər Yezekelin kitabından sözlər** *Yez 37, 12b-14*

Xudavənd Rəbb belə deyir: "Ey xalqım, Mən qəbirlərinizi açıb sizi oradan çıxaracaq və İsrail torpağına gətirəcəyəm.
Ey xalqım, Mən qəbirlərinizi açanda, sizi qəbirlərinizdən çıxaranda biləcəksiniz ki, Rəbb Mənəm.
Mən daxilinizə Öz Ruhumu qoyacağam və siz diriləcəksiniz. Sizi öz torpağınıza yerləşdirəcəyəm. Onda biləcəksiniz ki, Mən Rəbb bunu söylədim və hökmən yerinə yetirəcəyəm" Rəbb belə bəyan edir».
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 130, 1-2. 3-4. 5-7a. 7b-8**

**N: Rəbdə məhəbbət var, Onda bol-bol qurtuluş var.**

Ya Rəbb, dərinliklərdən Səni səsləyirəm.
Ey Xudavənd, səsimi eşit, yalvarış səsimi yaxşı dinlə.
Ya Rəbb, bizim təqsirlərimizi siyahıya alsaydın, ey Xudavənd, +
kim bunun qarşısında dayana bilər?
Amma Sən bağışlayansan, ona görə hamı Səndən çəkinir.
Rəbbi gözləyirəm, döyünən ürəyim gözləyir, Onun sözünə ümid edirəm.
Keşikçilər səhərin açılmasını gözlər, bəli, keşikçilər səhərin açılmasını gözlər,
qəlbim isə bundan da çox Xudavəndin həsrətini çəkər.
Ey İsrail, Rəbbə ümidini bağla! +
Çünki Rəbdə məhəbbət var, Onda bol-bol qurtuluş var.
Ey İsrail, O səni bütün təqsirlərindən azad edər!

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rom 8, 8-11*

Həmçinin cismani təbiətin hökmündə olanlar Allahı razı sala bilməz. Lakin Allahın Ruhu sizdə yaşayırsa, siz cismani təbiətin hökmündə deyil, Ruhun hökmündəsiniz. Kimdə Məsihin Ruhu yoxdursa, o adam Məsihə məxsus deyil. Əgər Məsih sizdədirsə, bədəniniz günah üzündən ölü, ruhunuzsa salehlik üzündən diridir. Əgər İsanı ölülər arasından Dirildənin Ruhu sizdə yaşayırsa, Məsihi ölülər arasından Dirildən, sizdə yaşayan Ruhu ilə sizin də fani bədənlərinizə həyat verəcək.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *Yəh 11, 25*

İsa Məsih belə deyir: "Dirilmə və həyat Mənəm.
Mənə iman edən ölsə də, yaşayar".
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

**† İncil †**

*Yəh 11, 1-45*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Lazar adlı bir adam xəstələnmişdi. O, Məryəmlə bacısı Martanın yaşadığı Bet-Anya kəndindən idi. Bu həmin Məryəm idi ki, Rəbbin üzərinə ətirli yağ töküb ayaqlarını saçları ilə siləcəkdi. Xəstələnən Lazar onun qardaşı idi. Bu səbəbdən iki bacı «ya Rəbb, sevdiyin adam xəstədir» deyə İsaya xəbər göndərdi. İsa bunu eşidib dedi: «Bu xəstəliyin nəticəsi ölüm yox, Allahın izzəti və Allahın Oğlunun bununla izzət qazanması olacaq». İsa Martanı, onun bacısını və Lazarı sevirdi. Lazarın xəstələndiyini eşidəndə olduğu yerdə daha iki gün qaldı. Sonra isə şagirdlərə «yenə Yəhudeyaya gedək» dedi. Şagirdlər Ona dedi: «Rabbi, oradakı Yəhudilər bir az əvvəl Səni daşqalaq etmək istəyirdi. Sən yenə də oraya qayıdırsan?» İsa cavab verdi: «Gündə on iki saat yoxdurmu? Kim gündüz vaxtı gəzərsə, büdrəməz, çünki bu dünyanın işığını görür. Lakin kim gecə vaxtı gəzərsə, büdrəyər, çünki daxilində işıq yoxdur». İsa bu sözləri söylədikdən sonra onlara dedi: «Dostumuz Lazar uyuyub. Mən onu oyatmaq üçün gedirəm». Onda şagirdlər Ona dedi: «Əgər uyuyubsa, sağalacaq». İsa onun ölümü barədə danışmışdı, amma onlar elə bildilər ki, yuxuya getdiyini söyləyib. Onda İsa onlara açıqca dedi: «Lazar ölüb. Mən də sizin iman etməyiniz üçün orada olmadığıma sevinirəm. Amma gəlin onun yanına gedək». «Əkiz» adlanan Toma o biri şagirdlərə dedi: «Biz də gedək, Onunla ölək». İsa gəlib Lazarın artıq dörd gündən bəri qəbirdə olduğunu bildi. Bet-Anya Yerusəlimdən on beş stadi məsafəsində idi.
Bir çox Yəhudi Marta və Məryəmə qardaşlarının ölümünə görə təsəlli verməyə gəlmişdi. Marta İsanın gəldiyini eşidəndə Onu qarşılamağa çıxdı, ancaq Məryəm evdə oturmuşdu. Marta İsaya dedi: «Ya Rəbb, əgər Sən burada olsaydın, qardaşım ölməzdi. Ancaq bilirəm ki, Sən indi də Allahdan nə istəsən, O Sənə verəcək». İsa ona «qardaşın diriləcək» dedi. Marta Ona dedi: «Bilirəm ki, son gündə hamı diriləndə o da diriləcək». İsa ona dedi: «Dirilmə və həyat Mənəm. Mənə iman edən ölsə də, yaşayar, yaşayıb Mənə iman edən də heç vaxt ölməz. Buna iman edirsənmi?» Marta Ona cavab verdi: «Bəli, ya Rəbb, iman etmişəm ki, dünyaya gəlməli olan Allahın Oğlu Məsih Sənsən». Marta bunu söylədikdən sonra gedib bacısı Məryəmi gizlicə çağırdı və dedi: «Müəllim buradadır və səni çağırır». Məryəm bunu eşidən kimi tez qalxıb İsanın yanına getdi. İsa hələ kəndə girməyib Martanın Onu qarşıladığı yerdə qalmışdı. Məryəmlə birgə evdə olan və ona təsəlli verən Yəhudilər qadının tez qalxıb bayıra çıxdığını görəndə elə bildilər ki, qəbrin yanında ağlamaq üçün oraya gedir. Buna görə də onun ardınca getdilər. Məryəm İsanın olduğu yerə gəlib Onu gördü və ayaqlarına qapanıb Ona dedi: «Ya Rəbb, əgər Sən burada olsaydın, qardaşım ölməzdi». İsa onun və yanında gələn Yəhudilərin ağladığını görəndə əhvalı pozuldu və ürəyi çox sıxıldı. İsa onlardan

«Mərhumu haraya qoymusunuz?» deyə soruşdu. Ona «Ağa, gəl bax» dedilər. İsa ağladı. Onda Yəhudilər «Bax onu necə də sevirmiş!» söylədilər. Lakin onlardan bəzisi dedi: «Korun gözlərini açan bu Şəxs bir şey edə bilməzdi ki, bu adam ölməsin?» O zaman İsa yenə əhvalı pozulmuş halda qəbrin yanına gəldi. Qəbir bir mağara idi və ağzına daş qoyulmuşdu. İsa «daşı götürün» dedi. Mərhumun bacısı Marta Ona dedi: «Ya Rəbb, artıq iylənib, çünki öldüyü dörd gündür». İsa dedi: «Axı Mən sənə söyləmədimmi, iman etsən, Allahın izzətini görəcəksən?» Beləcə daşı götürdülər. İsa da başını yuxarı qaldırıb dedi: «Ey Ata, Məni eşitdiyin üçün Sənə şükür edirəm. Bilirəm ki, Məni həmişə eşidirsən. Lakin bunu ətrafımda duran xalq üçün söylədim ki, Məni Sən göndərdiyinə iman etsinlər». Bu sözləri söylədikdən sonra «Lazar, bayıra çıx!» deyə bərkdən qışqırdı. Ölü də bayıra çıxdı. Onun əl-ayağı sarğılarla və üzü dəsmalla bağlanmışdı. İsa onlara «onu açın və buraxın getsin» dedi. Onda Məryəmin yanına gələn və İsanın nə etdiyini görən Yəhudilərin bir çoxu Ona iman etdi.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 6-cı Rəbb günü Oruc dövründə – A, B, C ili İsa Məsihin Yerusəlimə giriş bayramı

**Giriş:**

**A ili**

**Matta 21, 1-11 - A ili**

K: Rəbb sizinlə olsun. * **Və sənin ruhunla.**

K: Müq.Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. * **Şan-şərəf Rəbbindir.**

Yerusəlimə yaxınlaşıb Zeytun dağının yamacındakı Bet-Faqeyə gəldikləri zaman İsa iki şagirdini göndərərək onlara dedi: «Qarşınızdakı kəndə gedin. Dərhal orada bağlanmış bir eşşəklə bir sıpa tapacaqsınız. Onları açıb Mənə gətirin. Əgər sizə bir şey deyən olsa, "bunlar Rəbbə lazımdır, tezliklə onları geri göndərəcək" deyərsiniz». Bunlar da peyğəmbər vasitəsilə söylənən bu söz yerinə yetsin deyə oldu: «Sion qızına deyin ki, "Bax Padşahın sənə tərəf gəlir; O təvazökardır və bir eşşəyə – eşşəyin balası olan sıpaya minib gəlir"». Şagirdlər gedib İsanın əmr etdiyi kimi etdilər. Eşşəklə sıpanı gətirib üzərlərinə paltarlarını qoydular və İsa sıpanın belinə mindi. Camaatın çoxu öz paltarlarını yola sərdi. Bəzisi də ağaclardan budaqlar kəsib yola döşədi. İsanın önündə gedən və ardınca gələn xalq belə nida edirdi: «Davud Oğluna hosanna! Rəbbin adı ilə Gələnə alqış olsun! Ən ucalarda hosanna!» İsa Yerusəlimə çatdığı zaman bütün şəhər «Bu Kimdir?» deyərək sarsıldı. Camaat isə deyirdi: «Bu, Qalileyanın Nazaret şəhərindən olan İsa Peyğəmbərdir».

**K: Bu Rəbbin Kəlamıdır.** * M: Rəbb İsa Məsih, Sənə həmd olsun.

**B ili**

**Mark 11, 1-10 - B ili (və ya Yəh 12:12-16)**

K: Rəbb sizinlə olsun. * **Və sənin ruhunla.**

K: Müq.Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. * **Şan-şərəf Rəbbindir.**

Onlar Yerusəlimə yaxınlaşarkən Zeytun dağının yamacındakı Bet-Faqe ilə Bet-Anyaya gəldikləri zaman İsa şagirdlərindən ikisini göndərərək onlara dedi: «Qarşınızdakı kəndə gedin. Oraya girən kimi hələ heç kəsin minmədiyi, bağlanmış bir sıpa tapacaqsınız. Onu açıb buraya gətirin. Kim sizdən soruşsa: "Bunu nə üçün edirsiniz?", ona "bu sıpa Rəbbə lazımdır, tezliklə yerinə qaytaracaq" deyin». Onlar getdilər. Küçədə bir evin qapısının kənarına bağlanmış sıpa tapıb onu açdılar. Orada duran bəzi adamlar onlardan soruşdu: «Nə edirsiniz? Bu sıpanı nə üçün açırsınız?» Şagirdlər İsanın dediklərini onlara təkrarlayanda o adamlar şagirdlərə imkan verdilər. Onlar sıpanı İsanın yanına gətirdilər və öz paltarlarını sıpanın üstünə sərdilər. İsa sıpanın belinə mindi. Bir çoxu paltarlarını, bəzisi də ətrafdakı ağaclardan kəsdikləri budaqları yola döşədi. İsanın önündə gedənlər və ardınca gələnlər belə nida edirdilər: «Hosanna! Rəbbin ismi ilə Gələnə alqış olsun! Atamız Davudun gələn Padşahlığı xeyir-dualı olsun! Ən ucalarda hosanna!»

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**
*və ya (ikinci variant)*
K: Rəbb sizinlə olsun. * **Və sənin ruhunla.**
K: Müq.Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *** Şan-şərəf Rəbbindir.**
Ertəsi gün bayrama gələn böyük kütlə İsanın Yerusəlimə gələcəyini eşidəndə xurma budaqları götürərək Onu qarşılamağa çıxdı. Onlar «Hosanna! Rəbbin ismi ilə gələn İsrailin Padşahına alqış olsun!» deyə qışqırırdı.
İsa bir sıpa tapıb belinə mindi. Necə ki yazılıb: «Ey Sion qızı, qorxma. Bax Padşahın bir sıpaya minib gəlir». Şagirdləri o zaman bu şeyləri anlamadılar. Lakin İsa izzətlənəndən sonra barəsində bunun yazıldığını və xalqın Ona nə etdiyini yada saldılar.
**K: Bu Rəbbin Kəlamıdır.** * M: Rəbb İsa Məsih, Sənə həmd olsun.

# C ili

## Luka 19, 28-40 - C ili

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
İsa bu sözləri deyib qabaqda yeriyərək Yerusəlimə doğru qalxdı. Zeytun dağı adlanan dağın yamacında yerləşən Bet-Faqe ilə Bet-Anyaya yaxınlaşarkən Öz şagirdlərindən ikisini göndərdi. O dedi: "Qarşınızdakı kəndə gedin. Oraya girəndə indiyə qədər heç kəsin minmədiyi bağlanmış bir sıpa tapacaqsınız. Onu açıb buraya gətirin. Kim sizdən soruşsa: Nə üçün sıpanı açırsınız?, ona belə deyərsiniz: Bu sıpa Rəbbə lazımdır".
Göndərilənlər gedib hər şeyi Onun dediyi kimi tapdı. Onlar sıpanı açanda onun sahibləri onlara dedi: "Bu sıpanı nə üçün açırsınız?" Onlar cavab verdilər: "Bu sıpa Rəbbə lazımdır". Sıpanı İsanın yanına gətirdilər və öz paltarlarını sıpanın üstünə sərib İsanı ona mindirdilər. O irəliləyərkən insanlar öz paltarlarını yola döşəyirdi. İsa Zeytun dağının aşağı düşən yamacına yaxınlaşanda çoxlu şagird gördükləri bütün möcüzələr üçün sevinib uca səslə Allahı həmd etməyə başladı. Onlar deyirdi: "Rəbbin ismi ilə gələn Padşaha alqış olsun! Göylərdə sülh, ən ucalarda izzət olsun!" İzdihamın arasından bəzi fariseylər Ona dedilər: "Ay Müəllim, Öz şagirdlərinə bir acıqlan!" Lakin İsa cavabında onlara dedi: "Sizə bunu deyirəm ki, əgər onlar sussa, daşlar dilə gələr!"
**K: Bu Rəbbin Kəlamıdır. * M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

*1ci oxunuş:* **Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 50, 4-7*
Yorğunlara sözlə dayaq olmağı bilim deyə Xudavənd Rəbb mənə savadlıların dilini verdi. O hər səhər qulağımı oyadır ki, savadlı adamlar kimi dinləyə bilim. Xudavənd Rəbb qulağımı açdı, mən qarşı durmadım, geri çəkilmədim. Məni

döyənlər üçün belimi açdım, üzümü, saqqalımı yolanlara tərəf uzatdım. Təhqirlərdən, tüpürcəklərdən üzümü gizlətmədim. Xudavənd Rəbb mənə kömək etdiyinə görə utanmayacağam. Buna görə də üzümü çaxmaq daşı kimi etdim. Bilirəm ki, əsla xəcalət çəkməyəcəyəm.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 22, 8-9. 17-18a. 19-20. 23-24**

**N: Ey Allahım, Allahım, niyə məni tərk etdin?**

Məni hər görən lağ edir, dodaq büzüb, başını yırğalayıb belə deyir:
«Qoy güvəndiyi Rəbb onu azad etsin, +
Rəbb ondan razı qalıb, qoy onu xilas etsin».
Şər insanlar dəstəsi məni dövrəyə aldı, it sürüsü kimi yan-yörəmi bürüdülər, ayaqlarımı, əllərimi deşdilər.
Sümüklərimi saya bilirəm, onlar baxırlar, gözlərini mənə zilləyirlər!
Aralarında paltarlarımı bölüşdürürlər, geyimim üçün püşk atırlar.
Ya Rəbb, uzaq durma, ey mənim Qüdrətlim, tez dadıma çat!
İsmini soydaşlarıma elan edəcəyəm,
toplantı arasında Sənə həmd söyləyəcəyəm:
«Siz ey Rəbdən qorxanlar, Ona həmd edin, ey bütün Yaqub nəsli, Onu şərəfləndirin, siz ey İsrail nəsli, Ona ehtiram edin!

*2ci oxunuş:* **Müqəddəs Paulun Filipililərə məktubundan sözlər** *Fil 2, 6-11*
Allah surətində olduğu halda O, Allahla bərabərliyi istifadə edəcəyi bir haqq saymadı. Lakin Özünü heç etdi və qul surətinə salıb insanlara oxşar oldu. İnsan şəklini alıb Özünü aşağı tutdu və ölümə qədər – çarmıxa çəkilərək ölümə qədər itaətkarlıq göstərdi. Buna görə də Allah Onu çox ucaltdı və Ona bütün adlardan ali bir adı bəxş etdi ki, göydə, yerdə və yerin altında olanların hamısı İsanın adına ehtiram edərək diz çöksün və hər dil Ata Allahın izzəti naminə İsa Məsihin Rəbb olduğunu bəyan etsin.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**
İsa Məsih bizim üçün ölümə, həm də çarmıx üzərində ölümə qədər
boyun əyib özünü fəda etdi. Bu səbəblə Allah onu lap çox yüksəltdi və ona,
hər adın üstündə olan adı verdi.
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

*Bu gün İsa Məsihin əzablarını və ölümünü anaraq onun bizə göstərdiyi sonsuz sevgini dərin–dərin düşünək.)*
**A ili** - *(Mt 26, 14 - 27, 1-66)*
**B ili** - *(Mk 14, 1-72. 15, 1-47)*

**C ili-** *(Lk 22, 14-71. 23.56)*



# A ili

## Müqəddəs Matta tərəfindən yazılan İsa Məsihin Əzabları və Ölümü: *Mt 26, 14 - 27, 1-66*

*O: Oxuyucu, İ: İsa, H: Həvvarilər, P: Pilat, Xq: Xalq, B: Baş kahin*

O: O zaman Onikilərdən Yəhuda İskaryot adlanan biri baş kahinlərin yanına gedib dedi:
H: «Onu ələ versəm, mənə nə verərsiniz?»
O: Onlar da Yəhudaya otuz gümüş təklif etdilər.
O vaxtdan İsanı ələ vermək üçün Yəhuda fürsət axtarırdı. Mayasız çörək bayramının birinci günündə şagirdlər İsanın yanına gəlib dedilər:
H: «Pasxa yeməyi üçün harada hazırlıq görməyimizi istəyirsən?»
O: O da dedi:
İ: «Şəhərə girib filankəsin yanına gedin və ona deyin: "Müəllim deyir: Vaxtım yaxındır, şagirdlərimlə bərabər pasxanı sənin evində icra edəcəyəm."»
O: Şagirdlər İsanın onlara əmr etdiyi kimi etdilər; pasxanı hazırladılar. Axşam düşəndə, İsa on iki şagirdi ilə yeməyə oturdu. Onlar yemək yeyərkən İsa dedi:
İ: «Sizə doğrusunu deyirəm: Sizlərdən biri Məni ələ verəcəkdir.»
O: Onlar da çox kədərlənib hər biri Ona:
H: «Ya Rəbb, mənmi?» - O: deməyə başladı.
O: O, cavab verib dedi:
İ: «Əlini Mənimlə bərabər boşqaba batıran, Məni ələ verəcəkdir. İnsan Oğlu, Özü haqqında yazıldığı üzrə gedir. Amma vay o adamın halına ki, İnsan Oğlu onun vasitəsi ilə ələ verilir! O adam heç anadan olmasaydı, onun üçün daha yaxşı olardı.»
O: Onu ələ verən Yəhuda söz alıb dedi:
H: «Rəbb! Mənmi?»
O: İsa da ona dedi:
İ: «Sən dediyin kimidir», - dedi.
O: Onlar yemək yeyərkən, İsa çörək götürdü, şükr duası edib, onu parçaladı və şagirdlərə verib, dedi:
İ: «Alın, yeyin! Bu Mənim bədənimdir.»
O: Bir kasa da götürüb şükür etdi və onlara verərək dedi:
İ: «Bundan hamınız için! Çünki bu, Mənim qanım, günahların bağışlanması üçün bir çoxları uğrunda tökülən Əhdi-Cədidin qanıdır. Mən sizə deyirəm: Atamın Səltənətində sizinlə bərabər təzə şərab içəcəyim günə qədər, meynənin bu məhsulundan artıq içməyəcəyəm.»

O: Və onlar dini mahnı oxuduqdan sonra çıxıb Zeytun dağına doğru getdilər.
O zaman İsa onlara dedi:
İ: «Bu gecə hamınız Məndən dönəcəksiniz; çünki yazılmışdır: "Çobanı vuracağam və sürünün qoyunları dağılacaq. "Amma Mən dirildikdən sonra,
Qalileyaya sizdən qabaq gedəcəyəm.»
O: Peter isə Ona cavab verib dedi:
H: «Hamı Səndən dönsə də, mən əsla dönməyəcəyəm.»
O: İsa ona dedi:
İ: «Sənə doğrusunu deyirəm: Bu gecə xoruz banlamazdan qabaq, sən Məni üç dəfə inkar edəcəksən.»
O: Peter Ona dedi:
H: «Mənə Səninlə bərabər ölmək lazım gəlsə belə, Səni əsla inkar etməyəcəyəm.»
O: Şagirdlərin hamısı da elə dedilər.
Sonra İsa onlarla bərabər Getsamani adlanan bir yerə gələrək, şagirdlərinə dedi:
İ: «Mən oraya gedib, dua edərkən, siz burada oturun.»
O: Peter ilə Zevedeyin iki oğlunu Özü ilə götürdü və kədərlənib dərin ələm çəkməyə başladı. O vaxt onlara dedi:
İ: «Canım ölüm dərəcəsində kədərlidir; burada qalıb, Mənimlə oyaq durun.»
O: Bir az irəli getdi. Yerə üzüqoylu döşənib dua etdi:
İ: «Atam, əgər mümkünsə, qoy bu kasa Məndən keçsin; amma Mənim istədiyim kimi deyil, Sənin istədiyin kimi olsun».
O: Sonra şagirdlərin yanına qayıtdı və onları yatmış gördü. Peterə dedi:
İ: «Demək, Mənimlə bir saat da olsa, oyaq dura bilmədiniz?

İ: Oyaq durub dua edin ki, imtahana uğramayasınız. Doğrudan da ruh qeyrətli, bədən isə zəifdir.»
O: İsa ikinci kərə gedib belə dua etdi:
İ: «Ey Ata, əgər Mən o kasanı içmədən keçməsi mümkün deyilsə, qoy Sənin iradən olsun».
O: Qayıdıb onları yenə yatmış gördü, çünki onların gözləri ağırlaşmışdı. Onları tərk edib təkrarən uzaqlaşdı, yenə eyni sözləri söyləyərək üçüncü dəfə dua etdi.
O zaman İsa şagirdlərin yanına gəlib, onlara dedi:
İ: «Siz hələ də yatıb, rahatlanırsınızmı? Budur, saat yaxınlaşdı və İnsan Oğlu günahkarların əlinə təslim edilir! Qalxın gedək! Budur, Məni ələ verən yaxınlaşdı!»
O: İsa hələ danışmaqda ikən, budur, Onikilərdən biri olan Yəhuda gəldi; yanında baş kahinlər və xalqın ağsaqqalları tərəfindən göndərilmiş, qılınc və payalarla silahlanmış böyük bir dəstə vardı. İsanı ələ verən:
H: «Kimi öpsəm, Odur; Onu tutun».
O: deyə onlara bir işarə vermişdi. O anda İsaya yaxınlaşıb:
H: «Salam, Rəbb!»

O: deyərək Onu öpdü. İsa da ona:
İ: «Dostum, nə üçün gəlmisən?»
O: dedi. O zaman onlar İsaya yanaşıb, əl ataraq Onu tutdular. Budur, İsa ilə bərabər olanlardan biri əl atıb qılıncını çəkdi və baş kahinin qulunu vurub qulağını saldı.
O zaman İsa ona dedi:
İ: «Qılıncını yerinə qoy, çünki qılınc tutanların hamısı qılıncdan həlak olacaqdır. Yoxsa elə düşünürsən, Mən /indi/ Atamdan rica edə bilmərəm ki, on iki legiondan çox mələyi Mənim sərəncamıma göndərsin? Bunların olması gərəkdir deyən Yazılar onda bəs necə doğru çıxardı?»
O: O saatda İsa xalqa dedi:
İ: «Bir quldura qarşı imiş kimi, qılınc və payalarla
Məni tutmağamı gəlmisiniz? Mən hər gün mə'bəddə
/sizinlə bərabər/ oturub, tə'lim verirdim, lakin Məni tutmadınız. Amma bunların hamısı peyğəmbərlərin yazıları yerinə yetsin deyə baş verdi».
O: O zaman şagirdlərin hamısı İsanı tərk edib qaçdılar. İsanı tutanlar Onu din alimləri və ağsaqqalların toplaşdıqları baş kahin Qayafanın evinə gətirdilər. Peter baş kahinin sarayına qədər uzaqdan İsanın ardınca getdi və içəri girib sonu görmək üçün mühafizlərlə bərabər oturdu. Baş kahinlər və bütün Sinedrion İsanı öldürmək üçün Ona qarşı yalan şəhadət axtarırdılar. Çox yalançı şahidlər gəldilər, lakin yenə də tapmadılar. Nəhayət, daha iki yalançı şahid gəlib dedi:
X: «Bu Adam dedi ki: "Mən Allahın məbədini yıxıb, üç gündə tikə bilərəm."»
O: Baş kahin ayağa qalxıb, İsaya dedi:
B: «Sən heç cavab vermirsən? Bunların Sənə qarşı irəli sürdükləri şəhadət nədir?»
O: Amma İsa susdu. Baş kahin Ona dedi:
B: «Səni and verdirirəm yaşayan Allaha, bizə de görək, Allahın Oğlu Məsih Sənsənmi?»
O: İsa da ona dedi:
İ: «Sənin dediyin kimidir; hətta sənə deyirəm: Bundan sonra İnsan Oğlunun Qadirin sağında oturduğunu və göyün buludları üzərində gəldiyini görəcəksiniz.»
O: O zaman baş kahin öz paltarını cırıb dedi: B: «O küfr söyləyir, daha şahidlərə nə ehtiyacımız var? Budur, elə indi Onun küfr söylədiyini eşitdiniz. Sizə necə gəlir?»
O: Onlar cavab verib dedilər: X: «O, ölümə layiqdir.»
O: O zaman üzünə tüpürüb Ona yumruq vurdular;
bə'ziləri də Ona: X: «Ey Məsih, bizə peyğəmbərliyini göstər görək, Səni vuran kimdir?»
O: deyərək Onun üzünə sillə vururdular. Peter isə bayırda, həyətdə oturmuşdu.
Bir qarabaş ona yaxınlaşıb dedi:
X: «Sən də Qalileyalı İsa ilə bərabər idin.»
O: Amma o, hamının qarşısında inkar edərək dedi:
H: «Sənin nə dediyini başa düşmürəm.»

O: O darvazaya yaxınlaşanda,
başqa bir xidmətçi qız onu görüb oradakılara dedi:
X: «Bu adam da Nazaretli İsa ilə bərabər idi.»
O: Və o, yenə inkar edib and içdi: H: «O Adamı tanımıram.»
O: Bir az sonra orada duranlar gəlib Peterə dedilər:
X: «Doğrudan, sən də onlardansan,
çünki nitqin səni ifşa edir.»
O: O zaman özünə lə'nət oxuyaraq, and içməyə başladı:
H: «O Adamı tanımıram.» O: Və o anda xoruz banladı.
Peter, İsanın: «Xoruz banlamazdan qabaq, sən Məni üç dəfə inkar edəcəksən»,
O: dediyi sözü xatırladı. Və oradan çıxıb hönkür-hönkür ağladı.
O: Səhər açıldıqda isə, bütün baş kahinlərlə xalqın ağsaqqalları İsanı öldürmək üçün müşavirə etdilər. İsanı bağlayıb, vali Ponti Pilatın yanına aparıb ona təslim etdilər.
O zaman Onu ələ verən Yəhuda, İsanın məhkum edildiyini görərək peşman oldu və otuz gümüşü baş kahinlərə və ağsaqqallara geri gətirib, dedi:
H: «Mən təqsirsiz qanı ələ verməklə günah işlətdim.»
O: Onlar isə ona dedilər:
B: «Bundan bizə nə? Özün bilərsən».
O: Yəhuda gümüşləri məbədin içinə atıb oradan çıxdı; və gedib özünü asdı.
Baş kahinlər gümüşü götürüb dedilər:
B: «Madam ki, qan bahasıdır, bu gümüşləri məbədin xəzinəsinə qoymaq caiz deyildir.»
O: Və müşavirə keçirib yabançıları dəfn etmək üçün o pulla dulusçunun tarlasını satın aldılar. Buna görə o tarlaya bu günə qədər Qan Tarlası deyilir. O zaman Yeremiya peyğəmbər vasitəsilə söylənən bu söz yerinə yetdi: «İsrail oğullarının Qiymətləndirilmişə verdikləri qiyməti, yəni otuz gümüşü götürüb, Allahın mənə buyurduğu kimi, dulusçunun tarlası üçün verdilər.»
İsa valinin qabağına çıxartdılar, o da Ondan soruşdu:
X: «Sən Yəhudilərin Hökmdarısanmı?»
O: İsa da ona dedi: İ: «Dediyin kimidir.»
O: Baş kahinlər və ağsaqqallar Onu ittiham etdiyi zaman da İsa heç bir cavab vermədi. O vaxt Pilat Ona dedi:
P: «Eşitmirsənmi, Sənə qarşı nə qədər şəhadət edirlər?»
O: İsa onun heç bir sözünə cavab vermədikdə, vali son dərəcədə təəccübləndi.
Pasxa bayramında isə vali adətən xalqın arzu etdiyi məhbuslardan birini azad edirdi.
O zaman Barabba adlı məşhur bir məhbus həbsdə saxlanırdı. Beləliklə, onlar bir yerə toplaşdıqları zaman, Pilat onlara dedi: P: «Kimi istəyirsiniz ki, sizə azad edim? Barabbanımı, yoxsa Məsih deyilən İsanımı?»

O: Çünki bilirdi ki, onlar İsanı paxıllıqdan ələ vermişdilər.
Pilat hakim kürsüsündə oturarkən arvadı: «O saleh Adamla sənin bir işin olmasın; çünki bu gün yuxuda Ona görə çox əzablar çəkdim», - deyə xəbər göndərdi.
Baş kahinlər və ağsaqqallar isə xalqı təhrik edirdilər ki, Barabbanı istəsinlər və İsanı ölümə versinlər. O zaman vali onlardan soruşdu:
P: «İkisindən sizin üçün hansını azad etməyimi istəyirsiniz?»
O: Onlar belə dedilər: X: «Barabbanı».
O: Pilat onlara dedi: P: «Elə isə Məsih deyilən İsaya nə edim?»
O: Onların hamısı bir ağızdan: X: «Çarmıxa çəkilsin!»
O: Vali dedi: P: «Axı O nə pislik edib?»
O: Lakin onlar ucadan bağırdılar: X: «Çarmıxa çəkilsin!»
O: Pilat, heç bir şeyin kömək etmədiyini və əksinə iğtişaşın gücləndiyini görərək su götürüb xalq qarşısında əlini yudu və belə dedi:
P: «Mən bu Salehin qanı üçün məsul deyiləm, özünüz düşünün».
O: Bütün xalq cavab verib dedi:
X: «Onun qanının məsuliyyəti bizim və uşaqlarımızın üzərinə olsun!»
O: O zaman Pilat onlara Barabbanı sərbəst buraxdı; və İsanı döydürdükdən sonra, çarmıxa çəkilməyə təslim etdi. O vaxt, valinin əsgərləri İsanı Pretoriuma apardılar; və bütün alayı Onun başına topladılar. Onu soyundurub, qırmızı rəngli xələt geydirdilər. Tikanlardan bir tac hörüb, başına qoydular və sağ əlinə də bir qamış verdilər; önündə diz çöküb onu ələ salmağa başladılar:
X: «Salam, ey Yəhudilərin Hökmdarı!»
O: Ona tüpürdülər, qamışı götürüb, başına vurdular.
Onu ələ saldıqdan sonra, xələti əynindən çıxarıb, Öz paltarını geydirdilər;
və Onu çarmıxa çəkməyə apardılar.
Bayıra çıxanda, Şimon adlı kirineyli bir adamı tapdılar;
onu məcbur etdilər ki, İsanın çarmıxını daşısın. Qolqota, yəni "Kəllə yeri" adlanan yerə gəldikləri zaman, içsin deyə Ona ödlə qarışıq turş şərab verdilər. İsa onu daddı, amma içmək istəmədi. Onu çarmıxa çəkdikdən sonra, püşk ataraq paltarlarını aralarında payladılar. Və orada oturub, Onun keşiyini çəkdilər.
Başı üzərinə, "Yəhudilərin Hökmdarı İsa budur" - ittihamını yazıb qoydular.
O zaman Onunla bərabər biri sağında, biri də solunda, iki quldur da çarmıxa çəkildi. Gəlib keçənlər başlarını yırğalayıb Onu söyərək deyirdilər:
X: «Ey məbədi yıxıb üç gündə tikən! Əgər Allahın Oğlusansa, Özünü xilas et və çarmıxdan düş!».
O: Baş kahinlər də, din alimləri və ağsaqqallarla
bərabər, eyni şəkildə Onu ələ salaraq deyirdilər:
X: «Başqalarını xilas edirdi, Özünü isə xilas edə bilmir! Əgər İsrailin Hökmdarıdırsa, qoy indi çarmıxdan düşsün
və biz də Ona iman edək. Allaha bel bağlayırdı; əgər Allah Onu istəyirsə, qoy indi

xilas etsin; çünki O, "Mən Allahın Oğluyam", - deyirdi.»
Onunla bərabər çarmıxa çəkilən quldurlar da Onu söyürdülər. Altıncı saatdan doqquzuncu saata qədər, bütün ölkəyə qaranlıq çökdü. Doqquzuncu saat radələrində İsa yüksək səslə bağırdı: İ: «Eli, Eli, lama şabaktani?».
O: -yəni«Allahım, Allahım! Nə üçün Məni tərk etdin?» Orada duranlardan bəziləri bunu eşitdikdə dedilər:
X: «Bu Adam İlyası çağırır».
O: O anda onlardan biri qaçıb, bir süngər götürdü, turş şərab ilə doldurub, bir qamışa taxdı və içsin deyə Ona uzatdı. Başqaları da dedilər:
X: «Qoyun görək, İlyas Onu xilas etməyə gəlirmi?»
O: İsa, yenə yüksək səslə qışqırıb, canını tapşırdı.

*... (hamı diz çökür)*

Və budur, məbədin pərdəsi yuxarıdan aşağıya qədər iki yerə bölündü. Yer sarsıldı, daşlar yarıldı; və qəbirlər açılıb, vəfat etmiş neçə müqəddəsin cəsədi dirildi. Onlar qəbirlərdən çıxıb, İsanın dirilməsindən sonra müqəddəs şəhərə girdilər və bir çox kimsələrə göründülər. Yüzbaşı və onunla bərabər İsanın keşiyini çəkənlər, zəlzələni və vaqe olan şeyləri gördükdə çox qorxdular:
X: «Doğrudan da Bu, Allahın Oğlu idi».
O: İsaya xidmət edərək, Qalileyadan ardınca gəlmiş olan bir çox qadın orada idi və onlar uzaqdan bu mənzərəyə tamaşa edirdilər. Məcdəlli Məryəm, Yaqub ilə Yusifin anası Məryəm və Zevedeyin oğullarının anası onların arasında idi. Axşam düşəndə İsanın şagirdi olmuş Yusif adlı zəngin bir arimateyalı gəldi. Bu adam Pilatın yanına gedib İsanın cəsədini istədi. O zaman Pilat əmr etdi ki, cəsəd verilsin. Yusif cəsədi alıb təmiz bir kətana bürüdü. Onu qaya içində ovduğu yeni qəbrinə qoydu və qəbrin girişinə bir iri daş yuvarlayıb getdi. Məcdəlli Məryəm ilə o biri Məryəm orada, qəbrin qarşısında oturmuşdular.
Ertəsi gün, yəni hazırlıq günündən sonra gələn gün, baş kahinlər və fəriseylər Pilatın yanına toplaşıb dedilər:
B: «Cənab, biz xatırlayırıq ki, o yalançı hələ diri ikən:
"Üç gün sonra diriləcəyəm", - demişdi.
Beləliklə, əmr et ki, üçüncü günə qədər qəbrin təhlükəsizliyini qorusunlar.
Yoxsa şagirdləri /gecə ilə/ gəlib Onu oğurlayarlar və xalqa: "O, ölülərdən dirildi", - deyərlər. Axırıncı yalan, birincisindən daha pis olar.»
O: Pilat onlara dedi: P: «Bir dəstə keşikçi götürün; gedin, bildiyiniz kimi qəbrin təhlükəsizliyini qoruyun.»

O: Onlar gedib, qəbrin qarşısında keşikçi dəstəsi qoyaraq, qəbir daşına möhür basdılar. Beləcə qəbri təhlükəsiz hala gətirdilər.

# B ili

## Müqəddəs Mark tərəfindən yazılan İsa Məsihin Əzabları və Ölümü: *Mk 14, 1-72. 15, 1-47*

*O: Oxuyucu, İ: İsa, H: Həvvarilər, P: Pilat, X: Xalq, B: Baş kahin, Q: Qarabaş*

O: Pasxa və Mayasız Çörək bayramına iki gün qalmışdı. Başçı kahinlər və ilahiyyatçılar İsanı hiylə ilə tutub öldürmək üçün bir yol axtarırdılar. Onlar deyirdilər:
B: «Bunu bayramda etməyək, yoxsa xalq arasında qarışıqlıq düşər».

***İsa Bet-Anyada***

O: İsa Bet-Anyada cüzamlı Şimonun evində süfrəyə oturanda bir qadın Onun yanına gəldi və qadının əlində içində çox bahalı xalis nard yağı olan ağ mərmər qab var idi. Qadın qabı sındıraraq yağı İsanın başına tökdü. Bəziləri acıqlanıb bir-birlərinə dedilər: H: «Bu ətir niyə boş yerə israf olunur? Axı bu ətiri üç yüz dinardan artıq qiymətə satıb pulunu yoxsullara vermək olardı». Onlar qadını danladılar. Lakin İsa dedi:
İ: «Qadını rahat buraxın. Niyə onu incidirsiniz? O Mənim üçün gözəl bir iş gördü. Yoxsullar həmişə sizin yanınızdadır, istədiyiniz vaxt onlara kömək edə bilərsiniz. Mənsə həmişə yanınızda olmayacağam. Qadın bacardığını etdi. Mənim bədənimə dəfn üçün əvvəlcədən yağ çəkdi. Sizə doğrusunu deyirəm: dünyanın hansı yerində Müjdə vəz edilərsə,
bu qadının etdiyi bu iş də danışılacaq ki,
o yada salınsın».

***Yəhudanın xəyanəti***

O zaman On İki şagirddən biri olan Yəhuda İskaryot İsanı başçı kahinlərə təslim etmək niyyəti ilə onların yanına getdi. Başçı kahinlər bunu eşidərkən sevindilər və Yəhudaya pul verəcəklərini vəd etdilər. O da İsanı təslim etmək üçün fürsət axtarmağa başladı.

***Axırıncı şam yeməyi***

Pasxa quzusu qurban kəsildiyi Mayasız Çörək bayramının ilk günü şagirdləri İsadan soruşdular: «Sənin Pasxa yeməyin üçün haraya gedib hazırlıq görməyimizi istəyirsən?» İsa da şagirdlərindən ikisini göndərdi və dedi: «Şəhərə girin, orada qarşınıza səhənglə su daşıyan bir nəfər çıxacaq. Onun ardınca gedin. O hansı evə girərsə, oranın sahibinə deyin: “Müəllim deyir: ‹Şagirdlərimlə birgə Pasxa yeməyini yeyəcəyim qonaq otağım haradadır?›” Ev sahibi sizə yuxarı mərtəbədə döşənib hazırlanmış böyük bir otaq göstərəcək. Orada bizim üçün hazırlıq işləri

görün». Şagirdlər yola çıxıb şəhərə getdilər. Hər şeyin Onun dediyi kimi olduğunu gördülər və Pasxa yeməyi üçün hazırlıq etdilər.

Axşam düşəndə İsa On İki şagirdi ilə birlikdə gəldi. Onlar süfrəyə oturub yemək yeyərkən İsa dedi: «Sizə doğrusunu deyirəm: sizlərdən biri – Mənimlə yemək yeyən biri Mənə xəyanət edəcək». Onlar kədərlənməyə başladılar və bir-bir Ondan soruşdular: H: «Mən deyiləm ki?» İsa onlara dedi: «Siz On İki nəfərdən biridir. Mənimlə birlikdə çörəyini qaba batıran odur. Bəşər Oğlu Özü barəsində yazıldığı kimi gedir. Amma vay o adamın halına ki, Bəşər Oğluna xəyanət edir! O adam heç doğulmasaydı, onun üçün daha yaxşı olardı».

Onlar yeyəndə İsa çörək götürdü, şükür duası edib onu böldü və şagirdlərə verərək dedi: «Alın! Bu Mənim bədənimdir». Sonra bir kasa götürdü və şükür edib onu da şagirdlərə verdi və hamısı oradan içdi. İsa onlara dedi: «Bu, Əhdin bağlanması üçün çoxları uğrunda axıdılan Mənim qanımdır. Sizə doğrusunu deyirəm: Allahın Padşahlığında təzəsini içəcəyim günə qədər üzüm ağacının məhsulundan əsla içməyəcəyəm».

Onlar ilahi oxuyandan sonra çıxdılar
və Zeytun dağına tərəf getdilər.

***Peterin inkarı əvvəlcədən bildirilir***

İsa şagirdlərinə dedi: «Hamınız Məni atıb gedəcəksiniz, çünki belə yazılıb:
“Çobanı vuracağam,
Qoyunlar pərən-pərən olacaq”. Amma Mən diriləndən sonra sizdən qabaq Qalileyaya gedəcəyəm». Peter Ona dedi: «Hamı Səni atıb getsə də, mən belə etməyəcəyəm». İsa ona dedi: «Sənə doğrusunu deyirəm: bu gün, bu gecə xoruz iki dəfə banlamazdan əvvəl sən Məni üç dəfə inkar edəcəksən». Amma Peter daha qətiyyətlə danışdı: «Əgər Səninlə birlikdə ölməyim lazım olsa belə, Səni əsla inkar etməyəcəyəm». Bütün şagirdlər də belə dedilər.

***Getsemani bağında***

Sonra Getsemani adlanan bir yerə gəldilər. İsa şagirdlərinə dedi: «Mən dua edərkən siz burada oturub-qalın». O, Peteri, Yaqubu və Yəhyanı Özü ilə apardı. Özündə bir həyəcan və narahatlıq hiss etməyə başladı. Onlara belə dedi: «Ürəyimi elə dərin kədər bürüyüb, az qalır ki, ölüm. Burada qalın və oyaq olun». İsa bir qədər irəli getdi və üzüstə yerə qapanıb dua etdi ki, mümkündürsə, bu an Ondan yan keçsin. O belə dedi: «Abba – Ata, Sənin üçün hər şey mümkündür. Bu kasanı Məndən uzaqlaşdır. Amma Mənim yox, Sənin iradən olsun». İsa şagirdlərin yanına qayıdıb gördü ki, onlar yatıb. O, Peteri səslədi: «Şimon, yatmısan? Məgər bir saat oyaq qala bilməzdin? Oyaq qalıb dua edin ki, sınağa düşməyəsiniz. Ruh həvəsli, cisimsə gücsüzdür». İsa yenə oradan uzaqlaşdı və eyni sözləri təkrar edərək dua etdi. Qayıdanda gördü ki, onlar yenə yatıb. Çünki onların gözləri yumulurdu. Bilmədilər ki, İsaya nə desinlər. İsa üçüncü dəfə onların yanına qayıdıb dedi: «Hələ də yatıb

dincəlirsiniz? Bəsdir! Vaxt yetişdi! Budur, Bəşər Oğlu günahkarların əlinə təslim olunur. Qalxın gedək. Budur, Mənə xəyanət edən gəlir!»

*İsa həbs olunur*

İsa hələ danışarkən On İki şagirddən biri olan Yəhuda gəlib çıxdı. Onun yanında başçı kahinlərin, ilahiyyatçıların və ağsaqqalların göndərdiyi əli qılınclı və dəyənəkli bir dəstə adam var idi. İsaya xəyanət edən Yəhuda onlara işarə ilə bildirib demişdi: «Kimi öpsəm, İsa Odur. Onu tutub möhkəm nəzarət altında aparın». O anda İsaya yaxınlaşıb «Rabbi!» deyərək Onu öpdü. Yanındakı adamlar əl atıb İsanı tutdular. İsanın yanındakılardan biri qılınc çəkdi və baş kahinin qulunu vurub qulağını qopartdı.
İsa onlara dedi: «Nə üçün quldur üstünə gələn kimi qılınc və dəyənəklərlə Məni tutmağa gəlmisiniz? Hər gün məbəddə sizin yan-yörənizdə təlim öyrədirdim, heç Məni tutmadınız. Amma qoy Müqəddəs Yazılar yerinə yetsin».
Onda hamı İsanı atıb qaçdı. Çılpaq bədənini kətan örtüklə bürüyən bir gənc İsanın ardınca gedirdi. Əsgərlər onu yaxaladılar. Amma o, kətan örtükdən sıyrılıb çılpaq qaçdı.

*İsa Ali Şuranın önündə*

İsanı baş kahinin yanına gətirdilər. Başçı kahinlərin hamısı, ağsaqqallar və ilahiyyatçılar da oraya toplaşdı. Peter uzaqdan baş kahinin həyatinə qədər İsanın ardınca gedirdi.
O, mühafizəçilərlə birgə həyatdə,
tonqalın ətrafında oturub qızınırdı.
Başçı kahinlər və Ali Şuranın hamısı İsanı edam etmək üçün Onun əleyhinə şahidlik ifadəsi axtarırdılar, amma tapa bilmirdilər. Çoxları Onun əleyhinə yalançı şahidlik etdi, lakin ifadələri bir-birinə uyğun gəlmirdi. Bəziləri qalxıb Onun əleyhinə yalançı şahidlik edərək dedilər:
X:«Biz Onun belə dediyini eşitdik: -Mən əllə qurulan bu məbədi dağıdıb üç gün ərzində əllə qurulmayan başqa bir məbəd tikəcəyəm-».
Amma onların da ifadələri bir-birinə uyğun gəlmirdi.
Baş kahin toplantı arasından ayağa qalxıb İsadan soruşdu:
B: «Sənin heç cavabın yoxdur? Onlar Sənin əleyhinə bu nə ifadədir verirlər?»
Amma İsa susmaqda davam etdi, heç cavab vermədi.
Baş kahin yenə Ondan soruşdu:
B: «Xeyir-dua Sahibi Olanın Oğlu Məsih Sənsənmi?»
İsa ona dedi: «Mənəm! Siz Bəşər Oğlunun Qüdrətli Olanın sağında oturduğunu və göyün buludları ilə gəldiyini görəcəksiniz». Onda baş kahin əynindəki paltarını cırıb dedi: B: «Artıq şahidlərə nə ehtiyacımız var?
Siz Onun küfr söylədiyini eşitdiniz! Bəs buna nə deyirsiniz?»
Onların hamısı İsa üçün hökm verdi ki, O, ölüm cəzasına layiqdir.

Bəziləri Onun üstünə tüpürməyə, Onun gözlərini bağlayaraq yumruq vurmağa başladılar və dedilər: X: «Peyğəmbərlik elə görək!» Mühafizəçilər də tutub Ona şillə vurdular.

### *Peter İsanı inkar edir*

Peter aşağıda, həyətdə ikən baş kahinin qarabaşlarından biri gəldi. Qızınmaqda olan Peteri görən kimi onu diqqətlə süzüb dedi: «Sən də Nazaretli İsa ilə birlikdə idin». Amma Peter bunu inkar edərək dedi: «Bilmirəm və başa düşmürəm, sən nə danışırsan». O, bayır qapının önünə çıxdı və bu anda xoruz banladı. Qarabaş Peteri göründə yenə yanındakılara deməyə başladı: «Bu da onlardandır». Peter yenə inkar etdi. Bir az sonra orada duranlar yenə ona dedilər: «Doğrudan da, sən onlardansan, çünki Qalileyalısan». Peter isə özünü qarğıyıb and içərək dedi:
«Dediyiniz o adamı tanımıram».
Həmin anda xoruz ikinci dəfə banladı. Peter İsanın «xoruz iki dəfə banlamazdan əvvəl sən Məni üç dəfə inkar edəcəksən» dediyi sözü yadına saldı.
Ona görə ağlamağa başladı. Səhər erkən başçı kahinlər, ağsaqqallar, ilahiyyatçılar və Ali Şuranın hamısı dərhal məşvərət edəndən sonra İsanın əl-qolunu bağlayaraq Pilatın yanına aparıb ona təslim etdilər. Pilat Ondan
«Yəhudilərin Padşahı Sənsənmi?» deyə soruşdu. İsa cavabında ona dedi:
İ: «Sənin dediyin kimidir». Başçı kahinlər Onu çox şeydə ittiham edirdilər.
Pilat Ondan yenə soruşdu:
P: «Heç cavab verməyəcəksənmi?
Gör Səni nə qədər ittiham edirlər!» Amma İsa yenə də ona cavab vermədi. Pilat buna heyrətləndi. Hər Pasxa bayramında Pilat xalqın xahişi ilə bir məhbusu azad edərdi. Üsyan zamanı adam öldürən üsyançılarla birlikdə Barabba adlı bir nəfər də həbs olunmuşdu. Xalq Pilatın yanına çıxıb ondan xahiş etməyə başladı ki, həmişəki kimi onların istəyini yerinə yetirsin. Pilat onlara cavab verərək dedi:
P: «İstəyirsiniz, sizin üçün Yəhudilərin Padşahını azad edim?» Çünki başçı kahinlərin İsanı paxıllıqdan təslim etdiyini bilirdi. Ancaq başçı kahinlər xalqı qızışdırdılar ki, İsanın yox, Barabbanın azad olmasını xahiş etsinlər.
Pilat yenə onlardan soruşaraq dedi: P: «Bəs nə istəyirsiniz?
Yəhudilərin Padşahı dediyiniz bu Adama nə edim?»
X: «Onu çarmıxa çək!» deyə yenə bağırdılar.
Pilat P: «Axı O nə pislik edib?» deyə soruşdu. Onlarsa X: «Onu çarmıxa çək!» deyə daha ucadan bağırdılar. Xalqı razı salmaq istəyən Pilat onlar üçün Barabbanı azad etdi. İsanı isə qamçılatdıqdan sonra çarmıxa çəkilməyə təslim etdi.

### *Əsgərlər İsanı təhqir edir*

Əsgərlər İsanı həyətdən içəriyə, yəni vali sarayına apardılar. Bütün alayı topladılar. Ona tünd qırmızı bir xalat geyindirdilər və tikanlardan bir tac hörüb başına

qoydular. X: «Yəhudilərin Padşahı sağ olsun!» deyərək İsanı salamlamağa başladılar. Sonra qamışla Onun başına vurub Ona tüpürdülər və önündə diz çökərək səcdə qıldılar. Onu ələ salandan sonra tünd qırmızı xalatı əynindən çıxarıb Öz paltarlarını geyindirdilər. Sonra Onu çarmıxa çəkmək üçün bayıra apardılar.

***İsa çarmıxa çəkilir***

O vaxt Şimon adlı Kirenalı bir nəfər kənd yerindən gəlib oradan keçirdi.
O, İsgəndər və Rufusun atasıdır. Onu İsanın çarmıxını daşımağa məcbur etdilər. İsanı Qolqota adlanan yerə gətirdilər. -Qolqota- -Kəllə yeri- deməkdir. Ona mirra ilə qarışıq şərab vermək istədilər, amma O imtina etdi. İsanı çarmıxa çəkdilər. Paltarlarını isə X: «kimə nə düşdü-düşdü» deyə püşk ataraq aralarında bölüşdürdülər. Üçüncü saat idi ki, İsanı çarmıxa çəkdilər. Onun üzərində ittihamını göstərən belə yazı var idi:
-Yəhudilərin Padşahı-. Onunla birlikdə biri sağında, biri də solunda iki qulduru da çarmıxa çəkdilər. Gəlib-keçənlər başlarını yırğalayıb Ona böhtan ataraq
X: «Nə oldu, ey məbədi dağıdıb üç gündə tikən! İndi Özünü xilas et
və çarmıxdan düş!» deyirdilər. Başçı kahinlər də ilahiyyatçılarla birgə eyni şəkildə İsanı ələ salaraq bir-birlərinə deyirdilər:
B: «Başqalarını xilas edirdi, amma Özünü xilas edə bilmir! İsrailin Padşahı Məsih qoy indi çarmıxdan düşsün ki, biz də görüb iman edək».
İsa ilə birlikdə çarmıxa çəkilənlər də Onu təhqir edirdilər.

***İsanın ölümü***

Altıncı saatdan doqquzuncu saata qədər bütün yer üzünə qaranlıq çökdü.
Doqquzuncu saatda İsa uca səslə nida edərək dedi:
İ: «Elohi, Elohi, lema şavaqtani?»
O: Bu İ: «Ey Allahım, Allahım, niyə Məni tərk etdin?» deməkdir.
Orada dayananların bəzisi bunu eşidərkən dedi:
X: «Baxın, İlyası çağırır». Bir nəfər qaçıb bir süngəri şərab sirkəsi ilə doldurdu və bir qamışın ucuna keçirərək İsaya verdi ki, içsin və dedi: «Onu rahat buraxın, görək İlyas gəlib Onu çarmıxdan düşürəcəkmi?» İsa uca səslə qışqırıb son nəfəsini verdi... *(hamı diz çökür)*
O anda məbədin pərdəsi yuxarıdan aşağıya qədər iki yerə parçalandı.
İsanın qarşısında duran yüzbaşı Onun son nəfəsini belə verdiyini gördükdə «doğrudan da, bu Adam Allahın Oğlu idi» dedi.
Olub-keçənlərə uzaqdan baxan qadınlar da var idi. Məcdəlli Məryəm,
kiçik Yaqubun və Yusifin anası Məryəmlə Şalomit də onların arasında idi.
İsa hələ Qalileyada olanda bu qadınlar Onun ardınca getmiş və Ona xidmət etmişdilər. Onunla birgə Yerusəlimə gələn xeyli qadın da orada idi.

### *İsanın dəfni*

O gün Hazırlıq günü, yəni Şənbədən əvvəlki gün idi. Artıq axşam düşəndə Ali Şuranın hörmətli üzvlərindən biri olan, Allahın Padşahlığını gözləyən Arimateyalı Yusif gəldi.
O cəsarət edib Pilatın yanına getdi və İsanın cəsədini istədi. Pilat İsanın belə tez ölməsinə heyrət etdi və yüzbaşını yanına çağırıb soruşdu: P: «O çoxdanmı ölüb?»
Yüzbaşıdan vəziyyəti öyrənəndən sonra cəsədi Yusifə verdi. Yusif kəfən aldı, cəsədi çarmıxdan endirib kəfənə bükdü və qayada qazılmış qəbirə qoydu.
O, qəbirin ağzına bir daş yuvarladı. Məcdəlli Məryəm və Yusifin anası Məryəm baxıb cəsədin hara qoyulduğunu gördülər.

# C ili

## Müqəddəs Luka tərəfindən yazılan İsa Məsihin Əzabları və Ölümü: *(Lk 22, 14- 23, 56)*

*O: Oxuyucu, İ: İsa, H: Həvvarilər, P: Pilat, X: Xalq, B: Baş kahin, D: Digər*

Vaxt çatanda, İsa on iki həvari ilə bərabər süfrə başında oturdu. Və onlara dedi:
«Mən çox arzulayırdım ki,
əzab çəkməzdən əvvəl bu pasxanı sizinlə bərabər yeyim.
Çünki sizə deyirəm, pasxa Allahın Səltənətində kamala çatmayınca,
Mən bir daha onu yeməyəcəyəm.»
Sonra bir kasa götürüb şükür etdi və dedi:
«Bunu götürün və aranızda bölüşdürün; Çünki sizə deyirəm,
Allahın Səltənəti gəlməyincə meynənin məhsulundan içməyəcəyəm.»
Sonra çörək götürdü, şükür edib onu parçaladı
və onlara verərək dedi:
«Bu, sizin üçün fəda edilən bədənimdir; bunu Məni anmaq üçün edin.»
Eləcə də, axşam yeməyindən sonra, kasanı götürüb dedi:
«Bu kasa Mənim sizin üçün tökülən qanımla gerçəklənən Əhdi-Cədiddir.
Amma budur, Mənə xəyanət edənin əli Mənimlə bərabər süfrə başındadır. İnsan Oğlu doğrudan da qabaqcadan müəyyən edilmiş yoldan gedir. Amma vay o adamın halına ki, İnsan Oğlu onun vasitəsi ilə ələ verilir.»
Və onlar bir-birindən soruşmağa başladılar ki, onlardan kim bu işi görə bilər.
Onların arasında bir mübahisə də oldu: onlardan kim ən böyük sayılmalıdır.
İsa isə onlara dedi: «Hakimlər xalqlar üzərində hökm sürürlər və bu hökmdarlıq edənlərə havadar deyirlər; Siz isə belə olmamalısınız; lakin aranızda ən böyük olan ən kiçik kimi olsun və rəislik edən xidmətkar kimi olsun.
Axı kim daha böyükdür: süfrədə oturan, yoxsa xidmət edən? Süfrədə oturan deyilmi? Mən isə sizin aranızda xidmətkar kimiyəm. Amma keçirdiyim sınaqlarda Mənimlə bərabər olanlar sizsiniz, Və Atam Mənə bir səltənət tapşırdığı kimi Mən də sizə bir səltənət tapşırıram ki, Mənim Səltənətimdə süfrəmdə yeyib-içəsiniz və İsrailin on iki qəbiləsinə hökm etmək üçün taxtlarda oturasınız.»
Və Rəbb dedi: «Şimon, Şimon! Şeytan sizləri tələb etdi ki, buğda kimi xəlbirləsin. Amma Mən sənin üçün dua etdim ki, imanın azalmasın; sən də bir zaman dönüb öz qardaşlarına qüvvət ver.» O, İsaya cavab verdi:
«Ya Rəbb! Səninlə zindana da, ölümə də getməyə hazıram.» Amma İsa dedi:
«Peter, sənə deyirəm ki, bu gün xoruz banlamazdan qabaq,
sən Məni tanıdığını üç dəfə inkar edəcəksən.»

Və onlara dedi: «Mən sizi kisəsiz, çantasız və çarıqsız göndərdiyim zaman bir şeyiniz əskikmi idi?»
Onlar cavab verdilər: «Heç bir şeyimiz.»
O zaman İsa onlara dedi: «İndi isə, kisəsi olan onu götürsün və çanta da götürsün; qılıncı olmayan da öz paltarını satıb qılınc alsın; Çünki sizə deyirəm ki, bu yazılmış olan: "O, günahkarlarla bir sayıldı" sözü Mənim tərəfimdən icra olunmalıdır.
Çünki Mənim barəmdəki sözlər yerinə yetir.»
Onlar dedilər: «Ya Rəbb! Budur, burada iki qılınc var.»
O isə onlara dedi: «Kifayətdir.»
Və çıxıb adəti üzrə Zeytun dağına getdi və Onun şagirdləri də Onun ardınca getdilər. Oraya çatdıqda, İsa onlara dedi: «Dua edin ki, imtahana uğramayasınız.» Özü isə onlardan bir daş atımı qədər uzaqlaşdı və diz çöküb: «Ey Ata, əgər istəyirsənsə, bu kasanı Məndən uzaqlaşdır; amma Mənim iradəm deyil, qoy Səninki olsun», - deyərək dua etməyə başladı. Göydən bir mələk Ona göründü və Ona qüvvət verdi. İsa şiddətli iztirab içində olaraq daha sə'ylə dua edirdi; və Onun təri yerə daman qan damlalarına bənzəyirdi.
Duadan qalxıb O, şagirdlərin yanına gəldi, onları kədərdən yatmış tapdı,
Və onlara dedi: «Siz nə üçün yatırsınız? Qalxın və dua edin ki, imtahana uğramayasınız.» İsa hələ danışmaqda ikən bir izdiham göründü. Və onların qabağında Onikilərdən Yəhuda adlı birisi gəlirdi. O, İsanı öpmək üçün yaxınlaşdı. İsa isə ona dedi: «Yəhuda! İnsan Oğlunu öpüşləmi satırsan?» İsa ilə olanlar işin nə yerdə olduğunu görərək Ona dedilər: «Ya Rəbb! Qılıncla vuraqmı?»
Və onlardan biri baş kahinin qulunu vurub sağ qulağını saldı. Onda İsa dedi: «Buraxın, yetər.» Və qulun qulağına toxunaraq onu sağaltdı. İsa üzərinə yeriyən baş kahinlərə, mə'bəd mühafizlərinin rəislərinə və ağsaqqallara dedi: «Bir quldura qarşı imiş kimi qılınc və payalarla /Məni tutmağamı/ gəlmisiniz? Mən hər gün sizinlə bərabər mə'bəddə olarkən siz Mənə əl qaldırmadınız; amma indi sizin vaxtınızdır və zülmət səltənətidir.» İsanı tutub apardılar və baş kahinin evinə gətirdilər. Peter isə uzaqdan ardınca gedirdi.
Onlar həyətin ortasında ocaq qalayıb birlikdə oturarkən, Peter də onların arasında oturdu. Qarabaşlardan biri onu ocağın işığında oturan gördükdə, ona diqqətlə baxıb dedi: «Bu adam da İsa ilə idi.» Amma Peter: «Mən Onu tanımıram, ay arvad», - deyərək Onu inkar etdi. Bir az sonra başqası onu görüb dedi: «Sən də onlardansan.» Amma Peter: «Deyiləm, ağa», - dedi.
Təqribən bir saat vaxt keçdi və başqa bir adam tə'kidlə dedi: «Doğrudan da bu adam da Onunla idi; çünki o da Qalileyalıdır.»
Amma Peter dedi: «Ağa, sənin danışdıqlarını anlamıram.»
Və elə o anda, o hələ danışırdı ki, xoruz banladı.

Onda Rəbb dönüb Peterə baxdı; və Peter Rəbbin ona: «Xoruz banlamazdan qabaq, sən Məni üç dəfə inkar edəcəksən», - dediyi sözü xatırladı.
Və oradan çıxıb hönkür-hönkür ağladı. İsanı tutub saxlayan adamlar Ona lağ edir və Onu döyürdülər; Onun gözlərini bağlayıb Onun üzünə vururdular və Ondan soruşurdular: «Peyğəmbərliyini göstər görək, Səni vuran kimdir?»
Və Ona qarşı bir çox başqa küfrlər də söyləyirdilər.
Səhər açıldıqda xalqın ağsaqqalları, baş kahinlər və din alimləri toplaşdılar və Onu öz Sinedrionlarına apardılar, və dedilər: «Bizə de görək, Məsih Sənsənmi?»
O, onlara dedi: «Əgər sizə desəm, inanmazsınız; və əgər sizdən soruşsam,
Mənə cavab verməyəcəksiniz və Məni buraxmayacaqsınız;
bundan sonra isə İnsan Oğlu Qadir Allahın sağında oturacaqdır.»
Və hamı dedi: «Deməli, Sən Allahın Oğlusan?»
O, onlara cavab verdi: «Dediyiniz kimidir, Mənəm.»
Onlar isə dedilər: «Daha şəhadətə nə ehtiyacımız var?
Çünki biz özümüz Onun ağzından eşitdik.» Sinedrion üzvlərinin hamısı ayağa durub İsanı Pilatın yanına apardılar. Və Onu ittiham etməyə başlayaraq dedilər: «Biz bu Adamı xalqı yoldan çıxarmaqda, qeysərə vergi verməyi qadağan etməkdə və Özünə Hökmdar Məsih adını verməkdə təqsirli tapdıq.» Pilat Ondan soruşdu: «Sən Yəhudilərin Hökmdarısanmı?» O da cavabında ona dedi: «Dediyin kimidir.»
Pilat baş kahinlərə və xalqa dedi: «Mən bu Adamda bir günah görmürəm.»
Amma onlar tə'kid edərək deyirdilər: «Bu Adam Qalileyadan tutmuş bu yerə qədər bütün Yəhudeyada tə'lim verərək xalqı həyəcana gətirir.»
Pilat Qalileya barədə eşidərək soruşdu: «Məgər bu Adam Qalileyalıdır?»
Və Onun Hirodun vilayətindən olduğunu bildikdə Onu Hirodun yanına göndərdi. Çünki o günlərdə Hirod da Yerusəlimdə idi. Hirod İsanı gördükdə çox sevindi, çünki Onu çoxdan görmək istəyirdi; Onun haqqında çox şeylər eşitmişdi və Ondan bir mö'cüzə görmək arzusunda idi. Hirod Ona çox suallar verdi, amma İsa ona heç bir cavab vermədi. Baş kahinlər və din alimləri isə durub Onu şiddətlə ittiham edirdilər. Amma Hirod öz əsgərləri ilə Onu təhqir edib ələ salaraq,
Onun əyninə bir parlaq paltar geydirib, Pilatın yanına geri yolladı.
Pilatla Hirod o gün bir-biri ilə dost oldular. Bundan əvvəl aralarında düşmənçilik var idi. Pilat isə baş kahinləri, rəisləri və xalqı toplayıb, Onlara dedi:
«Siz bu Adamı mənim yanıma gətirdiniz ki, O, xalqı yoldan çıxarır; və budur, mən sizin qarşınızda tədqiq edib, bu Adamı sizin irəli sürdüyünüz ittihamların heç birində günahkar tapmadım; Hirod da bir şey tapmadı; çünki bu Adamı mən onun yanına göndərmişdim və budur, O, ölümə layiq heç bir şey icra etməmişdir.
Buna görə mən Onu cəzalandırıb azad edəcəyəm.» / Pilat bayram naminə bir əsiri azad etməli idi./ Amma bütün xalq: «Ona ölüm! Bizə Barabbanı azad et!» deyə qışqırdı. Barabba şəhərdə üsyan qaldırmaq və qətl üstə zindana atılmışdı.
Pilat İsanı buraxmaq niyyəti ilə yenə də səsini ucaltdı. Amma onlar:

«Onu çarmıxa çək, çarmıxa çək!» - deyə bağırırdılar. O, üçüncü dəfə onlara dedi: «Axı O nə pislik edib? Mən Onda ölümə layiq bir şey tapmadım; buna görə Onu cəzalandırıb azad edəcəyəm.» Amma onlar israr edərək uca səslə tələb edirdilər ki, O, çarmıxa çəkilsin; və onların və baş kahinlərin səsi üstün gəldi. Pilat onların istəklərini yerinə yetirmək qərarına gəldi. Və üsyan qaldırıb, qətl etdiyi üçün zindana salınmış adamı onların xahişinə görə sərbəst buraxdı; İsanı isə onların ixtiyarına təslim etdi. Əsgərlər İsanı apararkən, tarladan qayıdan kirineyli Şimonu tutub İsanın ardınca daşımaq üçün çarmıxı onun belinə yüklədilər. Böyük bir izdiham və İsa üçün şivən edib ağlayan qadınlar Onun ardınca gedirdilər.
İsa onlara müraciət edərək dedi: «Ey Yerusəlim qadınları! Mənim üçün ağlamayın, ancaq özünüz və uşaqlarınız üçün ağlayın. Çünki elə günlər gəlir ki, o zaman deyəcəklər: "Sonsuzlar və doğmamış bətnlər və əmizdirməmiş döşlər nə bəxtiyardır!" O zaman dağlara: "Üstümüzə yıxılın!" və təpələrə: "Bizi örtün!" deməyə başlayacaqlar. Çünki əgər yaş ağaca bunları edirlərsə, bəs quru ağac necə olacaqdır?»
Cinayətkar olan iki nəfər də Onunla e'dama aparıldı. Kəllə adlanan yerə gəldikləri zaman, orada Onu və cinayətkarları çarmıxa çəkdilər: birini sağ tərəfində, o birini isə sol tərəfində. İsa isə deyirdi:
«Ata! Onları bağışla, çünki nə etdiklərini bilmirlər.»
Və Onun paltarlarını püşk ataraq aralarında payladılar.
Xalq durub baxırdı. Onlarla bərabər rəislər də İsaya lağ edib deyirdilər:
«Başqalarını xilas etdi; əgər O, Allahın seçdiyi Məsihdirsə, qoy Özünü də xilas etsin!»
Əsgərlər də yaxınlaşıb Onu lağa qoyurdular.
Ona turş şərab təqdim edərək deyirdilər:
«Əgər Sən Yəhudilərin Hökmdarısansa, Özünü xilas et!»
Və Onun başı üzərində /yunan, roma və yəhudi hərfləri ilə/ bir yazı da var idi: "Bu Adam Yəhudilərin Hökmdarıdır." Asılmış olan cinayətkarlardan biri Onu söyərək deyirdi: «Əgər Sən Məsihsənsə, Özünü və bizi xilas et.»
Digəri isə ona məzəmmət edərək deyirdi:
«Özün eyni cəzaya məhkum olunduğun halda, Allahdan qorxmursanmı? Biz öz əməllərimizə layiq cəzanı haqlı olaraq almışıq; O isə heç bir günah işlətməmişdir.»
Və İsaya dedi: «Ya Rəbb! Öz Səltənətinlə gəldiyin zaman məni yada sal!»
Və İsa ona dedi: «Sənə doğrusunu deyirəm ki, bu gün sən Mənimlə bərabər cənnətdə olacaqsan.» Gündüz altıncı saata yaxın günəş qaraldı və doqquzuncu saata qədər bütün ölkəyə qaranlıq çökdü.
Və mə'bədin pərdəsi ortadan yarıldı.
İsa uca səslə nida edərək: «Ey Ata! Öz ruhumu Sənin əllərinə verirəm», - dedi.
Və bunu deyib canını tapşırdı.

*… (hamı diz çökür)*

Yüzbaşı isə bu hadisəni görərək, Allaha həmd-səna edib dedi:
«Doğrudan da bu Adam saleh idi.»
Bu mənzərəni müşahidəyə toplaşan
bütün xalq baş verən hadisəni gördükdə sinəsinə döyə-döyə geri dönürdü.
Onu tanıyan adamların hamısı və Onun ardınca Qalileyadan gəlmiş qadınlar isə uzaqda durub bu mənzərəyə tamaşa edirdilər. O zaman Sinedrionun üzvü olan Yusif adlı xeyirxah və saleh bir adam gəldi.
O, Sinedrionun qərarı və əməlləri ilə razı olmamışdı.
Yəhudeyanın Arimateya şəhərindən idi və o da Allahın Səltənətini gözləyirdi.
Bu adam Pilatın yanına gedib İsanın cəsədini istədi.
Cəsədi çarmıxdan endirib kətana bükdü və Onu qayada ovulmuş, hələ indiyədək heç kimin gömülmədiyi bir qəbirə qoydu. O gün cümə günü idi və şənbə günü yaxınlaşırdı.
İsa ilə Qalileyadan gəlmiş olan qadınlar da ardınca gedib qəbiri və Onun cəsədinin necə qoyulduğunu gördülər. Qayıdıb ətirli maddələr və qiymətli yağlar hazırladılar; və şənbə günü Allah əmri ilə istirahət etdilər.

# PASXA

## Bayramı

## Müqəddəs həftə

## ABC

# İsa Məsihin Pasxa yeməyinin xatırlanması (ABC) Müqəddəs Cümə Axşamı (4cü gün)

**Çıxış kitabından sözlər** *Çıx 12, 1-8. 11-14*

Misir torpağında Rəbb Musaya və Haruna dedi: «Bu ay sizin üçün ilin ilk ayı olacaq. Bütün İsrail icmasına söyləyin: qoy bu ayın onuncu günündə hər kəs öz ailəsi üçün bir quzu, hər ev üçün bir quzu götürsün. Əgər bir adamın ailəsi bir quzu üçün sayca azdırsa, qoy o adam evinə yaxın qonşusu ilə birgə bir quzu götürüb insanların sayına, hər kəsin yeyəcəyinə görə bölsün. Özünüzə birillik qüsursuz erkək heyvan götürün: ya qoyunlardan bir toğlu yaxud keçilərdən bir çəpiş olsun. Onu ayın on dördüncü gününə qədər saxlayın. Qoy axşamçağı İsrail icmasından hər kəs onu kəssin. Qurbanın qanından götürüb onu yeyəcəkləri evin qapısının hər iki yan taxtasına və üst dirəyinə sürtsünlər. Qoy həmin gecə onun ətini yesinlər; əti odda bişirib mayasız çörək və acı göyərti ilə yesinlər. Onu belə yeyin: beliniz qurşanmış, çarıqlarınız ayağınızda və dəyənəyiniz əlinizdə olsun, onu tələsik yeyin. Bu, Rəbbin Pasxasıdır. Mən isə o gecə Misir torpağından keçəcəyəm. Misir torpağında olan həm insanların bütün ilk oğullarını, həm də heyvanların bütün ilk balalarını öldürəcəyəm. Bütün Misir allahlarına da cəza verəcəyəm. Rəbb Mənəm. Sizin olduğunuz evlər üzərindəki qan sizin üçün əlamət olacaq. Qanı görəndə yan keçəcəyəm və Misir ölkəsini cəzalandırdığım zaman sizə məhvedici bəla gəlməyəcək. Bu gün sizin üçün xatirə günü olacaq və onu Rəbb üçün bayram edəcəksiniz. Nəsildən-nəslə əbədi qayda olaraq onu bayram edin.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 116, 12-13. 15+16bc. 17-18**

**N: Bu şükür etdiyimiz xeyir-dua kasası Məsihin qanına şəriklikdir.**

Mənə etdiyi comərdliyə görə Rəbbin borcunu necə qaytara bilərəm?
Qurtuluş piyaləsini qaldıracağam, Rəbbin ismini çağıracağam.
Rəbbin gözündə hər bir mömінin ölümü çox bahadır.
Ya Rəbb, mən Sənin qulunam, kənizinin oğluyam, buxovlarımı açmısan.
Sənə şükür qurbanları təqdim edəcəyəm, Rəbbin adını çağıracağam.
Rəbbə Onun bütün xalqı qarşısında əhd etdiyim təqdimləri verəcəyəm.

**Müqəddəs Paulun Korinflilərə 1-ci məktubundan sözlər** *1 Kor 11, 23-26*

Çünki sizə çatdırdığım bu xəbəri Rəbbin Özündən qəbul etmişəm: Rəbb İsa Ona xəyanət edildiyi gecə əlinə çörək götürdü, şükür edib onu böldü və dedi: «Bu Mənim sizin üçün verilən bədənimdir. Bunu Məni xatırlamaq üçün edin». Eləcə də axşam yeməyindən sonra kasanı götürüb dedi: «Bu kasa Mənim qanımla bağladığım yeni əhddir. Bunu hər dəfə içəndə Məni xatırlamaq üçün edin». Çünki hər dəfə bu çörəyi yeyəndə və bu kasadan içəndə, siz Rəbbin gəlişinədək Onun ölümünü bəyan edirsiniz.

Bu Allahın Kəlamıdır. *  **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *Yəh 13, 34*
İsa Məsih belə deyir: Sizə yeni bir əmr verirəm: bir-birinizi sevin.
Mən sizi sevdiyim kimi siz də bir-birinizi sevin.
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Yəh 13, 1-15*

K: Rəbb sizinlə olsun.   *   **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Pasxa bayramının ərəfəsi idi. İsa artıq bu dünyadan ayrılıb Atanın yanına gedəcəyi məqamın gəldiyini bilirdi. O, dünyada Özünə məxsus olanları həmişə sevmişdi və axıra qədər də sevdi. Axşam yeməyi zamanı iblis artıq Ona xəyanət etmək fikrini Şimon İskaryotun oğlu Yəhudanın ürəyinə qoymuşdu. İsa Atanın hər şeyi Onun ixtiyarına verdiyini, Allahdan çıxıb gəldiyini və Allaha qayıdacağını bilirdi. O, süfrədən qalxıb üst paltarını bir yana qoydu və bir dəsmal götürüb belinə bağladı. Sonra ləyənə su töküb şagirdlərin ayaqlarını yumağa və belinə bağladığı dəsmalla silməyə başladı. İsa Şimon Peterə yaxınlaşanda o, İsaya «Ya Rəbb, Sənmi mənim ayaqlarımı yuyacaqsan?» dedi. İsa cavabında ona dedi: «Mənim nə etdiyimi sən indi bilməzsən, amma sonra anlayacaqsan». Peter Ona dedi: «Mənim ayaqlarımı heç vaxt yumayacaqsan!» İsa ona cavab verdi: «Əgər səni yumasam, Mənim yanımda yerin olmaz». Şimon Peter Ona dedi: «Ya Rəbb, təkcə ayaqlarımı deyil, əllərimi və başımı da yu». İsa ona dedi: «Çimmiş adam üçün təkcə ayaqlarını yumaq kifayətdir, çünki tər-təmizdir. Siz də təmizsiniz, amma hamınız yox». Çünki Ona kimin xəyanət edəcəyini bilirdi, buna görə də «hamınız təmiz deyilsiniz» söylədi. İsa onların ayaqlarını yuyub paltarını geyindikdən sonra yenə süfrəyə oturaraq onlara dedi: «Mənim sizə nə etdiyimi bilirsinizmi? Siz Məni “Müəllim” və “Rəbb” deyə çağırırsınız və doğru deyirsiniz, çünki Mən elə Oyam. İndi ki Mən Rəbb və Müəllim olduğum halda sizin ayaqlarınızı yudum, siz də bir-birinizin ayaqlarını yumalısınız. Çünki sizə nümunə göstərdim ki, Mənim sizə etdiyimi siz də bir-birinizə edəsiniz.
K: Bu Rəbbin Kəlamıdır.   *   **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Rəbbimizin əzabları və ölümünün xatırlanması (ABC)
# Müqəddəs Cümə Ayini

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 52, 13 – 53, 12*

Budur, Mənim qulum uğur qazanacaq, O yüksəldiləcək, ucaldılacaq,
çox izzətlənəcək. Çoxları onun qarşısında mat qalacaq. Bəli, onun görkəmi çox dəyişmişdi, zahirən insan surətindən çıxmışdı. Fəqət O çox millətləri heyrətə salacaq, Onun qarşısında padşahlar ağzını yumacaq. Çünki onlar bilmədiklərini görəcək, eşitmədiklərini anlayacaq. Xəbərimizə kim inandı, Rəbbin gücü kimə zühur oldu? O, Rəbbin önündə bir fidan kimi, quru torpaqda bitən kök kimi böyüdü. Baxanda onun nə görkəmi, nə gözəlliyi var idi, gözümüzü oxşayan zahiri siması da yox idi. Adamlar ona həqarətlə baxıb rədd etdi. O dərdli, xəstəlikləri görən insan idi, adamlar ondan üz döndərdi, xor baxdı. Biz ona qiymət vermədik. Əslində xəstəliklərimizi o çəkdi, dərdlərimizi öz üzərinə götürdü.
Biz isə onun Allah tərəfindən cəzalandırıldığını,
vurulub iztirab çəkdiyini zənn etdik. Bizim asiliyimizə görə onun bədəni deşildi, şər əməllərimiz naminə əzildi, bizim əmin-amanlığımız üçün
o cəza aldı, Onun yaraları ilə biz şəfa tapdıq. Hamımız qoyun kimi yolu azmışdıq, hər birimiz öz yolumuzla gedirdik. Rəbb hamımızın şər əməllərinin yükünü onun üzərinə qoydu. Ona zülm etdilər, O iztirab çəkdi, amma ağzını açmadı. Kəsilməyə aparılan quzu kimi, qoyun qırxanların qabağında dilsiz-ağızsız qoyun kimi ağzını açmadı. Ədalətsizliklə məhkum olunaraq ölümə aparıldı. Onun nəsli haqqında kim düşünə bilərdi? Axı xalqımın asiliyinə görə O edam olundu, dirilər arasından atıldı. O heç bir zorakılıq etmədiyi, ağzından yalan söz çıxmadığı halda qəbri pis adamların yanında quruldu, dövlətli adamın yanında dəfn olundu.
Amma Rəbb Özü onun bu iztirablarını istədi, çəkdiyi əziyyətlər Onun iradəsi idi. Öz canını təqsir qurbanı təqdim etdikdə nəslini görəcək, ömrü uzanacaq.
Rəbbin istəyi onun əli ilə uğur tapacaq. O, çəkdiyi iztirablarının bəhrəsini görüb qane olacaq, mənim saleh qulum öz biliyi ilə çoxlarına bəraət qazandıracaq, Onların şər əməllərinin yükünü üzərinə götürəcək. Buna görə Mən ona böyük adamların arasında pay verəcəyəm. O, qəniməti güclülərlə böləcək.
Çünki o, canını fəda etdi, asilərə tay tutuldu. Çox adamların günahını üzərinə götürdü, asilərdən ötrü yalvardı.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 31, 1+5. 11-12. 14-15. 16+25**
**N: Ata, Ruhumu Sənin əlinə verirəm.**

Ya Rəbb, Sənə pənah gətirirəm! +
Heç vaxt məni xəcalətdə qoyma, ədalətinlə məni xilas et!
Ruhumu Sənin əlinə verirəm, ya Rəbb, sadiq Allah, Sən məni azad et.
Bütün düşmənlərim mənə tənə edir, qonşularımsa onlardan daha betərdir,
tanışlarım məni görərkən dəhşətə düşür, məni küçələrdə görənlər məndən qaçır.
Ölü bir adam kimi unudulmuşam, çilik-çilik qırılan bir qaba oxşayıram.
Ya Rəbb, yalnız sənə güvənirəm, dedim: «Allahımsan Sən».
Mənim hər anım Sənin əlindədir, düşmənlərimin,
təqibçilərimin əlindən məni azad et.
Bəndənin üstünə üzünün nurunu sal, Məhəbbətinlə məni qurtar.
Ey Rəbbə ümid bağlayan bütün insanlar, cəsarətli, möhkəm olun!

**İbrarilərə məktubundan sözlər** *İbr 4, 14-16; 5, 7-9*
Beləliklə, Allahın Oğlu Isa göyləri keçmiş böyük Baş Kahinimiz olduğuna görə təsdiq etdiyimiz imani möhkəm tutaq. Çünki bizim Baş Kahinimiz belə deyil ki, zəifliklərimizdə bizim halımıza acıya bilməsin. Əksinə, hər xüsusda bizim kimi sınağa çəkilmiş, lakin günah etməmişdir. Buna görə də lütfkar Allahın taxtına cəsarətlə yaxınlaşaq ki, vaxtında köməyə nail olmaq üçün mərhəmət alıb lütf tapaq. Məsih yer üzündə cismdə olduğu günlərdə Onu ölümdən qurtarmağa qadir olan Allaha böyük fəryad və göz yaşları ilə dua edib yalvardı və möminliyinə görə eşidildi. O, Oğul olduğu halda çəkdiyi əzablarla itaətli olmağı öyrəndi. Kamilliyə çatandan sonra Ona itaət edənlərin hamısı üçün əbədi xilas qaynağı oldu.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *Flp 2,8-9*
İnsan şəklini alıb Özünü aşağı tutdu və ölümə qədər – çarmıxa çəkilərək ölümə qədər itaətkarlıq göstərdi. Buna görə də Allah Onu çox ucaltdı və
Ona bütün adlardan ali bir adı bəxş etdi.
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

# Müqəddəs Yəhya tərəfindən yazılan İsa Məsihin Əzabları və Ölümü: *(Yəh 18, 1-40, 19, 1-42)*

*O: Oxuyucu, İ: İsa, H: Həvarilər, P: Pilat, X: Xalq, B: Baş Keşiş*

O: İsa bu şeyləri söylədikdən sonra şagirdləri ilə çölə çıxıb Kidron dərəsinin o tayına keçdi. Orada bir bağ var idi, Özü və şagirdləri oraya girdilər.
Onu ələ verən Yəhuda da o yeri tanıyırdı; çünki İsa tez-tez şagirdləri ilə orada yığışırdı.
Beləliklə, Yəhuda, əsgər bölməsini və baş Keşişlərdən və fəriseylərdən mühafizlər alıb fənərlər, məş'əllər və silahlarla oraya gəldi. İsa başına gələcək bütün işləri bilərək qabağa çıxıb onlara dedi:
İ: «Kimi axtarırsınız?»
O: Ona cavab verdilər:
X: “Nazaretli İsanı.“
O: Onu ələ verən Yəhuda da onlarla bərabər durmuşdu.
İsa onlara «Mənəm» dediyi zaman, onlar geri çəkilib yerə yıxıldılar.
İsa yenə də onlardan soruşdu:
İ: Kimi axtarırsınız?
O: Onlar dedilər:
X: Nazaretli İsanı.
O: İsa cavab verdi:
İ: Sizə dedim ki, Mənəm; əgər Məni axtarırsınızsa, bunları buraxın getsinlər.
O: Onun dediyi: -Mən Sənin Mənə verdiyin kimsələrdən heç birini qeyb etmədim- sözü yerinə yetsin deyə belə oldu. Şimon Peterin qılıncı var idi; onu çıxarıb, baş Keşişin qulunu vurub sağ qulağını saldı. O qulun adı Malik idi. O vaxt İsa Peterə dedi: İ: Qılıncını qınına qoy! Atanın Mənə verdiyi kasanı içməyimmi?
O: Beləcə əsgər bölməsi, minbaşı və yəhudilərin mühafizləri İsanı tutub bağladılar. Və Onu əvvəl Hananın yanına apardılar, çünki o, həmin il baş Keşiş olan Qayafanın qaynatası idi.
Xalq yolunda bir adamın ölməsi xeyirlidir, deyə yəhudilərə öyüd verən Qayafa idi.
Şimon Peter və başqa bir şagird İsanın ardınca gedirdi.
Bu şagirdi baş Keşiş tanıyırdı və o, İsa ilə bərabər baş Keşişin həyətinə girdi.
Peter isə bayırda qapının yanında durmuşdu.
O vaxt baş Keşişin tanıdığı o şagird çıxıb qapıçı qıza bir söz dedi və Peteri içəri gətirdi. Qapıçı qız bu anda Peterə dedi:
X: Sən də bu Adamın şagirdlərindən deyilmisən?

O: O da bu cavabı verdi:
H: Yox, deyiləm!
O: Bu arada qullar və mühafizlər, soyuq olduğuna görə, ocaq qalayıb, ətrafında durub, isinirdilər; Peter də onlarla bərabər durub isinirdi.
O vaxt baş Keşiş İsadan şagirdləri və tə'limi haqda soruşdu. İsa ona cavab verdi:
İ: Mən aləmə açıq söylədim; Mən yəhudilərin daim toplaşdıqları sinaqoqlarda və mə'bəddə tə'lim verirdim; və gizli heç bir şey söyləmirdim. Nə üçün Məndən soruşursan? Onlara nə söylədiyimi eşidənlərdən soruş.Onlar Mənim söylədiyimi bilirlər.
O: O bu sözləri söylədikdən sonra,
orada duran mühafizlərdən biri İsaya bir şillə vuraraq belə dedi:
X: Baş Keşişə beləmi cavab verirsən?
O: İsa ona cavab verdi:
İ: Əgər pis söz dedimsə, pis olduğunu sübuta yetir;
əgər doğru dedimsə, nə üçün məni vurursan?
O: Və Hanan Onu qolları bağlı baş Keşiş Qayafanın yanına göndərdi.
Şimon Peter həyətdə durub isinirdi. Ona dedilər:
X: Sən Onun şagirdlərindən deyilmisən?
O:  O, inkar edib dedi:
H: Deyiləm.
O: Peter tərəfindən vurulub qulağı kəsilmiş adamın qohumlarından
və baş Keşişin nökərlərindən olan biri belə dedi:
X:  Səni bağda Onunla birlikdə görmədimmi?
O: Peter yenə inkar etdi; və həmin vaxt xoruz banladı.Yəhudi idarəçilər Qayafanın yanından İsanı Pretoriuma apardılar. Səhər erkən idi; özləri isə Pretoriuma girmədilər, yoxsa napak sayılıb, pasxa yeməyini yeyə bilməzdilər.
Pilat çölə, onların yanına çıxıb dedi:
P: Bu Adamdan nə şikayətiniz var?
O: Onlar bu cavabı verdilər:
X: Əgər bu Adam cani olmasaydı, Onu sənə təslim etməzdik.
O: Pilat onlara dedi:
P: Onu siz götürün və qanununuza görə mühakimə edin.
O: Yəhudi idarəçilər Pilata dedilər:
X: Bizim heç kimi ölümə məhkum etməyə ixtiyarımız yoxdur.
O: İsanın nə cür ölümlə öləcəyinə işarə edərək, söylədiyi söz yerinə yetsin deyə belə dedilər. Pilat yenə Pretoriuma girib İsanı çağırdı və Ona dedi:
P: Sən Yəhudilərin Hökmdarısanmı?
O: İsa cavab verib dedi:
İ: Sən bunu özündənmi söyləyirsən, yoxsa başqalarımı Məndən sənə bəhs etdilər?

O: Pilat cavab verdi:
P: Məgər mən yəhudiyəm? Səni öz xalqın və baş Keşişlər mənə təslim etdilər. Nə etmisən?
O: İsa cavab verdi:
İ: Mənim Səltənətim bu dünyadan deyildir; əgər Mənim Səltənətim bu dünyadan olsaydı, nökərlərim cəhd edərdilər ki, Mən yəhudi idarəçilərə təslim edilməyim; lakin indi Mənim Səltənətim buradan deyildir.
O: Pilat Ona dedi:
P: Demək Sən hökmdarsan?
O: İsa cavab verdi:
İ: Doğru deyirsən: Mən hökmdaram.
Mən bunun üçün doğulmuşam və bunun üçün dünyaya gəlmişəm ki,
həqiqətə şəhadət edim. Həqiqət tərəfdarı olan hər kəs Mənim səsimi eşidir.
O: Pilat Ondan: P: Həqiqət nədir?
O: deyə soruşdu.Bunu dedikdən sonra, təkrar eşiyə, yəhudilərin yanına çıxıb dedi:
P: Mən Onda heç bir günah tapmıram! Axı sizdə belə bir adət var ki,
pasxada sizə bir adamı həbsxanadan azad edim;
indi Yəhudilərin Hökmdarını sizə azad etməyimi istəyirsinizmi?
O: O vaxt yenə hamı bağırıb dedilər:
X: Bu Adamı yox, Barabbanı!
O: Barabba isə quldur idi. O vaxt Pilat İsanı götürüb qamçılatdı. Əsgərlər də tikanlardan bir tac hörüb Onun başına qoydular və Ona mor xələt geydirdilər. Onun yanına gəlib deyirdilər:
X: Salam, ey Yəhudilərin Hökmdarı!
O: Və Onun üzünə şillə vururdular. Pilat yenə çölə çıxıb, yəhudilərə dedi: P: Budur, Onu sizin yanınıza gətirirəm ki, Onda heç bir günah tapmadığımı biləsiniz.
O: O zaman İsa, başında tikandan tac və əynində mor xələt, çölə çıxdı.
Pilat onlara dedi: P: Budur o Adam!
O: Baş Keşişlər və mühafizlər Onu gördükdə bağırmağa başladılar:
X: Çarmıxa çək! Çarmıxa çək!
O: Pilat onlara dedi:
P: Onu siz götürüb çarmıxa çəkin, çünki mən Onda bir günah tapmıram.
O: Yəhudi idarəçilər ona cavab verdilər:
X: Bizim bir qanunumuz vardır; qanunumuza görə O ölməlidir,
çünki Özünün Allahın Oğlu olduğunu iddia edir.
O: Pilat bu sözü eşitdiyi zaman daha çox qorxdu; Yenə Pretoriuma girib İsaya dedi:
P: Sən haralısan?
O: İsa isə ona cavab vermədi. Pilat Ona dedi:
P: Mənə bir şey demirsənmi?
Bilmirsən ki, Səni buraxmağa da, çarmıxa çəkməyə də səlahiyyətim vardır?

O: İsa ona cavab verdi:
İ: Əgər sənə yuxarıdan verilməsəydi, Mənim üzərimdə sənin heç bir səlahiyyətin olmazdı. Bunun üçün, Məni sənin əlinə verənin günahı daha böyükdür.
O: Bundan sonra Pilat Onu buraxmağa çalışırdı, lakin yəhudilər bağırıb deyirdilər:
X: Əgər Bunu buraxsan, qeysərin dostu deyilsən;
kim özünün hökmdar olduğunu iddia edirsə, qeysərə qarşı çıxmış olur.
O: Pilat bu sözləri eşitdikdə, İsanı eşiyə gətirdi və Daş Döşəmə - ibranicə Qabata - deyilən yerdə, hökm kürsüsünə oturdu. O gün Pasxanın hazırlıq günü idi;
altıncı saata yaxın idi. Və Pilat yəhudilərə belə dedi:
P: Budur hökmdarınız!
O: Amma onlar belə bağırdılar:
X: Götür, götür, Onu çarmıxa çək!
O: Pilat onlara dedi:
P: Hökmdarınızı çarmıxamı çəkim?
O: Baş Keşişlər cavab verdilər:
B: Qeysərdən başqa hökmdarımız yoxdur.
O: O zaman Pilat İsanı çarmıxa çəkmək üçün onlara təslim etdi. Əsgərlər də Onu götürüb apardılar. O vaxt İsa Öz çarmıxını daşıyaraq çölə çıxıb, ibranicə Qolqota adlanan, Kəllə yeri deyilən yerə çatdı. Onu və Onunla bərabər iki nəfəri orada çarmıxa çəkdilər. Onlardan biri İsanın bir tərəfində, digəri isə o biri tərəfində idi, İsa isə ortada. Pilat bir taxta yazıb onu çarmıx üzərinə asdırdı. Orada belə yazılmışdı: "Nazaretli İsa, Yəhudilərin Hökmdarı." Yəhudilərdən bir çoxu bu taxtanı oxudu, çünki İsanın çarmıxa çəkildiyi yer şəhərə yaxın idi; o taxta ibranicə, yunanca və latınca yazılmışdı. Buna görə yəhudi baş Keşişləri Pilata dedilər:
X:"Yəhudilərin hökmdarı" yox,bu Adam “Yəhudilərin Hökmdarıyam” dedi, yaz.»
O: Pilat cavab verdi: P: Nə yazdımsa, yazdım!
O: Əsgərlər İsanı çarmıxa çəkdikləri vaxt, Onun paltarlarını götürüb hər əsgər üçün bir pay olaraq dörd yerə böldülər. Köynəyini də götürdülər.
Köynək tikişsiz, başdan başa toxuma idi. Onlar da bir-birilərinə dedilər:
X: Bunu cırmayaq, kimin olsun deyə püşk ataq.
O: Beləliklə Müqəddəs Yazıdakı bu sözlər həqiqət oldu: “Paltarlarımı aralarında payladılar, geyimim üçün püşk atdılar.”Budur əsgərlər belə etdilər.
İsanın çarmıxı yanında anası və anasının bacısı, Klopanın arvadı Məryəm
və Məcdəlli Məryəm durmuşdular.
İsa, anasını və onun yanında sevdiyi şagirdin durduğunu gördükdə anasına dedi:
İ: Ana, budur oğlun!
O: Ondan sonra şagirdə dedi: İ: Budur anan!
O: O saatdan sonra şagird onu öz evinə apardı.
Bundan sonra, İsa artıq hər şeyin indi tamam olduğunu bilərək,
Müqəddəs Yazının yerinə yetməsi üçün dedi:

İ: Susadım! O: Orada turş şərab dolu bir qab qoyulmuşdu;
turş şərab ilə bir süngər doldurub, onu bir zufa budağına taxıb,
Onun dodaqlarına yaxınlaşdırdılar.
İsa şərabı daddıqda: İ: Tamam oldu.
O: dedi, və başını əyib canını tapşırdı...

 *… (hamı diz çökür)*

O: İndi hazırlıq günü olduğundan, cəsədlər şənbə günü çarmıxda qalmasın deyə (çünki o şənbə günü böyük bayram idi), yəhudi idarəçilər çarmıxa çəkilənlərin baldırlarının qırılmasını və cəsədlərinin qaldırılmasını Pilatdan xahiş etdilər.
O vaxt əsgərlər gəlib birincinin və onunla bərabər çarmıxa çəkilmiş olan o birisinin baldırlarını qırdılar.

İsaya çatdıqda isə, Onun artıq ölmüş olduğunu görüb, baldırlarını qırmadılar. Lakin əsgərlərdən biri Onun böyrünü nizə ilə deşdi; və o anda oradan qan və su axdı. Bunu görən şəhadət etdi və onun şəhadəti doğrudur; iman edəsiniz deyə özü həqiqəti söylədiyini bilir. Çünki bu hadisələr: “Onun heç bir sümüyü sınmayacaqdır” deyən Müqəddəs Yazı yerinə yetsin deyə baş verdi.
Və yenə başqa bir yerdə Yazı vardı: “Onlar bədənini deşdikləri Adama baxacaqlar.”

Bu hadisələrdən sonra, İsanın şagirdi olub, yəhudi idarəçilərin qorxusundan özünü gizlədən arimateyalı Yusif, İsanın cəsədini çıxartmaq üçün Pilatdan xahiş etdi və Pilat izin verdi. O da gəlib İsanın cəsədini çıxartdı. Vaxtı ilə İsanın yanına gecə ikən gələn Nakdimon da gəlib, otuz litrə qədər qarışıq mirra və əzvay gətirdi.
O vaxt İsanın cəsədini götürüb yəhudilərin dəfn adəti üzrə ətirlərlə bərabər kətan parçalara sarıdılar.
Çarmıxa çəkildiyi yerdə bir bağ və bağda hələ içinə heç kimsə qoyulmamış təzə bir qəbir var idi. Yəhudilərin hazırlıq günü olduğundan İsanı oraya qoydular, çünki qəbir yaxında idi.

# Müqəddəs Şənbə günü, Pasxa Ərəfəsi (ABC)

*1. Oxunuş: İnsanın yaradılışı.*

**Yaradılış kitabından sözlər** *Yar 1:1-2:2 ya 1:1, 26-31a*

Başlanğıcda Allah göyləri və yeri yaratdı. Sonra Allah dedi: «Öz surətimizə və bənzərimizə görə insanı yaradaq. Qoy o, dənizdəki heyvanlara, göydəki quşlara, yerdəki heyvanlara, bütün yer üzünə və yerdə sürünən canlıların hamısına hökmranlıq etsin». Allah insanı Öz surətində yaratdı, Allahın surətində yaratdı, Onları kişi və qadın olaraq yaratdı. Allah onlara xeyir-dua verərək dedi: «Törəyib çoxalın və yer üzünü bürüyüb ona sahib olun: dənizdəki heyvanlar, göydəki quşlar, yerdə sürünən bütün canlılar üzərində hökmranlıq edin». Allah dedi: «Budur, yer üzündə toxum verən bütün ot-ələfi və meyvələrində toxumu olan bütün ağacların bəhərini sizə verirəm ki, qidalanasınız. Yerdəki heyvanların, göydəki quşların və yerdə sürünən canlıların hamısına – nəfəsi olan bütün canlılara isə yem olmaq üçün bütün yaşıl otları verirəm». Belə də oldu. Allah gördü ki, yaratdığı hər şey çox yaxşıdır. Axşam oldu, səhər açıldı; bu, altıncı gün idi. Göylər və yer, oradakı hər şey beləcə tamamlandı. Allah yeddinci günə qədər gördüyü işləri qurtardı və yeddinci gün gördüyü işlərdən ayrılıb istirahət etdi.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 104** *(1-ci oxunuşdan sonra)*

**N: Ya Rəbb, Ruhunu göndərib yer üzünə yeni həyat ver.**

Rəbbə alqış et, ey könlüm! Ya Rəbb Allahım, Sən nə qədər böyüksən.
Ya Rəbb, əməllərin çoxdur! Yaratdıqların yer üzünü doldurub.
Sən onların nəfəsini kəsərkən ölüb torpağa qarışırlar,
Ruhunu göndərərkən onlar yaranır, yer üzünə yeni həyat verirsən.
Rəbbin ehtişamı qoy əbədi var olsun! Qoy Rəbb yaratdıqlarına görə şad olsun!
Düşüncəm Ona xoş görünsün, mən Rəbbə görə sevinəcəyəm.

*və ya* **Zəbur 33**

**N: Yer üzü Rəbbin məhəbbəti ilə doludur.**

Çünki Rəbbin sözü haqdır, hər işini sədaqətlə aparır.
Rəbb salehliyi və ədaləti sevir, Yer üzü Onun məhəbbəti ilə dolur.
Göylər Rəbbin sözü ilə, səma cisimləri Onun hökmü ilə yarandı.
Çünki nə söylədi, mövcud oldu, nə əmr etdi, quruldu.
Rəbbin gözü Ondan qorxanlara, Onun məhəbbətinə ümid bağlayanlara baxar.
İstəyir ki, onları ölümdən qurtarsın, qıtlıqda belə, onlar sağ qalsın.
Könlümüz Rəbbin yolunu gözlər, Odur köməyimiz və sipərimiz.
Ya Rəbb, ümidimizi Sənə bağlamışıq, Məhəbbətin üzərimizdən tükənməsin.

*2. Oxunuş: Atamız İbrahimin qurbanı.*

**Yaradılış kitabından sözlər** *Yar 22, 1-18*

Bir müddət sonra Allah İbrahimi sınağa çəkdi. O «Ey İbrahim!» deyə çağırdı. İbrahim «Buradayam!» dedi. Allah dedi: «Sevdiyin yeganə oğlun İshaqı götür və Moriya torpağına get. Orada sənə göstərəcəyim bir dağda oğlunu yandırma qurbanı olaraq təqdim et». İbrahim səhər tezdən qalxdı və eşşəyini palanladı. Özü ilə iki nökərini və oğlu İshaqı götürdü. O, yandırma qurbanı üçün odun yardı və qalxıb Allahın dediyi yerə yollandı. İbrahim üçüncü gün başını qaldırıb uzaqdan o yeri gördü. O, nökərlərinə dedi: «Siz eşşəklə birlikdə burada qalın, mən uşaqla oraya gedəcəyəm. Səcdə edib, yanınıza qayıdarıq». İbrahim yandırma qurbanı üçün odun götürüb oğlu İshaqın kürəyinə qoydu, odu və bıçağı isə özü götürdü. Onlar birlikdə getdilər. İshaq atası İbrahimi çağırdı: «Ay ata!» O cavab verdi: «Buradayam, oğlum». İshaq dedi: «Od və odun var, bəs yandırma qurbanı olacaq quzu haradadır?» İbrahim dedi: «Oğlum, yandırma qurbanı olacaq quzunu Allah Özü hazırlayacaq». Onlar birlikdə getdilər. Sonra Allahın İbrahimə göstərdiyi yerə gəldilər. İbrahim orada bir qurbangah düzəldib odunları düzdü və oğlu İshaqın əl-qolunu bağlayıb qurbangaha, odunların üstünə qoydu. İbrahim əlini uzadıb oğlunun başını kəsmək üçün bıçağı götürdü. Rəbbin mələyi göylərdən onu çağırdı: «İbrahim, İbrahim!» O «Mən buradayam!» dedi. Mələk dedi: «Uşağa əl qaldırma və ona bir şey etmə. İndi bildim ki, sən Allahdan qorxursan; öz yeganə oğlunu Məndən əsirgəmədin». İbrahim başını qaldırıb baxdı və arxasında buynuzları kolluğa ilişmiş bir qoç gördü. İbrahim gedib qoçu götürdü və oğlunun əvəzinə yandırma qurbanı olaraq təqdim etdi. İbrahim o yeri Yahve-İre adlandırdı; buna görə də indiyə qədər belə deyilir: «Rəbbin dağında hazırlanacaq». Rəbbin mələyi yenə göylərdən İbrahimi çağırıb dedi: «Rəbb bəyan edir: “Öz varlığıma and içirəm ki, sən bu işi etdiyinə və yeganə oğlunu əsirgəmədiyinə görə Mən sənə böyük xeyir-dua verəcəyəm, nəslini göydəki ulduzlar və dəniz kənarındakı qum qədər artırıb çoxaldacağam. Sənin nəslin öz düşmənlərinin şəhərlərinə sahib olacaq. Dünyanın bütün millətləri sənin nəslinin vasitəsilə xeyir-dua alacaq, çünki sən Mənim sözümə qulaq asdın”».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 16 1.5.8-11** *(2-ci oxunuşdan sonra)*

**N: Ey Allah, məni hifz et, Sənə pənah gətirmişəm.**

Ya Rəbb, mənim qismətimsən, kasama düşən paysan, püşkümə düşən Səndən asılıdır.
Rəbbə əbədilik üz tutmuşam, sağımda olduğu üçün sarsılmaram.
Elə bunun üçün qəlbim sevinir, ruhum şad olur, cismim əmin-amanlıqda yaşayır.
Çünki məni ölülər diyarına atmazsan, mömin insanını qəbrə salmazsan.
Mənə həyat yolunu öyrədirsən, doyunca sevinc Sənin hüzurundadır,
Sağ əlində hər zaman səadət var.

*3. Oxunuş: İsrail oğullarının Qırmızı Dənizi keçməsi.*

**Çıxış 14{13}15-31. 15, 1-18**

Rəbb Musaya dedi: «Nə üçün Mənə fəryad edirsən? İsrail övladlarına de ki, yola düşsünlər. Sən isə əsanı qaldırıb, əlini dənizin üzərinə uzat, sularını yar ki, İsrail övladları quru yerdən dənizin ortasından keçsinlər. Mən misirlilərin ürəklərini inadkar edəcəyəm ki, sizi təqib etsinlər. Sonra fironu, onun bütün ordusunu, döyüş arabalarını və süvarilərini məğlub edib izzətimi göstərəcəyəm. Fironu, döyüş arabalarını və süvarilərini məğlub edib izzətimi göstərdiyim zaman misirlilər biləcəklər ki, Rəbb Mənəm». İsrail düşərgəsinin önündə gedən Allahın mələyi onların arxasına keçdi. Bulud dirəyi önlərindən arxalarına keçib, Misir ordusunun və İsrail düşərgəsinin arasında durdu. Bulud bir tərəfə zülmət verdi, o birisinə isə gecə işığı verdi. Bütün gecə bu xalqlar bir-birinə yaxınlaşmadılar. Musa əlini dəniz üzərinə uzatdı. Rəbb bütün gecə əsən qüvvətli şərq küləyi ilə dənizin suyunu qovub yerini quruya çevirdi. Sular yarıldı və İsrail övladları quru yerdən dənizin ortasından keçdilər. Sular onlar üçün sağ və sol tərəfdən divar oldu. Misirlilər onları təqib etdilər; fironun atları, döyüş arabaları və süvariləri İsrail övladlarının ardınca dənizin ortasına girdilər.

Dan yeri söküləndə Rəbb od və bulud dirəyindən Misir ordusuna baxıb onların arasına qarışıq saldı. O, arabaların çarxlarını elə ləngitdi ki, arabalar güclə hərəkət etdilər. Misirlilər dedilər: «Gəlin İsrail övladlarından qaçaq, çünki Rəbb onların tərəfində bizə qarşı döyüşür». Rəbb Musaya belə dedi: «əlini dənizin üzərinə uzat ki, sular misirlilərin, döyüş arabalarının və süvarilərin üzərinə qayıtsın».

Musa əlini dənizin üzərinə uzatdı. Səhərə yaxın dəniz adi hala qayıtdı. Misirlilər sulardan qaçmaq istəyəndə Rəbb onları itələyib dənizin ortasına atdı.

Yerinə qayıdan sular döyüş arabalarını, süvariləri, İsrail övladlarının ardınca dənizə gedən fironun bütün ordusunu örtüb uddu. Onlardan bir nəfər də olsun sağ qalmadı.

İsrail övladları isə dənizin ortasından quru yerdə yeriyərək keçib getmişdilər. Sular onlar üçün sağ və sol tərəfdə divar olmuşdu.

Məhz o gün Rəbb İsraili misirlilərin əlindən xilas etdi. İsrail xalqı misirliləri dənizin sahilində ölü gördü. İsrail xalqı Rəbbin misirlilərə böyük qüvvətlə nə etdiyini görəndə Rəbdən qorxdu, Ona və qulu Musaya güvəndi.

O vaxt Musa ilə İsrail övladbları Rəbbə bu ilahini oxudular:

*(bu sözlərdən sonra dərhal məzmur başlayır)*

~~Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**~~

**İlahi (Çıxış 14:15-31. 15:1-18 )** *(3-cü oxunuşdan sonra)*

**Rəbbə ilahi oxuyacağam, çox böyük zəfər çaldı.**

«Rəbbə ilahi oxuyacağam, çox böyük zəfər çaldı.
Atı və süvarini dənizə tulladı.Rəbb qüvvətim, məzmurumdur, O məni xilas etdi.
Rəbb mənim Allahımdır, Ona həmd edəcəyəm, +
Atamın Allahıdır, Rəbbi yüksəldəcəyəm. Rəbb döyüşçüdür, Rəbdir Onun adı.
Fironun döyüş arabalarını, ordusunu da dənizə atdı.
Döyüş arabalarının başçıları, qırmızı dənizdə boğuldu.
Ya Rəbb! Sənin sağ əlin qüdrətdən izzətləndi.
Ya Rəbb! Sənin sağ əlin düşməni əzəndir.
Sənə qarşı çıxanları möhtəşəm əzəmətin yıxar,
Sənin göndərdiyin qəzəb onları saman çöpü tək yandırar.
Nəfəsinlə üfürdün, dənizlə onları bürüdün.
Qurğuşun tək onlar nəhəng sularda batdılar.
Ey Xudavənd! Əlinlə qurduğun Müqəddəs məkanına.
Rəbb əbədi, daima padşahlıq edəcəkdir».

*4. Oxunuş:*

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 54:5-14*

Çünki sənin ərin səni Yaradandır, Onun adı Ordular Rəbbidir. Səni Satınalan İsrailin Müqəddəsidir,O bütün dünyanın Allahı adlanır. Allahın deyir: «Rəbb səni çağırır, atılmış və ruhu əzilmiş, gənc yaşında ərə getmiş,sonra isə rədd olunmuş bir qadın kimi. Bir anlığa səni tərk etdim, amma böyük rəhmlə geri qəbul edəcəyəm. Bir anlığa qızğın qəzəblə səndən üzümü döndərdim, Lakin əbədi məhəbbətimlə sənə rəhm edəcəyəm». Bunu səni Satınalan, Rəbb deyir.
«Bu Mənim üçün sanki Nuhun dövründə baş verən daşqındır, Nuhun dövründəki daşqının suları bir daha yer üzünü örtməyəcəyi barədə necə and içmişdimsə, İndi də and içirəm ki, sənə qəzəblənməyəcəyəm, səni məzəmmət etməyəcəyəm. Dağlar yerini dəyişsə də, təpələr sarsılsa da, sənə olan məhəbbətim dəyişməz, sülh əhdim sarsılmaz».
Bunu sənə rəhm edən Rəbb deyir. «Ey tufana düşmüş, Təsəlli tapmamış yazıq şəhər! Sənin daşlarını əqiqlərlə, təməlini göy yaqutlarla qoyacağam. Qüllələrini yaqutdan, darvazalarını ləl-cəvahirdən, divarlarını qiymətli daşlardan hörəcəyəm. Bütün övladlarını Mən Rəbb öyrədəcəyəm, Onlar tam sülh içində olacaq. Salehliyində möhkəmlənəcəksən, zülmdən uzaq olacaqsan, qorxmayacaqsan. Qorxu hissi səndən uzaq olacaq, sənə yaxınlaşmayacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 30** *(4-cü oxunuşdan sonra)*

**N: Ya Rəbb, Səni ucaldıram, çünki Sən məni qurtardın.**

Ya Rəbb, Səni ucaldıram, çünki Sən məni qurtardın,
düşməni mənə görə sevinməyə qoymadın.

Ya Rəbb, canımı ölülər diyarından azad etdin,
qəbrə düşməyim deyə Sən mənə həyat verdin.
Ey Rəbbin möminləri, Onu tərənnüm edin,
Müqəddəsliyini yada salın, Ona şükürlər edin.

Çünki qəzəbi bir anlıq olur, lütfü isə ömür boyu qalır.
Kimin bir gecə gözündən yaş tökülərsə, onun üçün sübh tezdən sevinc doğar.

Ya Rəbb, dinlə, mənə lütf et, ya Rəbb,köməyimə çat».
Yasımı şənliyə çevirdin, ya Rəbb Allahım, Sənə daim şükür edəcəyəm!

*5. Oxunuş: Rəbbi axtarın və Ona güvənin.*

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 55, 1-11*

Ey bütün susamışlar, gəlin su başına! Ey pulu olmayanlar, gəlin, alın, yeyin! Gəlin, şərabı və südü pulsuz-parasız alın! Nə üçün pulunuzu çörək olmayan şeylərə, qazandığınızı sizi doydurmayan şeylərə xərcləyirsiniz?
Məni diqqətlə dinləyin ki, yaxşı şeylər yeyəsiniz, nemətlərdən dadasınız.
Qulaq asın, Mənim yanıma gəlin, dinləyin ki, sağ qalasınız. Mən sizinlə əbədi əhd, Davuda vəd etdiyim sadiq məhəbbət əhdi kəsəcəyəm.
Budur, onu ümmətlərə şahid, başçı və hökmdar etdim. Tanımadığınız millətləri çağıracaqsınız. Allahınız Rəbbə görə, İsrailin müqəddəsindən ötrü, sizi tanımayan millətlər qoşa-qoşa yanınıza gələcək. Çünki Rəbb sizi ucaltdı. Tapmaq fürsəti olarkən Rəbbi axtarın, O yaxın ikən Ona yalvarın.
Qoy pis adam öz yolunu, şər adam öz fikirlərini atsın. Qoy Rəbbə sarı dönsün ki, ondan mərhəmət tapsın. Qoy bizim Allahımız tərəfə dönsün, çünki Onun əfvi boldur. «Çünki Mənim fikirlərim sizin fikirləriniz deyil, sizin yollarınız Mənim yollarım deyil» Rəbb belə bəyan edir. «Çünki göylər yer üzündən nə qədər yüksəkdirsə, yollarım da sizin yollarınızdan, fikirlərim də sizin fikirlərinizdən o qədər yüksəkdir.
Necə göydən yağan yağış və qar torpağı sulamadan, yeri məhsuldar edib əkin bitirmədən, əkinçiyə toxum, yeyənə çörək vermədən göylərə qayıtmırsa, ağzımdan çıxan kəlmə də belədir: Boş yerə yanıma qayıtmaz, ancaq istədiyimi yerinə yetirər, onu göndərdiyim iş icra olunsun deyə həyata keçirər.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**İlahi - Yeş 12 2-3** *(5-ci oxunuşdan sonra)*

**N: Sevinclə xilas mənbələrindən su çəkəcəksiniz.**

O gün sən, ey İsrail, belə deyəcəksən: «Ya Rəbb, Sənə şükür edəcəyəm!
Sən mənə qəzəblənirdin, lakin qəzəbin söndü,mənə təsəlli verdin.
Allah xilasımdır, Ona güvənəcəyəm və qorxmayacağam,
Çünki Rəbb Allahımız qüvvətim, məzmurumdur, O mənə xilas verdi!»
Sevinclə xilas mənbələrindən su çəkəcəksiniz.
O gün belə deyəcəksiniz, «Rəbbə şükür edin, Onun adını çağırın,
Xalqlar arasında Onun işlərini bəyan edin, Onun adının ucalığını elan edin.
Rəbbi tərənnüm edin, çünki O, möhtəşəm işlər gördü,
Qoy bütün dünya bunu bilsin! Ey Sion sakinləri, səsinizi ucaldın,
Sevinclə çığırın, çünki aranızdakı İsrailin Müqəddəsi böyükdür».

*6. Oxunuş:*

**Peyğəmbər Baruxun kitabından sözlər** *Bar 3,9-15.32-38, 4, 1-4*

Ey İsrail, həyat əmrlərini dinlə, hikməti anlamaq üçün qulaq as. Nə üçün, ey İsrail, nə üçün düşmənlərin torpağındasan? Sən yad torpaqda qocalmısan, Ölülərlə

birlikdə murdarlanmısan, ölülər diyarında olanlara aid edilmisən, müdriklik mənbəyini tərk etmisən. Əgər sən Allahın yolu ilə getsəydin, onda əbədi olaraq sülhdə yaşayardın. Hikmətin, qüdrətin, biliyin harada olduğunu öyrən ki, eyni zamanda, uzun ömrün və həyatın, gözlərin nurunun və sülhün harada olduğunu biləsən. Kim müdrikliyin yerini tapıb, kim onun xəzinəsinə girib? Lakin hər şeyi bilən Allah onu bütünlüklə tanıyır; Allah Öz ağlı ilə onu aşkar etdi, yer üzünü əbədi vaxtlar üçün yaratdı, dördayaqlı heyvanlarla doldurdu.
O, işığı göndərir, işıq da gedir, Onu çağırır, o da lərzə ilə Allaha itaət edir; ulduzlar da öz keşiklərində sevinclə parlayırlar. Allah onları çağırdı, onlar da dedilər ki, biz buradayıq və onları Yaradanın qarşısında sevinclə parladılar. Bu, bizim Allahımızdır, başqa kimsə Ona tay ola bilməz. O, hikmətin hər cür yolunu tapdı, Öz qulu Yaquba və Öz sevimlisi İsrailə verdi. Bundan sonra hikmət yer üzündə göründü, İnsanların arasında gəzib-dolaşdı.
Allahın əmrlərinin kitabı, əbədi qalan qanun idrak yoludur. Ona əməl edənlərin hamısı yaşayacaq, onu tərk edənlərsə öləcək. Ey Yaqub, dön və ondan bərk tut, Onun işığının parıltısında gəz. Öz izzətini başqasına vermə, özünə faydalı olanı özgə millətə vermə. Ey İsrail, biz bəxtiyarıq, Çünki bilirik ki, Allaha xoş gələn nədir.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

## Zəbur 19 *(6-cı oxunuşdan sonra)*

**N: Rəbbin qayda-qanunları düzdür, ürəyi sevindirir.**

Rəbbin qayda-qanunları düzdür, ürəyi sevindirir,
Rəbbin əmrləri pakdır, gözləri aydın edir.
Rəbb qorxusu safdır, əbədi yaşayır,
Rəbbin hökmləri haqdır, hamısı ədalətlidir.
Bəndən bunlardan nəsihət alar,
Onlara əməl edənin bol mükafatı var.
Kim öz səhvlərini duya bilər?
Məni gizli təqsirlərimdən təmizlə.
Qulunu aşkar günahlardan qoru, qoyma onların hökmü altında qalım.
Onda kamilliyə çataram, bütün asiliklərdən ayrılaram.

*7. Oxunuş: Allah daxilimizdə yeni bir ürək yaratmaq istəyir.*

## Peyğəmbər Yezekelin kitabından sözlər *Yez 36:16-17a, 18-28*

Mənə Rəbbin sözü nazil oldu:
«Ey bəşər oğlu, İsrail nəsli öz torpağında yaşayanda adət və əməlləri ilə onu murdar etdi. Onların adətləri mənim önümdə qadının aybaşı olduğu vaxtdakı murdarlığı kimi idi. Mən də qəzəbimi onların üstünə tökdüm, çünki ölkədə qan tökdülər, bütləri ilə onu murdar etdilər.
Onları millətlər arasına yaydım, ölkələr arasına səpələndilər. Onları adətlərinə və

əməllərinə görə mühakimə etdim.
Millətlərin arasında, getdikləri hər yerdə müqəddəs adımı ləkələdilər. Çünki onlar üçün belə deyildi: "Bu xalq Rəbbin xalqı olduğu halda ölkəsindən çıxmağa məcbur oldu". İsrail nəslinin getdiyi millətlər arasında ləkələdiyi müqəddəs adımın izzətdən düşməsi üçün təəssüfləndim.
Buna görə də İsrail nəslinə söylə ki, Xudavənd Rəbb belə deyir: "Ey İsrail nəsli, bunu sizin naminizə deyil, ancaq getdiyiniz millətlər arasında ləkələdiyiniz müqəddəs adım naminə edirəm.
Millətlər arasında ləkələdiyiniz böyük adımın müqəddəsliyini yenə göstərəcəyəm. Millətlərin gözü önündə sizin içinizdə müqəddəsliyimi göstərən zaman biləcəklər ki, Rəbb Mənəm" Xudavənd Rəbb belə bəyan edir.
"Çünki sizi millətlərin arasından götürəcək, bütün ölkələrdən toplayacaq və öz torpağınıza gətirəcəyəm.
Üstünüzə təmiz su səpəcəyəm, pak olacaqsınız. Sizi bütün murdarlıqlarınızdan və bütlərinizdən təmizləyəcəyəm. Mən sizə yeni ürək verəcək, daxilinizə yeni ruh qoyacağam. Köksünüzdən daş ürəyi çıxarıb sizə ətdən olan ürək verəcəyəm.
Öz Ruhumu sizin daxilinizə qoyacağam. Elə edəcəyəm ki, siz qaydalarıma görə rəftar edəsiniz, hökmlərimə diqqətlə riayət edəsiniz.
O zaman atalarınıza verdiyim ölkədə yaşayacaqsınız. Siz Mənim xalqım, Mən də sizin Allahınız olacağam.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 42 ya Zəbur 51 (50)** *(7-ci oxunuşdan sonra)*

**N: Ey Allah, məndə təmiz ürək yarat.**

Məhəbbətinə görə, ey Allah, mənə rəhm et, +
bol mərhəmətinə görə qanunsuzluqlarımı sil.
Təqsirimi tamamilə yu, günahımdan məni təmizlə.
Ey Allah, məndə təmiz ürək yarat, daxilimə yenidən sədaqət ruhunu ver.
Məni Öz hüzurundan atma, Müqəddəs Ruhunu məndən götürmə.
Xilasının sevincini mənə qaytar, itaətkarlıq ruhu verib mənə dayaq ol.
Qoy Sənin yollarını qanunsuzlara öyrədim, günahkarlar Sənə sarı dönsünlər.

*Epistle:*

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rom 6, 3-11*

Məgər bilmirsiniz ki, biz hamımız Məsih İsa ilə birləşmək üçün vəftiz olunarkən həmin vəftizlə Onun ölümü ilə birləşdik? Deməli, vəftiz olunub Onun ölümü ilə birləşməklə biz də Onunla birgə dəfn olunduq; belə ki Atanın izzəti ilə Məsih ölülər arasından dirildiyi tək biz də həmin cür yeni həyat sürək. Əgər Onun ölümünə bənzər ölümdə Onunla bir olmuşuqsa, Onun dirilməsinə bənzər dirilmədə də Onunla bir olacağıq. Bunu bilirik ki, günahlı bədənin aradan qaldırılması üçün, daha günaha qul olmayaq deyə köhnə mənliyimiz Onunla birlikdə çarmıxa çəkildi.

Çünki ölmüş adam günahdan azad olub. Əgər Məsihlə ölmüşüksə, Onunla yaşayacağımıza da inanırıq. Çünki bilirik ki, Məsih ölülər arasından dirildiyinə görə bir daha ölməyəcək və ölüm Ona artıq hökmranlıq etməz. Onun ölümü günahın müqabilində ilk və son ölüm oldu, yaşadığı həyatı isə Allah üçün yaşayır. Beləcə siz də özünüzü Məsih İsada olaraq günaha münasibətdə ölü, Allaha münasibətdə isə diri sayın.
Bu Allahın Kəlamıdır. *  **M: Allaha şükürlər olsun.**

**Zəbur (118{117}1-2, 15-17, 22-23)** *(Epistle-dən sonra)*
**Alleluya! Alleluya! Alleluya!**

Rəbbə şükür edin, ona görə ki yaxşıdır, çünki məhəbbəti əbədidir!
Qoy İsraillilər belə desin: «Çünki məhəbbəti əbədidir!»

Rəbbin sağ əli qüdrətli işlər göstərir! Rəbbin sağ əli necə əzəmətlidir!
Ölməyib sağ qalacağam, Rəbbin işlərini bəyan edəcəyəm.

Bənnaların rədd etdiyi daş Guşədaşı olub.
Bu, Rəbbin işi idi, gözümüzdə xariqəli bir işdir.

# † İncil † (A ili)

*Matta 28:1-10*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**
Şənbə günü keçəndən sonra, həftənin ilk günü səhər dan yeri ağaranda Məcdəlli Məryəm və o biri Məryəm qəbiri görməyə gəldilər. Budur, böyük bir zəlzələ oldu. Çünki Rəbbin bir mələyi göydən enib gələrək daşı bir tərəfə yuvarladı və üzərində oturdu. Onun görünüşü şimşək kimi, paltarı isə qar kimi ağ idi. Keşikçilər qorxudan titrəyib ölü kimi oldular. Mələk qadınlara müraciət edərək dedi: «Siz qorxmayın! Çarmıxa çəkilmiş İsanı axtardığınızı bilirəm. O burada yoxdur, dediyi kimi dirilmişdir! Gəlin, Onun yatdığı yeri görün. Tez gedin, Onun şagirdlərinə belə söyləyin: "İsa ölülər arasından dirildi. Qalileyaya sizdən qabaq gedir. Onu orada görəcəksiniz". Budur, mən sizə xəbər verdim». Qadınlar qorxu və böyük sevinclə dərhal qəbirdən çıxdılar. Onun şagirdlərinə xəbər verməyə qaçdılar. Amma budur, İsa «Sizə salam!» deyə onların qarşısına çıxdı. Onlar da yaxınlaşıb İsanın ayaqlarına sarılaraq Ona səcdə qıldılar. İsa onlara dedi: «Qorxmayın! Gedin, qardaşlarıma xəbər verin ki, Qalileyaya getsinlər. Məni orada görəcəklər».
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# † İncil † (B ili)

*Mark 16:1-8*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**
Şənbə günü keçəndən sonra Məcdəlli Məryəm, Yaqubun anası Məryəm və Şalomit ətirlər aldılar ki, gedib İsanın cəsədinə çəksinlər. Həftənin ilk günü səhər tezdən, günəş doğanda onlar qəbirin yanına gəldilər. Onlar bir-birlərinə deyirdilər: «Görəsən qəbirin ağzındakı daşı bizim üçün kim kənara yuvarlayacaq?» Başlarını qaldırıb baxanda gördülər ki, daş kənara yuvarlanıb. Bu daş nəhəng idi. Qəbirə girib sağ tərəfdə ağ xalat geyinmiş bir gəncin oturduğunu gördülər və heyrətə gəldilər. Bu şəxs onlara dedi: «Siz heyrətlənməyin! Çarmıxa çəkilmiş Nazaretli İsanı axtarırsınız. O dirilmişdir! Burada yoxdur. Bax bu Onu qoyduqları yerdir. İndi isə gedin, Onun şagirdlərinə və Peterə belə söyləyin: "İsa Qalileyaya sizdən qabaq gedir. Sizə dediyi kimi Onu orada görəcəksiniz"».
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# † İncil † (C ili)

*Luka 24, 1-12*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *

**M: Şan-şərəf Rəbbindir.**

Həftənin ilk günü səhər çox erkən, qadınlar hazırladıqları ətirləri götürüb qəbirin yanına gəldilər. Qəbirin qapısındakı daşı yuvarlanmış gördülər. Amma içəri girib Rəbb İsanın cəsədini tapmadılar. Onlar buna təəccüblənərkən parıldayan paltar geymiş iki kişi qəflətən onların qarşısında peyda oldu. Qadınlar təlaş içində üzüstə yerə sərildi. Kişilər soruşdu: "Nə üçün siz Dirini ölülər arasında axtarırsınız?
O burada yoxdur, O dirilmişdir! Hələ Qalileyada olarkən Onun sizə dediklərini yadınıza salın. Demişdi ki, Bəşər Oğlu günahkar insanların əlinə təslim olmalı, çarmıxa çəkilməli və üçüncü gün dirilməlidir".
Qadınlar da İsanın sözlərini yada saldı.
Qəbirdən qayıdan qadınlar bütün bunları On Bir Şagirdə və başqa adamların hamısına xəbər verdi. Həvarilərə bu xəbəri çatdıran qadınlar bunlar idi:
Məcdəlli Məryəm, Yohanna, Yaqubun anası Məryəm və onlarla birgə olan digər qadınlar. Amma bu sözlər həvarilərə mənasız kimi göründü və qadınlara inanmadılar. Peter isə qalxıb qəbirə tərəf qaçdı.
O əyilib yalnız kətan parçaları gördü və bu hadisəyə çaşıb qalaraq öz evinə qayıtdı.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Pasxa bayramı (Rəbb günü) (ABC)

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 10, 34a. 37-43*

Peter sözə başlayıb dedi: Bilirsiniz ki, Yəhyanın vəftiz üçün çağırışından sonra Qalileyadan başlayaraq bütün Yəhudeyada nələr baş verdi. Allah Nazaretli İsanı Müqəddəs Ruhla və qüdrətlə məsh etdi. İsa xeyirxahlıq edərək hər yanı gəzib iblisin təzyiqinə məruz qalanların hamısına şəfa verdi. Çünki Allah Ona yar idi.
Yəhudilərin ölkəsində və Yerusəlimdə İsanın nələr etdiyinin şahidi olduq.
Onu ağaca mıxlayıb öldürdülər. Amma Allah Onu üçüncü gün diriltdi.
Bunu aydın göstərdi, lakin İsa bütün xalqa deyil, Allahın əvvəlcədən seçdiyi şahidlərə – ölümdən dirilməsindən sonra Onunla birlikdə yeyib-içən bizlərə göründü.
Bizə isə əmr verdi ki, "Allah Onu ölülərlə dirilərin Hakimi təyin edib" deyə bunu xalqa şəhadət etməklə təbliğ edək. Buna aid bütün peyğəmbərlər təsdiq edib ki, Ona inanan hər kəsin günahı Onun adı ilə bağışlanır».
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 118, 1-2. 16ab+17. 22-23**

**N: Bu günü Rəbb yaratdı, Onda sevinib şadlıq edək! Aleluya!**

Rəbbə şükür edin, ona görə ki yaxşıdır, çünki məhəbbəti əbədidir!
Qoy İsraillilər belə desin: «Çünki məhəbbəti əbədidir!»
Rəbbin sağ əli necə əzəmətlidir! Rəbbin sağ əli qüdrətli işlər göstərir!»
Ölməyib sağ qalacağam, Rəbbin işlərini bəyan edəcəyəm.
Bənnaların rədd etdiyi daş guşədaşı olub.
Bu, Rəbbin işi idi, gözümüzdə xariqəli bir işdir.

**Müqəddəs Paulun Kolosselilərə məktubundan sözlər** *Kol 3, 1-4*

Beləliklə, Məsihlə birlikdə dirildiyinizə görə ucalardakı şeyləri axtarın.
Orada Məsih Allahın sağında oturub. Dünyəvi şeyləri deyil, ucalardakı şeyləri düşünün. Çünki siz ölmüsünüz və həyatınız Məsihlə birlikdə Allahda saxlanılıb.
Həyatınız olan Məsih zühur edəndə siz də Onunla birgə izzətlə zühur edəcəksiniz.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**İlahi**

*Hamınız qurban edilən "Pasxa Quzusuna" ilahilər söyləyin,*
*çünki günahsız Məsih, günahkar insanları Atası ilə barışdırdı.*
*Quzu qoyunları qurtardı. Ölüm və Həyat bir-birilə savaşdı.*

*Həyatın hakimi öldü. Amma yenə hökm edir.*
*Danış bizə, Məcdəlli Məryəm yolda nə gördün?*
*Məsihin məzarını gördüm. Onun yaşadığını gördüm.*
*Bütün hikməti ilə dirilmiş olduğunu gördüm.*
*Onun tanışları olan Mələkləri kəfən və paltarlarını gördüm.*
*Mənim ümidim, Rəbbim dirildi.*
*Qalileyaya gedib orada sizləri qarşılayacaqdır.*
*Həqiqətən Rəbbimiz Məsih dirildi:*
*bilirik bunu, ey, Zəfər qazanan*
*Kralımız mərhəmət et bizlərə!*

**Alleluya!**
Gerçək Pasxa Quzusu, Rəbbimiz Məsih qurban edildi.
Sevinclə bayramımızı qeyd edək.
**Alleluya!**

## † İncil †

*Yəh 20, 1-9*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Həftənin ilk günü tezdən hələ qaranlıq ikən Məcdəlli Məryəm məqbərənin yanına gəldi. O gördü ki, daş məqbərənin ağzından götürülüb. Onda qaçıb Şimon Peterlə İsanın sevimlisi olan o biri şagirdin yanına gəldi və onlara dedi: «Rəbbi məqbərədən aparıblar və hara qoyulduğunu bilmirik». Peterlə o biri şagird bayıra çıxıb məqbərəyə tərəf getdi. İkisi birgə qaçırdı, amma o biri şagird Peterdən daha cəld qaçdı və qabaqca məqbərəyə o çatdı. Əyilib içəri baxdı və kətan bezlərin yana salındığını gördü, ancaq içəri girmədi. O vaxt onun ardınca Şimon Peter də gəlib məqbərəyə girdi. O, yana salınmış kətan bezləri və İsanın başına qoyulmuş dəsmalı gördü. Dəsmal kətan bezlərin yanında deyil, başqa bir yerdə bükülü qalmışdı. Onda məqbərənin yanına qabaqca gələn o biri şagird də içəri girib bunları gördü və iman etdi. Çünki İsanın mütləq ölümdən diriləcəyini bildirən Müqəddəs Yazını onlar hələ anlamırdı.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# PASXA Dövrü A

# 2-ci Rəbb günü Pasxa dövründə - A ili

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 2, 42-47*

Həvarilər vasitəsilə xalq arasında çox əlamətlər və xariqələr göstərilirdi. Bütün imanlılar Süleymanın Eyvanına yığılardı. Xalq onlara böyük rəğbət bəsləsə də, kənardan heç kim onlara qoşulmağa cürət etmirdi. Buna baxmayaraq get-gedə daha çox qadın və kişi Rəbbə iman gətirirdi. Buna görə də Peter yoldan keçəndə heç olmasa kölgəsi xəstələrin üstünə düşsün deyə xalq öz xəstələrini döşək və çarpayı ilə birlikdə küçələrə çıxarıb qoyardı. Yerusəlimin ətraf şəhərlərində yaşayanlar da axın-axın gələr, öz xəstələrini və natəmiz ruhdan əzab çəkənləri gətirərdi. Onların hamısı şəfa tapardı.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 118, 2-4. 13-15. 22-24**

**N: Rəbbə şükür edin, ona görə ki yaxşıdır, çünki məhəbbəti əbədidir!**

Qoy İsraillilər belə desin: «Çünki məhəbbəti əbədidir!»
Harun nəsli belə desin: «Çünki məhəbbəti əbədidir!»
Qoy Rəbdən qorxanlar belə söyləsin: «Çünki məhəbbəti əbədidir!»
Möhkəm təzyiq altında yıxılmağıma az qalmışdı, lakin Rəbb imdadıma çatdı.
Rəbb qüvvətim, məzmurumdur, O məni xilas etdi! Salehlərin çadırlarından zəfər nidası yüksəlir: «Rəbbin sağ əli qüdrətli işlər göstərir!
Bənnaların rədd etdiyi daş guşədaşı olub. Bu, Rəbbin işi idi, gözümüzdə xariqəli bir işdir. Bu günü Rəbb yaratdı, Onda sevinib şadlıq edək!

**Müqəddəs Peterin 1-ci məktubundan sözlər** *1 Pet 1, 3-9*

Rəbbimiz İsa Məsihin Allahı və Atasına alqış olsun! O, Öz böyük mərhəmətinə görə yenidən doğulmamızı təmin etdi. İsa Məsihin ölülər arasından dirilməsi ilə bizi canlı ümidə, çürüməz, ləkəsiz, solmaz bir irsə qovuşdurdu. Bu irs sizin üçün göylərdə saxlanılır. Siz Allahın qüdrəti ilə axır zamanda aşkar olunmağa hazır olan xilas üçün iman vasitəsilə qorunursunuz. Buna görə hal-hazırda qısa bir müddət cürbəcür sınaqlara görə kədərlənsəniz də, hədsiz sevinin: bunları çəkirsiniz ki, imanınızın sınaqdan keçməsi İsa Məsihin zühurunda sizə tərif, izzət və şərəf gətirsin. Bu imanınız odla təmizlənsə belə, fani qızıldan daha çox dəyərlidir. Siz İsa Məsihi görməmisiniz, amma Onu sevirsiniz. Hətta siz Onu indi də görmürsünüz, lakin Ona iman edib təsvirolunmaz və izzətli sevinclə hədsiz sevinirsiniz. Çünki imanınızın nəticəsində canınızın xilasına nail olursunuz.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *(Yəh 20, 29)*

İsa Məsih Tomaya belə dedi: "Sən Məni gördüyün üçünmü iman etdin? Görmədən iman edənlər nə bəxtiyardır!

**Alleluya!**

# † İncil †

*Yəh 20, 19-31*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
O gün – həftənin ilk günü axşam çağı Yəhudi başçılarından qorxduqları üçün şagirdlərin olduqları yerin qapıları bağlı olsa da, İsa içəri girdi. O ortada durub onlara «Salam!» dedi. Bunu söyləyib onlara əllərini və böyrünü göstərdi. Şagirdlər də Rəbbi görüb sevindilər.
İsa yenə onlara dedi: «Salam! Ata Məni göndərdiyi kimi Mən də sizi göndərirəm». Bunu söylədikdən sonra onların üzərinə üfürərək dedi: «Müqəddəs Ruhu alın! Kimin günahlarını bağışlasanız, bağışlanır, kimin günahlarını bağışlamasanız, bağışlanmamış qalır».
Lakin On iki Şagirddən biri «Əkiz» adlanan Toma İsa gələndə onların yanında deyildi. O biri şagirdlər Tomaya «Rəbbi gördük» deyəndə o onlara söylədi: «Əgər Onun əllərində mıxların açdığı yaraları görməsəm, mıxların yerinə barmağımla toxunmasam, böyrünə də əlimi qoymasam, buna inanmaram».
Səkkiz gün sonra İsanın şagirdləri yenə otaqda toplaşanda Toma da onların yanında idi. Qapılar bağlı olsa da, İsa içəri girdi. O ortada durub «Salam!» dedi.
Bundan sonra Tomaya söylədi: «Barmağını buraya uzat, əllərimə bax, əlini də uzat, böyrümə qoy. İmansız olma, imanlı ol!» Toma cavab verib Ona
«Ya Rəbbim və Allahım!» dedi.
İsa ona dedi: «Sən Məni gördüyün üçünmü iman etdin?
Görmədən iman edənlər nə bəxtiyardır!»
İsa şagirdlərinin gözü önündə bir çox başqa əlamətlər də göstərdi ki, bu kitabda yazılmayıb. Amma buradakılar onun üçün yazılıb ki, siz İsanın Allahın Oğlu və Məsih olduğuna iman edəsiniz və iman edərək Onun adı ilə həyata malik olasınız.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 3-cü Rəbb günü Pasxa dövründə - A ili

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 2, 14. 22b-33*

Peter on bir həvari ilə bərabər irəli çıxdı və izdihama ucadan nida etdi:
«Ey yəhudilər və Yerusəlimin bütün sakinləri, sizə bildirirəm, sözlərimə qulaq asın. Bildiyiniz kimi Nazaretli İsanın Allahdan gələn Şəxs olduğunu Allah Onun vasitəsilə aranızda yaratdığı möcüzələr, xariqələr və əlamətlərlə təsdiq etdi. Allahın müəyyən etdiyi məqsəd və uzaqgörənliyinə uyğun olaraq siz bu Şəxsi qanunsuzlara təslim edib onların əli ilə çarmıxa mıxlatdıraraq öldürdünüz. Allah isə ölüm iplərini kəsərək Onu diriltdi. Çünki Onu ölüm tutub saxlaya bilməzdi. Davud da Onun barəsində demişdi: "Rəbbə əbədilik üz tutmuşam, Sağımda olduğu üçün sarsılmaram. Elə bunun üçün qəlbim sevinir, dilim şad olur, cismim belə ümidlə yaşayır. Çünki məni ölülər diyarına atmazsan, mömin insanını çürüməyə qoymazsan. Mənə həyat yolunu öyrədirsən, hüzurunda mənə doyunca sevinc verirsən". Qardaşlar, sizə deməliyəm ki, doğrudan da ulu babamız Davud ölüb və dəfn olunub. Onun qəbri bu günə qədər buradadır. Davud peyğəmbər olduğuna görə bilirdi ki, Allah Onun nəslindən bir Nəfəri* Davudun taxtına çıxarmaq üçün and içərək vəd edib. Ona görə uzaqgörənliklə Məsihin dirilməsi barədə demişdi ki, Allah Onu ölülər diyarına atmaz, cismini çürüməyə qoymaz. Allah bu İsanı ölümdən diriltdi və hamımız buna şahid olduq. Allah Onu ucaltdı və sağ əlində oturtdu. O, Atadan vəd edilən Müqəddəs Ruhu götürüb sizin görüb-eşitdiyiniz kimi üstümüzə tökdü.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 16, 1-2a+5. 7-8. 9-10. 11**

**N: Ya Rəbb, mənə həyat yolunu öyrət !**

Ey Allah, məni hifz et, Sənə pənah gətirmişəm.
Rəbbə dedim: «Mənim Xudavəndim Sənsən.
Ya Rəbb, mənim qismətimsən, kasama düşən paysan,
püşkümə düşən Səndən asılıdır.
Mənə nəsihət verən Rəbbə alqış edirəm,
hətta gecələr də vicdanım mənə ağıl öyrədir.
Rəbbə əbədilik üz tutmuşam,
sağımda olduğu üçün sarsılmaram.
Elə bunun üçün qəlbim sevinir, ruhum şad olur, cismim əmin-amanlıqda yaşayır.
Çünki məni ölülər diyarına atmazsan, mömin insanını qəbrə salmazsan.
Mənə həyat yolunu öyrədirsən, doyunca sevinc Sənin hüzurundadır,
sağ əlində hər zaman səadət var».

**Müqəddəs Peterin 1-ci məktubundan sözlər** *1 Pet 1, 17-21*

Hər kəsi tərəfkeşlik etmədən öz əməlinə görə mühakimə edən Allahı «Ata» deyə çağırdığınız üçün, bu qürbət dünyadakı vaxtınızı Allah qorxusunda keçirin. Bildiyiniz kimi, siz ata-babalarınızdan miras aldığınız puç həyat tərzindən qızıl ya gümüş kimi fani şeylərlə deyil, qüsursuz və ləkəsiz quzuya bənzəyən Məsihin qiymətli qanı bahasına azad olunmusunuz {qurtulmusunuz}. Dünya yaranmazdan əvvəl tanınmış Məsih bu axır zamanda sizə görə zühur etdi. Onun vasitəsilə siz Onu ölülər arasından dirildib izzətləndirən Allaha iman edirsiniz.
Beləliklə imanınız və ümidiniz Allaha bağlıdır.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**
Rəbbimiz İsa, sözlərini bizə açıqla və bizimlə danışarkən
ürəklərimizi sevginlə doldur.
**Alleluya!**

## † İncil †

*Luka 24, 13-35*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Elə o gün onlardan ikisi Yerusəlimdən altmış stadi uzaqlığında yerləşən Emmaus adlı kəndə gedirdi. Onlar olub-keçən bütün bu hadisələr barədə öz aralarında söhbət edirdi. Onlar söhbət edərək öz aralarında müzakirə edərkən İsa Özü yaxınlaşıb onlarla birlikdə yol getdi. Amma onların gözləri tutulmuşdu, buna görə Onu tanımadılar. Amma İsa onlardan soruşdu: "Siz yol gedə-gedə öz aranızda nə barədə danışırdınız? Nə üçün belə qəmlisiniz?"
Onlardan Kleopa adlı bir nəfər İsaya cavab verdi: "Yerusəlimdə qalıb və bu günlərdə orada baş vermiş hadisələrdən xəbəri olmayan bircə sənsənmi?"
İsa onlara dedi: "Hansı hadisələrdən?" Onlar da Ona dedi: "Nazaretli İsa barəsindəki hadisədən. O, Allahın və bütün xalqın önündə əməldə və sözdə qüdrətli bir peyğəmbər idi. Bizim başçı kahin və rəhbərlərimiz Onu ölümə məhkum etmək üçün təslim edib çarmıxa çəkdirdilər. Biz də ümid edirdik ki, bu Adam İsrailə nicat gətirəcək. Bundan əlavə, bu hadisələr artıq üç gündür ki, baş verib. Üstəlik bizim qadınlardan bəzisi də bizi heyrətə saldılar: onlar səhər erkən qəbir üstünə getmişdi. Amma Onun cəsədini orada tapa bilməmişlər.

Qadınlar gəlib dedilər ki, onlar Onun diri olduğunu bəyan edən mələklərin zühur etdiyini görüblər. Bizlərdən bəzisi qəbirə gedib oranı qadınların danışdığı kimi tapmışdılar, amma Onu görməyiblər".
Onda İsa onlara dedi: "Ey ağılsızlar və peyğəmbərlərin əvvəlcədən xəbər verdiklərinə inanmaq üçün ürəyində ləngiyənlər! Məsih bu əzablara dözərək Öz izzətinə qovuşmalı deyildimi?" Sonra Musa ilə bütün peyğəmbərlərdən başlayaraq Müqəddəs Yazıların hamısında Özü haqqında olanları onlara izah etdi.
Onlar getdikləri kəndə yaxınlaşdılar. İsa Özünü yoluna davam etmək istəyən adam kimi apardı. Amma onlar İsadan təkidlə xahiş edib dedi: "Bizimlə qal, çünki axşam düşür və gün batmaq üzrədir". O da onlarla qalmaq üçün içəri girdi.
İsa onlarla süfrə başında oturarkən çörək götürüb şükür duası etdi, böldü və onlara verdi. Bu anda onların gözləri açıldı və onlar Onu tanıdı. Amma İsa onlar üçün görünməz oldu. Onlar bir-birlərinə dedi: "O, yolda bizimlə danışıb və Müqəddəs Yazıları bizə izah edəndə bizim ürəklərimiz alışıb-yanmırdımı?" Onlar elə o saat qalxıb Yerusəlimə qayıtdılar, On Bir Şagirdi və onlarla birlikdə olanları bir yerdə toplaşmış tapdılar.
Bunlar deyirdi: "Rəbb, həqiqətən də, dirilmiş və Şimona görünmüşdür".
Onlar da yolda baş verənləri və çörəyi böldüyü zaman
Onu necə tanıdıqlarını nəql etdilər.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 4-cü Rəbb günü Pasxa dövründə - A ili

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 2, 14a. 36-41*

Peter on bir həvari ilə bərabər irəli çıxdı və izdihama ucadan nida etdi:
Ona görə də qoy İsrail xalqı möhkəm bilsin ki, Allah sizin çarmıxa çəkdiyiniz bu İsanı həm Rəbb, həm də Məsih təyin etmişdir». Bu sözlər ona qulaq asanların ürəyinə ox kimi sancıldı. Onlar həm Peterdən, həm də o biri həvarilərdən soruşdular: «Qardaşlar, bəs biz nə edək?» Peter onlara cavab verdi:
«Hamınız tövbə edib İsa Məsihin adı ilə vəftiz olun. Onda günahlarınız bağışlanacaq və bəxşiş olaraq Müqəddəs Ruhu alacaqsınız. Çünki bu vəd sizin üçün, övladlarınız üçün və sizdən uzaqda olanlar üçün – Allahımız Rəbb kimi çağırarsa, onun üçündür». Peter başqa çox söz deyib onlara şəhadət və xəbərdarlıq etdi: «Bu yolunu azmış nəsildən canınızı qurtarın».
Onların sözünü qəbul edənlər vəftiz oldu.
O gün üç min nəfərə yaxın insan imanlılara qoşuldu.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 23, 1-3a. 3b-4. 5. 6**

**N: Rəbb mənim çobanımdır, möhtac olmaram.**

Rəbb mənim çobanımdır, möhtac olmaram.
O məni yaşıl çəmənlərdə dincəldir,
sakit axan sular kənarında gəzdirir.
Məni yenə də canlandırır,
İsmi şərəfinə salehlik yolu ilə aparır. Qaranlıq dərədə gəzsəm belə,
şərdən qorxmaram, çünki Sən mənimləsən,
Sənin əsan, Sənin dəyənəyin mənə təsəlli verir.
Düşmənlərimin qarşısında mənim üçün süfrə açırsan,
başıma ətirli yağ çəkirsən, ağzınadək camımı doldurursan.
Bəli, bütün həyatım boyu yaxşılıq, məhəbbət məni izləyir.
Bütün ömrüm boyu Rəbbin evində yaşayacağam!

**Müqəddəs Peterin 1-ci məktubundan sözlər** *1 Pet 2, 20b-25*

Əzizlərim, əgər siz yaxşılıq etdiyiniz üçün əzab çəkib dözsəniz, bu Allah qarşısında tərifə layiqdir. Siz məhz bunun üçün çağırıldınız. Çünki Məsih də sizin üçün əzab çəkdi və sizə nümunə oldu ki, siz də Onun izi ilə gedəsiniz. O heç bir günah etmədi, ağzından hiylə sözü çıxmadı. Onu söydülər, O isə cavabında söymürdü, əzab çəkərək heç kimi hədələmirdi, əksinə, ədalətli Hakimə Özünü təslim etdi.
O, bədəni çarmıxa çəkilərək bizim günahlarımızı Öz üzərinə götürdü ki, biz günaha münasibətdə ölüb salehlik üçün yaşayaq.
Onun yaraları ilə siz şəfa tapdınız. Hamınız qoyun kimi yolunuzu azmışdınız, indi isə canınızın Çobanına və Nəzarətçisinə tərəf döndünüz.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Yəh 10, 27*

İsa Məsih belə dedi: Quzularım səsimi eşidir,
Mən də onları tanıyıram və Mənim ardımca gəlirlər.
**Alleluya!**

## † İncil †

*Yəh 10, 1-10*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Doğrusunu, doğrusunu sizə deyirəm: qoyun ağılına qapıdan girməyib başqa yerdən aşan oğru və quldurdur. Amma qapıdan girən qoyunların çobanıdır. Keşikçi qapını onun üzünə açar və qoyunlar onun səsinə qulaq asar. O da öz qoyunlarını adları ilə çağırar və onları çölə çıxarar. Öz qoyunlarının hamısını çölə çıxarandan sonra onların önündə gedər və qoyunlar da ardınca gedər, çünki onun səsini tanıyırlar. Amma yad adamın ardınca getməzlər, ondan qaçarlar, çünki yad adamların səsini tanımazlar». İsa bu məsəli onlara söylədi, amma onlar İsanın sözlərinin mənasını anlamadı. İsa yenə onlara dedi: «Doğrusunu, doğrusunu sizə deyirəm: Qoyunların qapısı Mənəm. Məndən əvvəl gələnlərin hamısı oğru və quldur idi, amma qoyunlar onlara qulaq asmadı. Qapı Mənəm, kim Məndən girərsə, xilas olar, girib-çıxar və özünə otlaq tapar. Oğru isə yalnız qarət etmək, öldürmək və tələf etmək üçün gəlir. Amma Mən gəldim ki, Məndən girənlər həyata, bol həyata malik olsun.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 5-ci Rəbb günü Pasxa dövründə - A ili

## Həvarilərin İşləri kitabından sözlər *Həv 6, 1-7*

O günlərdə – şagirdlərin çoxaldığı vaxtda yunanca danışan Yəhudilər ibranicə danışan Yəhudilərdən şikayət etməyə başladı. Çünki gündəlik yardım paylananda onların dul qadınlarını nəzərə almamışdılar. Ona görə on iki həvari bütün şagirdləri bir yerə yığıb belə dedi: «Allah Kəlamını yaymaq işini atıb maddi işlərlə məşğul olmağımız doğru deyil. Ey qardaşlar, aranızda etibar qazanmış, ruh və hikmətlə dolu olan yeddi nəfər seçin ki, onları bu işə təyin edək. Biz isə özümüzü duaya və Allah kəlamını yaymağa həsr edək». Bu sözlər bütün toplantının xoşuna gəldi. İman və Müqəddəs Ruhla dolu olan Stefanı, Filipi, Proxoru, Nikanoru, Timonu, Parmenanı və Yəhudi dinini qəbul edən Antakyalı Nikolanı seçib həvarilərin qarşısına çıxardılar. Həvarilər də dua edib onların üzərinə əl qoydular.
Allah kəlamı yayılır, Yerusəlimdə şagirdlərin sayı xeyli artır
və bir çox kahinlər də bu imana tabe olurdu.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

## Zəbur 33, 1-2. 4-5. 18-19

**N: Ya Rəbb, ümidimizi Sənə bağlamışıq,**
**Məhəbbətin üzərimizdən tükənməsin.**

Ey salehlər, Rəbbi mədh edin, ürəyidüz olanlara həmd söyləmək yaraşır.
Lira çalın, Rəbbə şükür edin, on telli çənglə Onu tərənnüm edin,
Çünki Rəbbin sözü haqdır, hər işini sədaqətlə aparır.
Rəbb salehliyi və ədaləti sevir, yer üzü Onun məhəbbəti ilə dolur.
Rəbbin gözü Ondan qorxanlara, Onun məhəbbətinə ümid bağlayanlara baxar.
İstəyir ki, onları ölümdən qurtarsın, qıtlıqda belə, onlar sağ qalsın.

## Müqəddəs Peterin 1-ci məktubundan sözlər *1 Pet 2, 4-9*

İnsanların rədd etdiyi, amma Allahın qiymətli sayıb-seçdiyi diri Daşa, Rəbbə yaxınlaşaraq özünüz diri daşlar kimi hörülün ki, ruhani ev qurulsun. Orada müqəddəs kahin dəstəsi olasınız və İsa Məsih vasitəsilə Allaha məqbul olan ruhani qurbanlar təqdim edəsiniz. Çünki Müqəddəs Yazıda yazılıb: «Budur, Sionda bir daş, Seçilmiş, qiymətli guşədaşı qoyuram. Ona iman edən əsla utandırılmaz». Beləliklə iman edən sizlər üçün bu daş qiymətlidir, amma iman etməyənlər üçün: «Bənnaların rədd etdiyi daş Guşədaşı olub» «Büdrəmə daşı və yıxırdan qaya» da oldu. Onlar Kəlama itaət etmir və bunun təyin olunan nəticəsində büdrəyirlər. Amma siz seçilmiş nəsil, Padşahın kahin dəstəsi, müqəddəs millət, Allaha məxsus olan xalqsınız. Sizi qaranlıqdan Öz heyrətamiz nuruna çağıran Allahın çox gözəl işlərini elan etmək üçün seçilmisiniz.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Yəh 14, 6*

İsa Məsih belə dedi: “Yol, həqiqət və həyat Mənəm.
Mənim vasitəçiliyim olmasa, heç kəs Atanın yanına gələ bilməz”.
**Alleluya!**

# † İncil †

*Yəh 14, 1-12*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Qoy ürəyiniz narahat olmasın. Allaha iman edin, Mənə də iman edin. Atamın evində çoxlu məskən var. Əgər olmasaydı, sizə deyərdimmi ki, sizin üçün yer hazırlamağa gedirəm? Gedib sizin üçün yer hazırlayandan sonra yenə gəlib sizi Öz yanıma götürəcəyəm ki, siz də Mənim olduğum yerdə olasınız. Gedəcəyim yerə aparan yolu tanıyırsınız». Toma İsaya dedi: «Ya Rəbb, hara gedəcəyini bilmirik, yolu necə tanıya bilərik?» İsa ona dedi: «Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəçiliyim olmasa, heç kəs Atanın yanına gələ bilməz. Əgər Məni tanısaydınız, Atamı da tanıyardınız. Siz Onu artıq tanıyırsınız, Onu görmüsünüz». Filip Ona dedi: «Ya Rəbb, Atanı bizə göstər, bu bizim üçün kifayətdir». İsa ona dedi: «Xeyli müddətdir ki, Mən sizinləyəm, Məni tanımadınmı, Filip? Məni görən Atanı görmüş olur. Bəs sən niyə “Atanı bizə göstər” deyirsən? Mənim Atada, Atanın da Məndə olduğuna iman etmirsənmi? Sizə söylədiyim sözləri özbaşına söyləmirəm, Mənim daxilimdə qalan Ata Öz işlərini görür. Mən Atadayam, Ata da Məndədir. Sözümə iman edin. Heç olmasa o işlərə görə iman edin. Doğrusunu, doğrusunu sizə deyirəm: Mənə iman edən özü də gördüyüm işləri edəcək. Hətta bunlardan da artığını edəcək. Çünki Mən Atanın yanına gedirəm.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 6-cı Rəbb günü Pasxa dövründə - A ili

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 8, 5-8. 14-17*

Filip də Samariya şəhərinə gəlib oradakılara Məsih barədə bəyan edirdi. Filipi eşidib, göstərdiyi əlamətləri görən izdiham onun sözlərinə birlikdə diqqət yetirirdi. Natəmiz ruha tutulan çox adamdan bu ruhlar bərkdən çığıraraq çıxır, çox iflic və ayaqları şikəst olanlar sağalırdı. Ona görə bu şəhərdə bol sevinc var idi. Yerusəlimdə qalan həvarilər Samariyalıların Allah kəlamını qəbul etdiklərini eşidəndə Peterlə Yəhyanı da onların yanına göndərdi. Peterlə Yəhya oraya çatanda dua etdi ki, Samariyalı imanlılar Müqəddəs Ruhu alsın. Çünki Ruh hələ onların heç birinin üzərinə enməmişdi, sadəcə olaraq Rəbb İsanın adı ilə vəftiz olmuşdular. Sonra Peterlə Yəhya əllərini onların üstünə qoydu və onlar Müqəddəs Ruhu aldı.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 66, 1-3a. 4-5. 6-7a. 16+20**

**N: Ey bütün dünya əhli, cuşa gəlib Allaha nida edin.**

Ey bütün dünya əhli, cuşa gəlib Allaha nida edin, şərəfli ismini tərənnüm edin, Ona şərəflə həmd edin! Siz Allaha belə deyin: «əməllərin nə qədər zəhmlidir!
Bütün dünya Sənə səcdə edir, Səni tərənnüm edir, İsmini tərənnüm edir».
Gəlin, Allahın işlərini, bəşər övladları üçün etdiyi zəhmli əməllərini görün.
Dənizi quruya çevirdi, çayın sularını saxlayıb xalqını piyada keçirtdi.
Biz Allaha görə sevinək! Qüdrəti ilə əbədi səltənət sürər.
Ey Allahdan qorxanlar, gəlin, dinləyin, Onun mənə nə etdiyini sizə bəyan edim.
Alqış olsun Allaha! Duamı rədd etmədi, məndən məhəbbətini əsirgəmədi!

**Müqəddəs Peterin 1-ci məktubundan sözlər** *1 Pet 3, 15-18*

Fəqət Məsihi Rəbb kimi ürəyinizdə müqəddəs tutun. Daxilinizdə olan ümid barəsində sizdən hesabat istəyən hər kəsə cavab vermək üçün hazir olun. Amma vicdaninizi təmiz tutaraq bunu həlimliklə və ehtiramla edin ki, Məsihdə sürdüyünüz yaxşi həyat tərzinə görə təhqir edənlər sizə atdiqlari böhtandan utansinlar. Əgər Allahin iradəsi budursa, yaxşiliq etdiyi üçün əzab çəkmək pislik etdiyi üçün əzab çəkməkdən yaxşidir. Çünki saleh olan Məsih də salehlik etməyənlər uğrunda, onlarin günahlari üçün bir dəfə əzab çəkdiy ki, sizi Allahin hüzuruna gətirsin. O cismən öldürülmüş, amma ruhən həyata qovuşmuşdur.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Yəh 14, 23*

İsa belə dedi: «Kim Məni sevsə, sözümə əməl edər,
Atam da onu sevər və Biz onun yanına gəlib onunla məskən salarıq.
**Alleluya!**

# † İncil †

*Yəh 14, 15-21*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**
Əgər Məni sevirsinizsə, əmrlərimə əməl edərsiniz. Mən də Ataya yalvaracağam ki, sizə daim sizinlə olacaq başqa bir Vəsatətçi göndərsin. O, Həqiqət Ruhudur.
Onu dünya qəbul edə bilməz, çünki Onu görmür və tanımır. Sizsə Onu tanıyırsınız, çünki sizin yanınızda qalır və daxilinizdə olacaq. Sizi yetim qoymaram, yanınıza gələcəyəm. Az bir müddətdən sonra dünya daha Məni görməyəcək, amma siz Məni görəcəksiniz. Mən yaşadığım üçün siz də yaşayacaqsınız. O gün biləcəksiniz ki, Mən Atamdayam, siz Məndəsiniz və Mən sizdəyəm. Kim əmrlərimə bağlı qalıb əməl edirsə, Məni sevir. Məni sevəni Atam sevəcək. Mən də onu sevib Özümü ona zahir edəcəyəm».
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 7-ci Rəbb günü Pasxa dövründə - A ili

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 1, 12-14*

O zaman onlar Zeytun dağı adlanan dağdan Yerusəlimə döndülər; o dağ Yerusəlimə şənbə yolu qədər yaxındır. Şəhərə girdikləri zaman Peter, Yəhya, Yaqub, Andrey, Filip və Toma, Bar-Talmay və Matta, Halfayın oğlu Yaqub, Vətənpərvər Şimon və Yaqubun oğlu Yəhuda qaldıqları evin yuxarı otağına qalxdılar. Bunların hamısı və o cümlədən bəzi qadınlar, habelə İsanın anası Məryəm və İsanın qardaşları birlikdə idilər və yekdilliklə duaya davam edirdilər.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 27, 1. 4. 7-8a**

**N: Rəbbin xeyirxahlığını dirilər arasında görəcəyəm,
buna şübhəm yoxdur.**

Rəbdir nurum, qurtuluşum! Mən kimdən qorxum?
Rəbdir ömrümün qalası, Mən kimdən vahimələnim?
Rəbdən bir arzum, bir istəyim var: Bütün ömrüm boyu Rəbbin evində yaşayım,
məbədində Rəbbin camalına baxım, Ona pərəstiş edim.
Ya Rəbb, dinlə, Səni çağırıram, lütf edib mənə cavab ver.
Sən dedin: «Üzümü axtarın».

**Müqəddəs Peterin 1-ci məktubundan sözlər** *1 Pet 4, 13-16*

Lakin Məsihin ələmlərində iştirak etdiyinizə görə sevinin ki, Onun izzətinin zühurunda böyük şənliklə sevinəsiniz. Əgər Məsihin adından ötrü təhqir edilirsinizsə, bəxtiyarsınız. Çünki izzətli Ruh, Allahın Ruhu üzərinizdə qalır. /Digərlərinin arasında O söyülür, sizin aranızda isə izzət görür./ Qoy sizlərdən heç kim qatil, oğru, cani yaxud başqalarının işinə müdaxilə edən kimi əzab çəkməsin. Lakin əgər insan bir məsihi kimi əzab çəkirsə, qoy utanmasın. Qoy bu adla Allaha izzət qazandırsın.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Yəh 14, 18*

İsa Məsih belə deyir: “Sizi yetim qoymaram, yanınıza gələcəyəm.”
**Alleluya!**

## † İncil †

*Yəh 17, 1-11a*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İSA bu sözləri söylədikdən sonra, gözlərini göyə qaldırıb dedi: «Ey Ata, saat gəldi; Öz Oğlunu izzətləndir ki, Oğlun da Səni izzətləndirsin. Çünki Sən bütün insanlar üzərində Ona hakimiyyət verdin ki, Sənin Ona tapşırdıqlarının hamısına əbədi həyat versin. Əbədi həyat o deməkdir ki, Səni, vahid həqiqi Allahı və göndərdiyin İsa Məsihi tanısınlar. Mən Səni yer üzündə izzətləndirdim; Sənin Mənə icra etmək üçün tapşırdığın işi yerinə yetirdim. Ey Ata, dünya yaranmazdan əvvəl, Mən Səninlə bərabər ikən Məndə olan həmin izzəti indi Mənə Öz yanında ver. Dünyadan Mənə verdiyin adamlara Sənin adını açdım; Sənin idilər, onları Mənə verdin və Sənin sözünə riayət etdilər. İndi bilirlər ki, Mənə verdiyin hər şey Səndəndir; Çünki Mənə bildirdiyin sözləri onlara bildirdim və onlar qəbul etdilər. Səndən çıxıb gəldiyimi də həqiqətən anladılar və Məni Sənin göndərdiyinə iman etdilər. Mənim onlar üçün bir istəyim var. Bütün dünya üçün deyil, lakin Mənə verdiyin kimsələr üçün bir istəyim var; ona görə ki, Sənindirlər. Mənim olan hər şey Sənindir, Səninkilər də Mənimdir; və Mən onlarda izzətləndim. Artıq dünyada deyiləm, onlar isə dünyadadırlar və Mən Sənin yanına gəlirəm.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# İsa Məsihin göyə qalxması bayramı – A,B,C

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 1, 1-11*

Ey Teofil, birinci yazılarım İsanın göyə qaldırıldığı günədək başladığı işlər və öyrətməyə başladığı tam təlim barəsindədir. Göyə qaldırılmazdan əvvəl İsa seçdiyi həvarilərə Müqəddəs Ruh vasitəsilə buyruqlar verdi. Ölüm əzabını çəkəndən sonra diri olduğunu həvarilərə çoxlu inandırıcı dəlillərlə göstərdi. O, qırx gün ərzində onlara görünərək Allahın Səltənəti barədə danışırdı. İsa onlarla duz-çörək kəsəndə bu əmri verdi: «Yerusəlimdən kənara çıxmayın, Atanın verdiyi, Məndən eşitdiyiniz vədin həyata keçməsini gözləyin. Belə ki Yəhya su ilə vəftiz edirdi, amma siz bir neçə gündən sonra Müqəddəs Ruhla vəftiz olacaqsınız».

Həvarilər bir yerə toplaşanda İsadan soruşdular: «Ya Rəbb, İsraildə səltənəti indimi bərpa edəcəksən?» İsa cavab verdi: «Atanın hökmü ilə təyin olunan vaxtları və tarixləri bilmək sizin işiniz deyil. Amma Müqəddəs Ruh üzərinizə enəndə siz qüvvə alacaq, Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin yer üzünün sonuna qədər hər yerdə Mənim şahidlərim olacaqsınız». İsa bunları deyəndən sonra həvarilərin gözləri qarşısında yuxarı qaldırıldı. Bir bulud İsanı götürüb onlardan gizlədi. İsa göyə qalxanda onlar səmaya baxırdılar. Elə həmin an ağ libaslı iki şəxs onların yanında peyda olub soruşdu: «Ey Qalileyalılar, niyə səmaya baxa-baxa qalmısınız? Aranızdan götürülüb göyə çəkilən İsanın aparıldığını necə gördünüzsə, elə də qayıdacaq».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 47, 2-3. 6-7. 8-9**

**N: İsa Məsih göyə ucalır, göy və yer üzü sevinir.**

Haqq-Taala Rəbb necə də zəhmlidir, Bütün yer üzünün böyük Padşahıdır!
Onun sayəsində xalqlar bizə tabe olub, O, ümmətləri ayaqlarımızın altına salıb.
Tərənnüm edin Allahı, tərənnüm edin! Tərənnüm edin Padşahımızı, tərənnüm edin!
Çünki Allah bütün yer üzünün Padşahıdır, Onu ilahilərlə tərənnüm edin.
Allah Öz müqəddəs taxtında əyləşir, Allah millətlərə padşahlıq edir.
İbrahimin Allahının xalqı ilə bir yerdə olmaq üçün Xalqların əsilzadələri yığılır, *
Çünki yer üzünün sipərləri Allahındır. O nə qədər ucadır!

**Müqəddəs Paulun Efeslilərə məktubundan sözlər** *Ef 1, 17-23*

Dua edirəm ki, Rəbbimiz İsa Məsihin Allahı olan izzətli Ata Özünü sizə tanıtmaq üçün hikmət və vəhy ruhunu versin. Qoy O, qəlbinizin gözünü nurlandırsın ki,

Onun dəvətindən yaranan ümidin nə olduğunu, müqəddəslərə verdiyi irsin izzətinin necə zəngin olduğunu, Onun böyük qüvvəsinin fəaliyyətinə görə iman edən bizlərə sərf olunan qüdrətin hədsiz böyüklüyünün nə olduğunu biləsiniz. Allah bu qüdrətlə Məsihdə elə fəaliyyət göstərdi ki, Onu ölülər arasından dirildib səmavi aləmdə Öz sağında oturtdu və hər başçılıq, hakimiyyət, qüvvə və ağalıqdan, yalnız bu dövrdə deyil, gələcək dövrdə də Onu çəkiləcək hər addan çox yüksəltdi. Hər şeyi Ona tabe edərək ayaqlarının altına qoydu və Onu hər şey üzərində baş olsun deyə imanlılar cəmiyyətinə verdi. Bu cəmiyyət Onun bədənidir və hər şeyi hərtərəfli Dolğunlaşdıranın tamlığıdır.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Mt 28; 19-20*
İsa Məsih belə deyir: "Beləliklə, gedin, bütün millətləri Mənim şagirdim edin. Budur, Mən dövrün sonuna qədər hər gün sizinləyəm."
**Alleluya!**

## † İncil † - A ili *Matta 28, 16-20*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
On Bir Şagird Qalileyaya, İsanın onlara təyin etdiyi dağa getdi. İsanı gördükləri vaxt Ona səcdə qıldılar. Bəzisi isə şübhə etdi. İsa yaxınlaşıb onlara dedi: «Göydə və yer üzündə bütün səlahiyyət Mənə verilmişdir. Beləliklə, gedin, bütün millətləri Mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh naminə vəftiz edin; sizə əmr etdiyim hər şeyə əməl etməyi onlara öyrədin. Budur, Mən dövrün sonuna qədər hər gün sizinləyəm».
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

## † İncil † - B ili *Mark 16, 15-20*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
İsa şagirdlərinə dedi: "Dünyanın hər tərəfinə gedin, bütün xilqətə Müjdəni bəyan edin. İman edib vəftiz olan xilas olacaq, iman etməyən isə məhkum olacaq.
İman edənləri isə bu əlamətlər müşayiət edəcək: Mənim adımla cinlər qovacaqlar, yeni dillərdə danışacaqlar, ilanları əlləri ilə götürə biləcəklər, öldürücü zəhər içsələr belə, onlara təsir etməyəcək, əllərini xəstələrin üzərinə qoyacaq və onlar şəfa tapacaq".

Beləcə Rəbb İsa onlarla danışandan sonra göyə qaldırıldı və Allahın sağında oturdu. Şagirdlər isə gedib hər yerdə Müjdəni bəyan etdilər. Rəbb onlarla idi, onları müşayiət edən əlamətlərlə kəlamı təsdiqləyirdi. Amin.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

## † İncil † - C ili

*Luka 24, 46-53*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**
İsa şagirdlərinə dedi: "Belə yazılmışdır: Məsih iztirab çəkib üçüncü gün ölülərdən dirilməlidir. Yerusəlimdən başlayaraq, bütün millətlərə günahların bağışlanması üçün Onun adı ilə tövbə vəz edilməlidir. Sizlər bu hadisələrin şahidisiniz.
Budur, Mən Öz Atamın vəd etdiyini sizə göndərəcəyəm. Siz isə səmadan gələn qüvvətlə təmin olunanadək Yerusəlim şəhərində qalın". İsa onları şəhərdən kənara çıxarıb Bet-Anyayadək gətirdi və Öz əllərini qaldırıb onlara xeyir-dua verdi.
Onlara xeyir-dua verərkən onlardan uzaqlaşdı və göyə qaldırıldı.
Şagirdləri də Ona səcdə etdi və böyük sevinclə Yerusəlimə qayıtdılar.
Onlar daim Allaha həmd edərək məbəddə olurdular.
**K: Bu Rəbbin Kəlamıdır. * M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Pentikost bayramı – ABC

*(pentikost= Pasxa bayramından sonra əllinci gün qeyd edilir)*

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 2, 1-11*

PENTİKOST günü gəldikdə, onların hamısı bir yerdə toplaşdı. Qəflətən, güclü bir külək əsirmiş kimi, göydən bir səs gəldi və oturduqları evin hər tərəfinə yayıldı. Alovun dillərinə bənzəyən bir şey onlara görünüb, parçalanaraq hər birinin üzərinə qondu. Hamısı Müqəddəs Ruhla doldu və Ruhun onlara verdiyi danışma tərzinə uyğun olaraq, başqa-başqa dillərdə danışmağa başladılar. Yerusəlimdə yəhudilər, göy altındakı bütün xalqlardan olan dindar adamlar yaşayırdı. Və bu səs gəldikdə, xalq bir yerə toplaşıb təəccüblənirdi; çünki hər biri onların onun dilində danışdıqlarını eşidirdi. Hamı çaşqınlıq və heyrət içində idi. Aralarında deyirdilər: «Bu danışanların hamısı qalileyalı deyillərmi? Bəs necə olur ki, hər birimiz öz ana dilimizi eşidir? Biz parfiyalılar, midiyalılar, elamlılar, Mesopotamiyada, Yəhudeyada və Kapadokiyada, Pontus və Asiya əyalətində, Frikiya və Pamfiliyada, Misirdə və Liviyanın Kirineya civarında yaşayanlar, Romadan gələn qəriblər, həm yəhudilər, həm də yəhudi dininə dönənlər, Kritlilər və ərəblər, onların öz dillərimizdə Allahın möhtəşəm işləri barədə danışdıqlarını eşidirik.»
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 104, 1ab+24ac. 29b-30. 31+34**

**N: Ya Rəbb, Ruhunu göndərib yer üzünə yeni həyat ver.**

Rəbbə alqış et, ey könlüm! Ya Rəbb Allahım, Sən nə qədər böyüksən.
Ya Rəbb, əməllərin çoxdur! Yaratdıqların yer üzünü doldurub.
Sən onların nəfəsini kəsərkən ölüb torpağa qarışırlar,
Ruhunu göndərərkən onlar yaranır, yer üzünə yeni həyat verirsən.
Rəbbin ehtişamı qoy əbədi var olsun! Qoy Rəbb yaratdıqlarına görə şad olsun!
Düşüncəm Ona xoş görünsün, mən Rəbbə görə sevinəcəyəm.

**Müqəddəs Paulun Korinflilərə 1-ci məktubundan sözlər** *1 Kor 12, 3b-7. 12-13*

Heç kim Müqəddəs Ruh ilə olmadan İsanı Rəbb adlandıra bilməz. Ənamlar müxtəlif, Ruh isə eynidir; və xidmətlər də müxtəlif, Rəbb isə eynidir; bu xidmətləri icra etmək tərzləri də müxtəlif, amma Allah eynidir, hamıda hər şeyi icra edən Odur. Amma hər kəsə Ruhun zühuru xeyir üçün verilir. Çünki necə ki, bədən bir olduğu halda çoxlu üzvlərə malikdir, bir bədənin üzvləri isə çox olduğu halda bir bədən təşkil edirlər, Məsih də elədir. Çünki istər yəhudi, istər yunan, istər qul, istərsə də azad, hamımız bir bədən olmaq üçün bir Ruhda vəftiz olunmuşuq və hamımız eyni Ruhdan içirilmişik.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

*və ya (B ilində)*

**Müqəddəs Paulun Qalatiyalılara məktubundan sözlər** *Qal 5, 16-25*

Mən bunu deyirəm: Müqəddəs Ruha görə hərəkət edin, o zaman siz cismanı təbiətin arzusunu əsla icra etməzsiniz. Çünki cismanı təbiət Ruha zidd və Ruh cismanı təbiətə zidd olanı arzulayır. Onlar bir-birinə qarşı dururlar ki, siz istədiyinizi edə bilməyəsiniz. Amma Müqəddəs Ruhun rəhbərliyi altında olsanız, siz Qanunun tabeçiliyi altında deyilsiniz. Cismanı təbiətin əməlləri isə bəllidir. Bunlar cinsi əxlaqsızlıq, murdarlıq, pozğunluq, bütpərəstlik, sehrbazlıq, düşmənçilik, münaqişə, qısqanclıq, qəzəb, xudbinlik, nifaq, təfriqələr, paxıllıq, sərxoşluq, eyş-işrətlər və buna bənzər şeylərdir. Sizə əvvəllər dediyim kimi, indi də qabaqcadan deyirəm ki, bunları edənlər Allahın Səltənətini irs almayacaqlar. Müqəddəs Ruhun səmərəsi isə budur: məhəbbət, sevinc, sülh, səbir, mehribanlıq, xeyirxahlıq, sədaqət, həlimlik, özünə hakim olmaq. Bu kimi şeylərə qarşı qanun yoxdur. Məsih Isaya məxsus olanlar isə öz həvəs və ehtirasları ilə birlikdə cismanı təbiəti çarmıxa çəkdilər. Madam ki, biz Ruha görə yaşayırıq, Ruha görə də rəftar edək.

**Bu Allahın Kəlamıdır. * M: Allaha şükürlər olsun.**

***İlahi***

***Gəl Müqəddəs Ruh uca göylərdən,***
***nurunla doldur qəlblərimizi.***
***Gəl bizə, zəiflərin Atası, gəl nemətlərin qaynağı.***
***Gəl, qəlblərimizin nuru. Sən bizə təsəlli verirsən,***
***ruhumuzun Müqəddəs qonağısan, qəlblərimizin dadlı sərinliyisən.***
***Yorğunluqda istirahət, alovda sərinlik. Yaşlı gözlərdə ümidsən.***
***Ey xoşbəxtliyin nuru, möminlərin ruhu qəlblərimiz səninlə dolu.***
***Sənin gücün olmasa yaxşılıq qalmaz insanda, pislik bürüyər ruhunu.***
***Ləkəli qəlbləri yu, quru olanları sula, yaralı qəlbləri bağla.***
***Sərt qəlbləri yumşalt, soyuq qəlbləri isit,***
***nizamsız qəlblərə nizam ver.***
***Sənə güvənlərə, sənə iman edənlərə***
***yeddi hədiyyəni bağışla.***
***Fəzilət və nemət, ölümdən sonra sülh,***
***əbədi xoşbəxtlik təmin et.***
***Amin.***

**Alleluya!**
Ey Müqəddəs Ruh gəl. Qəlblərimizi nemətlərinlə doldur
və içimizdə sevgi atəşini alovlandır.
**Alleluya!**

## † İncil †

*Yəhya 20, 19-23*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

O gün, həftənin ilk günü axşam çağı yəhudilərin qorxusundan şagirdlərin toplaşdıqları yerin qapıları bağlı ikən, İsa gəldi və ortada durub onlara: «Sizə salam!» dedi. Bunu söyləyib onlara əllərini və böyrünü göstərdi. Şagirdlər də Rəbbi görüb sevindilər. İsa yenə onlara dedi:
«Sizə salam! Ata Məni göndərdiyi kimi, Mən də sizi göndərirəm.»
Bunu dediyi zaman, onlara üfürdü və: «Müqəddəs Ruhu qəbul edin», - dedi.
«Kimlərin günahlarını bağışlasanız, bağışlanmış olurlar,
kimlərin günahlarını bağışlamasanız, bağışlanmamış qalırlar.»

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Müqəddəs Üçlük bayramı - A ili

**Çıxış kitabından sözlər** *Çıx 34, 4b-6. 8-9*

Musa səhər erkən durub, əlində iki daş lövhə tutaraq Sina dağına çıxdı.
Rəbb buludun içindən enib orada Musa ilə durdu və Rəbb olan Öz adını bəyan edib Musanın qarşısından keçərək dedi: «Rəbb Mənəm, rəhmli və lütfkar Rəbb Allaham. Mən hədsiz səbirli, bol məhəbbətli və sədaqətliyəm.
Musa dərhal yerə sərilib Rəbbə səcdə qıldı. Sonra Musa dedi:
«Ey Xudavənd, əgər gözündə lütf tapmışamsa, yalvarıram,
Sən, ey Xudavənd, aramızda ol.
Biz dikbaş bir xalq olsaq da təqsirimizlə günahımızı bağışla və bizə sahib ol».
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**İlahi: Dan 3, 52. 53. 54. 55. 56**

**N: Əbədiyyən Sənə şan-şöhrət olsun!**

Rəbbim, atalarımızın Tanrısı, Səni tərifləyirik.
Uca və Müqəddəs adın əbədiyyən izzətlənsin və ucalsın.

Müqəddəs məbədində Səni mədh etsinlər,
Padşahlıq taxtında oturarkən Səni öysünlər.

Göydəki məbədində Keruvların arasında taxt qurdun,
ölülər diyarına nəzər salıb keçirsən.

**Müqəddəs Paulun Korinflilərə 2-ci məktubundan sözlər** *2Kor 13, 11-13*

Nəhayət, qardaşlar, sevinin! Kamilləşin, təsəlli tapın, həmfikir olun, sülhdə yaşayın. Məhəbbət və sülh qaynağı olan Allah sizinlə olacaqdır. Bir-birinizi müqəddəs öpüşlə salamlayın. Sizi bütün müqəddəslər salamlayır.
Rəbb İsa Məsihin lütfü, Allahın məhəbbəti və Müqəddəs Ruha şəriklik hamınızla olsun! Amin.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**
Ataya Oğluna və Müqəddəs ruha ucalıq və mədhlər olsun! Əzəldən,
indi və əbədiyyən var olan uca və yeganə olan Allaha ucalıq və mədhlər olsun!
**Alleluya!**

# † İncil †

*Yəh 3, 16-18*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu ona verdi; bunu ona görə etdi ki, Ona iman edənlərin heç biri həlak olmasın, hamısının əbədi həyatı olsun.
Çünki Allah Öz Oğlunu dünyaya ona görə göndərməmişdir ki,
O, dünyaya hökm etsin. Amma ona görə göndərmişdir ki,
dünya Onun vasitəsilə xilas edilsin.
Ona iman edən məhkum olunmur; iman etməyən isə qabaqcadan
məhkum olunmuşdur, çünki Allahın vahid Oğlunun adına iman etməmişdir.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# İsa Məsihin bədəni və qanı - A ili Evxaristiya bayramı

**Qanunun Təkrarı kitabından sözlər** *Qanun 8: 2-3, 14-16 (2-16)*

Allahınız Rəbbin sizi qırx il səhrada gəzdirdiyi uzun səyahəti yada salın. Bunu ona görə etdi ki, təkəbbürünüzü qırsın və sizi sınaqdan keçirərək ürəyinizdəkini öyrənsin; görsün ki, siz Onun əmrlərinə əməl edəcəksiniz ya yox.

(Təkəbbürünüzü qırmaq üçün sizi ac qoydu, sonra isə nə sizin, nə də atalarınızın gördüyü manna ilə sizi qidalandırdı. Bununla öyrətdi ki, insan yalnız çörəklə deyil, Rəbbin ağzından çıxan hər kəlmə ilə yaşayar. Bu qırx il ərzində paltarınız yırtılıb dağılmadı, ayaqlarınız şişmədi. Bunu ürəkdən dərk edin ki, insan öz övladına necə tərbiyə verirsə, Allahınız Rəbb də sizə elə tərbiyə verir. Allahınız Rəbbin əmrlərinə riayət edib Onun yolları ilə gedin və Ondan qorxun.
Çünki Allahınız Rəbb sizi gözəl torpağa – çay və gölləri olan, dərə və təpələrində bulaqlar çağlayan yerlərə aparır. O torpaq buğda, arpa, üzüm, əncir, nar, yağlı zeytun və bal yetirir. Ora elə bir torpaqdır ki, orada qıtlıqla çörək yeməyəcək və heç nəyə möhtac olmayacaqsınız; daşlarından dəmir, dağlarından isə mis çıxara biləcəksiniz. Yeyib-doyanda sizə verdiyi gözəl torpağa görə
Allahınız Rəbbə həmd edəcəksiniz. Ehtiyatlı olun ki, Allahınız Rəbbi unutmayasınız. Bu gün sizə buyurduğum Rəbbin əmr, hökm və qaydalarına riayət edin. Yeyib doyanda, gözəl evlər tikib içərisində oturanda, naxırınız, sürünüz çoxalanda, qızıl-gümüşünüz və hər şeyiniz artanda ürəyiniz qürurla dolmasın.)
Diqqət edin ki, sizi Misir torpağından – köləlik diyarından çıxaran Allahınız Rəbbi unutmayasınız. Rəbb sizi o böyük və qorxunc səhrada, zəhərli ilan və əqrəblərlə dolu olan o susuz şoran torpaqlarda gəzdirdi, sizə sərt qayalardan su çıxartdı.
Sizi atalarınıza məlum olmayan manna ilə qidalandırdı.
Xoş güzəranınız olsun deyə təkəbbürünüzü qıraraq sizi sınaqdan keçirdi.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 147, 12-15, 19-20**

**Hamımız uca Allahı mədh edək və ucaldaq.**

Ey Yerusəlim, Rəbbi mədh et! Ey Sion, Allahına həmd et!
Çünki darvazalarının cəftələrini bərkidər, Sənin əhalinə bərəkət verər.
Sərhədinə əmin-amanlıq, Sənə doyunca əla taxıl yetirər.
Kəlamını yer üzünə yollar, Onun sözü tez yayılar.
O, Yaqub nəslinə sözlərini, İsraillilərə qanun və hökmlərini bildirir.
Başqa millətlər üçün belə etməyib, heç birinə hökmlərini bildirməyib.

**Müqəddəs Paulun Korinflilərə 1-ci məktubundan sözlər** *1Kor 10, 16-17*

Xeyir-dua verdiyimiz xeyir-dua kasası Məsihin qanına şəriklik deyilmi? Böldüyümüz çörək Məsihin bədəninə şəriklik deyilmi? Çörək bir olduğu kimi biz

də çox olduğumuz halda bir bədənik. Çünki hamımız bir çörəyi bölüb yeyirik. Soy-kökünə görə İsrail xalqına nəzər salın: qurbanları yeyənlər
qurbangaha şərik deyilmi?
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

***İlahi***

***Budur, mələklərin çörəyi! O yoldakı insanların çörəyidir.***
***Allahın övladlarının gerçək çörəyidir. O qurban edilən İshaqla,***
***qurban edilən Pasxa quzusu ilə çöldəki "Manna"ilə əvvəlcədən təyin edilmişdir.***
***Ey yaxşı Çoban, gerçək çörəyimiz, ey İsa Məsih bizi qoru.***
***Həyat ölkəsində bizi sonsuz xoşbəxtliyə qovuşdur. Sən ki, hər şeyi bilirsən***
***və hər şey edə bilərsən ki, yer üzündə bizi bəsləyirsən, göylərdəki ziyarətə***
***bizi götür və müqəddəslərin yanında bizə mirasını ver.***
***Amin.***

**Alleluya!** *Yəh 6, 51*
İsa Məsih belə deyir: "Göydən enmiş, həyat verən çörək Mənəm.
Əgər bir kəs bu çörəkdən yesə, əbədi yaşayar."
**Alleluya!**

## † İncil †

*Yəh 6, 51-58*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Göydən enmiş canlı çörək Mənəm. Əgər kimsə bu çörəkdən yesə, əbədi yaşayar. Dünyanın həyatı üçün verəcəyim çörək Öz ətimdir». Bunun cavabında Yəhudilər «Bu Adam yemək üçün Öz ətini bizə necə verə bilər?» deyib bir-birləri ilə mübahisə etdilər. Onda İsa onlara dedi: «Doğrusunu, doğrusunu sizə deyirəm: Bəşər Oğlunun ətindən yeyib qanından içməsəniz, daxilinizdə həyat olmayacaq. Mənim ətimdən yeyib qanımdan içən əbədi həyata malikdir və Mən onu son gündə dirildəcəyəm. Çünki Mənim ətim həqiqi yemək, qanım da həqiqi içkidir. Mənim ətimdən yeyib qanımdan içən Məndə qalır, Mən də onda qalıram. Var olan Ata Məni göndərdiyi kimi, Mən də Atanın sayəsində yaşadığım kimi Məndən yeyən də Mənim sayəmdə yaşayacaq. Göydən enmiş çörək budur, ata-babalarınızın yediyi kimi deyil. Onlar öldülər, amma bu çörəyi yeyən əbədi yaşayacaq».
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Advent

## B - ili

# 1-ci Rəbb günü Advent dövründə - B ili

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yəş 63, 16d-17. 19de; 64, 3-8*

Atamız Sənsən, ya Rəbb, əzəldən bəri adın «Bizi Satınalan»dır. Nə üçün, ya Rəbb, bizi yolundan azdırırsan, Səndən qorxmayaq deyə qəlblərimizi inadkar edirsən? Qullarının xatirinə, irsin olan qəbilələrinin xatirinə geri dön. Əzəldən bəri heç vaxt Hakimlik etmədiyin xalqa bənzədik, sanki Sənin adına bağlı xalq olmamışıq.
Sən gözləmədiyimiz əzəmətli işlər edəndə endin yer üzünə, dağlar önündə sarsıldı. Ona etibar edənlər üçün belə işlər edən Allahı, əzəldən bəri Səndən başqasını nə göz görüb, nə də qulaq eşidib. Saleh işlərə sevinclə əməl edənləri, Sənin yolunla gedib Səni xatırlayanları Sən qarşılayırsan. Amma biz günaha batdıq,
Sən qəzəbləndin. Beləcə xeyli vaxt yaşadıq, bəs biz necə xilas ola bilərik?
Hamımız elə bil ki murdarlandıq, bütün saleh əməllərimiz murdar əskiyə bənzər.
Hamımız yarpaq kimi soluruq, şər əməllərimiz bizi külək tək sovurub-aparır.
Sənin adını çəkən yoxdur, Sənə bağlanmaq üçün can atan yoxdur. Çünki bizdən üz döndərdin, şər əməllərimizə görə bizi yox etdin. Yenə də, ya Rəbb, Sənsən Atamız:
Biz gilik, Sən isə dulusçu, Biz hamımız Sənin əlinin işiyik.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 80, 1a-2. 14-15. 18-19**

**N: Ey Allah, bizi əvvəlki halımıza qaytar,**
**Üzündən nur saçıb bizi qurtar!**

Ey İsrailin Çobanı, qulaq as! Ey keruvlar üstündə Oturan, nurunu saç! Efrayim, Binyamin, Menaşşe qəbilələrinin önündə qoy qüvvətin oyansın, gəl, bizi qurtar!
Ey Ordular Allahı, dön, göydən bax, bu tənəyi gör, qayğısına qal.
Axı bu fidanı sağ əlinlə əkmisən, kökünə qüvvət vermisən.
Sənin əlin, sağ əlin Öz seçdiyin adamı – Qüvvət verdiyin bəşər oğlunu qorusun.
Qoy Səndən dönüb ayrılmayaq, bizi elə yaşat ki, ismini çağıraq.

**Müqəddəs Paulun Korinflilərə 1-ci məktubundan sözlər** *1 Kor 1, 3-9*

Atamız Allahdan və Rəbb İsa Məsihdən sizə lütf və sülh olsun. Allahın Məsih İsa vasitəsilə sizə bəxş etdiyi lütfə görə sizin üçün həmişə Allahıma şükür edirəm. Çünki siz Məsihin vasitəsilə hər cəhətdən, hər cür sözdə və bilikdə zənginləşmisiniz. Buna görə Məsih haqqındakı şəhadətimiz sizdə təsdiqləndi. Bu səbəbdən siz Rəbbimiz İsa Məsihin zühurunu gözləyərək ruhani ənamdan heç bir korluq çəkmirsiniz. Rəbbimiz İsa Məsih Öz günündə nöqsansız olmanız üçün sizi sonadək qüvvətləndirəcək. Sizi Oğlu Rəbbimiz İsa Məsihlə şərik olmağa çağıran Allah sadiqdir.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**
Rəbbim, mərhəmətini bizə göstər və qurtuluşa bizi qovuşdur.
**Alleluya!**

# † İncil †

*Mk 13, 33-37*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**
Ehtiyatlı olun, oyaq olun, dua edin. Çünki bilmirsiniz ki, o an nə vaxt gələcək. Bu, səyahətə çıxan bir adamın vəziyyətinə bənzəyir. Evindən ayrılarkən qullarına səlahiyyət verir və hərəsinə bir iş tapşırır. Qapı nəzarətçisinə də əmr edir ki, oyaq olsun. Ona görə də, oyaq olun. Çünki ev sahibinin nə vaxt, axşammı, gecə yarısımı, xoruz banlayandamı yaxud sübh tezdənmi gələcəyini bilmirsiniz. Qoy o qəfil gəlib sizi yatan görməsin. Sizə söylədiklərimi hamıya deyirəm: Oyaq olun!
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 2-ci Rəbb günü Advent dövründə - B ili

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 40, 1-5. 9-11*

Allahınız deyir: «Təsəlli verin xalqıma, təsəlli verin! Yerusəlim sakinlərinə təskinlik verən sözlər söyləyin! Əsirlik dövrünün qurtarmasını, təqsirlərinin əvəzinin verilməsi bütün günahlarına görə Rəbbin əlindən ikiqat cəza aldıqlarını onlara bəyan edin». Bir nəfərin nida səsi gəlir: «Səhrada Rəbbin yolunu hazırlayın, çöldə Allahımızın keçəcəyi yerləri hamar edin. Hər dərə yüksəldiləcək, hər dağ və təpə aşağı endiriləcək, yoldakı əyriliklər düzələcək, kələ-kötür yerlər hamar ediləcək. Rəbbin əzəməti aşkar olunacaq, bütün bəşər bunu birlikdə görəcək».
Bu sözlər Rəbbin ağzından çıxıb. Ey Siona müjdə gətirən, yüksək dağa çıx!
Ey Yerusəlimə xoş xəbər gətirən, ucalt səsini, car çək, qaldır səsini, qorxma.
Yəhuda şəhərlərinə de: «Budur Allahınız!» Budur, Xudavənd Rəbb Öz qüvvəsi ilə gəlir, O, qüdrətlə hökm edəcək, mükafatı Onunladır, ənamı önündədir.
O Öz sürüsünü çoban kimi otaracaq, quzuları qucağına alacaq, sinəsində gəzdirəcək, sağmal heyvanların qayğısını çəkib otaracaq.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 85, 8ab-9. 10-11. 12-13**

**N: Ya Rəbb, bizə məhəbbətini göstər, bizi xilas et.**

Rəbb Allah nə söyləsə, dinləyirəm. Sözləri xalqına, möminlərinə sülh bəyan edər.
Bəli, Rəbb Ondan qorxanları qurtarmaq üçün,
Ehtişamını ölkəmizdə saxlamaq üçün yaxınlaşır!
Məhəbbətlə həqiqət bir-birinə qovuşacaq, salehliklə əmin-amanlıq bir-biri ilə öpüşəcək. Həqiqət yerdə bitib göyərəcək, ədalət göylərdən baxacaq.
Bəli, Rəbb ən yaxşı şeyləri göndərəcək, torpağımız bol məhsul verəcək.
Ədalət Rəbbin önündə addımlayar, qədəmləri üçün cığır salar.

**Müqəddəs Peterin 2-ci məktubundan sözlər** *2Pet 3, 8-14*

Sevimlilər, bu bir şeyi yadınızdan çıxarmayın ki, Rəbb üçün bir gün min il kimidir, min il isə bir gün kimidir. Bəziləri bunu gecikmə sayar, amma Rəbb vədini yerinə yetirməkdə gecikməz, lakin sizə görə səbr edir. Çünki O, heç kəsin həlak olmasını istəmir, amma hər kəsin tövbə etməsini istəyir. Rəbbin günü isə oğru kimi gələcək. O gün göylər böyük gurultu ilə aradan qalxacaq. Ünsürlər yanaraq məhv olacaq. Yer üzü və onun üstündə hər şey ifşa olunacaq. Hər şey belə məhv olacaqsa, siz nə cür insanlar olmalısınız? Müqəddəs həyat sürməli, Allahın yolunu izləməlisiniz. Allahın gələcəyi günü gözləyərək tezləşdirməlisiniz. O gün göylər od tutub məhv olacaq və ünsürlər yanıb əriyəcəklər. Amma biz Allahın vədinə əsasən salehliyin sakin olacağı yeni göyləri və yeni yeri gözləyirik. Buna görə, sevimlilər, madam ki,

bunları gözləyirsiniz, Allahın önündə ləkəsiz və nöqsansız olaraq sülh və əmin-amanlıq içində yaşamağa səy göstərin.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**
Rəbbə yol açın. Onun keçəcəyi yerləri düz edin.
Bütün insanlar Allahın gətirdiyi qurtuluşu görəcəkələr.
**Alleluya!**

## † İncil †

*Mk 1, 1-8*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Allahın Oğlu İsa Məsihin Müjdəsinin başlanğıcı. Yeşaya peyğəmbərin kitabında belə yazılmışdır: "Budur, Sənin önündə Öz elçimi göndərirəm. O Sənin yolunu hazırlayacaq. Səhrada bir nəfərin nida səsi gəlir: „Rəbbin yolunu hazırlayın, Onun keçəcəyi yerləri hamar edin". Yazıldığı kimi vəftiz edən Yəhya səhrada meydana çıxdı. O, insanları öz günahlarının bağışlanması üçün tövbə edib vəftiz olunmağa çağırırdı. Bütün Yəhudeya diyarından olanlar və Yerusəlim sakinlərinin hamısı onun yanına gəlir, günahlarını etiraf edir və onun tərəfindən İordan çayında vəftiz olunurdular. Yəhya dəvə yunundan paltar geymiş, belinə dəri qurşaq bağlamışdı, çəyirtkə və çöl balı yeyirdi.
O bəyan edirdi: "Məndən sonra məndən daha Qüdrətlisi gəlir.
Mən əyilib Onun çarıqlarının bağını açmağa belə, layiq deyiləm.
Mən sizi su ilə vəftiz etdim, amma O sizi Müqəddəs Ruhla vəftiz edəcək".
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 3-cü Rəbb günü Advent dövründə - B ili

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 61, 1-2a. 10-11*

Xudavənd Rəbbin Ruhu üzərimdədir, çünki fəqirlərə müjdəni bildirmək üçün O məni məsh etdi. Qəlbləri sınıq olanların yaralarını sarımaq üçün, əsirlərə azadlıq, dustaqlara sərbəstlik elan etmək üçün, Rəbbin lütf ilini, Allahımızın qisas gününü bəyan etmək üçün, yaslıların hamısına təsəlli vermək üçün, Rəbdə böyük sevinc tapacağam, Allahımda ürəyim şadlıqdan coşacaq, çünki çələnglə bəzənmiş bəy kimi, bər-bəzək taxmış gəlin kimi mənə qurtuluş geyimi geyindirdi, salehlik libası ilə bürüdü. Torpaq zoğlarını necə cücərdirsə, bağ əkilən toxumları necə yetişdirirsə, Xudavənd Rəbb də bütün millətlər qarşısında Salehliyi və həmdi belə yetişdirəcək.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Luka 1, 46b-48. 49-50. 53-54**

**N: Qəlbim Rəbbi ucaldır**

Ruhum Xilaskarım Allaha görə sevincdən cuşa gəlir.
Qəlbim Rəbbi ucaldır, ruhum Xilaskarım Allaha görə sevincdən cuşa gəlir,
çünki O Öz qulunun yazıq halını gördü.
Bundan sonra bütün nəsillər məni bəxtiyar sayacaq,
çünki Qadir Olan mənim üçün böyük işlər etdi, Onun adı müqəddəsdir!
Onun mərhəməti isə nəsildən-nəslə Ondan qorxanlaradır.
Acları nemətlərlə doydurdu, varlıları isə əliboş yola saldı.
Atalarımıza İbrahimə və onun nəslinə Əbədi vəd etdiyi kimi
Rəbb Öz mərhəmətini yada salaraq qulu İsrailin imdadına çatdı".

**Müqəddəs Paulun Saloniklilərə 1-ci məktubundan sözlər** *1 Sal 5, 16-24*

Həmişə sevinin. Durmadan dua edin. Hər vəziyyətdə şükür edin, çünki bu, Məsih Isaya aid olan sizlər üçün Allahın iradəsidir. Ruhu söndürməyin. Peyğəmbərlik sözlərinə xor baxmayın. Hər şeyi sınaqdan keçirin və yaxşı olandan möhkəm tutun. Hər cür şərdən uzaq durun. Qoy sülh qaynağı olan Allahın Özü sizi tamamilə müqəddəs etsin və Rəbbimiz Isa Məsihin zühurunda ruhunuz, canınız və bədəniniz nöqsansız olaraq qorunsun. Sizi çağıran Allah sadiqdir və bunu edəcək.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**
İsa Məsih belə dedi: Uca Allahın Ruhu üzərimdədir.
Uca Allah yoxsullara müjdə vermək üçün məni göndərdi.
**Alleluya!**

## † İncil †

*Yəh 1, 6-8. 19-28*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Allahın göndərdiyi bir adam ortaya çıxdı, onun adı Yəhya idi. O, şəhadət üçün gəldi ki, Nur barədə şəhadət etsin və hamı onun vasitəsilə iman etsin.
O özü Nur deyildi, amma Nur barədə şəhadət etmək üçün gəldi. Yəhudi başçıları Yəhyadan kim olduğunu soruşmaq üçün Yerusəlimdən kahinlərlə Levililəri göndərdilər. O zaman Yəhya belə şəhadət etdi: o, düzünü danışıb inkar etmədi və «mən Məsih deyiləm» deyə açıq bildirdi. Onlar Yəhyadan soruşdu:
«Bəs sən kimsən? Bəlkə İlyassan?» Yəhya «xeyr, o deyiləm» dedi.
Soruşdular: «Bəlkə gəlməli olan peyğəmbərsən?», Yəhya «xeyr» söylədi.
Sonra ona dedilər: «Bəs sən kimsən? Bizi göndərənlərə nə cavab verək?
Özün barədə nə deyirsən?» Yəhya dedi: «Mən Yeşaya peyğəmbərin söylədiyi kimi “Rəbbin yolunu hazırlayın” deyə səhrada gələn nida səsiyəm».
Göndərilən bəzi fariseylər Yəhyadan soruşdu:
«Bəs sən Məsih, İlyas yaxud gəlməli olan peyğəmbər deyilsənsə, nə üçün vəftiz edirsən?» Yəhya onlara cavab verdi: «Mən su ilə vəftiz edirəm.
Aranızda tanımadığınız bir Nəfər dayanıb. O məndən sonra gəlir.
Mən heç Onun çarığının bağını açmağa da layiq deyiləm».
Bu hadisələr İordan çayının o tayında olan Bet-Anyada,
Yəhyanın vəftiz etdiyi yerdə baş verdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 4-cü Rəbb günü Advent dövründə - B ili

**2-ci Şamuelin kitabından sözlər** *2 Şam 7, 1-5. 8b-12. 14a. 16*

Rəbb padşah Davuda ətrafında olan bütün düşmənlərinin əlindən rahatlıq verən zamanlarda Davud öz evində oturmuşdu. O vaxt padşah peyğəmbər Natana belə dedi: «Bax mən sidr ağacından tikilən bir sarayda yaşayıram, lakin Allahın sandığı isə bir çadırda qalır». Natan padşaha dedi: «Get, ürəyindəki niyyətini həyata keçir, çünki Rəbb səninlədir».
Lakin o gecə Natana Rəbbin bu sözü nazil oldu: «Get, qulum Davuda söylə ki, Rəbb belə deyir: “Sənmi Mənə yaşamaq üçün ev tikəcəksən? Mən səni otlaqlarda qoyun otaranda götürüb xalqım İsrailə hökmdar etdim. Getdiyin hər yerdə səninlə oldum və qarşından bütün düşmənlərini qırıb atdım. İndi isə adını dünyadakı böyüklərin adı kimi məşhur edəcəyəm. Xalqım İsrail üçün bir yer təyin edib onları oraya sakin edəcəyəm ki, öz yurdlarında yaşasınlar və bir daha sarsılmasınlar. Şər adamlar əvvəllər xalqım İsraillilərə hakimlər təyin etdiyim günlərdən bəri etdikləri kimi yenə də onlara zülm etməsinlər. Sənə bütün düşmənlərinin əlindən rahatlıq verəcəyəm”. Rəbb sənə bildirir ki, Rəbb Özü sənə ev tikəcək. “Ömrün başa çatıb atalarınla uyuyanda yerinə sənin toxumundan – belindən gələn övladını çıxaracağam və onun padşahlığını möhkəmləndirəcəyəm. Mən ona Ata, o isə Mənə oğul olacaq. Günah edəndə onu insanların dəyənəyi ilə, bəşər övladlarının kötəkləri ilə vuracağam. Sənin nəslin və padşahlığın Mənim qarşımda əbədi əmin-amanlıqda olacaq, taxtın isə əbədi möhkəm qalacaq”».
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 89, 1-2. 3-4. 26+28**

**N: Ya Rəbb, daim məhəbbətindən nəğmə oxuyacağam.**

Ya Rəbb, daim məhəbbətindən nəğmə oxuyacağam,
Sənin sədaqətini dilim hər nəslə deyəcək.
Deyirəm ki, məhəbbətin əbədiyaşardır,
Sədaqətin göylər qədər sarsılmazdır.
Dedin: «Öz seçdiyimlə əhd kəsmişəm, qulum Davud üçün belə and içmişəm:
“Mən nəslini əbədi sarsılmaz edəcəyəm,
sülaləni taxtında sonsuzadək yaşadacağam”».
Məni çağırıb deyəcək: “Atamsan, Allahımsan, məni xilas edən Qaya Sənsən!”
Ona daim məhəbbətimi göstərəcəyəm, sadiq qalıb əhdimi pozmayacağam.

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rom 16, 25-27*

Allah mənim elan etdiyim Müjdəyə və İsa Məsih barədə təbliğə görə, əzəldən bəri gizli saxlanmış sirri aydınlaşdıran vəhyə uyğun olaraq, sizi qüvvətləndirməyə qadirdir; bu həmin sirdir ki, indi aşkar olmuş və əbədi Allahın əmrinə əsasən

peyğəmbərlərin Yazıları vasitəsilə bütün millətlərin iman gətirib itaət etməsi üçün bəyan edilmişdir; o yeganə və müdrik Allaha İsa Məsih vasitəsilə əbədi izzət olsun! Amin.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Lk 1, 38*
Mən Rəbbin quluyam. Hər şey Rəbbin dediyi kimi olsun!
**Alleluya!**

## † İncil †

*Lk 1, 26-38*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Elizavetin hamiləliyinin altıncı ayı idi. Mələk Cəbrayıl Allah tərəfindən Qalileyadakı Nazaret adlanan şəhərə, Davudun nəslindən olan Yusif adlı bir kişiyə nişanlanan bakirə qızın yanına göndərildi. Həmin qızın adı Məryəm idi.
Mələk onun yanına gəlib dedi: "Salam, ey lütfə nail omuş qız, Rəbb səninlədir". Məryəm bu sözlərdən çaşıb qaldı və ürəyində bu salamın nə demək olduğu barədə düşündü. Mələk ona dedi: "Qorxma, Məryəm, çünki sən Allahın lütfünə nail oldun. Sən hamilə olub bir oğul doğacaqsan. Onun adını İsa qoy. O, böyük olacaq və Haqq-Taalanın Oğlu adlanacaq. Rəbb Allah Ona atası Davudun taxtını verəcək. O, Yaqub nəslinin üzərində əbədi olaraq hökm edəcək və Onun Səltənətinin sonu olmayacaq". Məryəm mələyə dedi: "Bu necə olacaq? Mən heç kişi üzü görməmişəm". Mələk cavabında ona dedi: "Müqəddəs Ruh sənin üzərinə enəcək, Haqq-Taalanın qüdrəti üstünə kölgə salacaq. Buna görə də doğulacaq müqəddəs Övlad Allahın Oğlu adlanacaq. Bax qohumun Elizavetin də yaşlı vaxtında bətninə oğlan uşağı düşüb. Onu sonsuz adlandırırdılar, amma o artıq altı aydır ki, hamilədir. Çünki Allah üçün mümkün olmayan şey yoxdur". Onda Məryəm dedi: "Mən Rəbbin quluyam, qoy mənə sənin dediyin kimi olsun". Mələk onu tərk edib getdi.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC dövrü B

# 1-ci Rəbb günü Oruc dövründə - B ili

**Yaradılış kitabından sözlər** *Yar 9, 8-15*

Allah Nuha və yanında olan oğullarına dedi: «Mən sizinlə, sizdən sonrakı nəslinizlə Öz əhdimi bağlayıram, gəmidən çıxan yer üzündəki bütün canlı məxluqlarla – quşlar, ev heyvanları və bütün çöl heyvanları ilə əhdimi bağlayıram. Sizinlə Öz əhdimi qoyuram ki, bütün canlılar bir daha daşqınla məhv olmayacaq və heç vaxt yer üzünü viran edən daşqın baş verməyəcək». Allah yenə dedi: «Mənim sizinlə və sizinlə olan bütün canlılarla əbədi olaraq bağladığım əhdin əlaməti budur: buludda Öz göy qurşağımı qoyuram ki, Mənimlə yer üzü arasında olan əhdin əlaməti olsun. Mən yer üzünə bulud gətirdiyim zaman buludda göy qurşağı görünəcək. Onda Mən sizinlə və bütün canlı məxluqlarla bağladığım əhdi yada salacağam. Sular bir daha daşqına çevrilib bütün canlıları məhv etməyəcək.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 25, 4-5b. 6+7bc. 8-9**

**N: Ya Rəbb, mərhəmət və sədaqət yollarındır.**

Ya Rəbb, yollarını mənə göstər, Öz yollarını mənə öyrət.
Məni haqq yolu ilə apar, Həqiqətini mənə öyrət. Məni qurtaran Allah Sənsən.
Ya Rəbb, əzəldən bəri var olan Mərhəmətini, məhəbbətini yada sal.
Məni məhəbbətin naminə, ya Rəbb, xeyirxahlığına görə yada sal!
Rəbb xeyirxah və haqdır, ona görə günahkara düz yol göstərir.
İtaətkarları ədalət yolu ilə aparır, Öz yolunu onlara öyrədir.

**Müqəddəs Peterin 1-ci məktubundan sözlər** *1Pet 3, 18-22*

Çünki saleh olan Məsih də saleh olmayanlar uğrunda, onların günahları üçün bir dəfə əzab çəkdi ki, sizi Allahın hüzuruna gətirsin. O cismən edam edilmiş, amma ruhən həyata qovuşmuşdur. O ruhən gedib zindandakı ruhlara da vəz etdi. Bunlar bir vaxtlar, Allah Nuhun gəmi düzəltdiyi dövrdə səbirlə gözlədiyi vaxt itaətsiz idi. O gəmidə isə az adam, başqa sözlə, səkkiz nəfər sudan sağ-salamat çıxdı.
Bu nümunəyə uyğun olaraq vəftiz indi sizə İsa Məsihin dirilməsi ilə xilas gətirir. Vəftiz cismani çirki yumaqdan ötrü deyil, təmiz vicdanla Allah qarşısında söz verməkk üçündür. İsa Məsih göyə qalxıb və Allahın sağındadır.
Mələklər, hakimlər və qüvvələr də Ona tabedir.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *Mt 4, 4*

İsa Məsih belə dedi: “İnsan yalnız çörəklə deyil,
Allahın ağzından çıxan hər kəlmə ilə yaşayar”.
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Mk 1, 12-15*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Ruh dərhal İsanı səhraya çəkib-apardı. O, səhrada qırx gün qaldı və bu müddət ərzində Şeytan tərəfindən sınağa çəkildi. İsa vəhşi heyvanlar arasında idi və mələklər Ona xidmət edirdi.
Yəhya həbs olunandan sonra İsa Qalileyaya gəlib Allahın Müjdəsini vəz edirdi: «Vaxt yetişib, Allahın Padşahlığı yaxınlaşıb. Tövbə edin və Müjdəyə inanın».
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 2-ci Rəbb günü Oruc dövründə - B ili

**Yaradılış kitabından sözlər** *Yar 22, 1-2. 9a. 10-13. 15-18*

Bir müddət sonra Allah İbrahimi sınağa çəkdi. O, «Ey İbrahim!» deyə çağırdı. İbrahim «Buradayam!» dedi. Allah dedi: «Sevdiyin yeganə oğlun İshaqı götür və Moriya torpağına get. Orada sənə göstərəcəyim bir dağda oğlunu yandırma qurbanı olaraq təqdim et». Sonra Allahın İbrahimə göstərdiyi yerə gəldilər. İbrahim əlini uzadıb oğlunun başını kəsmək üçün bıçağı götürdü. Rəbbin mələyi göylərdən onu çağırdı: «İbrahim, İbrahim!» O «Mən buradayam!» dedi.

Mələk dedi: «Uşağa əl qaldırma və ona bir şey etmə. İndi bildim ki, sən Allahdan qorxursan; öz yeganə oğlunu Məndən əsirgəmədin». İbrahim başını qaldırıb baxdı və arxasında buynuzları kolluğa ilişmiş bir qoç gördü. İbrahim gedib qoçu götürdü və oğlunun əvəzinə yandırma qurbanı olaraq təqdim etdi. Rəbbin mələyi yenə göylərdən İbrahimi çağırıb dedi: «Rəbb bəyan edir: "Öz varlığıma and içirəm ki, sən bu işi etdiyinə və yeganə oğlunu əsirgəmədiyinə görə Mən sənə böyük xeyir-dua verəcəyəm, nəslini göydəki ulduzlar və dəniz kənarındakı qum qədər artırıb çoxaldacağam. Sənin nəslin öz düşmənlərinin şəhərlərinə sahib olacaq. Dünyanın bütün millətləri sənin nəslinin vasitəsilə xeyir-dua alacaq, çünki sən Mənim sözümə qulaq asdın"».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 116, 10+15. 16-17. 18-19**

**N: Rəbbin hüzurunda gəzib-dolanıram, dirilər arasındayam.**

«Mən çox əzab çəkirəm» deyərkən inamımı itirməmişdim.
Rəbbin gözündə hər bir möminin ölümü çox bahadır.
Aman, ya Rəbb, mən Sənin qulunam, qulunam, kənizinin oğluyam.
Buxovlarımı açmısan. Sənə şükür qurbanları təqdim edəcəyəm, *
Rəbbin adını çağıracağam.
Rəbbə Onun bütün xalqı qarşısında əhd etdiyim təqdimləri verəcəyəm.
Rəbbin evinin həyətində, ey Yerusəlim, sənin mərkəzində. Rəbbə həmd edin!

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rom 8, 31b-34*

Əgər Allah bizimlədirsə, kim bizə qarşı dura bilər? O Öz Oğlunu belə, əsirgəməyib Onu hamımızın uğrunda ölümə təslim etdisə, Onunla birgə bütün şeyləri də bizə bəxş etməyəcəkmi? Allahın seçdiyi adamları kim ittiham edə bilər? Onları saleh sayan Allahdır! Məhkum edən kimdir? Ölmüş, üstəlik dirilmiş Məsih İsa həm Allahın sağındadır, həm də bizim üçün vəsatətçilik edir.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

*Mt 17, 5*

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**
Parlaq buluddan Atanın səsi gəldi və belə dedi:
“Bu Mənim sevimli Oğlumdur. Onu dinləyin”!
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Mk 9, 2-10*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Altı gündən sonra İsa Özü ilə yalnız Peter, Yaqub və Yəhyanı götürüb hündür bir dağa çıxdı. Onların qarşısında İsanın görünüşü dəyişdi. Onun libası göz qamaşdırıcı ağ rəng aldı. Yer üzündə heç bir paltar təmizləyən onu belə ağ edə bilməzdi. O an İlyas və Musa onlara göründü. Onlar İsa ilə söhbət edirdi. Peter sözə başlayıb İsaya dedi: "Rabbi! Nə yaxşı ki, biz buradayıq. Gəl üç çardaq quraq, biri Sənin, biri Musa, biri də İlyas üçün". O bilmirdi ki, nə desin, çünki onları dəhşət bürümüşdü. Bu zaman bir bulud onların üzərinə kölgə saldı. Buluddan bir səs gəldi: "Bu Mənim sevimli Oğlumdur, Ona qulaq asın!" Birdən ətrafa baxanda artıq yanlarında İsadan başqa heç kəsi görmədilər. Dağdan enərkən İsa şagirdlərinə tapşırdı ki, Bəşər Oğlu ölülərdən dirilmədən orada gördüklərini heç kəsə deməsinlər. Onlar da bu sözü ürəklərində saxladılar, amma bir-birlərindən soruşdular ki, ölülərdən dirilmək nə deməkdir.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 3-cü Rəbb günü Oruc dövründə - B ili

**Çıxış kitabından sözlər** *Çıx 20, 1-17*

Allah bütün bu sözləri belə söylədi: «Səni Misir torpağından, köləlik diyarından çıxaran Allahın Rəbb Mənəm. Məndən başqa allahların olmasın. Özün üçün heç bir oyma büt, nə yuxarıda – səmada və ya aşağıda – yerdə, nə də yerdən aşağıya yığılan sulardakı şeylərin heç birinin surətini düzəltmə. Belə şeylərə səcdə qılaraq ibadət etmə. Çünki Mən, sənin Allahın Rəbb, qısqanc Allaham. Mənə nifrət edən ataların cəzasını üç-dörd nəslə qədər övladlarına çəkdirərəm. Məni sevib əmrlərimə əməl edənlərin isə minlərlə nəslinə məhəbbət göstərərəm. Allahın Rəbbin adını boş yerə dilinə gətirmə, çünki Rəbb Öz adını boş yerə dilinə gətirəni cəzasız qoymaz. Şənbə gününü yadda saxlayıb təqdis et. Altı gün çalışıb bütün işlərini gör. Lakin yeddinci gün Allahın Rəbbin Şənbə günüdür. Bu gün sən, oğlun, qızın, qulun, qarabaşın, heyvanların, yanında qalan yadelli də heç bir iş görməsin. Çünki altı gün ərzində Rəbb göyləri və yeri, dənizi və kainatdakı hər şeyi yaratdı, yeddinci gün isə istirahət etdi. Bunun üçün Rəbb Şənbə gününə bərəkət verib onu müqəddəs saydı.
Ata-anana hörmət et ki, Allahın Rəbbin sənə verdiyi torpaqda ömrün uzun olsun.
Qətl etmə. Zina etmə. Oğurluq etmə. Heç kimə qarşı yalandan şahidlik etmə.
Heç kimin evinə tamah salma. Heç kimin arvadına, quluna, qarabaşına, öküzünə, eşşəyinə – heç bir şeyinə tamah salma».
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 19, 8. 9. 10. 11**

**N: Ya Rəbb, əbədi həyatın sözləri Səndədir.**

Rəbbin qanunu kamildir, canı təzələyir,
Rəbbin öyüdü etibarlıdır, nadanı müdrik edir.

Rəbbin qayda-qanunları düzdür, ürəyi sevindirir,
Rəbbin əmrləri pakdır, gözləri aydın edir.

Rəbb qorxusu safdır, əbədi yaşayır,
Rəbbin hökmləri haqdır, hamısı ədalətlidir.

Onlar qızıldan, bol miqdarda olan saf qızıldan da çox sevilir,
onlar baldan, şanı balından da şirindir.

**Müqəddəs Paulun Korinflilərə 1-ci məktubundan sözlər** *1 Kor 1, 22-25*

Çünki Yəhudilər möcüzəli əlamətlər istəyir, Yunanlar müdriklik axtarırlar. Bizsə çarmıxa çəkilmiş Məsihi vəz edirik. Bu, Yəhudilər üçün büdrəmə daşı, başqa millətlər üçün isə ağılsızlıq sayılır. Amma çağırılan həm Yəhudilər, həm də Yunanlar üçün Məsih Allahın qüdrəti və Allahın müdrikliyidir. Çünki Allahın «ağılsızlığı» insan müdrikliyindən daha üstündür, Allahın «zəifliyi» insan gücündən daha güclüdür.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *bax Yəh 3, 16*

Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun.

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Yəh 2, 13-25*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**

K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *

**M: Şan-şərəf Rəbbindir.**

Yəhudilərin Pasxa bayramı yaxınlaşırdı. İsa Yerusəlimə getdi. Məbəddə öküz, qoyun, göyərçin satanların və sərrafların oturduğunu gördü. İplərdən bir qamçı düzəldib hamını qoyun və öküzlərlə birgə məbəddən qovdu, sərrafların masalarını çevirib pullarını yerə tökdü, göyərçin satanlara da dedi: «Bunları buradan götürün. Atamın evini bazara döndərməyin». Şagirdləri də «evinin qeyrəti Məni yandırıb-yaxacaq» deyə yazılmış sözü xatırladılar. Sonra Yəhudi başçıları Ondan soruşdu: «Bunları etməyə ixtiyarın olduğunu bizə hansı əlamətlə göstərə bilərsən?» İsa onlara cavab verdi: «Bu məbədi dağıdın, üç günə Mən onu təzədən quraram». Onda Yəhudi başçıları dedi: «Bu məbəd qırx altı ilə tikilib, Sən onu üç günəmi quracaqsan?» Lakin İsa məbəd deyəndə Öz bədənini nəzərdə tuturdu. İsa ölülər arasından dirildiyi zaman şagirdləri Onun bu sözləri söylədiyini xatırladılar, Müqəddəs Yazıya və İsanın sözünə iman etdilər. Pasxa bayramı zamanı Yerusəlimdə olanda İsanın göstərdiyi əlamətləri görən bir çox adam Onun adına iman etdi. Amma İsa bütün adamların daxilini bildiyi üçün onlara güvənməzdi. Bir adam haqqında kiminsə Ona şəhadət etməsinə ehtiyacı yox idi, çünki insanın ürəyindən keçənləri bilirdi.

**K: Bu Rəbbin Kəlamıdır. * M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 4-cü Rəbb günü Oruc dövründə - B ili

**2-ci Salnamələr kitabından sözlər** *2 Saln 36, 14-16. 19-23*

Kahinlərin bütün rəhbərləri də xalqla birgə başqa millətlərin bütün iyrənc işlərinə görə davranaraq böyük xainlik etdilər və Rəbbin Yerusəlimdə təqdis etdiyi məbədini murdarladılar.
Atalarının Allahı Rəbb dəfələrlə Öz elçilərinin vasitəsilə onlara xəbər göndərdi, çünki Öz xalqına və məskəninə rəhmi gəlirdi. Ancaq Rəbbin qəzəbi Öz xalqının üzərinə gəldi və onlara heç bir çarə tapılmadı, çünki Allahın elçilərini lağa qoydular, Onun sözlərinə xor baxdılar və peyğəmbərlərini təhqir etdilər.
Xaldeylilər Allahın məbədini yandırdılar, Yerusəlimin divarını uçurdular, onun bütün saraylarına od vurdular və orada olan qiymətli əşyaların hamısını məhv etdilər. Xaldeylilərin padşahı qılıncdan qurtaranları Babilə sürgünlüyə apardı. Onlar Fars padşahlarının hökmranlığına qədər ona və onun oğullarına qul oldu. Yeremyanın dili ilə deyilən Rəbbin sözü yerinə yetsin deyə yetmiş il bitənə qədər torpaq öz Şənbə vaxtlarını qeyd edərək bütün bu viranəlik müddəti dincəldi.
Rəbb Fars padşahı Kirin hökmranlığının birinci ilində Yeremyanın dili ilə dediyi sözü yerinə yetirmək üçün Kiri ruhlandırdı. Ona görə Kir padşahlığının bütün ərazisində yazılı və şifahi şəkildə elan etdi:
«Budur, Fars padşahı Kir belə deyir: “Göylərin Allahı Rəbb dünyanın bütün padşahlıqlarını mənə verdi və Yəhudanın Yerusəlim şəhərində Öz məbədini tikməyi mənə əmr etdi. Aranızda Onun xalqına mənsub olanların hamısına qoy Allahı Rəbb yar olsun və oraya getsinlər”».
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 137, 1-2. 3. 4-5. 6**

**N: Ya Rəbb, Səni həmişə xatırlamaq istəyirəm.**

Babil torpağında olanda Sionu yada salardıq,
çay kənarında oturaraq ağlayardıq, liralarımızı söyüd ağaclarından asardıq.
Bizi əsir edənlər nəğmə oxumağımızı əmr edirdilər, +
bizə zülm verənlər onları şənləndirməyimizi istəyirdilər:
«Bizim üçün Sion nəğmələrini oxuyun» deyirdilər.
Axı yad ölkədə Rəbbin nəğmələrini necə oxuyaq?
Ey Yerusəlim, əgər səni unutsam, qoy sağ əlim qurusun.
Ey Yerusəlim, səni anmasam, ən böyük sevincim olmasan,
qoy dilim damağıma yapışsın.

**Müqəddəs Paulun Efeslilərə məktubundan sözlər** *Ef 2, 4-10*

Lakin mərhəməti bol olan Allah bizi böyük məhəbbətlə sevdiyi üçün təqsirlərimiz üzündən ölü olduğumuz halda bizə Məsihlə birlikdə həyat verdi. Onun lütfü ilə xilas oldunuz. Allah bizi Məsih İsada, Onunla birlikdə dirildib səmada oturtdu.

Bunu Məsih İsada bizə etdiyi xeyirxahlıqla lütfünün hədsiz zənginliyini gələcək dövrlərdə də göstərmək üçün etdi. Çünki iman vasitəsilə, lütflə xilas oldunuz. Bu, sizin nailiyyətiniz deyil, Allahın hədiyyəsidir. Əməllərlə deyil ki, heç kim öyünə bilməsin. Çünki biz Allahın yaratdığı əsərlərik, əvvəlcədən hazırladığı yaxşı əməllərinə görə həyat sürmək üçün Məsih İsada yaradıldıq.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *Yəh 3, 14-21*
Allah dünyanı çox sevdiyi üçün Oğlunu dünyaya göndərdi.
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Yəh 3, 14-21*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Musa çöldə ilanı yuxarı qaldırdığı kimi Bəşər Oğlu da yuxarı qaldırılmalıdır ki, Ona iman edən hər kəs əbədi həyata malik olsun». Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun. Allah dünyanı mühakimə etmək üçün deyil, Oğlunun vasitəsilə xilas etmək üçün Onu dünyaya göndərdi. Ona iman edən mühakimə olunmur, iman etməyənsə artıq mühakimə olunub, çünki Allahın vahid Oğlunun adına iman etməyib. Mühakimə bundan ibarətdir ki, dünyaya nur gəldi, amma insanlar qaranlığı nurdan daha çox sevdilər, çünki əməlləri şər idi. Pislik edən hər kəs nura nifrət edər, əməllərinin üzə çıxmaması üçün nura tərəf gəlməz. Həqiqətə əməl edənsə nura tərəf gələr ki, əməllərini Allah naminə etdiyi bəlli olsun.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 5-ci Rəbb günü Oruc dövründə - B ili

**Peyğəmbər Yeremyanın kitabından sözlər** *Yer 31, 31-34*

Rəbb bəyan edir: «İsrail xalqı və Yəhuda xalqı ilə Yeni Əhd bağlayacağım günlər yaxınlaşır. Bu Əhd atalarını Misir torpağından çıxartmaq üçün əllərindən tutduğum gün onlarla bağladığım əhdə bənzəməyəcək. Onların ağası olduğum halda o əhdimi pozdular» Rəbb belə bəyan edir. «O günlərdən sonra İsrail xalqı ilə bağlayacağım Əhd belədir: qanunumu onların daxilinə qoyub ürəklərinə yazacağam. Mən onların Allahı, onlar da Mənim xalqım olacaq» Rəbb belə bəyan edir. «Bundan sonra bir kəs öz qonşusunu yaxud qardaşını "Rəbbi tanıyın" deyib öyrətməyəcək. Ona görə ki böyükdən kiçiyə qədər hamı Məni tanıyacaq. Çünki təqsirlərini bağışlayacağam, günahlarını daha yada salmayacağam» Rəbb belə bəyan edir.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 51, 1-2. 10-11. 12-13**

**N: Ey Allah, məndə təmiz ürək yarat.**

Məhəbbətinə görə, ey Allah, mənə rəhm et, +
bol mərhəmətinə görə qanunsuzluqlarımı sil.
Təqsirimi tamamilə yu, günahımdan məni təmizlə.
Ey Allah, məndə təmiz ürək yarat, daxilimə yenidən sədaqət ruhunu ver.
Məni Öz hüzurundan atma, Müqəddəs Ruhunu məndən götürmə.
Xilasının sevincini mənə qaytar, itaətkarlıq ruhu verib mənə dayaq ol.
Qoy Sənin yollarını qanunsuzlara öyrədim, günahkarlar Sənə sarı dönsünlər.

**İbranilərə məktubundan sözlər** *İbr 5, 7-9*

Məsih yer üzündə cisimdə olduğu günlərdə Onu ölümdən qurtarmağa qadir olan Allaha böyük fəryad və göz yaşları ilə dua edib yalvardı və möminliyinə görə eşidildi. O, Oğul olduğu halda çəkdiyi əzablarla itaətli olmağı öyrəndi. Kamilliyə çatandan sonra Ona itaət edənlərin hamısı üçün əbədi xilas qaynağı oldu.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *bax Yəh 12, 26*

İsa Məsih belə deyir: "Kim Mənə xidmət etmək istəsə, ardımca gəlsin.
Mən harada olacağamsa, Mənə xidmət edən də orada olacaq"
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Yəh 12, 20-33*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Bayramda Yerusəlimə ibadətə gələnlər arasında bəzi Yunanlar da var idi. Onlar Qalileyanın Bet-Sayda şəhərindən olan Filipin yanına gəlib «ağa, biz İsanı görmək istəyirik» deyə ondan xahiş etdilər. Filip gəlib Andreyə söylədi, Andrey və Filip də birgə gəlib İsaya xəbər verdilər. İsa cavabında dedi: «Bəşər Oğlunun izzətlənmək vaxtı gəldi. Doğrusunu, doğrusunu sizə deyirəm: əgər bir buğda dənəsi torpağa düşüb ölmürsə, tək qalır, amma ölürsə, çoxlu məhsul verir. Öz canını sevən kəs onu itirər, bu dünyada canı üçün qayğı çəkməyənsə onu əbədi həyat üçün qoruyar. Kim Mənə xidmət etmək istəsə, ardımca gəlsin. Mən harada olacağamsa, Mənim xidmətçim də orada olacaq. Kim Mənə xidmət etsə, Ata ona hörmət edəcək.
İndi ürəyim təlaş keçirir. Nə deyim? "Ey Ata, Məni bu andan xilas et" deyimmi? Lakin Mən elə bu an üçün gəldim. Ey Ata, Öz adını izzətləndir!» Bunun cavabında göydən «Öz adımı izzətləndirdim, yenə də izzətləndirəcəyəm» deyə bir səs gəldi. Orada duran xalqın bir qismi «göy guruldadı» dedi, başqaları isə «Onunla bir mələk danışdı» söylədi. İsa cavab verdi: «Bu səs Mənim üçün deyil, sizin üçün gəldi. İndi isə bu dünyaya hökm veriləcək və bu dünyanın hökmdarı bayıra atılacaq. Mən yerdən yuxarı qaldırılsam, bütün insanları Özümə cəzb edəcəyəm». İsa bu sözü söyləməklə necə bir ölümlə öləcəyinə işarə etdi.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# PASXA Dövrü B

# 2-ci Rəbb günü PASXA dövründə

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 4, 32-35*

İmanlıların hamısı canbir qəlbdə idi. Heç kim öz əmlakına «bu mənimdir» demir, bütün əmlaklarından birgə istifadə edirdi. Həvarilər Rəbb İsanın dirilməsi barədə böyük qüvvə ilə şəhadət edirdi və hamısının üzərinə bol-bol lütf ehsan olunurdu. Onların arasında heç kim yoxsul deyildi. Çünki onların arasında torpaq və mülk sahibi olanlar pulunu gətirər, həvarilərin sərəncamına verərdi.
Bu da hər kəsə ehtiyacına görə paylanardı.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 118, 2-4. 16ab +17-18. 22-24**

**N: Rəbbə şükür edək, ona görə ki yaxşıdır,
çünki məhəbbəti əbədidir!**

Qoy İsraillilər desinlər ki, Rəbb yaxşıdır, «çünki məhəbbəti əbədidir!»
Harun nəsli desin ki, «Onun məhəbbəti əbədidir!»
Qoy Rəbdən qorxanlar belə də söyləsin, «çünki məhəbbəti əbədidir!»
Rəbbin sağ əli necə əzəmətlidir! Rəbbin sağ əli qüdrətli işlər göstərir!»
Ölməyib sağ qalacağam, Rəbbin işlərini bəyan edəcəyəm.
Rəbb mənə möhkəm cəza verdi, amma məni ölümə təslim etmədi.
Bənnaların rədd etdiyi daş guşədaşı olub.
Bu, Rəbbin işi idi, gözümüzdə xariqəli bir işdir.
Bu günü Rəbb yaratdı, Onda sevinib şadlıq edək!

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1 Yəh 5, 1-6*

İsanın Məsih olduğuna inanan hər kəs Allahdan doğulub. Atanı sevən ondan doğulanı da sevir. Biz Allahın övladlarını sevdiyimizi bundan anlayırıq ki, Allahı sevib Onun əmrlərinə əməl edirik. Çünki Allah məhəbbəti Onun əmrlərinə əməl etməyimizi tələb edir. Onun əmrləri isə ağır deyil. Çünki Allahdan doğulan hər kəs dünyaya qalib gəlir. Bizə dünya üzərində zəfər qazandıran öz imanımızdır.
Dünyaya qalib gələn kimdir? Əlbəttə ki, İsanın Allahın Oğlu olmasına inanan!
Su və qanla gələn Şəxs həmin İsa Məsihdir. O yalnız su ilə deyil, su və qanla gəldi.
Buna şəhadət edən Ruhdur, çünki Ruh həqiqətdir.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Yəh 20, 29*

İsa Məsih şagirdlərin arasında durub belə dedi: "Sülh üzərində olsun.
Nə bəxtiyardır görmədən iman edənlər! "
**Alleluya!**

# † İncil †

*Yəh 20, 19-31*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

O gün – həftənin ilk günü axşam çağı Yəhudi başçılarından qorxduqları üçün şagirdlərin olduqları yerin qapıları bağlı olsa da, İsa içəri girdi. O ortada durub onlara «Salam!» dedi. Bunu söyləyib onlara əllərini və böyrünü göstərdi. Şagirdlər də Rəbbi görüb sevindilər. İsa yenə onlara dedi: «Salam! Ata Məni göndərdiyi kimi Mən də sizi göndərirəm». Bunu söylədikdən sonra onların üzərinə üfürərək dedi: «Müqəddəs Ruhu alın! Kimin günahlarını bağışlasanız, bağışlanır, kimin günahlarını bağışlamasanız, bağışlanmamış qalır». Lakin On iki Şagirddən biri «Əkiz» adlanan Toma İsa gələndə onların yanında deyildi. O biri şagirdlər Tomaya «Rəbbi gördük» deyəndə o onlara söylədi: «Əgər Onun əllərində mıxların açdığı yaraları görməsəm, mıxların yerinə barmağımla toxunmasam, böyrünə də əlimi qoymasam, buna inanmaram».
Səkkiz gün sonra İsanın şagirdləri yenə otaqda toplaşanda Toma da onların yanında idi. Qapılar bağlı olsa da, İsa içəri girdi. O ortada durub «Salam!» dedi.
Bundan sonra Tomaya söylədi: «Barmağını buraya uzat, əllərimə bax, əlini də uzat, böyrümə qoy. İmansız olma, imanlı ol!» Toma cavab verib Ona «Ya Rəbbim və Allahım!» dedi. İsa ona dedi: «Sən Məni gördüyün üçünmü iman etdin? Görmədən iman edənlər nə bəxtiyardır!»
İsa şagirdlərinin gözü önündə bir çox başqa əlamətlər də göstərdi ki, bu kitabda yazılmayıb. Amma buradakılar onun üçün yazılıb ki, siz İsanın Allahın Oğlu və Məsih olduğuna iman edəsiniz və iman edərək Onun adı ilə həyata malik olasınız.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 3-cü Rəbb günü PASXA dövründə - B ili

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 3, 13-15. 17-19*

İbrahimin, İshaqın və Yaqubun Allahı, ata-babalarımızın Allahı Qulu İsanı izzətləndirdi. Siz Onu sataraq Pilatın qarşısında rədd etmişdiniz. Pilat Onu azad etmək üçün qərar verdi. Amma siz Müqəddəs və adil Olanı rədd edib bir qatilin azad edilməsini istədiniz. Siz Həyat Yolunu Açanı öldürdünüz, amma Allah Onu ölümdən diriltdi. Biz bunun şahidləriyik.
İndi, ey qardaşlar, bilirəm ki, rəhbərləriniz kimi siz də bunu bilmədən etmisiniz. Amma Allah peyğəmbərlərin dili ilə Öz Məsihinin əzab çəkməsi barədə əvvəlcədən bəyan etdiyini həyata keçirtdi. Beləliklə, günahlarınız silinsin deyə tövbə edib Allaha tərəf dönün.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 4, 1. 3. 6. 8**

**N: Ya Rəbb, üzünün nurunu üstümüzə sal.**

Səni çağıranda mənə cavab ver, ey adil Allahım!
Dara düşən zaman məni genişə çıxar, lütf edib duama qulaq as!
Bilin ki, mömin insanı Rəbb Özü üçün ayırıb;
nə vaxt Rəbbi çağırsam, məni eşidir.
Çoxları belə deyir: «Kim bizə yaxşılıq edəcək?»
Ya Rəbb, üzünün nurunu üstümüzə sal.
Arxayın yatıb yuxuya gedirəm, çünki yalnız Sən,
ya Rəbb, məni əmin-amanlıqda yaşadırsan!

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1 Yəh 2, 1-5a*

Övladlarım, bunları sizə yazıram ki, günah etməyəsiniz. Əgər kimsə günah etsə belə, Atanın hüzurunda Vəsatətçimiz var; O, saleh olan Isa Məsihdir. O bizim günahlarımıza görə – təkcə bizim günahlarımıza görə deyil, bütün dünyanın günahlarına görə kəffarə qurbanıdır. Onu tanıdığımızı bundan bilirik ki, Onun əmrlərinə əməl edirik. Kim «Onu tanıyıram» deyir, amma Onun əmrlərinə əməl etmirsə, yalançıdır və onun daxilində həqiqət yoxdur. Lakin kim Onun sözünə əməl edirsə, Allah məhəbbəti onda, həqiqətən, kamilliyə çatıb.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**
Rəbbimiz İsa sözlərini başa düşməyimiz üçün ruhlarımızı aydınlat
və bizlərə danışarkən qəlblərimizi sevginlə doldur.
**Alleluya!**

# † İncil †

*Lk 24, 35-48*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Emmaus adlı kəndə gedənlər də yolda baş verənləri və çörəyi böldüyü zaman Onu necə tanıdıqlarını nəql etdilər. Onlar bu barədə danışarkən İsa Özü aralarında durub onlara dedi: "Sizə sülh olsun!" Onlar isə çaşıb dəhşətə gələrək ruh gördüklərini zənn etdilər. Amma İsa onlara dedi: "Nə üçün təşvişə düşürsünüz? Neyə görə ürəklərinizə belə fikirlər gəlir?" Əllərimə və ayaqlarıma baxın. Bu – Mən Özüməm! Mənə toxunun və baxın, çünki ruhun Məndə olduğunu gördüyünüz kimi əti və sümüyü olmur". İsa bunu deyib onlara əllərini və ayaqlarını göstərdi.
Onlar hələ sevincdən inanmayıb təəccüblənərkən İsa onlara dedi: "Burada yeməyə bir şey varmı?" Ona bir tikə bişmiş balıq [və bir parça bal pətəyi] verdilər. İsa da yeməyi götürüb onların qabağında yedi. Sonra İsa onlara dedi: "Sizinlə birgə olarkən söylədiyim sözlər bunlardır: [Musanın Qanununda, Peyğəmbərlərin kitablarında və Zəburda Mənim haqqımda yazılanların yerinə yetirilməsi lazımdır].
Bundan sonra Müqəddəs Yazıları anlamaq üçün onların zehinlərini açdı.
İsa onlara dedi: "Belə yazılmışdır: Məsih iztirab çəkib üçüncü gün ölülərdən dirilməlidir. Yerusəlimdən başlayaraq, bütün millətlərə günahların bağışlanması üçün Onun adı ilə tövbə vəz edilməlidir. Sizlər bu hadisələrin şahidisiniz.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 4-cü Rəbb günü PASXA dövründə - B ili

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 4, 8-12*

O zaman Peter Müqəddəs Ruhla dolub dedi: «Ey xalqın başçıları və ağsaqqalları! Əgər bu gün biz bir xəstəyə etdiyimiz yaxşılığa və onun necə şəfa tapmasına görə sorğu-suala çəkiliriksə, hamınız, bütün İsrail xalqı bilsin ki, bu adam sizin çarmıxa çəkdiyiniz, lakin Allahın ölülərdən diriltdiyi Nazaretli İsa Məsihin adı ilə sağalıb və qarşınızda durub. Siz "bənnaların rədd etdiyi daş", amma "guşədaşı" olan həmin İsadır. Ondan başqa heç kimdə xilas yoxdur. Çünki səma altında biz insanlara verilən başqa bir ad yoxdur ki, onun vasitəsilə xilas olaq».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 118, 1+8-9. 21-23. 26+28-29**

**N: Bənnaların rədd etdiyi daş guşədaşı olub.**

Rəbbə şükür edin, ona görə ki yaxşıdır, çünki məhəbbəti əbədidir!
Rəbbə pənah gətirmək insana güvənməkdən yaxşıdır.
Rəbbə pənah gətirmək əsilzadələrə güvənməkdən yaxşıdır.
Ya Rəbb, Sənə şükür edirəm, çünki cavab verərək məni xilas etmisən!
Bənnaların rədd etdiyi daş guşədaşı olub.
Bu, Rəbbin işi idi, gözümüzdə xariqəli bir işdir.
Rəbbin ismi ilə gələnə alqış olsun! Sizə Rəbbin evindən xeyir-dua veririk.
Allahım Sənsən, Sənə şükür edəcəyəm! Allahımsan, Səni yüksəldəcəyəm!
Rəbbə şükür edin, ona görə ki yaxşıdır, çünki məhəbbəti əbədidir!

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1 Yəh 3, 1-2*

Görün Ata bizə necə məhəbbət göstərib ki, biz Allahın övladları adlanırıq! Doğrudan da, beləyik!Dünya Onu tanımadığına görə bizi də tanımır. Ey sevimlilər, indi biz Allahın övladlarıyıq, amma nə olacağımız hələ üzə çıxmayıb. Lakin bilirik ki, Məsih zühur edəndə biz Ona bənzəyəcəyik, çünki Onu olduğu kimi görəcəyik.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Yəh 10, 11*

İsa Məsih belə dedi: "Yaxşı çoban Mənəm,
yaxşı çoban qoyunlar uğrunda canını qurban verər".
**Alleluya!**

# † İncil †

*Yəh 10, 11-18*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Yaxşı çoban Mənəm, yaxşı çoban qoyunlar uğrunda canını qurban verər. Qoyunların çobanı olmayan muzdur isə canavarın gəldiyini görəndə onları atıb qaçar, çünki qoyunların sahibi deyil. Canavar da onları qapıb pərən-pərən salar. Muzdur qaçar, çünki muzdurdur, qoyunlar üçün qayğı çəkməz. Yaxşı çoban Mənəm. Necə ki Ata Məni tanıyır və Mən Atanı tanıyıram, eləcə də özümünküləri tanıyıram, özümünkülər də Məni tanıyır. Mən quzular uğrunda canımı qurban verirəm. Bu ağıldan olmayan başqa quzularım var ki, onları da gətirməliyəm. Onlar da səsimi eşidəcək, beləcə tək sürü, tək Çoban olacaq. Buna görə də Ata Məni sevir, çünki Mən canımı qurban verirəm ki, sonra onu geri alım. Canımı Məndən heç kəs ala bilməz, amma onu Öz ixtiyarımla verirəm. Onu verməyə də, sonra geri almağa da ixtiyarım var. Bu əmri Atamdan almışam».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 5-ci Rəbb günü PASXA dövründə - B ili

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 9, 26-31*

Şaul Yerusəlimə çatanda oradakı şagirdlərə qoşulmaq istədi, lakin onların hamısı Şauldan qorxur və inanmırdılar ki, o, İsanın şagirdi. Amma Barnaba onu götürüb həvarilərin yanına apardı və onlara açıqladı ki, Şaul yolla gedəndə Rəbbi necə görüb, Rəbb onunla necə danışıb, o, Dəməşqdə İsanın adını qorxub-çəkinmədən necə bəyan edib. Beləliklə, Şaul onların yanında qalıb Yerusəlimdə hər yerə bir gedib-gəlir və orada da qorxub-çəkinmədən Rəbbin adını bəyan edirdi. O, yunanca danışan Yəhudilərlə söhbət edərək mübahisə edirdi. Onlar isə Şaulu öldürmək istəyirdi. Ona qardaş olanlar isə bunu öyrənəndə Şaulu Qeysəriyyəyə aparıb oradan Tarsusa göndərdilər. Beləcə bütün Yəhudeya, Qalileya və Samariyadakı imanlılar cəmiyyəti əmin-amanlığa çatdı. İnkişaf edən və Rəbb qorxusu içində yaşayan cəmiyyət Müqəddəs Ruhun ürəkləndirməsi ilə sayca artırdı.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 22, 25b-27. 28+30. 31-32**

**N: Böyük toplantı arasında həmd etdiyim Sənsən, ya Rəbb!**

Səndən qorxanların önündə əhd etdiyim təqdimləri verəcəyəm. Qoy məzlumlar doyunca yesin, Rəbbi axtaranlar Ona həmd etsin! Qoy canınız həmişə sağ olsun!
Yer üzünün hər tərəfində yaşayanlar Rəbbi xatırlayacaq, Ona tərəf dönəcəklər.
Bütün millətlərin soyları Onun hüzurunda səcdə qılacaq.
Torpağa düşənlərin hamısı – Özlərini tutub saxlaya bilməyənlər
Onun hüzurunda diz çökəcəklər.
Gələcək nəsillər Ona qulluq edəcək, Xudavəndin haqqında övladlarına deyəcək;
Onun ədalətini, Onun əməllərini gələcəkdə doğulan xalqa bildirəcək.

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1 Yəh 3, 18-24*

Ey övladlar, sözdə və dildə deyil, əməldə və həqiqətdə sevək. Bundan həqiqətə məxsus olduğumuzu biləcəyik və ürəyimiz bizi məhkum edirsə, ürəyimizi Allahın hüzurunda sakitləşdirəcəyik. Çünki Allah bizim ürəyimizdən üstündür və hər şeyi bilir. Ey sevimlilər, əgər ürəyimiz bizi məhkum etmirsə, demək, Allahın hüzurunda cəsarətlə danışa bilərik və Ondan nə istəyiriksə, alırıq. Ona görə ki Onun əmrlərini yerinə yetiririk və önündə Ona məqbul olan işlər görürük. Onun əmri də budur ki, biz Onun Oğlu Isa Məsihin adına iman edək və Onun bizə əmr etdiyi kimi bir-birimizi sevək. Onun əmrlərini yerinə yetirən kəs Allahda, Allah da onda qalır. Onun bizdə qaldığını bu yolla, bizə verdiyi Ruh vasitəsilə bilirik.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**
İsa Məsih belə dedi: “Kim Məndə qalsa, Mən də onda qalsam, çoxlu bəhrə verər.”
**Alleluya!**

# † İncil †

*Yəh 15, 1-8*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Mən həqiqi Meynəyəm, Atam da Bağbandır. Məndə olub bəhrə verməyən hər budağı Atam qoparır. Bəhrə verən hər budağı isə budayıb təmizləyir ki, daha çox bəhrə versin. Sizə söylədiyim söz sayəsində siz artıq təmizsiniz. Məndə qalın, Mən də sizdə qalım. Budaq meynədə qalmasa, özbaşına bəhrə vermədiyi kimi siz də Məndə qalmasanız, bəhrə verə bilməzsiniz. Meynə Mənəm, sizsə budaqlarsınız. Kim Məndə qalsa, Mən də onda qalsam, çoxlu bəhrə verər, çünki Mənsiz heç nə edə bilməzsiniz. Kim Məndə qalmasa, budaq kimi kənara atılıb quruyar. Belə budaqlar yığılıb oda atılaraq yanar. Əgər Məndə qalsanız və sözlərim sizdə qalsa, istədiyiniz hər şeyi diləyə bilərsiniz, sizə veriləcək. Sizin çoxlu bəhrə verərək Mənim şagirdlərim olmağınızla Atam izzətlənir.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 6-cı Rəbb günü PASXA dövründə - B ili

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 10, 25-26. 34-35. 44-48*

Peter içəri girəndə Kornelius ona səcdə etmək üçün ayağına düşdü. Peter isə onu ayağa qaldıraraq dedi: «Qalx, mən də sənin kimi insanam». Peter sözə başlayıb dedi: «İndi bildim ki, həqiqətən, Allah insanların şəxsiyyətinə baxmır. Milliyətindən asılı olmayaraq kim ki Ondan qorxub haqq iş görür, Ona məqbuldur. Peter bu sözləri deyirdi ki, Müqəddəs Ruh söhbətə qulaq asan hər kəsin üzərinə endi. Peterlə birlikdə gəlmiş sünnətli imanlılar Müqəddəs Ruhun bəxşiş olaraq Yəhudi olmayanların da üstünə töküldüyünə mat qaldı; onların başqa dillərdə danışıb Allahı mədh etdiyini eşitdilər.
Onda Peter belə dedi: «Bu adamlar bizim kimi Müqəddəs Ruhu alıb. Bunların su ilə vəftiz olmalarına kim mane ola bilər?» Beləliklə, onların İsa Məsihin adı ilə vəftiz olmalarını buyurdu. Sonra onlar Peterdən xahiş etdilər ki, bir neçə gün onların yanında qalsın.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 98, 1. 2-3b. 3c-4**

**N: Rəbb millətlərin gözündə salehliyini aydın göstərdi.**

Rəbbə yeni bir ilahi oxuyun, çünki O, xariqələr yaratdı. O, sağ əli ilə,
Öz müqəddəs qolu ilə zəfərlər qazandı.
Rəbb zəfərini bəyan etdi, millətlərin gözündə salehliyini aydın göstərdi.
İsrail nəslinə göstərdiyi məhəbbətini və sədaqətini xatırladı.
Yer üzünün hər tərəfi Allahımızın zəfərini gördü. Ey bütün dünya, cuşa gəlib
Rəbbə nida et, birdən nida edin, mədh, tərənnüm səsini ucaldın!

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1 Yəh 4, 7-10*

Ey sevimlilər, bir-birimizi sevək, çünki məhəbbət Allahdan gəlir. Sevən hər kəs də Allahdan doğulub və Allahı tanıyır. Sevməyən kəs Allahı tanımır, çünki Allah məhəbbətdir. Allahın bizə olan məhəbbəti belə zahir oldu: Allah Öz vahid Oğlunu dünyaya göndərdi ki, biz Onun vasitəsilə həyata malik olaq. Məhəbbət bizim Allahı sevməyimizlə bağlı deyil, bundan ibarətdir: O bizi sevdi və Öz Oğlunu bizim günahlarımıza görə kəffarə qurbanı olaraq göndərdi.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Yəh 14, 23*

İsa belə dedi: “Kim Məni sevsə, sözümə əməl edər,
Atam da onu sevər və Biz onun yanına gəlib onunla məskən salarıq”.
**Alleluya!**

# † İncil †

*Yəh 15, 9-17*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Ata Məni sevdiyi kimi Mən də sizi sevdim. Mənim məhəbbətimdə qalın. Əgər əmrlərimə əməl etsəniz, Mənim məhəbbətimdə qalacaqsınız, necə ki Mən Atamın əmrlərinə əməl edərək Onun məhəbbətində qalıram. Bu sözləri sizə söylədim ki, sevincim sizdə olsun və sevinciniz kamil olsun. Mənim əmrim belədir: Mən sizi sevdiyim kimi siz də bir-birinizi sevin. Heç kəsin məhəbbəti dostları uğrunda canını qurban verən adamın məhəbbətindən üstün ola bilməz. Əgər sizə əmr etdiyim şeylərə əməl etsəniz, siz Mənim dostlarımsınız. Artıq sizə qul demirəm, çünki qul ağasının nə etdiyini bilmir. Mən sizə dost deyirəm, çünki Atamdan eşitdiyim bütün sözləri sizə söylədim. Siz Məni seçmədiniz, Mən sizi seçdim. Mən sizi təyin etdim ki, gedib bəhrə verəsiniz və bəhrəniz çox qalsın, beləcə Mənim adımla Atadan nə istəyirsinizsə, sizə versin. Beləliklə, sizə əmr edirəm: bir-birinizi sevin.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 7-ci Rəbb günü PASXA dövründə - B ili

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 1, 15-17. 20a. 20d-26*

Həmin günlərdə təxminən yüz iyirmi qardaşdan ibarət toplantı oldu. Peter onların arasından qalxıb dedi: «Qardaşlar, İsanı tutanlara yol göstərən Yəhuda haqqında Müqəddəs Ruhun Davudun dili ilə əvvəlcədən dediyi Yazı sözləri yerinə yetməlidir. Yəhuda bizə qoşuldu, bu xidmətdən ona da pay düşdü. Çünki Zəbur kitabında yazılıb: "Vəzifəsini başqası tutsun". Buna görə də Rəbb İsanın aramıza gəlib-getdiyi müddət ərzində, yəni Yəhyanın vəftizindən başlayaraq Rəbb İsanın göyə çəkildiyi günə qədər yanımızdakılardan bir nəfər Onun dirilməsinə bizimlə birgə şahid olmalıdır». Beləliklə, iki nəfəri – Barsabba çağırılan, həm də Yust adlanan Yusifi və Mattiyanı namizəd göstərdilər. Sonra dua etdilər: «Ya Rəbb, Sən hamının ürəyindən xəbərdarsan. Bu iki nəfərdən birini seçib bizə göstər ki, qoy onlardan biri bu xidmətə – həvari vəzifəsinə keçsin. Çünki Yəhuda öz yerini tutsun deyə bu işi atdı». Sonra püşk atdılar. Püşk Mattiyaya düşdü və o, həvari sırasına – on bir nəfərin yanına keçdi.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 103, 1-2. 11-12. 19-20**
**N: Göylərdə olan Rəbbə alqış edin.**

Rəbbə alqış et, ey könlüm, ey bütün varlığım,
Onun müqəddəs adına alqış et!
Rəbbə alqış et, ey könlüm, unutma etdiyi yaxşılıqları:
Çünki göylər yerdən nə qədər ucadırsa,
Ondan qorxanlara olan məhəbbəti o qədər böyükdür.
Nə qədər şərq qərbdən uzaqdırsa, asiliklərimizi bizdən o qədər uzaqlaşdırıb.
Rəbb taxtını göylərdə qurub, hər yerdə hökmranlıq edir.
Rəbbə alqış edin, ey Onun mələkləri,
ey Onun sözünə baxıb icra edən qüdrətli igidlər!

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1 Yəh 4, 11-16*

Ey sevimlilər, Allah bizi bu cür sevdiyi üçün biz də gərək bir-birimizi sevək. Allahı heç kim heç zaman görməyib. Əgər biz bir-birimizi sevsək, Allah bizdə qalır və Onun məhəbbəti bizdə kamil olur. Bizim Onda, Onun da bizdə qaldığını bundan

bilirik ki, O bizə Öz Ruhundan verib. Biz görüb şahidlik edirik ki, Ata Oğlunu dünyanın Xilaskarı olaraq göndərdi. Kim şəhadət etsə ki, Isa Allahın Oğludur, Allah onda, o da Allahda qalır. Biz Allahın bizə olan məhəbbətini anlayıb buna inandıq. Allah məhəbbətdir. Kim məhəbbətdə qalarsa, Allahda qalar, Allah da onda qalar.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Yəh 14, 18*
İsa Məsih belə deyir: “Sizi yetim qoymaram, yanınıza gələcəyəm.”
**Alleluya!**

## † İncil †

*Yəh 17, 11b-19*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Ey Müqəddəs Ata, onları Mənə verdiyin adınla qoru ki, Bizim kimi bir olsunlar. Onlarla birlikdə olduğum zaman onları Mənə verdiyin adınla qoruyurdum. Onları saxladım və Müqəddəs Yazı yerinə yetsin deyə həlaka gedən adamdan başqa, onlardan heç biri həlak olmadı. İndi isə Sənin yanına gəlirəm. Dünyada ikən bu sözləri söyləyirəm ki, Mənim sevincim onlarda kamil olsun. Mən onlara Sənin sözünü verdim. Dünya isə onlara nifrət etdi, çünki Mən dünyaya məxsus olmadığım kimi onlar da dünyaya məxsus deyil. Onları dünyadan götürməyi deyil, şər olandan qorumağı Səndən xahiş edirəm. Mən dünyaya məxsus olmadığım kimi onlar da dünyaya məxsus deyil. Onları həqiqətlə təqdis et. Sənin sözün həqiqətdir. Sən Məni dünyaya göndərdiyin kimi Mən də onları dünyaya göndərdim. Mən Özümü onların uğrunda təqdis edirəm ki, onlar da həqiqətlə təqdis olunsun.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Müqəddəs Üçlük Bayramı - B ili

**Qanunun Təkrarı kitabından sözlər** *Qanun 4, 32-34. 39-40*

İndi Allahınızın yer üzərində insan yaratdığı gündən bəri sizdən əvvəlki dövrün günləri barədə göylərin bir başından o biri başına qədər hamıdan soruşun. Belə böyük hadisə olubmu? Belə bir şey eşidilibmi? Hansı bir xalq sizin kimi alov içərisindən danışan Allahın səsini eşitdi və sağ qaldı? Yaxud hansı allah Allahınız Rəbb kimi Misirdə gözləriniz önündə sizin xeyrinizə işləyərək imtahanlarla, əlamətlərlə, möcüzələrlə, döyüşlərlə, qüvvətli əli ilə, uzanan qolu ilə, böyük zəhmi ilə başqa millətin üstünə gedib onlardan öz millətini aldı? Bu gündən bilin və yadınızda qalsın ki, yuxarıda – göydə və aşağıda – yerdə Rəbb Allahdır. Ondan başqası yoxdur. Bu gün sizə verdiyim Rəbbin qanun və əmrlərinə riayət edin ki, sizə, sizdən sonra gələn övladlarınıza xeyir gətirsin, Allahınız Rəbbin əbədi olaraq verdiyi bu torpaqda uzun ömür sürəsiniz».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 33, 4-5. 6+9. 18-19. 20+22**

**N: Nə bəxtiyardır o millət ki, Rəbb onu irs olaraq seçmişdir.**

Çünki Rəbbin sözü haqdır, hər işini sədaqətlə aparır.
Rəbb salehliyi və ədaləti sevir, Yer üzü Onun məhəbbəti ilə dolur.

Göylər Rəbbin sözü ilə, səma cisimləri Onun hökmü ilə yarandı.
Çünki nə söylədi, mövcud oldu, nə əmr etdi, quruldu.

Rəbbin gözü Ondan qorxanlara, Onun məhəbbətinə ümid bağlayanlara baxar.
İstəyir ki, onları ölümdən qurtarsın, qıtlıqda belə, onlar sağ qalsın.

Könlümüz Rəbbin yolunu gözlər, Odur köməyimiz və sipərimiz.
Ya Rəbb, ümidimizi Sənə bağlamışıq, Məhəbbətin üzərimizdən tükənməsin.

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rom 8, 14-17*

Allahın Ruhu ilə yönəldilənlərin hamısı Allahın oğullarıdır. Axı siz köləlik ruhunu almadınız ki, yenə də qorxu içində yaşayasınız; övladlıq Ruhunu aldınız. Elə o Ruhun vasitəsilə Allahı «Abba, Ata» deyə nida edirik. Elə Ruh Özü bizim ruhumuzla birgə şəhadət edir ki, biz Allahın övladlarıyıq. Əgər Onun övladlarıyıqsa, deməli, həm də varisləriyik. Əgər Məsihin izzətinə şərik olmaq üçün Onun çəkdiyi əzablara şərik oluruqsa, Allahın varisləri və Məsihin irs şəriki oluruq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**
Ataya, Oğula və Müqəddəs Ruha şan və mədh olsun! Əzəldən, indi və əbədiyyən var olan, uca və yeganə olan Allaha şan və mədhlər olsun!
**Alleluya!**

## † İncil †

*Mt 28, 16-20*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**
On Bir Şagird Qalileyaya, İsanın onlara təyin etdiyi dağa getdi. İsanı gördükləri vaxt Ona səcdə qıldılar. Bəzisi isə şübhə etdi. İsa yaxınlaşıb onlara dedi: «Göydə və yer üzündə bütün səlahiyyət Mənə verilmişdir. Beləliklə, gedin, bütün millətləri Mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh naminə vəftiz edin; sizə əmr etdiyim hər şeyə əməl etməyi onlara öyrədin. Budur, Mən dövrün sonuna qədər hər gün sizinləyəm».
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# İsa Məsihin bədəni və qanı - B ili Evxaristiya bayramı

**Çıxış kitabından sözlər** *Çıx 24, 3-8*

Musa gəlib Rəbbin bütün sözlərini və hökmlərini xalqa nəql etdi. Bütün xalq bir səslə cavab verib dedi: «Rəbbin söylədiyi sözlərin hamısına əməl edəcəyik». Musa Rəbbin bütün sözlərini yazdı. O, səhər erkən durub dağın ətəyində qurbangah və İsrailin on iki qəbiləsinə görə on iki sütun qurdu. Sonra Musa İsrailin cavanlarına Rəbbin önündə yandırma qurbanları və ünsiyyət qurbanları olaraq buğalar kəsdirdi. Musa heyvanların qanının yarısını götürüb ləyənlərə tökdü. Qanın o biri yarısını isə qurbangahın üstünə səpdi. O, əhd kitabını əlinə alıb xalqa ucadan oxudu və onlar dedilər: «Rəbbin söylədiyi bütün sözlərə əməl edib qulaq asacağıq!» Sonra Musa qanı götürüb xalqın üstünə səpərək dedi:
«Budur bütün bu sözlərə görə Rəbbin sizinlə kəsdiyi əhdin qanı».
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 116, 12-13. 15+16bc. 17-18**

**N: Qurtuluş piyaləsini qaldıracağam, Rəbbin ismini çağıracağam.**

Mənə etdiyi comərdliyə görə Rəbbin borcunu necə qaytara bilərəm?
Qurtuluş piyaləsini qaldıracağam, Rəbbin ismini çağıracağam.
Rəbbin gözündə hər bir möminin ölümü çox bahadır.
Aman, ya Rəbb, mən Sənin qulunam, qulunam,
kənizinin oğluyam, buxovlarımı açmısan.
Sənə şükür qurbanları təqdim edəcəyəm, Rəbbin adını çağıracağam.
Rəbbə Onun bütün xalqı qarşısında əhd etdiyim təqdimləri verəcəyəm.

**İbranilərə məktubundan sözlər** *İbr 9, 11-15*

Fəqət Məsih indi gələn nemətlərin Baş Kahini olaraq gəldi. Insan əli ilə qurulmamış, yəni bu yaradılışdan olmayan daha böyük və mükəmməl çadırdan keçib, təkələrlə danaların qanı ilə yox, Öz qanı ilə Ən Müqəddəs məkana birdəfəlik daxil oldu. Əbədi azadlığı təmin etmişdi. Çünki əgər təkələrlə buğaların qanı və düyənin külünün murdar olanların üstünə səpilməsi onları təqdis edib cismən təmizləyirsə, deməli, əbədi Ruh vasitəsilə Özünü qüsursuz olaraq Allaha təqdim etmiş Məsihin qanı var olan Allaha ibadət edə bilməmiz üçün vicdanımızı ölüm gətirən əməllərdən nə qədər çox təmizləyəcək! Buna görə də çağırılmışların vəd edilən əbədi irsi alması üçün Məsih yeni əhdin Vasitəçisidir. Çünki O, fidyə olaraq ölmüşdü ki, onları birinci əhd zamanı etdikləri təqsirlərdən azad etsin.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Yəh 6, 51*
İsa Məsih belə deyir: “Göydən enmiş, həyat verən çörək Mənəm.
Əgər bir kəs bu çörəkdən yesə, əbədi yaşayar.”
**Alleluya!**

## † İncil †

*Mk 14, 12-16. 22-26*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Pasxa quzusu qurban kəsildiyi Mayasız Çörək bayramının ilk günü şagirdləri İsadan soruşdular: "Sən Pasxa yeməyini harada yemək istəyirsən? Biz gedək, onu hazırlayaq". İsa da şagirdlərindən ikisini göndərdi və dedi: "Şəhərə girin, orada qarşınıza səhənglə su daşıyan bir nəfər çıxacaq. Onun ardınca gedin. O hansı evə girərsə, oranın sahibinə deyin: Müəllimimiz soruşur: 'Şagirdlərimlə birgə Pasxa yeməyini yeyəcəyim qonaq otağım haradadır?' Ev sahibi sizə yuxarı mərtəbədə döşənib-hazırlanmış böyük bir otaq göstərəcək. Orada bizim üçün hazırlıq işləri görün".
Şagirdlər yola çıxıb şəhərə getdilər. Hər şeyin Onun dediyi kimi olduğunu gördülər və Pasxa yeməyi üçün hazırlıq etdilər.
Onlar yemək yeyəndə İsa çörəyi götürdü, şükür edib böldü və şagirdlərinə verərək dedi: "Alın, bu Mənim bədənimdir". Sonra bir kasa götürdü və şükür etdi.
Bunu da şagirdlərinə verdi və hamısı oradan içdi. İsa onlara dedi: "Bu, çoxlu adamlar uğrunda tökülən Mənim qanım, yeni əhdin qanıdır. Sizə doğrusunu deyirəm:
Allahın Səltənətində təzəsini içəcəyim günə qədər üzüm ağacının məhsulundan bir daha içməyəcəyəm".
Onlar ilahi oxuyandan sonra çıxdılar və Zeytun dağına tərəf getdilər.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ADVENT dövrü

## C ili

# 1-ci Rəbb günü Advent dövründə - C ili

**Peyğəmbər Yeremyanın kitabından sözlər** *Yer 33, 14-16*

Rəbb bəyan edir: “İsrail və Yəhuda nəslinə verdiyim xoş vədi yerinə yetirəcəyim günlər gəlir. O zaman, o günlər Davud üçün saleh bir pöhrə yetişdirəcəyəm.
O, ölkədə ədalət və salehliklə davranacaq. O günlər Yəhuda xilas olacaq, Yerusəlim əmin-amanlıqda yaşayacaq. O, ‹Rəbb salehliyimizdir› deyə çağırılacaq”.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 25(24), 4-5, 8-10, 14**

**N: Ya Rəbb, canımı Sənə atıram.**

Ya Rəbb, yollarını mənə göstər, ardınca getməyi mənə öyrət.
Məni haqq yolu ilə apar, Həqiqətini mənə öyrət.
Məni qurtaran Allah Sənsən, daim Səni gözləyirəm.
Rəbb xeyirxah və haqdır, ona görə günahkara düz yol göstərir,
Məzlumları haqq yolu ilə aparır, Öz yolunu onlara öyrədir.
Kim Rəbbin əhdinə və öyüdlərinə bağlıdırsa,
Rəbb yolunda onun üçün xeyirxahlıq və sədaqət var.
Rəbb Ondan qorxanlara sirrini açar, onlara Öz əhdini öyrədər.

**Müqəddəs Paulun Saloniklilərə 1-ci məktubundan sözlər** *1 Sal 3, 12- 4, 2*

Və bizim sizə məhəbbətimiz olduğu kimi, Rəbb bir-birinizə və bütün insanlara olan məhəbbətinizi qoy çoxaldıb artırsın ki, ürəklərinizi möhkəmləndirsin; beləcə, Rəbbimiz İsa Məsihin bütün müqəddəsləri ilə bərabər gəlişində qüdsiyyətdə qüsursuz olasınız. Amin.
Nəhayət, qardaşlar, Rəbb İsa naminə sizdən rica edir və yalvarırıq ki, necə hərəkət etmək və Allahı razı salmaq lazım gəldiyinə dair bizdən təlimat aldığınız kimi və indi də etdiyinizə uyğun olaraq, bu yolda getdikcə daha çox tərəqqi ediniz.
Çünki Rəbb İsanın səlahiyyəti ilə sizə hansı təlimatları verdiyimizi bilirsiniz.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Zəb 85(84) 8*

Rəbbim, sevgini bizə göstər və qurtuluşunu bizə bağışla.
**Alleluya!**

## † İncil †

*Lk 21, 25-28. 34-36*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Günəşdə, ayda və ulduzdarda əlamətlər olacaqdır, dənizin və dalğaların gurultusundan dolayı çaşqınlıq içində olan xalqlar yer üzündə iztirab çəkəcəklər. İnsanlar qorxudan və dünya üzərinə gələn fəlakətləri gözləməkdən huşunu itirəcəklər, çünki göy cisimləri sarsılacaq. Və o zaman onlar İnsan Oğlunun bulud içində böyük qüdrət və izzətlə gəldiyini görəcəklər. Bu işlər yerinə yetməyə başladıqda yuxarı baxın və başınızı qaldırın, çünki qurtuluşunuz yaxınlaşır.» Amma diqqətli olun ki, ürəkləriniz qarınqululuq və sərxoşluqla, bu həyatın qayğıları ilə ağırlaşmasın və o Gün sizi qəflətən yaxalamasın. Çünki o Gün bir tor kimi yer üzündə yaşayanların hamısına rast gələcəkdir; Buna görə də bütün baş verəcək bu fəlakətlərdən qaçınmağa layiq olmaq və İnsan Oğlunun hüzuruna çıxa bilmək üçün, hər an dua edin və ayıq olun.»

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 2-ci Rəbb günü Advent dövründə - C ili

**Peyğəmbər Baruxun kitabından sözlər** *Bar 5, 1-9*

Ey Yerusəlim! Öz kədər və kin libasını əynindən çıxart, Allahdan olan gözəllik izzətini əbədi olaraq geyin. Allahdan olan salehlik libasına bürün, Əbədi Olanın izzət tacını başına qoy. Çünki Allah səma altında olan hər kəsə sənin parlaqlığını göstərəcək. Allahın əbədi olaraq sənə verdiyi ad belə olacaq:«Salehlikdən gələn sülh və möminliyin izzəti».

Qalx, Yerusəlim, hündür yerdə dayanaraq üzünü şərqə tərəf tutub, Müqəddəs Olanın sözü ilə qərbdən şərqə qədər hər tərəfdən toplanmış övladlarına bax, Allahın onları yada saldığına sevinirlər. Onlar sənin içindən piyada, düşmənləri tərəfindən təqib olunaraq çıxdılar, amma Allah onları sənin içinə padşah taxtında izzətlə gətirəcək. İsrailin möhkəm addımla, Allahın izzəti ilə irəliləməsindən ötrü Allah hər uca dağın və əbədi təpənin alçalmasını əmr etdi, Yer üzünün eyni səviyyədə olması üçün vadilərin doldurulmasını, meşənin və hər xoş ətirli ağacın Allahın əmri ilə İsrailin üzərinə kölgə salmasını buyurdu. Allah Özündən olan mərhəmət və salehliklə sevinc içində, Öz izzətinin işığı ilə İsrailin önündə gedəcək. Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 126 , 1-6**

**N: Rəbb bizim üçün böyük işlər gördüyünə görə sevinirik.**

Rəbb Siona bəxtəvər günlərini qaytaranda bizə röya kimi gəldi.
Dodaqlarımızdan gülüş tökülürdü, dilimizdən sevinc harayı yüksəlirdi.
Millətlər öz aralarında belə deyirdi: «Rəbb onlar üçün böyük işlər görüb».
Bunun üçün sevinirik, çünki Rəbb bizim üçün böyük işlər görüb.
Selləri Negevə qaytardığın kimi Ya Rəbb, o bəxtəvər günləri bizə qaytar.
Qoy göz yaşı ilə əkənlər sevinc harayı çəkərək biçsinlər.
Ağlaya-ağlaya toxum daşıyıb əkən
sevinc harayı ilə dərzləri daşıya-daşıya gələcək.

**Müqəddəs Paulun Filipililərə məktubundan sözlər** *Flp 1, 4-11*

Hamınız üçün hər duamda daim sevinclə niyaz edirəm, çünki ilk gündən indiyədək, Müjdəni yaymaqda iştirak etdiniz. Əminəm ki, sizdə yaxşı işə başlamış olan Allah, Məsih İsanın gününə kimi bunu bitirəcəkdir. Əslində mən hamınız haqqında belə fikirdə olsam bu doğrudur, çünki siz mənim ürəyimdəsiniz; həbsdə də olsam, Müjdəni müdafiə və təsdiq də etsəm, hamınız mənimlə bərabər Allahın lütfünə şəriksiniz. Allah şahidimdir ki, mən, İsa Məsihin sevgisi ilə hamınızın həsrətini çəkirəm. Və dua edirəm ki, məhəbbətiniz bilik və hər cür idrak baxımından getdikcə daha çox artsın ki, siz Məsihin günündə pak və nöqsansız olmaq üçün ən üstün dəyərləri ayırd edə biləsiniz. Və Allahın izzəti və mədhi üçün İsa Məsihdən gələn salehlik bəhrələri ilə dolasınız.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Lk 3, 4-6*
Rəbbin yolunu hazırlayın, keçəcəyi cığırları düzəldin.
Bütün insanlar Allahın istədiyi qurtuluşu görəcəklər.
**Alleluya!**

## † İncil †

*Lk 3, 1-6*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Qeysər Tiberiusun hakimiyyətinin on beşinci ilində, Ponti Pilat Yəhudeya valisi, Hirod Qalileya tetrarxı, onun qardaşı Filip İtureya və Traxonitis vilayətinin tetrarxı, Lisanya Abileniya tetrarxı, Hanan ilə Qayafa baş kahin olduqları zaman, səhrada Zəkəriyyənin oğlu Yəhyaya Allahın kəlamı gəldi.
Və o, İordan çayının ətrafındakı bütün ölkəni dolaşaraq günahların bağışlanması üçün tövbə edib vəftiz olsunlar deyə insanları təbliğ edirdi.
Necə ki, Yeşaya peyğəmbərin sözlərinin kitabında yazılmışdır: «Səhrada birinin səsi nida edir: Rəbbin yolunu hazırlayın! Onun yollarını düz edin! Hər dərə doldurulacaq, hər dağ və təpə alçalacaqdır; əyriliklər düzələcək, kələ-kötür yollar hamar olacaqdır; və bütün bəşər Allahın xilasını görəcəkdir.»
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 3-cü Rəbb günü Advent dövründə - C ili

**Peyğəmbər Sefanyanın kitabından sözlər** *Sef 3, 14-18a*

Ey Sion qızı, tərənnüm elə, ey İsrail, uca səslə çığır! Ey Yerusəlim qızı, bütün qəlbinlə sevin və fərəhlən! Rəbb sənin cəzanı ləğv etdi, düşmənlərini qovdu! İsrailin padşahı Rəbb səninlədir, artıq pislikdən qorxmayacaqsan! O gün Yerusəlimə deyiləcək: «Qorxma, ey Sion, qoy əllərin taqətdən düşməsin! Allahın Rəbb, Qüvvətli Qurtarıcın səninlədir! O sənin üçün sevinib şadlanacaq, səni məhəbbəti ilə yeniləşdirəcək, sənin üçün tərənnümlə coşacaq! Bayram gününü qeyd edən kimi Mən sənin üzərindən bəlaları götürəcəyəm ki, onlara görə xəcalətli olmayasan.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Yəşaya 12, 2-3. 4b-d. 5-6**

**N: Səsimizi ucaldaq, sevinclə çığıraq,**
**çünki Müqəddəs Allah aramızdadır.**

Allah xilasımdır, Ona güvənəcəyəm və qorxmayacağam,
çünki Rəbb Allahımız qüvvətim, məzmurumdur, O mənə xilas verdi!»
Sevinclə xilas mənbələrindən su çəkəcəksiniz.
Rəbbə şükür edin, Onun adını çağırın, xalqlar arasında
Onun işlərini bəyan edin, Onun adının ucalığını elan edin.
Rəbbi tərənnüm edin, çünki O, möhtəşəm işlər gördü,
qoy bütün dünya bunu bilsin!
Ey Sion sakinləri, səsinizi ucaldın, sevinclə çığırın,
çünki aranızdakı İsrailin Müqəddəsi böyükdür.

**Müqəddəs Paulun Filipililərə məktubundan sözlər** *Flp 4, 4-7*

Rəbbə məxsus olduğunuz üçün həmişə sevinin! Bir də deyirəm: sevinin!
Qoy sizin mülayimliyiniz bütün insanlara məlum olsun. Rəbb yaxındır.
Heç nəyin qayğısını çəkməyin, amma hər barədə xahişlərinizi Allaha dualarla, yalvarışlarla, şükür edə-edə bildirin. Onda Allahın ağlagəlməz sülhü ürəklərinizi və düşüncələrinizi Məsih Isada qoruyacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Lk 4, 18*

Rəbbin Ruhu mənim üzərimdədir.
O məni Müjdəni yoxsullara eşitdirmək üçün göndərdi.
**Alleluya!**

## † İncil †

*Lk 3, 10-18*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Camaat Yəhyadan soruşurdu: "Bəs biz nə edək?" Yəhya onlara belə cavab verdi: "İki köynəyi olan birini köynəyi olmayana versin. Həmçinin yeməyi olan adam da olmayanla bölüşsün". Vergiyığanlar da vəftiz olunmaq üçün onun yanına gəlib soruşdu: "Müəllim, biz nə edək?" Yəhya onlara dedi: "Sizə tapşırılan məbləğdən artıq vergi yığmayın". Əsgərlərin bəzisi də gəlib ondan soruşdu: "Bəs biz nə etməliyik?" Yəhya da onlara cavab verdi: "Heç kimdən zorla pul almayın, nahaq yerə ittiham etməyin, aldığınız maaşla kifayətlənin".
Xalq ümidlə gözləyirdi və hamı ürəyində Yəhya haqqında öz-özündən soruşurdu: "Görəsən bu, Məsihdirmi?"
Yəhya onların hamısına belə cavab verdi: "Mən sizi su ilə vəftiz edirəm, amma məndən daha Qüdrətlisi gəlir. Mən Onun çarıqlarının bağını açmağa belə, layiq deyiləm. O sizi Müqəddəs Ruhla və odla vəftiz edəcək. Öz xırmanını sovurmaq və taxılı anbarına toplamaq üçün kürəyi əlində hazırdır. Küləşi isə sönməz odda yandıracaq".
Yəhya çoxlu başqa öyüd-nəsihət verərək xalqa Müjdəni vəz edirdi.
**K: Bu Rəbbin Kəlamıdır. * M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 4-cü Rəbb günü Advent dövründə - C ili

**Peyğəmbər Mikeyanın kitabından sözlər** *Mik 5, 2-5*

Rəbb deyir: «Ey Bet-Lexem Efrata, sən Yəhuda nəsillərinin kiçiyi olsan da, Mənim üçün İsrail üzərində Hökmdar səndən çıxacaq. Onun nəsli çox qədimlərə, zamanın başlanğıcına gedir». Hamilə qadın doğana qədər Rəbb Öz xalqını təslim edəcək. İsrail övladlarının yanına qalan qohumları qayıdacaq. Bu hökmdar Allahı Rəbbin əzəmətli adı ilə duracaq, Rəbbin gücü ilə sürüsünü otaracaq, bütün yer üzü onun böyüklüyünü bildiyi üçün. Xalq onun bəxş etdiyi sülhlə yaşayacaq.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 80, 1-2. 14-15. 17-18**

**N: Ey Allah, bizi yeniləşdir, Üzündən nur saçıb bizi qurtar!**

Ey İsrailin Çobanı, qulaq as! Ey keruvlar üstündə Oturan, nurunu saç!
Qoy qüvvətin oyansın, gəl, bizi qurtar!
Ey Ordular Allahı, dön, göydən bax, bu tənəyi gör, qayğısına qal.
Axı bu fidanı sağ əlinlə əkmisən, kökünə qüvvət vermisən.
Sənin əlin, sağ əlin Öz seçdiyin adamı – Qüvvət verdiyin bəşər oğlunu qorusun.
Qoy Səndən dönüb ayrılmayaq, bizi elə yaşat ki, ismini çağıraq.

**İbranilərə məktubundan sözlər** *İbr 10, 5-10*

Məsih, dünyaya girəndə deyir: «Qurban və sovqat istəmədin, amma Mənə bədən hazırladın. Bütöv şəkildə yaxılan heyvanlara və günah üçün gətirilən qurbanlara Sən razı olmadın. O zaman Mən dedim: «Budur, Mən gəldim ki, ey Allah, Sənin iradəni yerinə yetirim. Kitabın tumarında Mənim barəmdə belə yazılmışdır.» Qabaqca dedi ki: «Qurbanları və sovqatları, bütöv şəkildə yaxılan heyvanları və günah üçün gətirilən qurbanları istəmədin və bunlara razı olmadın.» Halbuki bunlar, Müqəddəs Qanuna uyğun olaraq təqdim edilir. Sonra dedi: «Budur, Mən gəldim ki, /ey Allah,/ Sənin iradəni yerinə yetirim.» Yəni, Məsih ikincini qüvvəyə mindirmək üçün birincini ləğv edir. Bu iradəyə görə biz, İsa Məsih bədənini birdəfəlik qurban gətirdiyi üçün təqdis edildik.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Lk 1, 38*

Mən Rəbbin quluyam. Hər şey, Rəbbin dediyi kimi olsun!
**Alleluya!**

## † İncil †

*Lk 1, 39-45*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

O günlərdə Məryəm qalxıb, tələsik, dağlıqda yerləşən bir Yəhuda şəhərinə getdi. Zəkəriyyənin evinə girib Elizavetə salam verdi. Elizavet Məryəmin salamını eşitdikdə uşaq onun bətnində dingildədi və Elizavet Müqəddəs Ruhla doldu. Yüksək səslə qışqırıb dedi: «Sən qadınların bəxtiyarısan, sənin bətninin səmərəsi də bəxtiyardır! Bu mənə haradan oldu ki, Rəbbimin anası yanıma gəldi? Çünki sənin salamının səsi mənim qulağıma çatdıqda, uşaq bətnimdə sevinclə dingildədi; İman gətirən qadın bəxtiyardır. Çünki Rəbbin ona söylədikləri baş verəcəkdir.»

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# ORUC dövrü C

# 1-ci Rəbb günü Oruc dövründə - C ili

**Qanunun Təkrarı kitabından sözlər** *Qanun 26, 4-10*

Kahin əlinizdən səbəti alıb onu Allahınız Rəbbin qurbangahı önündə yerə qoysun. Allahınız Rəbbin önündə bunu bəyan edin: “Atam köçəri Aramlı idi. Azsaylı olaraq Misirə enib orada məskunlaşdı və ondan böyük, güclü, çoxsaylı millət törədi. Misirlilər bizimlə pis rəftar etdilər. Bizi zəlil edib üzərimizə ağır işlər yüklədilər. Onda atalarımızın Allahı Rəbbə fəryad qopardıq və Rəbb səsimizi eşitdi. əzabımızı, əziyyətimizi və zəlalətimizi gördü. Rəbb qüvvətli əli, uzanan qolu, böyük zəhmi, əlamət və mö’cüzələri ilə bizi Misirdən çıxartdı. O bizi bu yerə gətirərək süd və bal axan bu torpağı bizə verdi. İndi, ya Rəbb, mənə verdiyin torpağın məhsulunun nübarını Sənə gətirmişəm”. Sonra səbəti Allahınız Rəbbin önünə qoyub Onun qarşısında səcdə edin.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 91, 1. 2. 6. 11-15**

**N: Ya Rəbb, sınaq günümdə mənimlə ol.**

Haqq-Taalanın pənahında yaşayan, Külli-İxtiyarın kölgəsində oturan insan
Rəbb haqqında belə söyləyir: +
«O mənim sığınacağımdır, qalamdır, Allahımdır, Ona güvənirəm».
Şərə düçar olmazsan, bəla çadırından uzaq qaçar.
Allah sənə görə mələklərinə əmr edər ki, gedəcəyin hər yerdə səni qorusun.
Səni əlləri üstündə aparar, ayağına bir daş dəyməyə qoymaz.
Şiri, gürzəni ayaqlayarsan, gənc aslanı, əfi ilanı tapdalayarsan.
Mən Rəbbi sevdiyinə görə onu azad edəcəyəm,
ismimi tanıdığına görə onu yüksəldəcəyəm.
Məni çağırarkən ona cavab verəcəyəm, dar günündə ona yar olacağam,
onu xilas edib şərəfə-şana çatdıracağam.

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rom 10, 8-13*

Bəs nə deyilir? «Kəlam - yəni vəz etdiyimiz iman kəlamı - sənə yaxındır, sənin ağzında və sənin ürəyindədir.» Çünki əgər sən ağzınla «İsa Rəbbdir», - deyə iqrar etsən və Allahın Onu ölülərdən diriltdiyinə ürəyinlə inansan xilas olacaqsan; ona görə ki, insan ürəkdən iman edərək bəraət qazanır, imanını ağzı ilə iqrar edərək də xilas olunur. Çünki Müqəddəs Yazı deyir: «Ona iman edən heç kimsə utandırılmayacaqdır.» Burada yəhudi ilə yunan arasında fərq yoxdur.
Çünki hamısının Rəbbi birdir, Onu çağıranların hamısına qarşı əliaçıqdır.
Çünki: «Hər kim Rəbbin adını zikr etsə, xilas olacaqdır.»
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *Mt 4, 4*

İsa Məsih belə dedi: “İnsan yalnız çörəklə deyil,

Allahın ağzından çıxan hər kəlmə ilə yaşayar”.
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Lk 4, 1-13*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İSA, Müqəddəs Ruhla dolu, İordandan qayıtdı və Ruh tərəfindən səhraya aparıldı. O, qırx gün iblis tərəfindən imtahan olundu, bu günlərdə bir şey yemədi; və o günlər keçdikdən sonra, axırda acdı. İblis Ona dedi:
«Əgər Sən Allahın Oğlusansa, əmr et ki, bu daş çörəyə dönsün.»
İsa ona cavabında dedi: «Yazılmışdır ki, "İnsan yalnız çörəklə yaşamaz, lakin Allahın hər sözü ilə yaşar."» Və iblis Onu çox yüksək bir dağın başına çıxararaq, bir an içində dünyanın bütün ölkələrini Ona göstərdi. Və iblis Ona dedi:
«Bütün bu ölkələr üzərində hakimiyyəti və onların şan-şöhrətini Sənə verəcəyəm; çünki bu mənə verilmişdir və mən kimə istəsəm, ona verirəm;
Beləliklə, əgər Sən mənə səcdə etsən, bunların hamısı Sənin olacaqdır.» İsa cavabında ona dedi: «Rədd ol, şeytan! Çünki yazılmışdır: "Allahın olan Rəbbə səcdə qıl və yalnız Ona qulluq et."»
İblis Onu Yerusəlimə gətirdi və məbədin qülləsinə qoyub dedi: «Əgər Sən Allahın Oğlusansa, Özünü buradan aşağı at; çünki yazılmışdır:
"O, Sənin haqqında Öz mələklərinə əmr edəcək ki, Səni hifz etsinlər",
və: "Ayağın bir daşa ilişməsin deyə, Səni əlləri üzərində aparacaqlar."»
İsa cavabında ona dedi: «Deyilmişdir: "Allahın olan Rəbbi sınama."»
İblis hər imtahanı bitirdikdən sonra, bir müddətə Ondan ayrıldı.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 2-ci Rəbb günü Oruc dövründə - C ili

**Yaradılış kitabından sözlər** *Yar 15, 5-12. 17-18*

Rəbb İbramı bayıra çıxarıb dedi: «Göyə bax, oradakı ulduzları saya bilərsənsə, say». Yenə dedi: «Nəslin o qədər olacaq». İbram Rəbbə iman etdi və Rəbb bunu ona salehlik saydı. Rəbb İbrama dedi: «Bu torpağı sənə irs olaraq vermək üçün səni Xaldeylilərin Ur şəhərindən çıxaran Mən Rəbbəm». İbram soruşdu: «Ya Xudavənd Rəbb, onu irs olaraq alacağımı necə bilim?» Rəbb ona dedi: «Mənim üçün bir üçyaşlı düyə, bir üçyaşlı keçi, bir üçyaşlı qoç, həmçinin bir qumru və bir göyərçin balası gətir». İbram bunların hamısını götürüb kəsdi və iki hissəyə ayırdı, hər hissəni o birinin qarşısına qoydu, ancaq quşları kəsmədi. Yırtıcı quşlar cəmdəklərin üzərinə uçub gəldilər, ancaq İbram onları qovdu. Günəş batan vaxt İbrama dərin yuxu gəldi. Birdən onun üzərinə dəhşət və qatı qaranlıq çökdü. Günəş batıb qaranlıq düşəndə tüstü çıxan bir təndir və alovlanan məş’əl görünərək parçalanmış heyvanların arasından keçdi. O gün Rəbb İbramla əhd bağlayıb dedi: «Misir çayından böyük Fərat çayına qədər uzanan bu torpaqları – Mən sənin nəslinə verirəm».

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 27, 1. 7-9. 13-14**

**N: Rəbdir nurum, qurtuluşum!**

Rəbdir nurum, qurtuluşum! Mən kimdən qorxum?
Rəbdir ömrümün qalası, mən kimdən vahimələnim?
Ya Rəbb, dinlə, Səni çağırıram, lütf edib mənə cavab ver.
Sən dedin: «Üzümü axtarın». Ya Rəbb, mən Sənin üzünü axtarıram.
Üzünü məndən gizlətmə, qulunu qəzəblə qovma.
Sən mənə kömək etmisən, məni atma, tərk etmə, ey məni qurtaran Allahım!
Rəbbin xeyirxahlığını dirilər arasında görəcəyəm, buna şübhəm yoxdur.
Rəbbə ümid bağla! Cəsarətli və möhkəm ol! Rəbbə ümid bağla!

**Müqəddəs Paulun Filipililərə məktubundan sözlər** *Flp 3, 17 – 4, 1*

Qardaşlar, məni təqlid edin və sizin bizdə gördüyünüz nümunəyə görə hərəkət edənlərə diqqətlə baxın. Çünki bir çoxları Məsihin çarmıxının düşmənləri kimi hərəkət edirlər. Onların barəsində sizə tez-tez danışırdım, indi isə gözü yaşlı deyirəm. Onların sonu ölüm, onların tanrısı qarın və onların iftixarı rusvayçılıqlarındadır; yalnız dünyəvi şeylər barədə düşünürlər. Bizim vətəndaşlığımız isə göylərdədir və biz Xilaskar olan Rəbb İsa Məsihi oradan gözləyirik. O, hər şeyi Özünə tabe etməyə qadir olan qüdrətinin təsiri ilə bizim zavallı bədənimizi dəyişdirib, Öz izzətli bədəninə bənzər hala gətirəcəkdir. Beləliklə, sevincim və başımın tacı, həsrətini çəkdiyim sevimli qardaşlarım, Rəbb yolunda bu cür sabit durun, sevimlilərim.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *Mt 17, 5*
Parlaq buluddan Atanın səsi gəldi və belə dedi:
“Bu Mənim sevimli Oğlumdur. Onu dinləyin”!
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

## † İncil †

*Lk 9, 28b – 36*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Bu sözləri söylədikdən təqribən səkkiz gün sonra İsa, Peteri, Yəhyanı və Yaqubu Özü ilə götürüb dua etmək üçün dağa qalxdı. Dua etdiyi zaman, Onun üzünün görkəmi dəyişdi, və Onun paltarı ağardı və çox parlaq oldu. Və budur, iki nəfər Onunla söhbət edirdi. Bunlar Musa və İlyas idi. Onlar ehtişamla zahir olub İsanın Yerusəlimdə tamamlayacağı aqibəti haqqında danışırdılar.

Peter və onunla bərabər olanlar isə dərin yuxuya getmişdilər. Amma oyananda İsanın ehtişamını və Onunla yanaşı duran iki kişini gördülər. Onlar İsadan ayrılarkən, Peter nə söylədiyini bilmədən, İsaya dedi: «Ustad! Bizə burada olmaq xoşdur. Üç çardaq quraq - biri Sənə, biri Musaya və biri də İlyasa.» Peter bunu deyərkən bir bulud gəldi və onlara kölgə saldı; buluda daxil olduqda qorxdular. Buluddan isə: «Bu Mənim sevimli Oğlumdur, Ona qulaq asın!» - deyən bir səs gəldi. Bu səs kəsildikdə İsa tək qaldı. Və onlar susdular və o günlərdə gördükləri barədə kimsəyə bir söz demədilər.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 3-cü Rəbb günü Oruc dövründə - C ili

**Çıxış kitabından sözlər** *Çıx 3, 1-8a. 13-15*

Musa qayınatası Midyan kahini Yetronun sürüsünü otarırdı. Bir dəfə o, sürünü səhranın o biri tərəfinə aparıb Allahın dağı Xorevə gəldi. Birdən Rəbbin mələyi ona bir kol arasından od-alov içərisində göründü; od içində kolun sönmədən yanmasını görüb Musa öz-özünə dedi: «Gedim, bu qəribə mənzərəyə baxım, görüm nə üçün bu kol yanıb qurtarmır». Rəbb Musanın baxmağa gəldiyini görəndə Allah kolun ortasından onu çağırıb dedi: «Musa, Musa!» O da «mən buradayam» dedi. Allah dedi: «Buraya yaxınlaşma. Ayaqlarından çarıqlarını çıxart, çünki durduğun yer müqəddəs torpaqdır». Sonra dedi: «Mən atanın Allahı, İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun Allahıyam». Musa üzünü örtdü, çünki Allaha baxmağa qorxurdu.
Rəbb dedi: «Həqiqətən, Mən Misirdə olan xalqımın əziyyətini gördüm, nəzarətçilərin əlindən etdikləri fəryadlarını eşitdim və dərdlərinə nəzər saldım. Mən ona görə gəldim ki, onları Misirlilərin əlindən qurtarıb bu ölkədən çıxarım və geniş, ne’mətli bir diyara, süd və bal axan torpağa aparım. Musa Allaha dedi: «İsrail övladlarının yanına gedib “məni sizin yanınıza atalarınızın Allahı göndərib” deyəndə onlar məndən soruşa bilərlər: “Bəs Onun adı nədir?” Onda mən nə deyim?» Allah Musaya dedi: «Var Olan Mənəm».
Sonra dedi: «İsrail övladlarına belə söylə: “‹Mənəm› deyən sizin yanınıza məni göndərdi”». O, Musaya belə dedi: «İsrail övladlarına söylə: “Atalarınızın Allahı, İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun Allahı Rəbb məni sizin yanınıza göndərdi”. Adım əbədi olaraq budur. Qoy Məni nəsildən-nəslə belə xatırlasınlar.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 103, 1-4. 6-8. 11**

**N: Rəbb lütfkar və rəhmlidir.**

Rəbbə alqış et, ey könlüm, ey bütün varlığım, Onun müqəddəs adına alqış et!
Rəbbə alqış et, ey könlüm, unutma etdiyi yaxşılıqları:
Odur bütün təqsirlərini əfv edən, bütün xəstəliklərinə şəfa verən. Odur həyatını məzara düşməkdən qurtaran, məhəbbətin, mərhəmətin tacını başına qoyan.
Rəbb bütün miskinlərə Haqq-ədalət göstərir.
Yollarını Musaya, əməllərini İsrail övladlarına göstərib.
Rəbb lütfkar və rəhmlidir, hədsiz səbirli və bol məhəbbətlidir. Çünki göylər yerdən nə qədər ucadırsa, Ondan qorxanlara olan məhəbbəti o qədər böyükdür.

**Müqəddəs Paulun Korinflilərə 1-ci məktubundan sözlər** *1 Kor 10, 1-6. 10-12*

Qardaşlar, sizi xəbərsiz qoymaq istəmirəm ki, əcdadımızın hamısı buludun müdafiəsi altında idi və hamısı dənizdən keçdi; hamısı musaya bağlanmaq üçün buludda və dənizdə vəftiz olundu; hamısı eyni fövqəltəbii yemək yedi; və hamısı

eyni fövqəltəbii içki içdi, çünki ardınca gələn fövqəltəbii daşdan içirdilər; o daş isə Məsih idi. Amma Allah onların çoxundan razı deyildi; çünki cəsədləri səhraya səridi. Bu hadisələr bizim üçün ibrət olsun deyə baş verdi ki, biz onlar kimi pisliyə meyl göstərməyək. Deyinməyin; onlardan bəziləri deyindilər və öldürücü mələk tərəfindən məhv edildilər. Bütün bunlar ibrət olaraq onların başına gəlirdi; son əsrlərə çatan bizlər üçün də məsləhət olaraq qeyd edildi. Buna görə də, kim düşünürsə ki, ayaq üstə durub, ehtiyatlı olsun ki, yıxılmasın.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *Mt 4, 17*
İsa Məsih belə deyir: “Tövbə edin! Çünki Səmavi Səltənət yaxınlaşıb”.
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Lk 13, 1-9*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Bu zaman bəziləri gəldilər və Pilatın bəzi qalileyalıları necə öldürüb, qanlarını öz kəsdikləri qurbanlara qatdığını İsaya söylədilər. İsa cavabında onlara dedi: «Məgər elə düşünürsünüz ki, bu qalileyalılar bu aqibətə uğradıqlarına görə bütün başqa qalileyalılardan daha günahkar idilər? Xeyr, deyirəm sizə; lakin, əgər tövbə etməsəniz, hamınız onlar kimi həlak olacaqsınız.
Yaxud Şiloax qülləsinin üzərlərinə düşüb öldürdüyü o on səkkiz nəfəri, Yerusəlimdə yaşayan adamların hamısından daha günahkarmı sayırsınız?
Xeyr, deyirəm sizə; lakin əgər tövbə etməsəniz, hamınız bu cür həlak olacaqsınız.»
Və onlara bu məsəli çəkdi: «Bir nəfərin bağında əkilmiş bir əncir ağacı var idi və o gəlib onun başında meyvə axtardı, lakin tapmadı. Və bağbana dedi: "Budur, artıq üç ildir ki, mən bu əncir ağacının yanına gəlib meyvə axtarıram və tapmıram; onu kəs; niyə boş yerə torpaq tutur?" Amma bağban cavabında ona dedi:
"Ağa! Ona bu il də toxunma, mən onun ətrafını belləyər və peyinlə dövrəyə alaram. Meyvə gətirərsə, yaxşı. Əgər gətirməzsə, gələn il kəsərsən."»
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 4-cü Rəbb günü Oruc dövründə - C ili

**Yeşua kitabından sözlər** *Yşa 5, 9-12*

Rəbb Yeşuaya dedi: «Misir rüsvayçılığını bu gün üzərinizdən atdım». Ona görə də bu günə qədər o yerin adına Qilqal deyilir. İsrail övladları Qilqalda ordugah qurdular. Ayın on dördü axşam vaxtı Yerixo düzənliklərində Pasxa bayramı keçirdilər. Pasxanın ertəsi günü – həmin o gün bu torpağın bəhrəsindən olan mayasız çörək və qovurğa yedilər. Onlar o torpağın bəhrəsindən yedikləri günün səhəri mannanın tökülməsi kəsildi. Artıq İsrail övladlarının mannası yox idi
və o il Kənan torpağının məhsulları ilə dolandılar.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 34, 1-6**

**N: Dadın, görün Rəbb nə qədər şirindir.**

Hər zaman Rəbbə alqış edəcəyəm, Ona daim mənim dilim həmd edəcək.
Rəblə könlüm fəxr edir, ey məzlumlar, eşidib sevinin!
Gəlin mənimlə birgə Rəbbi müqəddəs tutaq, Rəbbin ismini birgə ucaldaq.
Rəbbə üz tutdum, O mənə cavab verdi, O hər bir dəhşətdən məni xilas etdi.
Rəbbə baxan nur saçar, üzü qızarmaz.
Mən məzlum, Rəbbi çağırdım, O məni eşitdi, bütün əzablarımdan məni xilas etdi.

**Müqəddəs Paulun Korinflilərə 2-ci məktubundan sözlər** *2 Kor 5, 17-21*

Buna görə kim Məsihdədirsə, yeni məxluqdur;
köhnə şeylər keçdi, indi hər şey yeni oldu.
Bunların hamısı isə Allahdandır. O Allahdan ki, bizi Məsih vasitəsilə Özü ilə barışdırmış və bizə barışdırma xidmətini vermişdir. Yəni, Allah, Özü ilə dünyanı barışdıranda, insanlara günah saymayanda və bizə barışdırma sözünü həvalə edəndə Məsih içində idi. Deməli biz Məsihin səfirləriyik, sanki Allah bizim vasitəmizlə insanlara müraciət edir. Məsih naminə rica edirik ki, Allahla barışasınız. Çünki günah nə olduğunu bilməyən Məsihi O, əvəzimizə günah qurbanı etdi ki,
biz Onun sayəsində Allahın salehliyi ilə eyniləşək.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**
Aclıq çəkən oğul belə dedi: “Qalxıb atamın yanına gedəcəyəm və ona:
“Ata, Allaha qarşı və sənə qarşı günah işlədim”, deyəcəyəm”.
**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil † 

*Luka 15, 1-3. 11-32*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Bütün vergiyığanlar və günahkarlar İsanı dinləmək üçün ona yaxınlaşırdılar. Fəriseylər və din alimləri: «O, günahkarları qəbul edir və onlarla yemək yeyir», - deyə gileylənirdilər. Amma İsa onlara aşağıdakı məsəli çəkdi: «Bir nəfərin iki oğlu var idi. Oğlanlardan kiçiyi atasına dedi: "Ata! Malikanədən mənə düşən hissəni mənə ver." Və atası malikanəni onların arasında böldü.
Bir neçə gün sonra, kiçik oğlu nəyi vardısa yığıb uzaq bir məmləkətə getdi. Orada səfahətlə yaşayaraq bütün varını puç etdi. Və hamısını xərclədikdən sonra, o ölkədə böyük bir aclıq oldu və o, ehtiyac duymağa başladı. Gedib o ölkənin sakinlərindən birinin xidmətinə girdi, o isə onu öz tarlalarında donuz otarmağa göndərdi. Donuzların yediyi keçi buynuzu ağacı qabıqları ilə qarnını doydurmağa şad olardı, amma kimsə ona bir şey vermirdi. Və özünə gəldikdə dedi: "Atamın nə qədər muzdlu işçisi vardır, hamısının da bolluca çörəyi var, mən isə burada acından ölürəm! Durub atamın yanına gedib deyəcəyəm: Ata! Mən göyə və sənə qarşı günah işlətdim, və artıq sənin oğlun adlanmağa layiq deyiləm; məni öz muzdlu işçilərinin sırasına al." Durub öz atasının yanına getdi. Hələ uzaqda ikən atası onu görüb ona rəhmi gəldi və qaçıb onun boynuna sarıldı və öpdü. Oğul isə dedi: "Ata! Mən göyə və sənə qarşı günah işlətdim və artıq sənin oğlun adlanmağa layiq deyiləm." Atası isə öz qullarına dedi: "Ən gözəl xalat gətirib onu geyindirin. Barmağına üzük və ayaqlarına çarıq taxın, və kökəldilmiş dananı gətirin, kəsin: yeyib şadlanaq! Çünki bu oğlum ölmüşdü - dirildi; qeyb olmuşdu - tapıldı."
Və şənlik etməyə başladılar. Onun böyük oğlu isə tarlada idi; və qayıdarkən, evə yaxınlaşdığı zaman, musiqi və rəqs səsləri eşitdi.
Nökərlərdən birini çağırıb soruşdu: "Bu nədir?" O, ona dedi: "Sənin qardaşın qayıdıb, atan isə kökəldilmiş dananı kəsib, çünki onu sağ-salamat tapıb." Böyük oğul isə hirsləndi və içəri girmək istəmədi. Atası da çıxıb ona yalvardı. Amma o, atasına cavab verib dedi: "Budur, mən neçə illərdir ki, sənə xidmət edirəm və heç zaman sənin əmrini pozmamışam; lakin sən bir dəfə də olsun mənə oğlaq belə vermədin ki, mən öz dostlarımla şənlik edim. Bu oğlun isə sənin bütün varını əxlaqsız qadınlarla puç edib gəldiyi zaman, sən onun üçün kökəldilmiş dananı kəsdin." Atası isə ona dedi: "Oğlum! Sən həmişə mənimləsən və mənim bütün əmlakım sənindir; Lakin sevinmək və şadlanmaq lazımdır ki, sənin bu qardaşın ölmüşdü - dirildi; qeyb olmuşdu - tapıldı."»
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 5-ci Rəbb günü Oruc dövründə - C ili

**Peyğəmbər Yeşayanın kitabından sözlər** *Yeş 43, 16-21*

Dənizdə və azğın sularda yol, riz açan, atlarla döyüş arabalarını, igid cəngavərləri ilə ordunu birgə yola çıxaran Rəbb belə deyir: «Onlar yıxılıb, qalxa bilməyəcək, basdırılıb piltə kimi söndürüldü. Əvvəlki şeyləri yada salmayın, köhnə hadisələr barəsində düşünməyin. Budur, Mən təzə bir şey edirəm, o artıq baş verir, məgər siz bunu başa düşmürsünüz? Bəli, Mən çöllükdə yol salacağam, quru torpaqda çaylar yaradacağam. Mənim seçdiyim xalqıma su içirtmək üçün çöllükdə su verdiyimə görə, quru torpaqda çaylar yaratdığıma görə, vəhşi heyvanlar, çaqqallar və dəvəquşuları Məni ucaldacaq. Bu xalqı Mən Özüm üçün yaratdım ki,
Mənə həmdlər söyləsin.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 124(125), 1-6**

**N: Rəbb bizim üçün böyük işlər gördüyünə görə sevinirik.**

Rəbb Siona bəxtəvər günlərini qaytaranda bizə röya kimi gəldi.
Dodaqlarımızdan gülüş tökülürdü, dilimizdən sevinc harayı yüksəlirdi.
Millətlər öz aralarında belə deyirdi: «Rəbb onlar üçün böyük işlər görüb».
Bunun üçün sevinirik, çünki Rəbb bizim üçün böyük işlər görüb.
Selləri Negevə qaytardığın kimi ya Rəbb, o bəxtəvər günləri bizə qaytar.
Qoy göz yaşı ilə əkənlər sevinc harayı çəkərək biçsinlər.
Ağlaya-ağlaya toxum daşıyıb əkən
sevinc harayı ilə dərzləri daşıya-daşıya gələcək.

**Müqəddəs Paulun Filipililərə məktubundan sözlər** *Flp 3, 8-14*

Bundan əlavə Rəbbim Məsih Isanı tanımağın ali dəyərinin yanında hər şeyi ziyan hesab edirəm. Onun uğrunda var-yoxumu atıb tullantı saymışam ki, Məsihi qazanıb Onda hesab olunum. Qanuna əsaslanan şəxsi salehliyimə deyil, Məsihə imandan yaranan, Allahdan gələn və imana əsaslanan salehliyə malikəm. Belə ki Onu və Onun dirilmə qüdrətini, iztirablarına şərikliyi dərk edim və ölümdə Ona bənzəyim ki, nə olursa-olsun, ölülər arasından dirilməyə nail olum. Demirəm ki, indi bunlara malik olmuşam və yaxud kamilləşmişəm. Amma hədəfdən tutmaq üçün qaçıram. Çünki Məsih Isa məni bu məqsəd üçün tutub. Qardaşlar, hesab etmirəm ki, bunu tutmuşam. Yalnız bir şey edirəm: arxada qalanları unudub qarşımda olana çatmaq üçün yarışıram və hədəfə doğru qaçıram ki, mükafat alım, yəni Allahın Məsih Isa vasitəsilə etdiyi səmavi çağırışa nail olum.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!** *Yez 33,11*

Rəbb belə deyir: “Varlığıma and olsun, pis adamın ölümündən yox,
onun öz yolundan dönüb yaşamasından zövq alıram” .

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

# † İncil †

*Yəh 8, 1-11*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
İsa Zeytun dağına getdi. Səhər tezdən yenə məbədə gəldi. Bütün xalq Onun yanına toplaşdı, O da oturub onlara təlim öyrətməyə başladı. İlahiyyatçılar və fariseylər zina üstündə tutulmuş bir qadını oraya gətirdilər. Onu ortaya çıxarıb İsaya dedilər: «Müəllim, bu qadın zina edən zaman yaxalandı. Musa Qanunda bizə əmr edib ki, belələrini daşqalaq edək. Bəs Sən nə deyirsən?» Bunu İsanı sınamaq üçün deyirdilər, Onu ittiham etmək üçün bəhanə axtarırdılar. Amma İsa əyilib barmağı ilə yerə yazı yazırdı. Ondan təkrar soruşduqları zaman dikəlib onlara dedi: «Sizdən kim günahsızdırsa, qadına birinci daş atsın». Sonra yenə əyilib yerə yazı yazmağa başladı. Bu sözləri eşidəndə qocadan başlayaraq hamı bir-bir oradan uzaqlaşdı. İsanı tək qoydular, qadın da ortada idi. İsa dikəlib ona dedi:
«Qadın, onlar hara getdi? Bəs heç kim səni məhkum etmədi?»
Qadın «heç kim, ağa» dedi. Onda İsa dedi: «Mən də səni məhkum etmirəm, get, daha günah etmə».
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# PASXA Dövrü C

# 2-ci Rəbb günü Pasxa dövründə - C ili

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 5, 12-16*

Həvarilər vasitəsilə xalq arasında çox əlamətlər və xariqələr göstərilirdi. Bütün imanlılar Süleymanın Eyvanına yığılardı. Xalq onlara böyük rəğbət bəsləsə də, kənardan heç kim onlara qoşulmağa cürət etmirdi. Buna baxmayaraq get-gedə daha çox qadın və kişi Rəbbə iman gətirirdi. Buna görə də Peter yoldan keçəndə heç olmasa kölgəsi xəstələrin üstünə düşsün deyə xalq öz xəstələrini döşək və çarpayı ilə birlikdə küçələrə çıxarıb qoyardı. Yerusəlimin ətraf şəhərlərində yaşayanlar da axın-axın gələr, öz xəstələrini və natəmiz ruhdan əzab çəkənləri gətirərdi. Onların hamısı şəfa tapardı.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 118, 2-4. 22-24. 25-27a**

**N: Rəbbə şükür edin, ona görə ki yaxşıdır, çünki məhəbbəti əbədidir!**

Qoy İsraillilər belə desin: «Çünki məhəbbəti əbədidir!»
Harun nəsli belə desin: «Çünki məhəbbəti əbədidir!»
Qoy Rəbdən qorxanlar belə söyləsin: «Çünki məhəbbəti əbədidir!»
Bənnaların rədd etdiyi daş guşədaşı olub.
Bu, Rəbbin işi idi, gözümüzdə xariqəli bir işdir.
Bu günü Rəbb yaratdı, Onda sevinib şadlıq edək!
Aman, ya Rəbb, bizi qurtar! Aman, ya Rəbb, bizə uğur göndər!
Rəbbin ismi ilə gələnə alqış olsun! Sizə Rəbbin evindən xeyir-dua veririk.
Rəbb Allahdır, O, üzərimizə nur saçdı.

**Vəhy kitabından sözlər** *Vəhy 1, 9-11a. 12-13. 17-19*

Əziyyətə, Allahın Padşahlığına və dözümə sizinlə İsada şərik olan mən – qardaşınız Yəhya Allahın kəlamına və İsa barədə şəhadət etdiyimə görə Patmos adlanan adada idim. Rəbbin günü Ruhun təsiri altında olarkən arxamdan şeypur səsinə bənzər uca bir səsin belə söylədiyini eşitdim: «Gördüyünü bir kitaba yaz və bunu yeddi cəmiyyətə, yəni Efesə, Izmirə, Berqamaya, Tiatiraya, Sarda, Filadelfiyaya və Laodikeyaya göndər». O zaman çevrildim ki, mənimlə danışanın kim olduğunu görüm. Çevrildikdə yeddi qızıl çıraqdan gördüm. Çıraqdanların arasında uzun cübbə geymiş, sinəsinə qızıl qurşaq bağlamış bəşər oğluna bənzər Biri var idi. Mən Onu gördükdə ölü kimi ayaqlarına qapandım. O isə sağ əlini mənim üstümə qoyub dedi: «Qorxma! Birinci və Sonuncu Olan, Diri Olan Mənəm. Mən ölmüşdüm, indi isə əbədi olaraq diriyəm. Ölümün və ölülər diyarının açarları Məndədir. Beləliklə, öz gördüklərini, indi və bundan sonra baş verəcək hadisələri yaz.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Yəh 20, 29*
İsa Məsih şagirdlərin arasında durub belə dedi: “Sülh üzərində olsun.
Nə bəxtiyardır görmədən iman edənlər! ”
**Alleluya!**

## † İncil †

*Yəh 20, 19-31*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

O gün – həftənin ilk günü axşam çağı Yəhudi başçılarından qorxduqları üçün şagirdlərin olduqları yerin qapıları bağlı olsa da, İsa içəri girdi. O ortada durub onlara «Salam!» dedi. Bunu söyləyib onlara əllərini və böyrünü göstərdi. Şagirdlər də Rəbbi görüb sevindilər. İsa yenə onlara dedi: «Salam! Ata Məni göndərdiyi kimi Mən də sizi göndərirəm». Bunu söylədikdən sonra onların üzərinə üfürərək dedi: «Müqəddəs Ruhu alın! Kimin günahlarını bağışlasanız, bağışlanır, kimin günahlarını bağışlamasanız, bağışlanmamış qalır». Lakin On iki Şagirddən biri «Əkiz» adlanan Toma İsa gələndə onların yanında deyildi. O biri şagirdlər Tomaya «Rəbbi gördük» deyəndə o onlara söylədi: «Əgər Onun əllərində mıxların açdığı yaraları görməsəm, mıxların yerinə barmağımla toxunmasam, böyrünə də əlimi qoymasam, buna inanmaram». Səkkiz gün sonra İsanın şagirdləri yenə otaqda toplaşanda Toma da onların yanında idi. Qapılar bağlı olsa da, İsa içəri girdi.
O ortada durub «Salam!» dedi. Bundan sonra Tomaya söylədi: «Barmağını buraya uzat, əllərimə bax, əlini də uzat, böyrümə qoy. İmansız olma, imanlı ol!» Toma cavab verib Ona «Ya Rəbbim və Allahım!» dedi. İsa ona dedi: «Sən Məni gördüyün üçünmü iman etdin? Görmədən iman edənlər nə bəxtiyardır!»
İsa şagirdlərinin gözü önündə bir çox başqa əlamətlər də göstərdi ki, bu kitabda yazılmayıb. Amma buradakılar onun üçün yazılıb ki, siz İsanın Allahın Oğlu və Məsih olduğuna iman edəsiniz və iman edərək Onun adı ilə həyata malik olasınız.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 3-cü Rəbb günü Pasxa dövründə - C ili

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 5, 27b-32.40b-41*

Baş kahin həvarilərdən soruşdu: «Bu adla təlim öyrətməyi sizə qəti qadağan etmədikmi? Amma siz təliminizi bütün Yerusəlimə yaydınız və o Adamın qanını bizim boynumuza yükləmək istəyirsiniz».
Peter və başqa həvarilər belə cavab verdi: «İnsana deyil, Allaha tabe olmaq daha vacibdir. Ata-babamızın Allahı sizin ağaca mıxlayıb öldürdüyünüz İsanı diriltdi. İsrailə günahlarından tövbə və bağışlanma imkanı vermək üçün Allah Onu Yolaçan və Xilaskar olaraq Öz sağ tərəfinə qaldırdı. Bu şeylər barədə biz şahidik, Allahın Özünə tabe olanlara verdiyi Müqəddəs Ruh da şahiddir».
Yəhudilər həvariləri qamçılatdılar və əmr etdilər ki, İsanın adını çəkərək heç nə danışmasınlar. Sonra onları azad etdilər.
Həvarilər bu ad uğrunda təhqir olunmağa layiq görüldükləri üçün sevinərək Ali Şuranın önündən ayrıldılar.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 30, 1+3. 4-5. 11-12a+13b**

**N: Ya Rəbb, Səni ucaldıram, çünki Sən məni qurtardın**

Ya Rəbb, Səni ucaldıram, çünki Sən məni qurtardın,
düşməni mənə görə sevinməyə qoymadın.
Ya Rəbb, canımı ölülər diyarından azad etdin,
qəbrə düşməyim deyə Sən mənə həyat verdin.
Ey Rəbbin möminləri, Onu tərənnüm edin,
Müqəddəsliyini yada salın, Ona şükürlər edin.
Çünki qəzəbi bir anlıq olur, Lütfü isə ömür boyu qalır.
Kimin bir gecə gözündən yaş tökülərsə, onun üçün sübh tezdən sevinc doğar.
Ya Rəbb, dinlə, mənə lütf et, ya Rəbb, köməyimə çat». +
Yasımı şənliyə çevirdin, Çulumu çıxarıb məni sevincə bürüdün.
Ya Rəbb Allahım, Sənə daim şükür edəcəyəm!

**Vəhy kitabından sözlər** *Vəhy 5, 11-14*

Mən, Yəhya, taxtın, canlı məxluqların və ağsaqqalların ətrafında milyonlarla, saysız-hesabsız mələk gördüm və onların səsini eşitdim. Onlar uca səslə deyirdi: «Kəsilmiş Quzu Qüdrəti, sərvəti, hikməti, qüvvəti, şərəfi, izzəti və alqışı Almağa layiqdir». Həmçinin mən göydə, yer üzündə, yer altında, dənizdə olan bütün məxluqların və oralardakı bütün varlıqların belə dediyini eşitdim: «Taxtda Oturana və Quzuya əbədi olaraq alqış, şərəf, izzət və qüdrət olsun!» Dörd canlı məxluq da «Amin!» deyirdi. Onda ağsaqqallar yerə qapanıb səcdə etdilər.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Rom 6, 9*
Məsih ölülər arasından dirildiyinə görə bir daha ölməyəcək
və ölüm Ona artıq hökmranlıq etməz.
**Alleluya!**

## † İncil †

*Yəh 21, 1-19*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa Tiberiya gölünün kənarında yenə şagirdlərə göründü. Bu belə oldu:
Şimon Peter, «Əkiz» adlanan Toma, Qalileyanın Qana kəndindən olan Natanel, Zebedeyin oğulları və Onun başqa iki şagirdi birlikdə idi. Şimon Peter onlara «balıq ovuna gedirəm» dedi. O birilər də ona «biz də səninlə gedirik» dedi. Onlar gedib qayığa mindilər, amma o gecə bir şey tuta bilmədilər.
Günəş doğarkən İsa sahildə dayanmışdı, amma şagirdlər Onun İsa olduğunu bilmədilər. İsa onlara dedi: «Uşaqlar, yeməyə bir şey tutmusunuzmu?» Ona «xeyr» deyə cavab verdilər. İsa yenə dedi: «Toru qayığın sağ tərəfinə atın, orada tapacaqsınız».
Eləcə də atdılar və o qədər balıq tutdular ki, toru çəkə bilmirdilər. Onda İsanın sevimli şagirdi Peterə «Bu, Rəbdir» söylədi. Şimon Peter Onun Rəbb olduğunu eşidən kimi əynindən çıxartdığı üst paltarına bürünüb gölə atıldı.
O biri şagirdlər isə balıq torunu çəkə-çəkə qayıqda gəldilər, çünki sahildən uzaq deyildilər, cəmi iki yüz qulac məsafədə idilər. Onlar quruya çıxanda orada közərmiş ocağı, onun üzərinə qoyulmuş balığı və yanında olan çörəyi gördülər.
İsa onlara dedi: «İndi tutduğunuz balıqlardan gətirin». Şimon Peter qayığa minib yüz əlli üç böyük balıqla dolu toru quruya çəkdi. Balıq lap çox olsa da, tor yırtılmadı. İsa onlara dedi: «Gəlin, səhər yeməyi yeyin».

Şagirdlərdən heç biri Ondan «Sən kimsən?» deyə soruşmağa cəsarət etmirdi, çünki Onun Rəbb olduğunu bilirdilər. İsa gəlib çörəyi götürdü və onlara verdi, eləcə balığı da verdi. İsa ölülər arasından dirildikdən sonra artıq üçüncü dəfə idi ki, şagirdlərə görünürdü.
Səhər yeməyini yeyəndən sonra İsa Şimon Peterə dedi: «Ey Yəhya oğlu Şimon, Məni bunlardan çox sevirsənmi?» Peter ona dedi: «Bəli, ya Rəbb, Səni sevdiyimi bilirsən». İsa ona dedi: «Quzularımı bəslə».
İkinci dəfə yenə Peterə dedi: «Ey Yəhya oğlu Şimon, Məni sevirsənmi?» O da İsaya dedi: «Bəli, ya Rəbb, Səni sevdiyimi bilirsən». İsa ona dedi: «Quzularımı otar».

Üçüncü dəfə Peterə dedi: «Ey Yəhya oğlu Şimon, Məni sevirsənmi?» Peter üçüncü dəfə İsanın ona «Məni sevirsənmi?» sualını verməyinə kədərləndi və Ona dedi: «Ya Rəbb, Sən hər şeyi bilirsən, Səni sevdiyimi bilirsən». İsa ona dedi: «Quzularımı bəslə. Doğrusunu, doğrusunu sənə deyirəm: cavan olanda qurşağını özün bağlayıb istədiyin yerə gedərdin, amma qocalanda əllərini uzadacaqsan və başqası sənin qurşağını bağlayıb istəmədiyin yerə aparacaq».
İsa bunu ona görə söylədi ki, Peterin necə öz ölümü vasitəsilə Allahı izzətləndirəcəyini bildirsin. Bunu söylədikdən sonra ona «ardımca gəl» dedi.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 4-cü Rəbb günü Pasxa dövründə - C ili

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 13, 14.43-52*

Paul və Barnaba yollarına davam edib Pergedən Pisidiyalı Antakyaya çatdı. Şənbə günü sinaqoqa girib oturdular. Sinoqoqda olan camaat çıxıb gedəndən sonra xeyli Yəhudi və Yəhudi dinini qəbul edən möminlər Paul və Barnabanın ardınca getdilər. Onlar da bu adamlarla söhbətlər edir və Allahın lütfündə dönməz olsunlar deyə onlara öyüd-nəsihət verirdilər.

Növbəti Şənbə Rəbbin kəlamına qulaq asmaq üçün demək olar ki, bütün şəhər əhalisi toplaşmışdı. İzdihamı görən Yəhudiləri paxıllıq bürüdü və Paulun nitqinin əleyhinə qalxıb onu söydülər. Paulla Barnaba isə qorxmadan dedi: «Allahın kəlamı əvvəlcə sizə bəyan olunmalı idi. Siz ondan imtina etdiyiniz və özünüzü əbədi həyata layiq görmədiyiniz üçün, biz indi başqa millətlərə üz tuturuq. Çünki Rəbbin bizə əmri belə idi: "Səni millətlərə nur edəcəyəm ki, Xilası dünyanın ən uzaq yerlərinə yayasan"». Yəhudi olmayanlar bunu eşidərkən sevindilər və Rəbbin kəlamını ucaltdılar. Əbədi həyat üçün təyin olunanların hamısı iman gətirdi. Beləliklə, Rəbbin kəlamı bütün bölgəyə yayıldı. Amma Yəhudilər hörmətli, mömin qadınları və şəhərin nüfuzlu adamlarını təhrik edib Paulla Barnabanı təqib edərək o bölgədən kənara çıxartdı. Buna görə də Paulla Barnaba ayaqlarının tozunu onların üstünə çırpıb Konyaya getdi. Şagirdlər isə Müqəddəs Ruhla dolmuşdu; onları sevinc bürümüşdü.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 100, 2. 3. 5**

**N: Biz Rəbbin xalqıyıq, otlağında otardığı sürüyük.**

Ey bütün dünya, cuşa gəlib Rəbbə nida edin, sevinclə Rəbbə qulluq edin,
mədh oxuyaraq Onun hüzuruna gəlin!
Rəbb Allahdır, siz bunu bilin, O bizi yaradıb,
biz Ona aidik, xalqıyıq, otlağında otardığı sürüyük.
Rəbb nə yaxşıdır, məhəbbəti əbədidir,
sədaqəti nəsillərdən-nəslə çatır!

**Vəhy kitabından sözlər** *Vəhy 7, 9.14b-17*

Mən, Yəhya, bundan sonra baxıb gördüm ki, hər millətdən, hər tayfadan, hər xalqdan və hər dildən olan, heç kəsin saya bilməyəcəyi böyük bir kütlə taxtın və Quzunun hüzurunda dayanıb. Onlar ağ xalat geyinib, əllərində xurma budaqları tutublar. «Bunlar böyük əziyyətdən keçib gələnlərdir. Onlar öz xalatlarını yuyub Quzunun qanı ilə ağartdılar. Buna görə də Onlar Allahın taxtının önündədir, gecə-gündüz məbədində Ona ibadət edirlər. Taxtda Oturan da onların üzərində məskən salacaq. Onlar bir daha nə ac, nə də susuz qalacaq, günəş və qızmar isti onları vurmayacaq. Çünki taxtın ortasında olan Quzu onların Çobanı olacaq, onları həyat suyunun qaynaqlarına aparacaq, Allah onların bütün göz yaşlarını siləcək».
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Yəh 10, 27*
İsa Məsih belə dedi: Quzularım səsimi eşidir,
Mən də onları tanıyıram və Mənim ardımca gəlirlər.
**Alleluya!**

## † İncil †

*Yəh 10, 27-30*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
İsa dedi: Quzularım səsimi eşidir, Mən də onları tanıyıram və Mənim ardımca gəlirlər. Mən onlara əbədi həyat verirəm. Onlar heç vaxt həlak olmayacaq və heç kim onları əlimdən qapmayacaq. Atam Mənə nə veribsə, her şeydən üstündür. Onları heç kim Atanın əlindən qapa bilməz. Mən və Ata birik».
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 5-ci Rəbb günü Pasxa dövründə - C ili

## Həvarilərin İşləri kitabından sözlər
*Həv 14, 21-27*

Paulla Barnaba daha sonra Listraya, Konyaya və Pisidiyalı Antakyaya qayıtdı. Şagirdlərini ruhən möhkəmləndirdilər və imanda dönməz olsunlar deyə onları həvəsləndirdilər və dedilər: «Allahın səltənətinə çoxlu çətinliklərdən keçib girməliyik». İmanlılar üçün hər cəmiyyətdə ağsaqqallar seçərək dua və orucla onları inandıqları Rəbbə əmanət etdilər. Pisidiya bölgəsindən keçərək Pamfiliyaya gəldilər. Pergedə Kəlamı yayandan sonra Antalyaya getdilər. Oradan gəmi ilə Suriyadakı Antakyaya qayıtdılar. Onların yerinə yetirəcəkləri xidmət üçün burada Allahın lütfünə əmanət edilmişdilər. Oraya çatanda cəmiyyəti bir yerə yığıb Allahın onlar vasitəsilə nə etdiyini, Yəhudi olmayan millətlərə iman qapısını necə açdığını söylədilər.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

## Zəbur 145, 8-9. 10-11. 12-13b

**N: Ey Padşahım olan Allahım, Səni yüksəldəcəyəm,**
**İsminə sonsuza qədər alqış edəcəyəm.**

Rəbb lütfkar və rəhmlidir, hədsiz səbirli və bol məhəbbətlidir.
Rəbb hamıya xeyirxahlıq edər, yaratdıqlarının hər birinə mərhəmət göstərər.
Ya Rəbb, bütün yaratdıqların Sənə şükür edəcək, möminlərin Sənə alqış edəcək.
Padşahlığının əzəmətindən deyəcəklər, Qüdrətindən danışacaqlar.
Qoy bəşər övladları Sənin qüdrətini, Padşahlığının izzətini, əzəmətini bilsin.
Sənin padşahlığın əbədi padşahlıqdır, Səltənətin nəsildən-nəslə qədər uzanır.

## Vəhy kitabından sözlər
*Vəhy 21, 1-5*

Mən, Yəhya, yeni bir göy və yeni bir yer gördüm. Çünki əvvəlki yerlə əvvəlki göy keçib getmişdi, dəniz də artıq yox idi. Mən müqəddəs şəhərin – yeni Yerusəlimin göydən, Allahın yanından endiyini gördüm. Şəhər öz bəyi üçün bəzədilmiş gəlin kimi hazırlanmışdı. Taxtdan belə deyən uca bir səs eşitdim: «Budur, Allahın məskəni insanların arasındadır. Allah onlarla birgə məskən salacaq; onlar Onun xalqı olacaq, Allah Özü onların Allahı olaraq aralarında yaşayacaq. Allah onların bütün göz yaşlarını siləcək. Artıq ölüm olmayacaq. Yas, nalə və ağrı bir daha olmayacaq. Çünki əvvəlki şeylər keçib getdi». Taxtda Oturan dedi: «Budur, Mən hər şeyi yenidən qururam». Yenə dedi: «Yaz, çünki bu sözlər etibarli və həqiqidir».
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

## Alleluya!
*Yəh 13, 34*

İsa Məsih belə dedi: “Sizə yeni bir əmr verirəm: bir-birinizi sevin,

Mən sizi sevdiyim kimi siz də bir-birinizi sevin”.
**Alleluya!**

## † İncil †

*Yəh 13, 31-35*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**

Yəhuda İskaryot çıxandan sonra İsa dedi: «İndi Bəşər Oğlu izzətləndi və Allah da Onda izzətləndi. İndi ki Allah Onda izzətləndi, Allah da Onu Özündə izzətləndirəcək, tezliklə izzətləndirəcək. Ey övladlarım! Az bir müddət də sizinlə olacağam. Siz Məni axtaracaqsınız. Yəhudilərə “Mənim getdiyim yerə siz gələ bilməyəcəksiniz” dediyim kimi indi də bunu sizə söyləyirəm. Sizə yeni bir əmr verirəm: bir-birinizi sevin, Mən sizi sevdiyim kimi siz də bir-birinizi sevin. Əgər bir-birinizə məhəbbətiniz olsa, bütün insanlar biləcək ki, siz Mənim şagirdlərimsiniz».
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 6-cı Rəbb günü Pasxa dövründə - C ili

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 15, 1-2. 22-29*

Yəhudeyadan gələn bəzi adamlar Antakyadakı qardaşlara belə təlim öyrədirdi: «Əgər siz Musanın qoyduğu adətə görə sünnət olmasanız, xilas ola bilməzsiniz». Paul və Barnaba bu adamlarla çox çəkişib mübahisə etdi. Nəhayət qərara alındı ki, Paulla Barnaba digər qardaşlardan bir neçəsini götürərək Yerusəlimə gedib bu sual ətrafında həvarilər və ağsaqqallarla görüşsünlər. Buna görə bütün imanlılar cəmiyyəti ilə həvarilər və ağsaqqallar razılığa gəldi ki, öz aralarından adamlar seçib Paul və Barnaba ilə birlikdə Antakyaya göndərsin. İmanlılar arasında başçılıq edən Barsaba adlanan Yəhuda ilə Silanı seçdilər. Onların əlinə bu məktubu verib göndərdilər: «İmanlı qardaşlarınız olan biz həvarilərlə ağsaqqallardan Antakya, Suriya və Kilikiyada yaşayan, Yəhudi olmayan qardaşlara salam! Eşitdik ki, bizlərdən bəzi adamlar yanınıza gəlib. Sözləri ilə sizi çaş-baş salaraq düşüncələrinizi qarışdırıblar. Lakin bunu onlara biz tapşırmamışdıq. Ona görə də aramızdan bəzi adamları seçib əziz qardaşlarımız Barnaba və Paulla bərabər sizin yanınıza göndərməyi yekdilliklə qərara aldıq. Hər ikisi Rəbbimiz İsa Məsihin uğrunda canını təhlükəyə atıb. Qərarımıza müvafiq sizin yanınıza Yəhuda ilə Silanı göndəririk ki, eyni şeyləri sizə şifahi olaraq şərh etsin. Müqəddəs Ruh və biz vacib olan bu qaydalardan başqa sizin üstünüzə heç nəyi yükləməməyi lazım bildik: Bütlərə təqdim olunub murdarlanan qurbanların ətini, boğularaq öldürülən heyvanların ətini və qan yeməsinlər; əxlaqsızlıqdan da özlərini uzaq saxlasınlar. Bunlardan qaçsanız, düz edərsiniz. Salamat qalın».
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 67, 1-2. 3-4a. 5+7**

**N: Ey Allah, Sənə bütün xalqlar şükür etsin.**

Lütf edib, ey Allah, bizə xeyir-dua ver, Üzün üstümüzə nur saçsın.
Qoy yer üzündə Sənin yolun, bütün millətlər arasında qurtuluşun tanınsın.
Ey Allah, Sənə xalqlar şükür etsin, qoy Sənə bütün xalqlar şükür etsin.
Qoy ümmətlər sevinclə Səni mədh etsin, çünki xalqlara insafla hökm edirsən.
Ey Allah, Sənə xalqlar şükür etsin, qoy Sənə bütün xalqlar şükür etsin.
Allah bizə xeyir-dua verib. Qoy dünyanın ucqarları Ondan qorxsun!

**Vəhy kitabından sözlər** *Vəhy 21, 10-14.22-23*

O məni Ruhun təsiri ilə böyük və uca bir dağın başına apardı. Oradan mənə göydən, Allahın yanından enən müqəddəsi şəhəri, Yerusəlimi göstərdi. Allahın ehtişamı orada idi; oradakı işıq ən qiymətli daş, büllur yəşəm daşı kimi parıldayırdı. Oranın böyük və uca divarı, on iki darvazası var idi. Darvazalarda on

iki mələk durmuşdu. Darvazaların üstündə Israil övladlarının on iki qəbiləsinin adı həkk olunmuşdu. Şərqdə üç darvaza, şimalda üç darvaza, cənubda üç darvaza və qərbdə üç darvaza var idi. Şəhər divarının on iki təməli var idi və onların üstündə Quzunun on iki həvarisinin adları var idi. Mən orada məbəd görmədim, çünki oranın məbədi Külli-İxtiyar Rəbb Allah və Quzudur. Şəhərin işıqlanması üçün nə günəşə, nə də aya ehtiyacı var, çünki Allahın ehtişamı oranı işıqlandırır,
Quzu da oranın çırağıdır.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Yəh 14, 23*
İsa belə dedi: "Kim Məni sevsə, sözümə əməl edər,
Atam da onu sevər və Biz onun yanına gəlib onunla məskən salarıq".
**Alleluya!**

## † İncil †

*Yəh 14, 23-29*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
İsa həvarilərinə cavab verdi: «Kim Məni sevsə, sözümə əməl edər, Atam da onu sevər və Biz onun yanına gəlib onunla məskən salarıq. Məni sevməyənsə sözlərimə əməl etməz. Eşitdiyiniz söz Məndən yox, Məni göndərən Atadan gəlir.
Hələ yanınızda olarkən sizə bu sözləri söylədim. Lakin Mənim adımla Atanın göndərəcəyi Vəsatətçi – Müqəddəs Ruh hər şeyi sizə öyrədəcək və söylədiyim bütün sözləri yadınıza salacaq. Aranızda sülh qoyub gedirəm, Öz sülhümü sizə verirəm. Mən onu sizə dünyanın verdiyi kimi vermirəm. Qoy ürəyiniz narahat olmasın və qorxmayın. Sizə "indi gedirəm, sonra yenə yanınıza gələcəyəm" söylədiyimi eşitdiniz. Əgər Məni sevsəydiniz, Atanın yanına gedəcəyimə sevinərdiniz, çünki Ata Məndən üstündür. Bunu indi öncədən sizə söylədim ki, baş verən zaman Mənə inanasınız.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# 7-ci Rəbb günü Pasxa dövründə - C ili

**Həvarilərin İşləri kitabından sözlər** *Həv 7, 55-60*

Müqəddəs Ruhla dolan Stefan isə gözlərini göyə dikib Allahın ehtişamını və Allahın sağında dayanan İsanı gördü. O dedi: «Baxın, mən göylərin açıldığını və Bəşər Oğlunun Allahın sağında dayandığını görürəm». Onlar qulaqlarını tutub haray qopardılar və hamısı birlikdə Stefanın üstünə hücum çəkdi. Onu şəhərdən kənara çıxarıb daşqalaq etdilər. Stefanın əleyhinə şahidlik edənlər öz üst geyimlərini Şaul adlı bir gəncin ayaqları altına qoydu. Stefan üstünə yağan daşlar altında belə yalvarırdı: «Ya Rəbb İsa, ruhumu qəbul et». Sonra diz çöküb bərkdən nida etdi: «Ya Rəbb, bunu onlara günah sayma». Bunu deyəndən sonra gözlərini həmişəlik yumdu.

**Bu Allahın Kəlamıdır. *  M: Allaha şükürlər olsun.**

**Zəbur 97, 1+2b. 6+7c. 9**

**N:  Rəbb hökmranlıq edir,**
**O, bütün yer üzərində nə qədər yüksəkdir!**

Rəbb hökmranlıq edir, qoy yer üzü şadlıq etsin, qoy bütün adalar sevinsin.
Salehliklə ədalət taxtının təməlidir.
Göylər salehliyini bəyan edər, əzəmətini bütün xalqlar görər.
Ey bütün mələklər, Rəbbə səcdə edin!
Çünki bütün yer üzərində, Ya Rəbb, Haqq-Taala Sənsən!
Bütün allahların üzərində Sən nə qədər yüksəksən!

**Vəhy kitabından sözlər** *Vəhy 22, 12-14.16-17.20*

Mən Yəhya bunları eşitdim: «Budur, tezliklə gəlirəm. Verəcəyim mükafat Mənimlədir və hər kəsə öz əməlinə görə əvəz verəcəyəm. Alfa və Omeqa, Birinci və Sonuncu, Başlanğıc və Axır Mənəm!» Əmrlərinə əməl edənlər nə bəxtiyardır! Bununla da həyat ağacından yeməyə ixtiyarları olacaq, darvazalardan keçib şəhərə girəcəklər. Yenə deyir: «Mən İsa Öz mələyimi göndərdim ki, cəmiyyətlərə aid olan bu şəhadəti sizə versin. Mən Davudun Kökü və Nəsli, parlaq Dan Ulduzuyam». Ruh da, gəlin də deyir: «Gəl!» Qoy eşidən də desin: «Gəl!» Susayan qoy gəlsin, arzu edən həyat suyunu müftə götürsün. Bunlara şəhadət edən deyir:
«Bəli, tezliklə gəlirəm!» Amin. Gəl, ya Rəbb İsa!

Bu Allahın Kəlamıdır. *  **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Yəh 14, 18*

İsa Məsih belə deyir: "Sizi yetim qoymaram, yanınıza gələcəyəm."

**Alleluya!**

# † İncil †

*Yəh 14, 23-29*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa dua etdi: Yalnız onlar üçün deyil, onların sözü ilə Mənə iman edənlər üçün də xahiş edirəm ki, hamısı bir olsun. Ey Ata, Sən Məndə, Mən də Səndə olduğum kimi onlar da Bizdə olsun ki, dünya Məni Sən göndərdiyinə iman etsin. Mənə verdiyin izzəti Mən də onlara verdim ki, Biz bir olduğumuz kimi onlar da bir olsun. Mən onlarda, Sən də Məndə olmaqla bütünlüklə bir olsunlar ki, dünya Mənim Sən tərəfindən göndərildiyimi, Məni sevdiyin kimi onları da sevdiyini bilsin. Ey Ata, istəyirəm ki, Mənə verdiyin kəslər də Mənim olduğum yerdə Mənimlə birlikdə olub Mənim izzətimi görsünlər. Bu izzəti dünyanın təməli qoyulandan əvvəl Məni sevdiyin üçün Mənə verdin. Ey saleh Ata, dünya Səni tanımadı, Mən isə Səni tanıdım, bunlar da Mənim Sən tərəfindən göndərildiyimi bildi. Sənin adını onlara bildirdim və yenə bildirəcəyəm ki, Sənin Mənə bəslədiyin məhəbbət onlarda olsun, Mən də onlarda olum».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Müqəddəs Üçlük Bayramı - C ili

**Süleymanın Məsəlləri kitabından sözlər** *Sül.Məs. 8, 22-31*

Rəbb Öz yolunun başlanğıcında, hər işindən əvvəl mənə malik oldu. Yaradılışın əzəlindən, dünya yaranmazdan əvvəl mən var idim. Dərin sular olmazdan əvvəl, bol sulu çeşmələr olmazdan əvvəl doğulmuşam. Dağlar yaradılmazdan əvvəl, təpələr mövcud olmazdan əvvəl təvəllüd tapmışam. Rəbb dünyanı, çölü-düzü, torpaqları yaradanda, göyləri yaradanda, dərinliyin üzü üstündə bir dairə çəkəndə, buludları yuxarıda yerləşdirəndə, dərinlikdə bulaqları bağlayanda,
sular əmrindən çıxmasın deyə dənizə sədd çəkəndə, yerin bünövrələrini təyin edəndə Rəbbin yanında memar idim. Hər gün fərəhlənirdim, hüzurunda həmişə sevinirdim. Yaratdığı aləmə görə sevinirdim, bəşər övladlarına görə fərəhlənirdim.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 8, 4-9**

**N: Ey Rəbbimiz, bütün dünyada adın nə qədər ucadır!**

Əllərinin işi olan göyləri, Öz yerinə düzdüyün ay və ulduzları gördükdə deyirəm:
«İnsan kimdir ki, onun haqqında düşünürsən?
Bəşər oğlu kimdir ki, onun qayğısını çəkirsən?»

Onu mələklərdən bir az aşağı yaratdın, İzzət və əzəmət tacını onun başına qoydun,
əllərinin işləri üzərində onu hökmdar etdin.
Hər şeyi onun ayağının altına qoydun:

Bütün sürü və naxırları, çöldə yaşayan heyvanları,
göydəki quşları, dənizdəki balıqları, dəryalarda üzənlərin hamısını.

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rom 5, 1-5*

Beləliklə, imana əsasən saleh sayıldığımız üçün Rəbbimiz İsa Məsih vasitəsilə Allahla barışmış oluruq. Elə Məsihin vasitəsilə də daxilində qaldığımız lütfə imanla nail olduq və Allahın izzətinə ümid bağlamağımızla fəxr edirik. Yalnız bununla deyil, çəkdiyimiz əziyyətlərlə də fəxr edirik, çünki bilirik ki, əziyyətdən dözüm, dözümdən Allaha xoş gəlmə, Allaha xoş gəlmədən ümid yaranır. Ümidimiz də boşa çıxmır, çünki Allah məhəbbəti bizə verilən Müqəddəs Ruh vasitəsilə ürəklərimizə tökülüb.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!**
Ataya, Oğula və Müqəddəs Ruha şan və mədhlər olsun! Əzəldən,
indi və əbədiyyən var olan, uca və yeganə olan Allaha şan və mədhlər olsun!
**Alleluya!**

## † İncil †

*Yəh 16, 13-15*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
İsa həvarilərinə dedi: “Hələ sizə söylənəcək çoxlu sözüm var, amma indi bunlar ağlınıza sığmaz. Lakin O – Həqiqət Ruhu gələndə sizə hər həqiqətə yol göstərəcək. Çünki heç nəyi özbaşına söyləməyəcək, nə eşidirsə, onu söyləyəcək və gələcəyi sizə bildirəcək. O Məni izzətləndirəcək, çünki Mənə məxsus olandan götürəcək və sizə bildirəcək. Atanın hər nəyi varsa, Mənimdir. Buna görə də
“Mənə məxsus olandan götürəcək və sizə bildirəcək” söylədim.”
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# İsa Məsihin bədəni və qanı - C ili Evxaristiya bayramı

**Yaradılış kitabından sözlər** *Yar 14, 18-20*

Onda Salem padşahı Melkisedeq çörək və şərab gətirdi.
O, Allah-Taalanın kahini idi. Melkisedeq İbrama xeyir-dua verib dedi:
«Göy və yeri yaradan Allah-Taala İbrama xeyir-dua versin.
Düşmənlərini sənə təslim edən Allah-Taalaya alqış olsun».
İbram bütün qənimətin onda birini Melkisedeqə verdi.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 110 (109) 1-4**

**Rəbbimiz İsa, sən indi və əbədiyyən Xilaskarımızsan.**

Rəbb mənim Ağama dedi:
«Mən düşmənlərini ayaqlarının altına kətil kimi salanadək sağımda otur».
Rəbb Siondan Sənin qüdrətli əsanı göndərəcək,
Düşmənlərinin üzərində sənə hökmranlıq verəcək.
Döyüşəcəyin gün xalqın könüllü olaraq sənə qoşulacaq,
Gənclərin səhər şehi kimi müqəddəs libasını geyib yanına gələcək.
Rəbb and içdi, qərarını dəyişməz:
«Sən Melkisedeq vəzifəli əbədi bir kahinsən».

**Müqəddəs Paulun Korinflilərə 1-ci məktubundan sözlər** *1Kor 11, 23-26*

Çünki sizə çatdırdığım bu xəbəri Rəbbin Özündən qəbul etmişəm: Rəbb İsa Ona xəyanət edildiyi gecə əlinə çörək götürdü, şükür edib onu böldü və dedi: «Bu Mənim sizin üçün verilən bədənimdir. Bunu Məni xatırlamaq üçün edin». Eləcə də axşam yeməyindən sonra kasanı götürüb dedi: «Bu kasa Mənim qanımla bağladığım Yeni Əhddir. Bunu hər dəfə içəndə Məni xatırlamaq üçün edin». Çünki hər dəfə bu çörəyi yeyəndə və bu kasadan içəndə siz Rəbbin gəlişinədək Onun ölümünü bəyan edirsiniz.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

***İlahi***

***Budur, mələklərin çörəyi! O yoldakı insanların çörəyidir.***
***Allahın övladlarının gerçək çörəyidir.***
***O qurban edilən İshaqla, qurban edilən Pasxa quzusu ilə çöldəki***
***“Manna”ilə əvvəlcədən təyin edilmişdir.***

***Ey yaxşı Çoban, gerçək çörəyimiz, ey İsa Məsih bizi qoru.***
***Həyat ölkəsində bizi sonsuz xoşbəxtliyə qovuşdur.***
***Sən ki, hər şeyi bilirsən və hər şey edə bilərsən ki,***
***yer üzündə bizi bəsləyirsən,***
***göylərdəki ziyarətə bizi götür***
***və müqəddəslərin yanında bizə mirasını ver.***
***Amin.***

**Alleluya!** *Yəh 6, 51*
İsa Məsih belə deyir: "Göydən enmiş, həyat verən çörək Mənəm.
Əgər bir kəs bu çörəkdən yesə, əbədi yaşayar."
**Alleluya!**

## † İncil †

*Lk 9, 11-17*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
Amma camaat bu barədə xəbər tutub Onun ardınca düşdü. İsa onları xoş qarşıladı, onlara Allahın Padşahlığından danışdı və şəfaya möhtac olanları sağaltdı.
Artıq gün batırdı. On İki şagird İsanın yanına gəlib Ona dedi: «Camaatı burax, qoy ətrafdakı oba və kəndlərə gedib gecələsinlər və bir şey alıb yesinlər.
Axı biz burada çöllük yerdəyik». Amma İsa onlara dedi: «Onlara yeməyi siz verin». Şagirdlər Ona cavab verdilər: «Beş çörək və iki balıqdan başqa bir şeyimiz yoxdur. Bəlkə biz gedib bütün bu camaat üçün bir şey alaq?»
Orada beş minə yaxın kişi var idi. İsa şagirdlərinə dedi:
«Onları dəstə-dəstə, əlli-əlli oturdun».
Şagirdlər də eləcə edib hamını oturtdular. İsa beş çörəyi və iki balığı götürüb göyə baxaraq şükür duası etdi. Sonra onları bölüb şagirdlərə verdi ki, camaata paylasınlar. Hamı yeyib-doydu. Artıq qalan hissələr on iki zənbilə yığıldı.
K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Ümumi Bayramlar

**Yan 31 — St. don Bosco**
**Feb 2 – Presentation**
**Mar 19 – St. Joseph**
**Mar 25 – Annunciation**
**May 24 – Məryəm Məsihçilərin Köməkçisi**
**June 24 – Birth of St. John**
**June 29 - Sts. Peter & Paul**
**Aug 6 – Transfiguration**
**Aug 15 – Assumption**
**Sept 14 – Triumph of Cross**
**Nov 1 – Bütün Müqəddəslər**
**Nov 2 – Mərhumların xatırlanması**
**Dec 8 – Məryəmin Məsum Döllənməsi**

# Müq. don Bosko – 31 yan (ABC)

**Peyğəmbər Yezekelin kitabından sözlər** *Yez 34:11-16*

Xudavənd Rəbb belə deyir: “Mən Özüm qoyunlarımı soruşub axtaracağam. Dağılışmış qoyunlarının arasında olan bir çoban sürüsünü necə yoxlayırsa, Mən də qoyunlarımı eləcə yoxlayacağam. Buludlu və qaranlıq bir gündə ətrafa səpələndikləri hər yerdən onları qurtaracağam. Onları xalqların arasından çıxaracağam, ölkələrdən toplayıb öz torpaqlarına gətirəcəyəm. İsrail dağlarında, vadilərdə, ölkənin bütün məskuni yerlərində onları otaracağam. Onları gözəl bir otlaqda otaracağam. Yaylaqları İsrailin uca dağları üzərində olacaq. Orada gözəl bir yaylaqda yatacaqlar. İsrail dağları üzərində olan sıx otlaqda otlayacaqlar. Sürümü Mən Özüm otaracağam, onları Mən Özüm yatıracağam” Xudavənd Rəbb belə bəyan edir. “İtəni axtaracaq, azanı geri qaytaracaq, yaralı olana sarğı qoyacaq, xəstə olana qüvvət verəcək, ancaq harınlayanları və güclü olanları həlak edəcəyəm. Mən qoyunlarımı ədalətlə otaracağam”.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**İlahi** *(Yer 31:710.20, Zəb 23)*

**Rəbb mənim Çobanımdır, möhtac olmaram.**

«Yaqubu sevinclə tərənnüm edin, *
Millətlərin başçısı üçün səs qaldırın!
Ucadan həmd edib bildirin! *
“Ya Rəbb, xalqını, İsraildən sağ qalanları xilas et!” deyin.

Axar sular boyunca büdrəməyəcəkləri *
Düz yolla aparacağam.
Çünki Mən İsrailin atasıyam, *
Efrayim də ilk oğlumdur.

Ey millətlər, Rəbbin sözünü eşidin, *
Uzaqlardakı adalarda elan edib deyin:
“İsraili səpələyən onu bir yerə toplayacaq, *
Sürüsünü qoruyan çoban kimi Onu qoruyacaq”.

Efrayim əziz oğlum deyilmi? *
Mənim razı olduğum övlad deyilmi?
Hər dəfə əleyhinə danışanda yenə onu yadıma salıram. *
Ürəyim onun üçün sızlayır, ona hədsiz rəhmim gəlir»

**Müqəddəs Paulun Filipililərə məktubundan sözlər** *Fil 4, 4-9*

Rəbdə həmişə sevinin! Bir də deyirəm: sevinin! Qoy sizin mülayimliyiniz bütün insanlara məlum olsun. Rəbb yaxındır. Heç nəyin qayğısını çəkməyin, amma hər barədə xahişlərinizi Allaha dualarla, yalvarışlarla, şükür edə-edə bildirin. Onda Allahın ağlagəlməz sülhü ürəklərinizi və düşüncələrinizi Məsih İsada qoruyacaq. Nəhayət, qardaşlar, doğru, ləyaqətli, saleh, pak, cazibəli, etibarlı nə varsa, əgər əla və tərifə layiq nə varsa, bunları düşünün. Məndən öyrəndiyiniz, qəbul etdiyiniz, eşitdiyiniz və məndə gördüyünüz nə varsa, bunları həyata keçirin. Onda sülh qaynağı olan Allah sizinlə olacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya! Alleluya!**

Rəbb belə deyir: «Sizə nümunə göstərdim ki, Mənim sizə etdiyimi siz də bir-birinizə edəsiniz.»

**Alleluya! Alleluya!**

# † İncil †

*Mt 18:1-6. 10*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**

K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *

**M: Şan-şərəf Rəbbindir.**

Həmin vaxt şagirdlər İsanın yanına gəlib dedilər: «Səmavi Padşahlıqda ən böyük kimdir?» İsa yanına bir balaca uşaq çağırıb onu şagirdlərin arasına qoydu. O dedi: «Sizə doğrusunu deyirəm: əgər siz yolunuzdan dönüb uşaqlar kimi olmasanız, Səmavi Padşahlığa əsla daxil ola bilməzsiniz. Beləliklə, kim bu uşaq kimi özünü aşağı tutarsa, Səmavi Padşahlıqda ən böyük odur. Kim Mənim adımla belə bir uşağı qəbul edərsə, Məni qəbul edər. Amma kim Mənə iman edən bu kiçiklərdən birini pis yola çəkərsə, öz boynuna böyük bir dəyirman daşı asıb dənizin dibinə atılaraq boğulmaq onun üçün daha yaxşı olar. Bu kiçiklərdən birinə belə, xor baxmaqdan çəkinin. Çünki sizə deyirəm: onların səmadakı mələkləri göylərdə olan Atamın üzünü daima görür.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Məryəm Məsihçilərin Köməkçisi – 24. may (ABC)

**Vəhy kitabından sözlər** *Vəhy 12, 1.3a7-12a 17*

Göydə böyük bir əlamət zahir oldu: günəşi əyninə geyinmiş, ayaqları altında ay və başında on iki ulduzlu tac olan bir qadın göründü. O hamilə idi və doğmaq üzrə idi, ağrı və iztirab çəkərək qışqırırdı. Göydə başqa bir əlamət zahir oldu: yeddi başlı, on buynuzlu, başlarının üstündə də yeddi kiçik tac olan böyük və od rəngində əjdaha göründü.
Göydə döyüş oldu. Mikael və onun mələkləri əjdaha ilə döyüşdü. Əjdaha və onun mələkləri də onlarla döyüşdü, amma gücləri çatmadı. Göydə artıq onlara yer qalmadı. O böyük əjdaha – iblis və Şeytan deyilən, bütün dünyanı aldadan qədim ilan yer üzünə atıldı, mələkləri də onunla birgə atıldı. Mən göydə uca bir səsin belə dediyini eşitdim: «İndi Allahımızın xilası, gücü, Padşahlığı və onun Məsihinin hakimiyyəti həyata keçdi. Çünki bacı-qardaşlarımızı Allahımızın önündə gecə-gündüz təqsirləndirən ittihamçı kənara atıldı. Onlar Quzunun qanı və öz şəhadət sözləri vasitəsilə ona qalib gəldilər. Hətta ölümlə üzbəüz olanda da öz canlarını sevmədilər.
Buna görə də, ey göylər və orada məskən salanlar, bayram edin!
Onda əjdaha qadına qəzəbləndi, onun nəslindən Allahın əmrlərinə riayət edən və İsa barədə şəhadət edən başqaları ilə döyüşmək üçün getdi və dəniz sahilinin qumları üzərində dayandı.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Vəhy 15, 3b-4**

**Şən ilahi ilə Rəbbi izzətləndirək**

Ey Külli-İxtiyar Rəbb Allah,
Sənin işlərin böyük və heyrətlidir.
Ey millətlərin Padşahı,
Sənin yolların ədalətli və həqiqidir.

Ya Rəbb, kim Səndən qorxmaz,
Kim Sənin adını izzətləndirməz?
Çünki yalnız Sən müqəddəssən.

Bütün millətlər gəlib
Sənin önündə səcdə edəcək,
Çünki Sənin ədalətli hökmlərin aşkar oldu.

**Müqəddəs Paulun Qalatiyalılara məktubundan sözlər** *Qal 4,4-7*
Lakin vaxt tamam olanda Allah qadından, Qanun altında doğulan Öz Oğlunu göndərdi ki, qanun altında olanları satın alsın və biz övladlığa götürülək.
Övladlar olduğunuz üçün Allah Öz Oğlunun «Abba, Ata!» deyərək nida edən Ruhunu ürəklərimizə göndərdi.
Buna görə də sən artıq kölə deyil, övladsan.
Əgər övladsansa, həmçinin Allahın təyin etdiyi varissən.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya! Alleluya!**

**Alleluya! Alleluya!**

## † İncil †

*Yəh 2,1-11*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Yəhyanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şəraf Rəbbindir.**
Bunun üçüncü günü Qalileyanın Qana kəndində toy oldu. İsanın anası orada idi.
İsa ilə şagirdləri də toya çağırılmışdı.
Şərab qurtaranda anası İsaya dedi: «Şərabları qalmadı».
İsa dedi: «Ana, məndən nə istəyirsən? Mənim vaxtım hələ çatmayıb».
Anası xidmətçilərə dedi: «Sizə nə desə, edin».
Yəhudilərin paklanma mərasimi üçün orada hər biri iki-üç ölçü su tuta bilən altı daş küp var idi.
İsa xidmətçilərə dedi: «Küpləri su ilə doldurun». Onları ağzına qədər doldurdular.
O, xidmətçilərə dedi: «İndi bir az götürüb toyağasına aparın». Onlar da apardı.
Toyağası şəraba çevrilmiş suyun dadına baxdı. O bunun haradan gətirildiyini bilmirdi, bunu yalnız suyu götürən xidmətçilər bilirdi. Toyağası bəyi çağırıb ona dedi:
«Hər kəs əvvəlcə əla şərabı, çox içiləndən sonra isə adi şərabı təqdim edir.
Amma sən əla şərabı indiyə saxlamısan».
İsa Qalileyanın Qana kəndində bu ilk əlamətini göstərdi və izzətini üzə çıxardı.
Şagirdləri də Ona iman etdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Bakirə Məryəmin Elizavete baş çəkməsi bayramı
31. may (ABC)

**variant 1**

**Sefanya peğəmbər kitabından sözlər** *Sof 3,14-18*

Ey Sion qızı, tərənnüm elə, ey İsrail, uca səslə çığır!
Ey Yerusəlim qızı, bütün qəlbinlə sevin və fərəhlən!
Rəbb sənin cəzanı ləğv etdi, düşmənlərini qovdu!
İsrailin padşahı Rəbb səninlədir, artıq pislikdən qorxmayacaqsan!
O gün Yerusəlimə deyiləcək: «Qorxma, ey Sion, qoy əllərin taqətdən düşməsin!
Allahın Rəbb, qüvvətli Qurtarıcın səninlədir! O sənin üçün sevinib şadlanacaq,
səni məhəbbəti ilə yeniləşdirəcək, sənin üçün tərənnümlə coşacaq!
Bayram gününü qeyd edən kimi Mən sənin üzərindən bəlaları götürəcəyəm ki,
Onlara görə xəcalətli olmayasan.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**variant 2**

**Müqəddəs Paulun Romalılara məktubundan sözlər** *Rim 12, 9-16b*

Qoy məhəbbətiniz riyasız olsun. Pislikdən ikrah edin, yaxşılığa bağlanın. Qardaşlıq sevgisi ilə bir-birinizi sevin. Hörmət göstərməkdə bir-birinizi qabaqlayın. Səyiniz azalmasın, ruhunuz alovlu olsun. Rəbbə qulluq edin. Ümidinizlə sevinin. Əziyyətdə dözümlü olun. Dayanmadan dua edin. Ehtiyac içində olan müqəddəslərə yardım etməyə şərik olun. Qonaqpərvər olmağa səy göstərin. Sizi təqib edənlərə xeyir-dua verin; lənət yox, xeyir-dua verin. Sevinənlərlə sevinin, ağlayanlarla ağlayın. Bir-birinizlə həmfikir olun; təkəbbürlü olmayın, məzlumlarla dostluq edin. Özünüzü ağıllı saymayın.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur - Yeş 12**
**N: Aranızdakı İsrailin Müqəddəsi böyükdür**

Allah xilasımdır, *
Ona güvənəcəyəm və qorxmayacağam,
çünki Rəbb Allahımız qüvvətim, məzmurumdur, *
O mənə xilas verdi!
Sevinclə xilas mənbələrindən *
su çəkəcəksiniz. **N:**

**N: Aranızdakı İsrailin Müqəddəsi böyükdür**

O gün belə deyəcəksiniz: *
«Rəbbə şükür edin, Onun adını çağırın,
xalqlar arasında Onun işlərini bəyan edin, *
Onun adının ucalığını elan edin. **N:**

Rəbbi tərənnüm edin, +
çünki O, möhtəşəm işlər gördü, *
qoy bütün dünya bunu bilsin!
Ey Sion sakinləri, səsinizi ucaldın, +
sevinclə çığırın, *
çünki aranızdakı İsrailin Müqəddəsi böyükdür». **N:**

**Alleluya! Alleluya!**
Rəbbin ona dediyi sözlərin yerinə yetəcəyinə inanan qadın nə bəxtiyardır!
**Alleluya! Alleluya!**

# † İncil †

*Lk 1,39-56*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**
O vaxt Məryəm tələsik qalxıb Yəhudanın dağlıq bölgəsindəki bir şəhərə yollandı. O, Zəkəriyyənin evinə girib Elizaveti salamladı. Elizavet Məryəmin salamını eşidəndə bətnindəki körpə tərpəndi. Elizavet də Müqəddəs Ruhla dolub uca səslə çığırdı: «Sən qadınlar arasında xeyir-dualısan, sənin bətninin bəhrəsi də xeyir-dualıdır! Bu necə oldu ki, Rəbbimin anası yanıma gəlib? Bax sənin salamının səsi qulağıma çatanda bətnimdəki körpə sevinclə tərpəndi. Rəbbin ona dediyi sözlərin yerinə yetəcəyinə inanan qadın nə bəxtiyardır!».
Məryəm isə dedi:
«Qəlbim Rəbbi ucaldır,
Ruhum Xilaskarım Allaha görə şadlanır,
Çünki O Öz qulunun yazıq halını gördü.
Bundan sonra bütün nəsillər məni bəxtiyar sayacaq,
Çünki Qadir Olan mənim üçün böyük işlər etdi,
Onun adı müqəddəsdir!
Onun mərhəməti də nəsildən-nəslə
Ondan qorxanlara göstərilər.
O, qolu ilə qüdrətli işlər gördü,
Ürəklərində qürurla düşünənləri pərən-pərən saldı.
Hökmdarları taxtlarından endirdi,
Məzlumları yüksəltdi.
Acları nemətlərlə doydurdu,
Varlıları isə əliboş yola saldı.
*x9Rəbb gulu İsrailin imdadına çatdı,
Ata-babalarımıza vəd etdiyi kimi
İbrahimə və onun nəslinə əbədilik
Mərhəmət göstərməyi yada saldı».
Məryəm Elizavetin yanında üç aya yaxın qalıb evinə qayıtdı.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Yəhya vəftizçinin ad günü 31.5.

Yeşaya 49, 1-6
Ey uzaq diyarlar, Məni dinləyin! Ey uzaqda yaşayan ümmətlər, yaxşı qulaq asın! Rəbb məni anadan olandan bəri çağırmışdı, ana bətnindən adımı yadına saldı. Ağzımı iti qılınc kimi etdi, O məni əlinin kölgəsində gizlətdi, O məni iti ox edib Öz oxdanında saxladı. Mənə dedi: «Qulumsan, ey İsrail, Mən səninlə izzətlənəcəyəm». Amma mən dedim: «Mən boş yerə çalışdım, gücümü hədər yerə tükətdim. Rəbb mənə yenə haqq qazandırır, mükafatım Allahımdadır». Rəbb məni qulu etmək üçün ana bətnində mənə quruluş verdi ki, Yaqub nəslini Ona tərəf döndərim, İsraili Onun önünə toplayım. Onun gözündə hörmət qazandım, qüdrətim Allahım oldu. Rəbb indi belə deyir. O deyir: «Yaqub qəbilələrinin bərpası, İsrailin sağ qalanlarının geri qayıtması üçün qulum olmağın kifayət deyil. Səni millətlərə nur edəcəyəm ki, Xilasım dünyanın ən uzaq yerlərinə yayılsın».

Bu Allahın Kəlamıdır. ***  M: Allaha şükürlər olsun.**

Z 139, 1-3. 13-14. 15
**Nəqarat: Chválim ťa, Pane, že som vznikol tak zázračne.**

Ya Rəbb, məni yoxlayaraq tanıdın, oturuşumu-duruşumu Özün bilirsən,
fikirlərimi uzaqdan duyursan.
Getməyimə, yatmağıma nəzarət edirsən, nə yollardan keçdiyimi bilirsən.

Sən mənim daxili üzvlərimi yaratmısan, Mənə ana bətnində quruluş vermisən.
11. Sən məni e’cazkar, əsrarəngiz yolla yaratmısan, Ona görə şükür edirəm. Nə qədər xariqəli işlər görmüsən! Bunu ürəkdən yaxşı dərk edirəm.
Mən gizli bir yerdə yaranarkən, Dünyanın dərin yerində yaranarkən Bədənim Səndən gizli qalmadı.
Veď ty si stvoril moje útroby, *
utkal si ma v živote mojej matky.
Chválim ťa, že si ma utvoril tak zázračne; †
všetky tvoje diela sú hodny obdivu *
a ja to veľmi dobre viem. R.

Moje údy neboli utajené pred tebou, †
keď som vznikal v skrytosti, *
utkávaný v hlbinách zeme. R.

Həv İş. 13, 22-26

**Alleluya! Alleluya!**
Ey körpə, sən Haqq-Taalanın peyğəmbəri adlanacaqsan, çünki Rəbbin önündə gedəcəksən, Onun yolunu hazırlayacaqsan.

**Alleluya! Alleluya!**

Lk 1, 57-66. 80

# MÜQƏDDƏS PETER VƏ PAVEL BAYRAMI 29/06/2014

Həvarilərin kitabından sözlər (Həv. kit. 12, 1-11)
O vaxtlar padşah Hirod cəmiyyətin bəzi üzvlərinə əzab verməyə əl atdı. Yəhyanın qardaşı Yaqubu qılıncdan keçirib edam etdirdi. Bundan Yəhudilərin razı qaldığını görüb üstəlik Peteri də tutdurdu. Bunu Mayasız Çörək bayramı vaxtında etdi. O, Peteri yaxalatdırıb hər birində dörd nəfər olmaqla dörd əsgəri dəstəyə təslim etdi; onu nəzarət altında saxlanmaq şərti ilə həbsxanaya saldırdı. Niyyətində tutmuşdu ki, Pasxa bayramından sonra xalq qarşısında onun məhkəməsini keçirsin. Peter buna görə həbsxanada saxlanırdı. Lakin imanlılar cəmiyyəti ciddi-cəhdlə onun üçün Allaha dua edirdi. Peter Hirodun onu məhkəməsini edəcəyi günün əvvəlki gecəsi iki əsgər arasında bir cüt zəncirə bağlanmış halda yatırdı. Qarovulçular da qapıda dayanıb həbsxananın təhlükəsizliyini qoruyurdu. Qəflətən Rəbbin bir mələyi göründü. Həbsxananın otağı işıqlandı. Mələk Peterin böyrünə vurub onu oyatdı və dedi: «Tez ol, qalx». O andaca Peterin biləklərindəki zəncirlər düşdü. Mələk ona dedi: «Qurşağını bağla, çarığını geyin». Peter belə də etdi. Mələk yenə dedi: «Əbanı geyin, ardımca gəl». Peter onun ardınca düşərək bayıra çıxdı. Amma mələyin etdiyinin həqiqiliyini başa düşmürdü, elə bilirdi ki, bir görüntü görür. Birinci, ikinci qarovulçunun yanından keçərək şəhərə açılan dəmir darvazaya çatdılar. Onların qarşısında darvaza öz-özünə açıldı. Onlar çıxıb küçə uzunu getdi. Birdən mələk Peterdən ayrıldı. O andaca özünə gələn Peter dedi: «Həqiqətən, indi başa düşdüm ki, Rəbb Öz mələyini göndərib. O məni Hirodun əlindən və Yəhudi xalqının mənim üçün etdiyi bu ümiddən qurtardı».
**Bu Allahın Kəlamıdır. * M: Allaha şükürlər olsun.**

Z 34 (34, 2-3. 4-5. 6-7. 8-9 )
Nəqarat: Rəbb məni bütün qorxularımdan qurtardı.

Hər zaman Rəbbə alqış edəcəyəm, Ona daim mənim dilim həmd edəcək. Rəblə könlüm fəxr edir, ey məzlumlar, eşidib sevinin!

Gəlin, mənimlə birgə Rəbbi müqəddəs tutaq, Rəbbin ismini birgə ucaldaq. Rəbbə üz tutdum, O mənə cavab verdi, O hər bir dəhşətdən məni xilas etdi.

Rəbbə baxan nur saçar, üzü qızarmaz. Mən məzlum, Rəbbi çağırdım, O məni eşitdi, bütün əzablarımdan məni xilas etdi.

Rəbdən qorxanları Onun mələyi müdafiə edər, onlara zəfər verər. Dadın, görün Rəbb nə qədər şirindir, nə bəxtiyardır Ona pənah gətirənlər!

Müqəddəs Paulun Timoteyə 2-ci məktubundan sözlər (2Tim 4, 6-8, 17-18)
Çünki qanım artıq maye təqdimi kimi tökülmək üzrədir. Artıq ayrılma zamanım gəldi. Mən yaxşı mübarizə aparmışam, yarışı bitirdim, imanı saxladım. İndi salehlik tacı mənim üçün hazır durur. Adil Hakim olan Rəbb gələcəyi gün onu mənə – yalnız mənə deyil, Onun zühuruna can atanların hamısına verəcək. Lakin Rəbb köməyimə gəlib mənə güc verdi ki, təbliğ işimi başa çatdırım və onu bütün millətlər eşitsin. Mən aslanın ağzından xilas oldum. Rəbb məni hər cür pislikdən qurtaracaq və Səmavi Səltənəti üçün xilas edəcək. Ona əbədi olaraq izzət olsun! Amin.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya! Alleluya!**
İsa Məsih Peterə belə dedi: ”Sən Petersən (Qaya)
və Mən Kilsəmi bu qaya üzərinə quracağam.
Ölümün gücləri ona üstün gəlməyəcəklər”.
**Alleluya! Alleluya!**

Müqəddəs Matta tərəfindən yazılan İsa Məsihin İncilindən sözlər (Mt 16, 13-19)
İsa Filip Qeysəriyyəsi bölgəsinə gəldiyi zaman Öz şagirdlərindən soruşdu: «Adamların dediyinə görə Bəşər Oğlu kimdir?» Onlar da dedilər: «Bəziləri Vəftizçi Yəhya, başqaları İlyas, digərləri isə deyirlər ki, Yeremya yaxud peyğəmbərlərdən biridir». İsa onlara dedi: «Bəs siz nə deyirsiniz? Sizcə Mən kiməm?» Şimon Peter cavab verdi: «Sən Var olan Allahın Oğlu Məsihsən». İsa ona cavab verib dedi: «Nə bəxtiyarsan, ey Yunus oğlu Şimon! Çünki bunu sənə bildirən ət və qan deyil, göylərdə olan Atamdır. Mən sənə deyirəm ki, sən Petersən (Petros sözü olub daş deməkdir) və Mən cəmiyyətimi bu Qayanın üzərində quracağam. Ölülər diyarının qapıları ona qalib gələ bilməyəcək. Səmavi Səltənətin açarlarını sənə verəcəyəm. Yer üzündə bağlayacağın hər şey göylərdə bağlanmış olur və yer üzündə açacağın hər şey göylərdə açılmış olur».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# İsa Məsihin nurlu görünüşü Bayramı

**Daniel peyğəmbərin kitabından sözlər** *Dan 7, 9-10. 13-14*

Nəhayət, mən gördüm ki, Taxtlar quruldu və Əzəldən Var Olan oturdu. Onun əynində qar kimi bəyaz paltar var idi,Saçları yun kimi ağappaq idi. Taxtı alov dilləri tək, çarxları yanar od kimi idi.
Önündən odlu çay çıxıb axırdı.Minlərlə nəfər Ona xidmət edir, On minlərlə nəfər Onun hüzurunda durmuşdu.Məhkəmə iclası başlandı və kitablar açıldı.
Gecə gələn görüntülərdə gördüm ki, budur, bəşər oğluna bənzər Biri göyün buludları ilə gəlir. O, Əzəldən Var Olana yaxınlaşdı və Onun hüzuruna gətirildi. Ona hakimiyyət, izzət və padşahlıq verildi ki, bütün xalqlara, millətlərə və dillərə mənsub adamlar Ona xidmət etsin. Onun hakimiyyəti sona yetməyən əbədi hakimiyyətdir. Onun padşahlığı əsla yox olmayacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 97, 1+2b. 6+7c. 9** ***((97(96) 1-2. 5-6, 9)***

**N: Rəbb, bizim Padşahımızdır, bütün dünyaya hökm edər.**

Rəbb hökmranlıq edir, qoy yer üzü şadlıq etsin, qoy bütün adalar sevinsin.
Salehliklə ədalət taxtının təməlidir.

Dağlar Rəbbin hüzurunda – bütün yer üzünün Sahibinin hüzurunda mum tək əriyər.
Göylər salehliyini bəyan edər, əzəmətini bütün xalqlar görər.

Çünki bütün yer üzərində, ya Rəbb, Haqq-Taala Sənsən!
Bütün allahların üzərində Sən nə qədər yüksəksən!

**Müqəddəs Peterin 2-ci məktubundan sözlər** *2 Pt 1, 16-19*

Rəbbimiz İsa Məsihin qüdrətini və zühurunu sizə bildirərkən uydurma əfsanələrə əsaslanmadıq. Amma öz gözümüzlə Onun ululuğunun şahidləri olduq. Çünki Böyük Ehtişamı Olandan Ona belə bir səs gəldi: «Bu Mənim sevimli Oğlumdur, Ondan razıyam». O vaxt Ata Allahdan izzət və şərəf qəbul etdi. Müqəddəs dağda Onunla birgə olduğumuz üçün göydən gələn bu səsi biz də eşitdik. Həmçinin bizdə daha əmin olan peyğəmbərlik sözləri var. Onlar qaranlıq yerdə işıq saçan bir çırağa bənzəyir. Səhər açılıb dan ulduzu ürəklərinizdə doğana qədər bu sözlərə diqqət verirsinizsə, yaxşı edirsiniz.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya! Alleluya!**
Budur, buluddan bir səs gəldi: «Bu Mənim sevimli Oğlumdur, Ondan çox məmnunam, Ona qulaq asın!».

**Alleluya! Alleluya!**

**A ili**

## † İncil †

*Mt 17, 1-9*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Altı gündən sonra İsa Özü ilə yalnız Peter, Yaqub və qardaşı Yəhyanı götürüb hündür bir dağa çıxdı. Onların qarşısında görünüşü dəyişdi. Üzü günəş kimi parladı və libası işıq kimi ağ oldu. O an Musa və İlyas onlara göründü. Onlar İsa ilə söhbət edirdi. Peter sözə başlayıb İsaya dedi: «Ya Rəbb! Nə yaxşı ki biz buradayıq. Əgər istəyirsənsə, burada üç çardaq qurum – biri Sənin, biri Musa, biri də İlyas üçün». Peter hələ danışan zaman parlaq bir bulud onların üzərinə kölgə saldı. Budur, buluddan bir səs gəldi: «Bu Mənim sevimli Oğlumdur, Ondan razıyam, Ona qulaq asın!» Şagirdlər bunu eşidəndə üzüstə yerə qapandılar və onları böyük dəhşət bürüdü.
İsa gəlib onlara toxunaraq «Qalxın, qorxmayın!» dedi. Onlar da başlarını qaldıranda İsadan başqa kimsəni görmədilər. Dağdan enərkən İsa şagirdlərinə əmr etdi: «Bəşər Oğlu ölülər arasından dirilənə qədər gördüyünüzü heç kimə söyləməyin».

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

**B ili**

## † İncil †

*Mk 9, 1-10*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Markın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa onlara dedi: «Sizə doğrusunu deyirəm: burada duranlardan bəzisi Allahın Padşahlığının qüdrətli gəlişini görmədən ölməyəcək». Altı gündən sonra İsa Özü

ilə yalnız Peter, Yaqub və Yəhyanı götürüb hündür bir dağa çıxdı. Onların qarşısında görünüşü dəyişdi. Onun libası göz qamaşdırıcı ağ rəng aldı. Yer üzündə heç bir paltar təmizləyən onu belə ağ edə bilməzdi. O an İlyas və Musa onlara göründü. Onlar İsa ilə söhbət edirdi. Peter sözə başlayıb İsaya dedi: «Rabbi! Nə yaxşı ki biz buradayıq. Gəl üç çardaq quraq, biri Sənin, biri Musa, biri də İlyas üçün». O bilmirdi ki, nə desin, çünki onları dəhşət bürümüşdü. Bu zaman bir bulud onların üzərinə kölgə saldı. Buluddan bir səs gəldi: «Bu Mənim sevimli Oğlumdur, Ona qulaq asın!» Birdən ətrafa baxanda artıq yanlarında İsadan başqa kimsəni görmədilər. Dağdan enərkən İsa şagirdlərinə qadağan etdi ki, Bəşər Oğlu ölülər arasından dirilənə qədər orada gördüklərini heç kimə deməsinlər. Onlar da bu sözü ürəklərində saxladılar, amma bir-birlərindən soruşdular ki, ölülər arasından dirilmək nə deməkdir.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

**C ili**

## † İncil †

*Lk 9, 28-36*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

Bu sözləri söyləyəndən təxminən səkkiz gün keçmişdi. İsa Özü ilə Peter, Yəhya və Yaqubu götürüb dua etmək üçün dağa çıxdı. İsa dua edərkən üzünün görünüşü dəyişdi və libası gözqamaşdırıcı ağ rəng aldı. O anda iki nəfər İsa ilə söhbət etməyə başladı. Onlar Musa və İlyas idi. Onlar ehtişam içində göründülər və İsanın Yerusəlimdə yerinə yetirəcəyi bu dünyadan ayrılması barədə danışırdılar. Peter və onun yoldaşları dərin yuxuya dalmışdılar. Yuxudan ayılanda isə İsanın ehtişamını və yanında duran iki kişini gördülər. Onlar İsanın yanından gedəndə Peter İsaya dedi: «Ustad! Nə yaxşı ki biz buradayıq. Gəl üç çardaq quraq, biri Sənin, biri Musa, biri də İlyas üçün». Əslində o nə dediyini bilmirdi. Peter bunu deyən zaman bir bulud gəldi və onların üzərinə kölgə saldı. Buluda daxil olarkən onları dəhşət bürüdü. Buluddan bir səs gəldi: «Bu Mənim Oğlumdur, seçilmişimdir, Ona qulaq asın!» Səs kəsiləndə onlar İsanı tək gördülər. Şagirdlər bunu sirr olaraq saxlayıb o günlərdə gördüklərini heç kimə danışmadılar.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Məryəm Ananın göyə qaldırılması Bayramı 15. Avqust

**Vəhy kitabından sözlər** *Vəhy 11:19. 12:1-10*

Allahın göydəki məbədi açıldı və Onun Əhd sandığı orada zahir oldu.
Onda şimşək, uğultu, göy gurultusu, zəlzələ və güclü dolu gəldi.
Göydə böyük bir əlamət zahir oldu: günəşi əyninə geyinmiş, ayaqları altında ay və başında on iki ulduzlu tac olan bir qadın göründü. O hamilə idi və doğmaq üzrə idi, ağrı və iztirab çəkərək qışqırırdı. Göydə başqa bir əlamət zahir oldu: yeddi başlı, on buynuzlu, başlarının üstündə də yeddi kiçik tac olan böyük və od rəngində əjdaha göründü. Onun quyruğu göy ulduzlarının üçdə birini süpürüb yer üzünə atdı. Əjdaha doğmağa hazırlaşan qadının önündə dayandı ki, qadın doğan kimi onun uşağını udsun. Qadın bir oğlan uşağı doğdu ki, «dəmir əsa ilə bütün millətlərə ağalıq edəcək». Bu uşaq Allahın və Onun taxtının yanına qapılıb götürüldü. Qadınsa çölə qaçdı. Orada onun min iki yüz altmış gün bəslənməsi üçün Allah tərəfindən hazırlanmış yeri var. Göydə döyüş oldu. Mikael və onun mələkləri əjdaha ilə döyüşdü. Əjdaha və onun mələkləri də onlarla döyüşdü, amma gücləri çatmadı. Göydə artıq onlara yer qalmadı. O böyük əjdaha – iblis və Şeytan deyilən, bütün dünyanı aldadan qədim ilan yer üzünə atıldı, mələkləri də onunla birgə atıldı. Mən göydə uca bir səsin belə dediyini eşitdim: İndi Allahımızın xilası, gücü, Padşahlığı və Onun Məsihinin hakimiyyəti həyata keçdi. Çünki bacı-qardaşlarımızı Allahımızın önündə gecə-gündüz təqsirləndirən ittihamçı kənara atıldı.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 45:10-12, 16**

**N: Mələkə olacaq qız sağ qoluna girib, ofir qızıllarına bürünüb.**

Şərəfə çatdırdığın qadınlar arasında şahzadə xanımlar da var.
Mələkə olacaq qız sağ qoluna girib, ofir qızıllarına bürünüb.

Dinlə, ey qız, diqqət elə, sözümə qulaq as, öz xalqını, ata evini unut.
Sənin gözəlliyin padşahı məftun etsin. O sənin ağandır, ona itaət et.

Padşahın yanına əlvan libasda gətirilir, rəfiqələri sağdışı-soldışıdır.
15 Onlar sevinclə, şadlıqla gətirilir, Padşahın sarayına girirlər.

**Müqəddəs Paulun Korinflilərə 1-ci məktubundan sözlər** **1** *Kor 15, 20 – 26*

Əslində Məsih ölülər arasından, vəfat edənlərin ilki olaraq dirildi. Ölüm bir insan vasitəsilə gəldiyinə görə ölülərin dirilməsi də bir İnsan vasitəsilə gəlir. Adəmdə hamı öldüyü kimi Məsihdə də hamı həyata qovuşacaq. Hər biri öz növbəsi ilə – ilk növbədə Məsih, sonra Məsihin zühurunda Məsihə məxsus olanlar həyata qovuşar. Bundan sonra O hər başçını, hər hakimi və hər qüvvəni aradan götürüb Padşahlığı Ata Allaha təslim edəcəyi zaman hər şey tamamlanacaq. Çünki Allah Onun bütün düşmənlərini ayaqlarının altına salanadək O, padşahlıq etməlidir. Aradan götürüləcək son düşmən isə ölümdür.

Bu Allahın Kəlamıdır. ***** **M: Allaha şükürlər olsun.**

**Alleluya! Alleluya!**

Məryəm Ana Allahın şanına çatdı. Cənnətdə bütün mələklər sevinsinlər!

**Alleluya! Alleluya!**

# † İncil †

*Lk 1,39-56*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**

K: Müqəddəs Lukanın Müjdəsindən İsa Məsihin sözləri. *

**M: Şan-şəraf Rəbbindir.**

O vaxt Məryəm tələsik qalxıb Yəhudanın dağlıq bölgəsindəki bir şəhərə yollandı. O, Zəkəriyyənin evinə girib Elizaveti salamladı. Elizavet Məryəmin salamını eşidəndə bətnindəki körpə tərpəndi. Elizavet də Müqəddəs Ruhla dolub uca səslə çığırdı: «Sən qadınlar arasında xeyir-dualısan, sənin bətninin bəhrəsi də xeyir-dualıdır! Bu necə oldu ki, Rəbbimin anası yanıma gəlib? Bax sənin salamının səsi qulağıma çatanda bətnimdəki körpə sevinclə tərpəndi. Rəbbin ona dediyi sözlərin yerinə yetəcəyinə inanan qadın nə bəxtiyardır!». Məryəm isə dedi:
«Qəlbim Rəbbi ucaldır, ruhum Xilaskarım Allaha görə şadlanır,
Çünki O Öz qulunun yazıq halını gördü. Bundan sonra bütün nəsillər məni bəxtiyar sayacaq, çünki Qadir Olan mənim üçün böyük işlər etdi, Onun adı müqəddəsdir! Onun mərhəməti də nəsildən-nəslə Ondan qorxanlara göstərilər. O, qolu ilə qüdrətli işlər gördü, ürəklərində qürurla düşünənləri pərən-pərən saldı. Hökmdarları taxtlarından endirdi, məzlumları yüksəltdi. Acları nemətlərlə doydurdu,
Varlıları isə əliboş yola saldı. Rəbb gulu İsrailin imdadına çatdı,
Ata-babalarımıza vəd etdiyi kimi İbrahimə və onun nəslinə əbədilik
Mərhəmət göstərməyi yada saldı».
Məryəm Elizavetin yanında üç aya yaxın qalıb evinə qayıtdı.

K: Bu Rəbbin Kəlamıdır. ***** **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Müqəddəs Çarmıx Bayramı 14. 09. 2014

Siyahıyaalınma kitabından sözlər (Siyah 21, 4-9)
Xalq Hor dağını tərk edib, Edom torpağının ətrafından keçmək üçün Qırmızı dəniz yolundan keçdilər. Yolda onların səbri tükəndi. Onlar Allaha və Musaya qarşı deyinirdilər: «Nə üçün siz bizi Misirdən çıxardınız? Səhrada ölmək üçünmü? Axı burada nə çörək, nə də su var. Bu dadsız yeməkdən də iyrənirik». O zaman Rəbb xalqın arasına zəhərli ilanlar göndərdi. İlanlar xalqı sancdı və İsrail övladlarından çox adam öldü. Xalq gəlib Musaya dedi: «Biz günah etdik, çünki Rəbbə və sənə qarşı deyindik. İndi isə ilanları bizdən uzaqlaşdırmaq üçün Rəbbə yalvar». Musa xalqı xilas etmək üçün Rəbbə yalvardı. Rəbb Musaya dedi: «Özünə bir ilan düzəlt və onu uzun dəyənəyin üzərinə qoy. İlan vuran adam ona baxdıqda sağalsın». Musa tuncdan bir ilan düzəltdi və dəyənəyin üzərinə qoydu, ilan vuran hər adam tunc ilana baxan kimi sağalırdı.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

Məzmur (78, 1-2, 34-35, 36-37, 38)
Nəqarat: Allahın düzəltdiyi əsərləri unutmayaq.

Ey xalqım, təlimimi dinləyin, dilimdən çıxan sözləri eşidin. Ağzımı bu məsəllə açıb keçmişdəki müəmmaları bəyan edəcəyəm.

Ölənləri görüb Allahı axtardılar, geri dönüb Allahı səylə aradılar. Yadlarına düşdü ki, Allah onların qayası idi, Allah-Taala onların Satınalanı idi.

Lakin ağızları ilə Ona yaltaqlanırdılar, dilləri ilə Ona yalan danışırdılar. Qəlblərində Ona qarşı dönük olmuşdular, əhdinə vəfasız çıxmışdılar.

Allah isə rəhmlidir, günahı bağışlayır, günahkarı yox etmir. Dəfələrlə qəzəbini saxlayır, hiddətini tamamilə oyanmağa qoymayır.

Müqəddəs Paulun Filipililərə məktubundan sözlər (Flp 2, 6-11)
Allah surətində olduğu halda O, Allahla bərabərliyi istifadə edəcəyi bir haqq saymadi. Lakin Özünü heç etdi və qul surətinə salıb insanlara oxşar oldu. İnsan şəklini alıb Özünü aşağı tutdu və ölümə qədər – çarmıxa çəkilərək ölümə qədər itaətkarlıq göstərdi. Buna görə də Allah Onu çox ucaltdı və Ona bütün adlardan alı bir adı bəxş etdi ki, göydə, yerdə və yerin altında olanların hamısı İsanın adına ehtiram edərək diz çöksün və hər dil Ata Allahın izzəti naminə İsa Məsihin Rəbb olduğunu bəyan etsin.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

Müqəddəs Yəhya tərəfindən yazılan İsa Məsihin İncilindən sözlər (Yh 3, 13-17)
Heç kəs göyə çıxmayıb, yalnız göydən enmiş Bəşər Oğlu orada olub. Musa çöldə ilanı yuxarı qaldırdığı kimi Bəşər Oğlu da yuxarı qaldırılmalıdır ki, iman edən hər kəs Onda əbədi həyata malik olsun. Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu ona verdi; bunu etdi ki, Ona iman edənlərin heç biri həlak olmasın, hamısı əbədi həyata malik olsun. Allah dünyanı məhkum etmək üçün deyil, Oğlunun vasitəsilə xilas etmək üçün Onu dünyaya göndərdi.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Bütün Müqəddəslərin Bayramı - 1. Noyabr (ABC)

**Vəhy kitabından sözlər** *Vəhy 7, 2-4, 9-14*

Gündoğan tərəfdən qalxan başqa bir mələk də gördüm ki, var olan Allahın möhrünə malik idi. O, uca səslə quruya və dənizə ziyan vurmaq izni verilmiş dörd mələyi çağırıb dedi: «Biz Allahımızın qullarının alnını möhürləyənə qədər quruya, dənizə və ağaclara ziyan vurmayın». Möhürlənmiş şəxslərin sayını da eşitdim; İsrail övladlarının bütün qəbilələrindən 144 000 nəfər möhürlənmişdi. Bundan sonra mən baxıb gördüm ki, hər millətdən, hər tayfadan, hər xalqdan və hər dildən olan, heç kəsin saya bilməyəcəyi böyük bir kütlə taxtın və Quzunun hüzurunda dayanıb. Onlar ağ xalat geyinib, əllərində xurma budaqları tutublar. Uca səslə nida edirdilər: «Xilas taxtda oturan Allahımıza və Quzuya məxsusdur!» Bütün mələklər də taxtın, ağsaqqalların və dörd canlı məxluqun ətrafında dayanmışdı. Onlar taxtın hüzurunda üzüstə yerə qapanaraq Allaha səcdə edib dedilər: «Amin! Allahımıza əbədi olaraq alqış, izzət, hikmət, şükür, şərəf, qüdrət və qüvvət olsun! Amin!»
Bu arada ağsaqqallardan biri məndən soruşdu: «Ağ xalat geyinmiş bu şəxslər kimdir və haradan gəliblər?» Ona dedim: «Ağa, bunu sən bilərsən». O mənə dedi: «Bunlar böyük əziyyətdən keçib gələnlərdir. Onlar öz xalatlarını yuyub Quzunun qanı ilə ağartdılar.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Zəbur 24, 1-2. 3-4b. 5-6**

**N: Allahım, budur, Səni axtaran bunlardır.**

Rəbbindir yer üzü və orada mövcud olanlar, dünya və orada yaşayanlar.
O, yerin təməlini dənizlər üstündə qurdu, dünyanı sular üzərində yaratdı.
Rəbbin dağına kim çıxa bilər? Müqəddəs məskəninə kim girə bilər?
– əlləri pak, qəlbi təmiz, hiyləyə könül verməyən, yalandan and içməyən insan.
O, Rəbdən bərəkət alacaq, Xilaskarı Allahdan salehlik alacaq.
Belə adam Rəbbi soraqlar, Yaqubun Allahının üzünü axtarar.

**Müqəddəs Yəhyanın 1-ci məktubundan sözlər** *1 Yəh 3, 1-3*

Görün Ata bizə necə məhəbbət göstərib ki, biz Allahın övladları adlanırıq! Doğrudan da, beləyik! Dünya Onu tanımadığına görə bizi də tanımır. Ey sevimlilər, indi biz Allahın övladlarıyıq, amma nə olacağımız hələ üzə çıxmayıb. Lakin bilirik ki, Məsih zühur edəndə biz Ona bənzəyəcəyik, çünki Onu olduğu kimi görəcəyik. Ona bu cür ümid bağlayan hər kəs O pak olduğu kimi özünü pak edir.
Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

**Alleluya!** *Mt 5, 1-12*

Ey bütün yorğunlar və yükləri ağır olanlar, Mənim yanıma gəlin,
Mən sizə rahatlıq verərəm.

**Alleluya!**

# † İncil †

*Mt 5, 1-12*

K: Rəbb sizinlə olsun. * **M: Və sənin ruhunla.**
K: Müqəddəs Mattanın Müjdəsindən İsa Məsihin sözləri. *
**M: Şan-şərəf Rəbbindir.**

İsa izdihamı görüb dağa çıxdı. Oturan kimi şagirdləri Onun yanına gəldi.
İsa danışmağa başlayıb onları öyrədərək dedi:
«Nə bəxtiyardır ruhən yoxsullar! Çünki Səmavi Səltənət onlarındır. Nə bəxtiyardır yaslı olanlar! Çünki onlar təsəlli tapacaq. Nə bəxtiyardır həlimlər! Çünki onlar yer üzünü irs alacaq. Nə bəxtiyardır salehlik üçün acıb susayanlar! Çünki onlar doyacaq. Mərhəmətli olanlar nə bəxtiyardır! Çünki onlara mərhəmət ediləcək. Ürəyi təmiz olanlar nə bəxtiyardır! Çünki onlar Allahı görəcək. Sülhyaradanlar nə bəxtiyardır! Çünki onlar Allahın övladları adlanacaq. Salehlik uğrunda təqib edilənlər nə bəxtiyardır! Çünki Səmavi Səltənət onlarındır. İnsanlar Mənə görə sizi təhqir edib təqib edəndə, yalan söyləyib sizə hər cür böhtan atanda siz
nə bəxtiyarsınız. Sevinin və şadlanın! Çünki göylərdə mükafatınız böyükdür. Sizdən qabaq peyğəmbərləri də belə təqib ediblər.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**

# Ölüləri xatırlama günü

(2 Noyabr)

Dua
Mərhəmətli və hər şeyə qadir Allah, Oğlunun ölümə qalib gəlib dirildiyinə inanırıq. Ölmüş bütün qardaşlarımızın da Onun kimi diriləcəklərinə olan inancımızı qüvvətləndir. Bunu, səninlə və müqəddəs Ruhla birlikdə, indi və əbədiyyən hökm edən Oğlun, Rəbbimiz İsa Məsihin adına səndən diləyirik.
M: Amin.

Makabelərin 2-ci kitabından sözlər (2Mak 12, 43-46)
O vaxt, igid Yaqub pul topladıqdan sonra ölülərin günahlarının əfvi üçün bir qurban təqdim edilsin deyə, Yerusəlimə iki min gümüş pul göndərdi. Bu uca və nəcib davranış Yaqubun ölülərin dirilişi ilə bağlı imanını göstərdi. Həqiqətən, müharibədə ölənlərin bir gün diriləcəklərinə inanmasaydı, ölülər üçün edilən dua və qurbanlar yersiz və boş yerə edilmiş olacaqdı. Amma igid Yaqub, imanla ölən insanların böyük bir qarşılıq alacaqlarına inanırdı. Bu səbəblə, ölülər günahlardan qurtulusun deyə, bir qurbanın təqdim edilməsini istəmişdir.

Bu Allahın Kəlamıdır. ***  M: Allaha şükürlər olsun.**

Z 23, 1-6
Nəqarat: Rəbb mənim çobanımdır, möhtac olmaram.

Rəbb mənim çobanımdır, möhtac olmaram. O məni yaşıl çəmənlərdə dincəldir, sakit axan sular kənarında gəzdirir. Məni yenə də canlandırır, İsmi şərəfinə salehlik yolu ilə aparır.

Qaranlıq dərədə gəzsəm belə, şərdən qorxmaram, çünki Sən mənimləsən, Sənin əsan, Sənin dəyənəyin mənə təsəlli verir. Düşmənlərimin qarşısında mənim üçün süfrə açırsan, başıma ətirli yağ çəkirsən, ağzınadək camımı doldurursan.

Bəli, bütün həyatım boyu yaxşılıq, məhəbbət məni izləyir. Bütün ömrüm boyu Rəbbin evində yaşayacağam!

Müqəddəs Paulun Romalılara məktubundan sözlər (Rom 8, 31-35, 37-39)
Bəs bunlar barədə nə deyə bilərik? Əgər Allah bizimlədirsə, kim bizə qarşı dura bilər? O Öz Oğlunu belə, əsirgəməyib Onu hamımızın uğrunda ölümə təslim etdisə, Onunla birgə bütün şeyləri də bizə bəxş etməyəcəkmi? Allahın seçdiyi adamları kim ittiham edə bilər? Onları saleh sayan Allahdır! Məhkum edən kimdir?

Ölmüş, üstəlik dirilmiş Məsih İsa həm Allahın sağındadır, həm də bizim üçün vəsatətçilik edir. Məsihin məhəbbətindən bizi kim ayıra bilər? Əziyyətmi, sıxıntımı, təqibmi, aclıqmı, çılpaqlıqmı, təhlükəmi, qılıncmı? Lakin bizi Sevənin vasitəsilə bütün bunlara üstün gəlib qalib oluruq. Çünki əminəm ki, nə ölüm, nə həyat, nə mələklər, nə başçılar, nə indiki, nə də gələcək şeylər, nə qüvvələr, nə ucalıq, nə dərinlik, nə də başqa bir məxluq bizi Allahın Rəbbimiz Məsih İsada olan məhəbbətindən ayırmağa qadir olmayacaq.

Bu Allahın Kəlamıdır. * **M: Allaha şükürlər olsun.**

Müqəddəs Yəhya tərəfindən yazılan İsa Məsihin İncilindən sözlər (Yh 14, 1-6)
Qoy ürəyiniz narahat olmasın. Allaha iman edin, Mənə də iman edin. Atamın evində çoxlu məskən var. Əgər olmasaydı, sizə deyərdimmi ki, sizin üçün yer hazırlamağa gedirəm? Gedib sizin üçün yer hazırlayandan sonra yenə gəlib sizi Öz yanıma götürəcəyəm ki, siz də Mənim olduğum yerdə olasınız. Gedəcəyim yerə aparan yolu tanıyırsınız».
Toma İsaya dedi: «Ya Rəbb, hara gedəcəyini bilmirik, yolu necə tanıya bilərik?»
İsa ona dedi: «Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəçiliyim olmasa, heç kəs Atanın yanına gələ bilməz.

K: Bu Rəbbin Kəlamıdır. * **M: Rəbb İsa Məsih, Sənə həmd olsun.**




**Rəbb günü oxunuşları**

**- Bayramlar -**

***Katolik kilsəsi, Bakı Azərbaycan***

***2019***